DİL VƏ ƏDƏBİYYAT
LANGUAGE AND LITERATURE
ЯЗЫК И ЛИТЕРАТУРА

İSSN 2218-7588
E-ISSN 2219-5513
İASJ 0000 0001

BEYNƏLXALQ
ELMİ-NƏZƏRİ
JURNAL

1(130) 2026

İSSN 2218-7588
E- ISSN 2219-5513

DİL VƏ ƏDƏBİYYAT

LANGUAGE AND LİTERATURE ЯЗЫК И ЛИТЕРАТУРА

Beynəlxalq elmi – nəzəri jurnal

1(130)

Jurnal
1993-cü ildən 2 aydan bir çıxır

BAKI – 2026

REDAKSİYA HEYƏTİ - РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

==========

UMUMİ DİLÇİLİK **ОБЩЕЕ ЯЗЫКОЗНАНИЕ:**	**Akademik N.Cəfərov** **Prof.N.Məmmədli**
ŞƏRQŞÜNASLIQ VƏ İLAHİYYAT **ВОСТОКОВЕДЕНИЕ И ТЕОЛОГИЯ:**	**Prof.R.Rüstəmov–məsul redaktor** **Prof. M.Kazımov** **Dos.A.Məmədova**
AZƏRBAYCAN DİLÇİLİYİ: **АЗЕРБАЙДЖАНСКОЕ ЯЗЫКОЗНАНИЕ:**	**Prof.E.Əzizov** **Prof. T.Hacıyev** **Prof. S.Abdullayeva** **Dos. M. Əlizadə** **Dos. F.Əlizadə**
AZƏRBAYCAN ƏDƏBİYYATI: **АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА**	**Dos.E.Məmmədov-məsul redaktor** **Dos.Ə.Nəcəfzadə**
ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ: **ТЕОРИЯ ЛИТЕРАТУРЫ:**	**Akad. N.Paşayeva-məsul redaktor** **AMEAmüx.üzvü,prof.T.Mütəllimov**
TÜRKOLOGİYA: **ТЮРКОЛОГИЯ:**	**Akad.N.Cəfərov–məsul redaktor** **Fil.f.dok., dos. N.Hüseynova** **Fil.f.dok. R.Bayramov**
JURNALİSTİKA: **ЖУРНАЛИСТИКА:**	**Prof.Q.Məhərrəmli–məsul redaktor**
RUS FİLOLOGİYASI: **РУССКАЯ ФИЛОЛОГИЯ:**	**Prof. Ə.Paşayeva** **Prof. L.Əhmədova**
QƏRB FİLOLOGİYASI: **ЗАПАДНАЯ ФИЛОЛОГИЯ:**	**Prof.N.Vəliyeva-məsul redaktor** **Prof. C.Nağıyev** **Dos.E.Fərəcullayeva-məsul redaktor** **Dos. R.Xəlilov**
PEDAQOGİKA VƏ PSİXOLOGİYA:	**Prof. R.Hüseynzadə** **Dos.S.Abbasova-məsul redaktor** **Dos. L.Ələkbərova**
İNSANŞÜNASLIQ **ЧЕЛОВЕКОВЕДЕНИЕ:**	**RTAmüx.üzvü.,prof.C.M.Mallaev** **Prof. P.Omarova** **Prof.M.Seyidova**
KİTABŞÜNASLIQ **КНИГОВЕДЕНИЕ:**	**Dos. S. Quliyeva. Məsul redaktor** **Dos.M.Məmmədov** **Dos.K.Aslan**

Baş redaktor:dos. T.Cəfərli. Baş redaktorun müavinləri: prof.L.Əhmədova, dos. L.Ələkbərova, fil.f.dok.R.Bayramov,
Məsul redaktor: İ.Əsədov. Məsul katib: Pərvin Eyvazov. Administrator: C.T.Əliyev
Redaksiyanın ünvanı: Bakı AZ1073,Z.Xəlilov23. BDU, Filologiya fakültəsi. Tel.0502871014
Jurnalın saytı: http://philology.bdu.info.az/
Jurnalın elektron ünvanı: tahirceferli@mail.ru

DİLÇİLİK – ЯЗЫКОЗНАНИЕ.....5-79

A.YUNUSOV . Türk dilində yazı təhriflərinin aradan qaldırılması üsullari.....5-80
K. SEYFİYEVA. İngilis və Azərbaycan dillərində baş və budaq cümlələrinin qarşılıqlı zaman əlaqəsi klassifikasiyası....9
G, BAYRAMOVA. the place of romance linguistics within general linguistics: theoretical framework, historicityand methodology.....13
Л. АЛЕКПЕРОВА. Явления субстантивации в сопоставлении прилагательных русского и азербайджанского языков.....17
S. HASSANZADEH. English Dialects.....20
P. CƏFƏROV. İngilis dilində nüvə intonasiyanən əsas struktur elementi kimш.....24
S. KƏRİMOVA. Особенности и стратегии перевода публицистического текста общественно-политического содержания.....29
Ə. BAXŞƏLİYEVA Prosodik ünsürlərin cümlənin aktual üzvlənməsində roluna dair.....3 2
N. VALIYEVA. Realia in Language and Culture.....37
S. TAĞIYEVA. İngilis dilində şəkilçili neologizmlər.....43
Ş. MƏMMƏDOVA. İngilis dili mənşəli beynəlmiləl terminlər və onların Azərbaycan dilində ekvivalenləri.....46
Z.MƏMMƏDOVA, G RƏHİMOVA. The role and importance of blinguism in modern english.....49
N. İSGƏNDƏROVA. Mətn dilçiliyində kateqoriyaların sistemi və funksional xüsusiyyətləri.....52
A. NAMAZOVA. Qazi Bürhanəddinin divanında arxaizmlərin mənşəi və onların etimoloji xüsusiyyətləri 56
F.ABDULLAYEVA. Leksik vahidlərin ingilis və Azərbaycan dillərində işlənmə xüsusiyyətləri və onların dubletlik paralelləri.....59
B. БУНЯТОВА. Место фразеологии в языкознании и проблема системного изучения в русском и азербайджанском языках. 62
D. ÇAVUŞOĞLU, M. ÖZEREN Türk dünyası atasözlerinde karşıt anlamlilik.....65
S. QULİYEVA. Texniki terminlərin tərcümə problemləri və terminoloji baza yaradılması.....70
F. İBRAHİMOVA. İngilis və Azərbaycan dillərində fonoloji inkişafın müqayisəli təhlili.....73
K.ALIRZAYEVA. Dildə fonetk interferensiyanın yaranma səbəbləri.....76

ƏDƏBİYYATŞUNSLIQ-ЛИТЕРАТУРОВЕДЕНИЕ.....81-116
V. ALLAHVERDİYEV. Bəxtiyar Vahabzadə yaradıcılığında millilik, bəşərilik, tarixilik və müasirlik.....81
A. ZEYNALOVA. Səməd Vurğun yaradıcılığına bir nəzər.....86
R. QULİYEV. M.Füzulinin qəzəllərində sözün poetik gücü..... 91
K. ƏSGƏROVA. Specific features of Sheakespeare's plays.....96
T. ƏLİYEVA. Orxan-Yenisey abidələrinin ədəbi və ideoloji d əyəri.....99
H. VƏKiLOVA "Kiçik" adamın "Böyük" hekayəsi.....104
B. ZAHİDOVA. Culian Barnsın "Aqibət duyğusu" romanında yaddaşın illüziyası.....107
S. QASIMOVA. Hüseyn Cavidin ədədbi irsinin üslubi mədəni xüsusiyyətləri haqqında.....110
R. RƏSULOV. Natəvan Dəmirçioğlu nəsrinin poetikası haqqında bəzi qeydlər.....113

JURNALİSTİKA-ЖУРНАЛИСТИКА…….....….....117-119
L. BƏŞİROVA. Rəqəmsallaşma dövründə uşaq verilişlərinin dəyişməsi.....117

PEDAQOGİKA-PSİXOLOGİYA, ПЕДАГОГИКА-ПСИХОЛОГИЯ 120-214
S. HUSEYNOVA. Креативное оценивание влияющее на повышения эффективности в системе образовании...120
F. ƏLİYEVA. İngilis dilinin müasir üsullarla tədrisi metodikası.....123
S. QULİYEVA. Üzeyir Hacıbəyovun ev muzeyinin fəaliyyəti.....127
L. MURADOVA. К вопросу организации учебного процесса.....131
З. МАНСИМОВА . Перевод в обучении русскому языку.....137
Н. ИБРАГИМОВА. Роль искусственного интеллекта в современном образовании.....136
S. ABBASOVA. Pedaqoji universitet tələbələrinin iqtisadi mədəniyyətinin formalaşdırılması.....141
O. ƏŞRƏFOVA. Kommunikativ təsnifatin prinsip və meyarları.....145
S. FƏRMANLI. Mətnlər üzrə işdə sadə və mürəkkəb cümlə tiplərinin inteqrativ əsasli tədrisi. 149
M. İSMAYILOVA. Ünsiyyətin mahiyyəti, strukturu və funksiyaları.....154
Z. CƏLILOVA. Dil tədrisində kontekstual yanaşma.....158
Д. МУСТАФАЕВА. К вопросу о развитии связной устной речи.....161
M. İSMİXANOV, N. İMAMVERDİYEVA.Müasir təhsil konsepsiyası, yeni yanaşmalar.....164
F. BAĞIROVA. Alman dilinin ikinci xarici dil kimi tədrisinin prinsipleri.....168
Г. РАСУЛОВА. Вопросы тестирования в методике обучения русскому языку.....171
Д. КАЗИ-ЗАДЕ. Методические вопросы обучения словообразовательной системе русского языка.....175
Т. ДЖАФАРЛИ: Использование компьютерной техники в процессе обучения русскому языку.....180

У. АЛИЕВА. Обучение студентов-азербайджанцеврусскому языку как иностранному на основе учебного текста.....183
Л. ГУЛИЕВА. Обучение навыкам письменной научной речи.....186
Р. ИМАНОВА.Использование инновационных технологий в обучении русскому языку 191
S. ƏLİYEVA. Xarici dillərin öyrənilməsində informasiya texnologiyalarının rolu və əhəmiyyəti 195
S. ALLAHVERDIYEVA. Ali təhsildə keyfiyyətin yüksəldilməsinə təsir göstərən amillər.....198
N. VƏLİYEVA. Əcnəbi tələbələrin lüğət bazasının təkmilləşdirilməsi yolları.....201
G. HÜSEYNOVA. Dil fakültələrinin aşağı kurslarında alman dilinə motivasiyanən yaradılması yolları.....204
T. MEHTİYEVA. Different methods of teaching english.....209

DOİ 10.24412/2218-7588-2026-1-5-8 **Arif Rza oğlu Yunusov**
BDU, Şərqşünaslıq fakültəsi
Türk filologiyası kafedrası,dosent
arifyunusov@yaho.com
https://orcid.org/0009-0007-6091-3580

TÜRK DİLİNDƏYAZI TƏHRİFLƏRİNİN ARADAN QALDIRILMASI ÜSULLARI

XÜLASƏ: Son illərdə türk ədəbi dilinin tədqiqi və inkişafı sahəsində çox elmi işlər görülmüşdür. Lakin çoxsaylı elmi araşdırmalara baxmayaraq, türk dilçiliyində hələ də həllini tapmamış problemlər var. Bunlardan biri də, fikrimizcə, türk dilinin yazı normalarının təhrif edilməsi problemidir. Bu hal mediada xüsusilə nəzərə çarpır. Qəzet və jurnalların səhifələrində yazı qaydalarının kobud şəkildə pozulması tez-tez müşahidə olunur. Problem ondadır ki, bu cür pozuntular müxtəlif elmi məqalələrdə də adi hal alır. Bu acı həqiqəti qeyd edə bilərik ki, hətta Türk Dil Kurumunun (TDK) orfoqrafiya lüğətlərində də bir sıra sözlərin standart yazılış forması yoxdur.

Belə vəziyyət dilin öyrənilməsi və tədrisi prosesini çətinləşdirir. Fikrimizcə, konkret dil problemlərinin həlli zamanı təkcə Türkiyə universitetlərinin deyil, xarici aparıcı dilçi alimlərin də fikirləri nəzərə alınmalıdır. Məsələn, alman dilçiləri tez-tez Avstriya, Belçika, Lüksemburq, Lixtenşteyn, İsveçrə və digər ölkələrin alimləri ilə alman dilinin linqvistik problemləri ilə bağlı fikir mübadiləsi aparırlar. Təəssüf ki, türk dilçiləri digər türk dövlətlərinin dilçilərinin fikirlərini nəzərə almırlar.

Açar sözlər: dil, söz, orfoqrafiya, təhrif, üsul, türkologiya

GIRIŞ:Müasir türk dilinin tədqiqi son dövrlərdə genişlənməsinə baxmayaraq qeyd olunan dildə hələ də müəyyən qüsurlar qalmaqdadır. Bu qüsurların yaranmasının, dildə öz mövcudiyyətini saxlamasının, təbii ki, müəyyən səbəbləri vardır. Bütün ictimai-siyasi, fərdi və kollektiv münasibətlər dil vasitəsi ilə gerçəkləşdiyi üçün, həyatın istənilən sahəsindən dilə həm dəstək, həm də zərərli təsirlər olur (1, s.28). Ona görə də, dilçilər dilə olan təsirləri iki ana başlıq altında araşdırmağı məqbul görürlər:

a) dilxarici təsirlər, b) dildaxili təsirlər

ƏSAS HİSSƏ: Dilxarici təsirlər arasında tədrisin hansı dildə aparılması, dil daşıyıcılarının yaşadığı ədəbi-ictimai mühit, bölgəsəl məkanlarda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin ağırlıqlı olaraq hansı dili işlətməsi, dövrün ziyalılarının cəmiyyət arasında hansı dildə danışması, elmi-kütləvi ədəbiyyatın günün tələblərinə cavab vermə səviyyəsi, iqtisadi- siyasi mənzərə, ayrı-ayrı fərdlərin sağlamlıq durumu və sairə çox önəmli mövqeyə malikdir (2, s. 12). Dil xətalarının qarşısının alınması işindəvahid orfoqrafiya lüğətinin yaradılmasına vəyazı qaydalarına ciddi şəkildə riayət edilməsinə diqqət edilməsi son dərəcə önəmli məsələdir. Standart orfoqrafiya qaydalarına əməl edilməməsi, qarşısıalınmaz ciddi problemlərin yaranmasına səbəbolur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1928-ci ildən bu günə qədər Türkiyədə müxtəlif illərdə orfoqrafiya lüğətləri nəşr olunsa da türk dilində vahid imla qaydaları tam bərqərar edilməmişdir (3, s.79). Digər tərəfdən, dildə mövcud olan əcnəbi mənşəli sözlərin kütləvi şəkildə çıxarılması və onların yeni sözlərləəvəz olunması işində ciddi bir pərakəndəliyin hökm sürdüyünü etiraf etmək lazımdır. Türk Dil Kurumu (TDK) adlanan təşkilatın Türkiyə Cümhuriyyəti daxilində tətbiq olunması üçün təqdim etdiyi imla qaydalarına münasibət birmənalı deyildir. Bəzi dilşünaslar TDK-nın 1980-ci ilədək olan fəaliyyətini müsbət, sonrakı dövr ərzindəki fəaliyyətini isə qeyri-qənaətbəxş sayırlar (4, s. 22).

Tədqiqatlar göstərir ki, Türk Dil Kurumunun (TDK) hazırlayıb nəşr etdirdiyi orfoqrafiya qaydalarında standartlığın olmaması imla qaydalarının vahid prinsip üzrə tətbiqində başlıca maniədir. Məsələn: **düşmen- düşman, umut-ümit, meyve-meyva, siluet-silüet, tem-tema, müsaade- müsaide** vs. Lüğətlərdə və imla qaydalarında nümunə olaraq göstərilən sözlərin də yazılışında fərqliliklər nəzərə çarpır. Məsələn: **züccaciye- zucaciyye**. Bir variantta eyni söz qoşa "c" hərfi ilə, digərində isə qoşa "y" samiti ilə yazılmışdır; birinci variantda sözün ilk hecasında incə "ü" saitinə, digərində isə qalın "u" saitinə üstünlük verilmişdir. **"Züccaciye"**sözünün yazılışında qalın "u" saitinə üstünlük verənlər həmin sözün ərəb mənşəli olmasını vəərəb dilində incə "ü" saitinin olmadığını əsas gətirirlər (5, s. 37). Lakin unutmaq olmaz ki, əcnəbi sözlər bir dildən başqa dilə keçərkən keçdikləri dilin fonetik və qrammatik qaydalarına uyğunlaşdırılmalıdır.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, imla qaydalarının tez-tez dəyişdirilməsi nitq mədəniyyətinə və dil standartlarının sabitləşməsinə mənfi təsir göstərir. Bu mənfi təsir, hər şeydən əvvəl, ədəbi mətinlərin təhlilində, xüsusən də şeirlərin tədris prosesində özünü büruzə verir. İmla qaydalarının sabit olmaması müxtəlif yaş qrupundan olan nəsillər arasında da müəyyən fikir ayrılığına səbəb olur (6, s. 44). Məsələn: **gözüyle- göziyle,söyleyen-söyliyen, gitmeyeceğim- gitmiyiciğim, bakayım-bakeyim**. Müxtəlif etnik qrupların adlarının yazılışında qeyri-müəyyənlik hökm sürür. Məsələn: **Türkçe sözlük, türkçe şarkı**. Bir varianta sözün ilk hərfi böyük, digərində isə kiçik hərflə yazılması tələbə və məktəblilərdə çaşqınlıq yaradır. Türk qəzet və jurnaallarını oxuyanda Avropa mənşəli bəzi sözlərin hələ dəfərqli yazıldığını müşahidəetmək mümkündür: **tren-tiren, star-sitar, spor- sipor, plan-pilan, stad-sitad- statsıtat** vs.

Dil ümummilli dəyər olduğu üçün, onun qaydaları və standartları kiçik bir qrupun iradi istəyi ilə dəyişdirilməməlidir. Avropa ölkələrində bu sahədə müsbət ənənə mövcuddur. Məsələn, Almaniyada alman dili ilə bağlı önəmli məsələlər müzakirəediləndə almaniyalı mütəxəssislər həmin müzakirəyə Almaniyadan kənarda yaşayan, lakin almanca danışan, Avstiya, Belçika, Lüksemburq, Lixtenşteyn, İsveçrə vs yerlərdən də mütəxəssis dəvət edirlər, onların da mövcud məsələ ilə bağlı fikirləri dinlənilir və qəbul ediləcək qərarlarda onların da rəyləri mütləq dərəcədə nəzərə alınır (7, s. 11). Təəssüf ki, Türkiyədə buna bənzər hal nəzərəçarpmır. Məsələn, türk dilçiləri dillə bağlı

məsələlərdəən azından Oğuz türkcəsində danışan Azərbaycan, Türkmənistan və Qaqauz mütəxəssislərində rəylərini öyrənib diqqətə alsalar çox yaxşı olar.

Məlumdur ki, fərqli orfoqrafiya standartları nəticəetibarilə dil unifikasiyasına ciddi şəkildə mane olur, ədəbi dilininkişafını və funksionallığının genişlənməsini ləngidir. Çox təəssüf ki, Türkiyədə nəşr olunmuş izahlı lüğətlərin tərtibində də çoxlu qüsurlar mövcuddur. Məsələn, Ali Püsküllоğlunun 2004-cü ildə nəşr olunmuş "Büyük Sözlük" kitabında xeyli sayda yanlışlığa yol verilmişdir. Bir neçəsinə diqqət yetirək:

"**Hafız**" sözü sözlükdə "ahmak, aptal, bön, saf" olaraq açıqlanmışdır. Halbuki, ərəb mənşəli " **حفظ** – hifz" sözündən törəmiş feili sifət olan " **حافظ**"hafız"ın mənası "qoruyan, gözətləyən; Qurani-kərimin bütün ayələrini əzbər bilən" şəklindədir. Başqa sözlə, Ali Püsküllü "hafız" sözünün mənasını tamamən yanlış şəkildə açıqlamış və o şəkildə də nəşr etdirmişdir. Qeyd olunan müəllif türk dilində işlənilən "**abacı**" sözünü "***aba yapan, abadan yapılmış giyecek, heybe, terlik ve benzeri şeyler satan***" olaraq izah etmişdir. Halbuki, həmin söz "**ağa bacı**", yəni "böyük bacı" sözünün sürətli danışıq zamanı "abacı" şəklində tələffüzü əsasında yaranmışdır. Qeyd etmək lazımdır ki, həmin söz Azərbaycanın bəzi bölgələrində, Türkiyənin Kars, Ardahan vəƏrzurum ərazilərində qohumluq termini kimi hələ də öz işləkliyini qorumaqdadır (3, s. 92).

Haqqında bəhs olunan sözlükdə "**kerahat vakti**" sözü həm yazılış baxımdan yanlış yazılmış (**kerahet vakti**), həm də mənası səhv izah olunmuşdur: "(***akşamcılar arasında) içkiye başlama zamanı.***"Əslində isə "**kerahat vakti**" ifadəsi tamamilə başqa məna ifadəedir. "Kerahat vakti" ifadəsinin tərəflərini təşkil edən "kerahat" ve "vakit" sözü ərəb mənşəlidir. Ərəb dilində"kerahet" sözü "bəyənilməyən, istənilməyən, xoş olmayan" mənası ifadəedir. İslam hüququnda Günəşin çıxdığı və ya tam zenit nöqtəsində olduğu, yaxud da batdığı anda namaz qılınmır. Ənənəyə görə həmin an "xoş olmayan, uğursuz" bir vaxtdır, "kerahat" zamanıdır. Dilimizdə işlənən "ikrah" sözü də həmin kökdən gəlir.

Ali Püsküllüoğlu yanlışlıqla "**behişt, namaz, ferişte, abdest**" sözlərinin ərəb mənşəli olduğunu iddia etmişdir. Həqiqətdə isə, həmin sözlər fars mənşəli sözlərdir. Türk mətbuatında son zamanlarda bəzi sözlərin yanlış yazılması hallarınadaha tez-tez rast gəlmək mümkündür (6, s. 40). Müəlliflər bilərəkdən və ya bilməyərəkdən sözləri yanlış işlədirlər. Məsələn, "**cirim**" və "**cürüm**" sözləri ilk baxışda eyni söz olaraq görünsə də, əslində, tamamən fərqli mənalar ifadəedir. "**Cirim**" sözü "həcm, ölçü" anlamı daşıyır: **Ateş olsa cirmi kadar yer yakar.**

"**Cürüm**" sözü isə "cinayət, günah, təqsir" mənası bildirir:

Suçlu cürmünü inkar etmekte ve saçma sapan ifadeleriyle tahkikatı karıştırmak istemektedir.

Türkiyədə hətta "**meşhut cürümler mahkemesi**" tipli məhkəmələr vardır.

Yazılışı və mənası qarışdırılan sözlərdən biri də "**direk**" və "**direkt**" sözləridir. Xatırlatmaq lazımdır ki, yazılış və tələffüz baxımından çox bənzər olan bu sözlərdən biri (**direk**)mənşəcə türk dilinə, digəri isə (**direkt**) latın dilinə aiddir. "Direk" sözü "ağacdan və ya dəmirdən hazırlanmış uzun və qalın dayaq" mənası ifadəedir:

Kayıkçı yelkeni açmak için ilkin direği yerine oturtmalıdır.

"Diirekt" sözü isə"birbaşa, doğru" mənasında işlənir: **Bu otobüs direkt İstanbul'a gider.**

"**Delalet**" və "**dalâlet**" sözləri də türk dilində tez-tez qarışdırılan və yanlış işlədilən sözlər sırasındadır. Buna səbəb, hər şeydən əvvəl, ərəb dilinə məxsus "**ض**" hərfinin türk dilində bəzən "d", bəzən də "z" hərfi ilə yazılmasıdır. Ərəb mənşəli olan "**dalâlet**" sözü " **ضلالت**" şəklində yazılır. Halbuki, həmin sözü rahatlıqla "zelalet" şəklində yazmaq mümkündür. Belə olduğu təqdirdə "delalet" sözü ile "dalâlet" sözünün yazılışında yanlışlıqlar aradan qalxar. Həm də türk dilində "**ض**" hərfinin "z" şəklində yazıldığı nümunələr var: **fazilet, Fuzuli, aruz, zayıf, zarar, arz, zamanet, tazminat** vs.

Türk danışıq dilində "**ə**" səsinin olmasına baxmayaraq həmin səsin əlifbada öz əksini tapmaması bəzi hallarda qarışıqlığa səbəb olur. Məsələn, türk dilində "**seri**" sözü iki məna ifadəedir:

1. Herhangi bakımdan bir bütün oluşturan şeylerin tümü, dizi.

Bu, seri hâlinde yazılmış bir yazı değildir.

2. Hızlı.

Nazik ve oynak tavırlarla, seri kelimelerle sözüne devam etti.

2-ci nümunədə işlənmiş "seri" sözü, əslində, ərəb mənşəli "**سريع**" "səri" sözüdür. Başqa sözlə, qeyd olunan sözlər omoqraf (eyni yazılışlı) söz təsiri bağışlasa da omofon (eyni səsli) söz deyildir. Müasir türk dilində "et" və "ət", "el" və "əl", "en" və "ən" vs sözlər eyni şəkildə yazıldığından bəzən məna təhriflərinin yaranmasına səbəb olur.

Türk dilinə daxil olmuş, xalq danışıq dilində də işlənən bir çox sözün dildən çıxararaq onları uğursuz sözlərləəvəzləmək cəhdi nəticəsində Anadolu türkcəsi ilə digər türkcələr arasında süni maniələr yaradılmışdır. Məsələn, 1928-ci ilə qədər Anadolu türkləri də "**göyərçin, bənövşə, yaxşı, bulaq, soraq**" sözlərini işlətmişlər. Latın əlifbasına keçildikdən sonra türk dilçilərinin təklifi ilə kütləvi informasiya vasitələri "rahat" əvəzinə "erinç", "rifah" yerinə"gönenç", "maddi" yerinə "özdeksel", "zidd" əvəzinə "karşıt", "pedogoji" əvəzinə "eğitsel", "alaka" əvəzinə "bağıt" vs. sözlər işlətməyə başladı.

Türk dilinin ən sabit qaydalarından biri, şübhəsiz ki, ahəng qanunu, assimilyasiya və dissimilyasiya hadisəsidir. Təəssüf ki, müasir dövrdə bir çox hallarda bu qaydalara lazımı əhəmiyyət verilmir. Məsələn, türk dilində "yor", "iken", "ki", "leyin", "daş", "gil", ki" şəkilçiləri əlavəedildikləri sözün son hecasının qalınlıq və incəliyindən, samit səsin kar və ya cingiltili olmasından asılı olmayaraq hər zaman birvariantlı olaraq yazılmalıdır. Lakin bəzi yazılı mətnlərdə bu qaydaya diqqət yetirlmədiyi müşahidə olunur:

Orada hayretle gördük; bir adamın bunca nasıl değişip, alabildiğine çocuk, olabildiğine gönüldeş, göz

alabildiğine duygu küpüne dönüştüğünü.

Nümunə gətirilən cümlədəki "gönüldeş" sözü ədəbi dil normaları baxımından yanlış yazılmışdır. Eyni fikri "işteş", "eşteş", "özdeş" tipli sözlər haqqında da bildirmək olar. Ümumiyyətlə, türk dilində işlənən "daş" şəkilçisinin fars dilindən keçdiyini qeyd etməliyik. Fars dilində mövcud olan "**داشتن** – daştən" feili "sahib olmaq, malik olmaq; nəyinsə sahibi, yiyəsi" mənasında işlənir. Bu söz türk dilinə şəkilçiləşərək keçmişdir. Məsələn, "vefadar"- vəfası olan, "sırdaş"- eyni sirri bilən, "silahdaş"- silahlı adam, "evdar"- ev sahibi, "yoldaş"- eyni yolu gedən adam, "məsləkdaş"- bənzər peşə sahibi vs. Türk dilində işlənən "arkadaş" sözünü də bu qəbildən olan sözlər sırasına daxil etmək mümkündür. Elmi məqalə və kitablarda da türk dilinəkeçmiş əcnəbi mənşəli sözlərin kütləvi şəkildəyanlış yazıldığını görmək mümkündür. Məsələn:

Ya bunadı, ya *difransiyel* sıyırdı diye düşüneceğim ama düşünemiyorum, beynimi okuyor sanki ihtiyar.

Nümunədə xüsusi olaraq fərqləndirilmiş "**diferansiyel**" sözü yanlış yazılmışdır, həmin sözün doğru yazılış şəkli "*diferansiyel*"dir. "Operasyon" sözü dəəksər hallarda "oparasyon" şəklində yazılmaqda və deyilməkdədir:

Beklenen *oparasyon* için artık düğmeğe basılmıştır.

Ayol, bi dakka dursana, email yazıyom.

Nümunədəki cümlədə danışıq dilinin təsiri ilə "**dakika**" sözü "***dakka***", "bir" sözü "bi", "yazıyorum" isə "yazıyom" şəklində işlənmişdir.

Gazteye baktın mı lan, bizim takımın puanı kaç?

İtalyan dilindən türk tilinə keçmiş "gazete" sözü son zamanlarda türk mətbuatında "***qazte***" şəklində yazılmaqdadır.

Türk dilində zaman zərfliyi mənası ifadə "iken" hissəciyinin yazılışında standart qayda olmadığı müşahidə olunur. Belə ki, aid olduğu sözə bitişik yazıldığı zaman "iken" hissəciyinin ilk saiti düşür (gelir ikən— gelirken), ikinci hecadakı "e" səsinin dəyişib- dəyişməməsi məsələsində fərqli fikirlər yaranır. Bəziləri "iken" hissəciyinin sözə bitişik yazıldığı zaman əsas sözün son hecasına görə, "kan", bəziləri də "ken" şəklində yazılmasının daha doğru olduğu fikrini müdafiə edir: **Okulda *okurken* en sevdiği mekan okulun kütüphanesiydi.**

Kitabı yüksek sesle *okurkan* kardeşi ona kızardı.

Türk dilində sifətlərin üstünlük dərəcəsinin yazılışında da qeyri-müəyyənlik və pərakəndəlik müşahidə olunur. Məlum olduğu kimi, sifətin üstünlük dərəcəsi əksər hallarda sifət mənası ifadəedən sözlərin ilk hecalarının "**p,r,m,s**" samitlərinin yardımı iləəsas sözəəlavəedilməsilə yaranır: **yeşil- yemyeşil, kırmızı kıpkırmızı, siyah-simsiyah** vs. Lakin son illərin qəzet və jurnallarında bu qaydanın pozulmasına tez-tez rast gəlmək olur:

Bursa, *yepyeşil* bağlar içinde uyumuştu adeta.

***Sipsiyah* gözleri siyah yıldızlar gibi pırıl-pırıl yanıyordu.**

***Kaskara* saçları beyazlamış, suratında yılların izleri kalmıştı.**

***Kopkocaman* konak metruk ve ıssızdı, sanki burada ömür boyu kimse oturmamıştı.**

Örnək cümlələrdə kursivlə fərqləndirilmiş "**yepyeşil, sipsiyah, kaskara, kopkocaman**" ifadələri yanlış işlənmiş, türk dilinin qrammatik qaydalarına zid şəkildə tətbiq olunmuşdur. Türk dilinin qrammatikasına görə, sifətlərin üstünlük dərəcəsi, həm də reduplikasiya üsulu ilə də yarana bilir. Məsələn: **güzel mi güzel, yeşil mi yeşil, uzun mu uzun** vs.

Türk dilində mürəkkəb sözlərin yazılışında da bir sistemsizlik nəzərə çarpır. Eyni sözün fərqli yazılışını müşahidəetmək indi adi hal almışdır. Məsələn: **Uluslararası— uluslararası, okuryazar— okur yazar, dilbilgisi— dil bilgisi vs.**

Müasir türk mətbuatında tez-tez müşahidə olunan yazı xətalarından biri də sıra saylarının ifadəsində öz əksini tapır. Məsələn: ***7.'ci* sınıfta okuduğum zaman okulda haksız ceza yediğimi unutamıyorum. *XV inci* asırda Türk Divan edebiyatı tasavvuf ilkelerinin altında kalmıştır.**

Nümunələrdə kursivlə fərqləndirilmiş saylar yanlış yazılmışdır, çünki qəbul olunmuş orfoqrafiya qaydalarına görə, sıra saylarına şəkilçi əlavəedildikdə öncə "kəsmə"işarəsi, daha sonra isə şəkilçi yazılmalıdır. Bu zaman nöqtə işarəsi qoyulmaz. Başqa sözlə, "7.'ci" deyil, "7'nci" və ya "7."; "XV inci" deyil, "XV.", yaxud da "XV'nci" olmalıdır. Dövrü mətbuatda tarixlərin yazılışında da orfoqrafiya qaydalarının təhrif olunduğu müşahidə olunur. Qaydalara əsasən, konkret bir tarixi göstərən rəqəmə cəm şəkilcisi artırmaq olmaz. Təəssüf ki, bu qaydaya əhəmiyyət verilmir:

***1998'lerde* üniversite mezunu oldu ve şansını gazetecilikte denedi.**

***2015'lerde* dünya turuna çıktı, gezi notlarını kitap şeklinde yayınlattı.**

Əslində, "**1998'de**" və "**2015'te**" olmalıdır.

Mürəkkəb adların ixtisarlarının işlədilməsində həm şifahi, həm də yazılı nitqdə yanlışlıqlar da çox təsadüf edilən qayda pozuntularındandır. Məsələn: **Okulumuzun mezunları bu yıl *ÖSS sınavlarında* rekor kırmışlar.**

Doçentlik kadrosuna başvurmak isteyen hocalar *KPDS sınavından* 60 puan almak zorundalar.

Kursivlə fərqləndirilmiş ifadələr orfoqrafik baxımdan qüsurludur, çünki, ÖSS və KPDS qısaltmasının özündə "sınav" sözü mövcuddur: ÖSS— Öğrenci Seçme Sınavı, KPDS— Kamu Personeli Yabancı Dil Bilgisi Seviye Tespit Sınavı. Başqa sözlə, iki dəfə "sınav" sözünü işlətmək üslubi baxımdan yanlışdır.

NƏTİCƏ: Türk dilinə keçmiş əcnəbi sözlərin bəzilərinin sonu orijinal dildən fərqli olaraq kar samitlərlə yazılır: **asid- asit, damad-damat, band- bant, stad-stat, kitab- kitap, hab- hap, genc- genç** vs. Mövcud qaydalara görə, türk dilində sonu "**p, ç, t, k**" kar samitləri ilə bitən sözlərin sonundakı samitlər yiyəlik, yönlük və təsirlik hallarında müvafiq cingiltili samitə çevrilir. Təəssüf ki, bu məlum qaydalar son zamanda unudulmağa başlamışdır:

Damatın **yüzünde adeta güller açmıştı.**

Hava alanında *banta* konulmuş valizlere dikkatle bakıyordu.

Taraftarlar *statı* özenle donatmışlardı.

Nümunələrdə seçilmiş sözlər orfoqrafik baxımdan yanlış yazılmıştır. Düzgün variantı "*damadın*", "*banda*" və "*stadi*" şəklində olmalıdır.

Kütləvi informasiya vasitələrində bəzən də yuxarıda qeyd olunan faktın əksini müşahidəetmək olur. Belə ki, hallanırkən son samiti dəyişməyən bəzi sözlərin son samitlərinin yanlışlıqla dəyişdirildiyini müşahidəetmək olar:

Final oyunun *kasedini* büyük heyecanla izledi.

Yıpranmış ve ıslanmış cigara *pakedini* özel bir özenle cebinden çıkarıverdi.

Şimdi maraba bile kendi *hukuğunu* iyi biliyor.

Nümunələrdəki "*kasedini", "pakedini"* və "*hukuğunu*" sözləri orfoqrafiya baxımından yanlışdır, "kasetini", "paketini" və "hukukunu" şəklində yazılmalıdır.

İstifadə olunmuş ədəbiyyat

1. Akar Ali. Türk Dili Tarihi. İstanbul: Ötüken Neşriyat, 2011, 339 s.
2. Akyüz Kenan. Modern Türk Edebiyatının Ana Çizgileri- 1860-1923. İstanbul: İnkılâp Kitabevi, 1995, 270 s.
3. Bayındır Alper. Uzun Lafın Türkçesi. İstanbu: Güvender Yayınları, 2003, 205s.
4. Eker Süer. Çağdaş Türk Dili. Ankara: Grafiker Yayınları, 2003, 557 s.
5. Fidan Bülent. Kısaltmalar Kılavuzu. İstanbul: Om Yayınevi, 2002, 254 s.
6. İmer Kamile. Dil ve Toplum. Ankara: Gündoğan Yayınları, 1990, 192 s.
7. Püsküllüoğlu Ali. Onu Öyle Yazmazlar. Ankara: Arkadaş Yayınevi, 2017, 152s.

Ариф Рза оглу Юнусов

БГУ, Факультет востоковедения

Кафедра турецкой филологии, доцент

arifyunusov@yaho.com

https://orcid.org/0009-0007-6091-3580

МЕТОДЫ УСТРАНЕНИЙ ИСКАЖЕНИЯ ПРАВОПИСАНИЯ В ТУРЕЦКОМ ЯЗЫКЕ

Резюме

За последние годы сделано много научных работ в области исследования и развития турецкого литературного языка. Однако несмотря на проведенных многочисленных научных исследований, все еще остаются нерешенные вопросы в турецком языкознании. Один из них, по нашему убеждению, проблема искажения норм правописания турецкого языка. Это особенно заметно в СМИ. На страницах газет и журналов очень часто наблюдается грубое нарушение орфографии. Беда в том, что и вразных научных статей такие нарушения становятся обычным явлением. Можно констатировать этот печальный факт что, даже в орфограчиских словарях Турецкого Лингвистического Общества (ТЛО) нет стандартной формы правописания ряд слов.

Это усугубляет процесс изучения и преподавания языка. По нашему мнению, при решении конкретных языковых проблем следует учесть мнения ведущих лингвистов не только турецких университетов. Например, германские языковеды очень часто проводят обмен мнений по поводу лингвистических вопросов немецкого языка с учеными Австрии, Бельгии, Люксембурга, Лихтенштейна, Швецарии и др. стран. К сожалению турецкие языковеды не учитывают мнения лингвистов других тюркских государств.

Arif Rza oglu Yunusov

BSU, Faculty of Oriental Studies

Department of Turkish Philology, Associate Professor

arifyunusov@yaho.com

https://orcid.org/0009-0007-6091-3580

METHODS OF ELIMINATING SPELLING DISTORTION IN THE TURKISH LANGUAGE

Summary

In recent years, many scientific works have been done in the field of research and development of the Turkish literary language. However, despite numerous scientific studies, there are still unresolved issues in Turkish linguistics. One of them, in our opinion, is the problem of distortion of the spelling norms of the Turkish language. This is especially noticeable in the media. On the pages of newspapers and magazines, a gross violation of spelling is very often observed. The trouble is that such violations are becoming commonplace in various scientific articles. It is possible to state this sad fact that, even in the spelling dictionaries of the Turkish Linguistic Society (TLO), there is no standard spelling form for a number of words.

This aggravates the process of learning and teaching the language. In our opinion, when solving specific language problems, it is necessary to take into account the opinions of leading linguists not only of Turkish universities, but also the statements of foreign Turkologists. For example, German linguists very often exchange opinions on linguistic issues of the German language with scientists from Austria, Belgium, Luxembourg, Liechtenstein, Switzerland and other countries. Unfortunately, Turkish linguists do not take into account the opinions of linguists of other Turkic states.

Keywords: language, word, spelling, distortion, method, Turkology

Rəyçi: Dos. S.Abbasova

DOİ 10.24412/2218-7588-2026-1-9-12

Kəmalə Seyfiyeva
Azərbaycan Dövlət İqtisad Universiteti
Xarici dillər departamenti.müəllimə
Kemaleme@gmail.com
https://orcid.org/0009-0009-2809-9149

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ BAŞ VƏ BUDAQ CÜMLƏLƏRİNİN QARŞILIQLI ZAMAN ƏLAQƏSİ KLASSİFİKASIYASI

XÜLASƏ: Azərbaycan və xarici dillərin müqayisəli şəkildə öyrənilməsi və bir çox aparılan tədqiqatlardan əldə edilən xülasələr həm qarşılaşdırılan dillərin metodologiyasının dərindən dərk etməyə və müasir vəziyyətini aşkar etməyə xidmət edir, həm də növbəti tipoloji araşdırmalar üçün baza rolunu oynayır. Yazılan məqaləni aktual edən səbəblərdən biri də onda ibarətdir ki, tədqiqat obyekti kimi nəzərdən keçirilən zaman budaq cümləsinin funksional semantik və quruluş cəhətlərinin qarşəlaşdırdığımız dillərdə fikir aydınlığına rast gəlinir.

Açar sözlər: baş və budaq cümlələrinin qarşılıqlı zaman əlaqəsi, tabeli mürəkkəb cümlələrin qarşılıqlı əlaqəsi, ingilis və Azərbaycan dillərində zaman budaq cümlələrinin müqayisəli təhlili

GİRİŞ: Müxtəlifsistemli dillər kimi ingilis və Azərbaycan dillərinin sintaksisində araşdırılmaya ehtiyac duyulan əsas amillərdən biridə budaq cümlə məsələsidir.Məqalə işi ingilis və Azərbaycn dillərində zaman budaq cümlələrinin struktur və funksional-semantik sahəsi üzrə tədqiqat aparılaraq yazılmışdır.Zaman budaq cümlələri qarşılaşdırılan dillərdə polipredikativ cümlə quruluşlarının ümumi sistemində əsas meyarlardan biridir. Göstərilən dillərdə zaman budaq cümlələri struktur-tipoloji baxımdan önəmli xüsusiyyətlərə malikdir.

ƏSAS HİSSƏ: Müasir dövrdə zaman budaq cümləsi kimi polipredikativ konstruksiyalar istər tipoloji, istərsə də başqa dillərin sintaksisinin nəzəri məsələlərinin öyrənilməsi baxımından böyük maraq kəsb edir. Bununla belə, sözügedən konstruksiyalar müxtəlif nəzər yetirmə müxtəlif dillərin materialları əsasında nəzərdən keçirilir.
Son zamanlarda bir çox dillərdə zaman budaq cümlələrinin sistemli şəkildə öyrənilməsinə bir çox cəhdlər edilmışdir.

Demək olar ki, zaan budaq cümlələri istər temporal konstruksiyaların xüsusi bir növü kimi, istərsə də gerçəklikdəki müxtəlif hadısə və proseslər arasında zaman əlaqələrinin ifadə edilməsi yollarından biri kimi ayrı-ayrı dillərdə polipredikativ konstruksiyalar sistemində yetəri qədər mühüm tədqiqat obyekti kimi diqqəti cəlb edir.
Yazılan məqaləni aktual edən səbələrdən biri də ondan ibarətdir ki, tədqiqat obyekti kimi nəzərdən keçirilən zaman budaq cümləsinin funksional-semantik və quruluş cəhətlərinin qarşılaşdırdığımız dillərdə fikir ayrılığına rast gəlinir. Bu baxımdan zaman budaq cümlələrinin iki dilin materialları əsasında öyrənilməsinin əhəmiyyəti böyükdür.
Ilk öncə, zaman konstruksiyalarının tədqiqi budaq cümlə sistemindəki fərqə varmaq və tabeli mürəkkəb cümlələrin elmi-nəzəri tədqiqində, eyni zamanda da xarici dil kimi ingilis dilinin sintaktik məsələlərinin tədrisində zaman budaq cümləsinin tələbələrə öyrədilməsində bir sıra çətinliklərin aradan qaldırılmasına şərait yaradır. Bundan başqa ünsiyyət prosesində eyni fikrin ifadə edilməsi zamanı cümlə variantlarının, yəni sintaktik quruluşa da diqqət yetirməsinə imkan verir.

Məqalənin yazılması zaman əlaqələrinin dilin sintaksis səviyyəsində ifadə vasitələrindən biri olaraq zaman budaq cümləsinin müxtəlifsistemli dillər olan ingilis və Azərbaycan dillərində bütöv təsvirini vermək, zaman budaq cümləsini baş cümləyə əsasən yerini və bağlayıcı vasitələrə görə tiplərini müəyyənləşdirmək, baş və budaq cümlələr arasında zaman münasibətlərinin məzmununu dəqiqləşdirmək, baş və budaq cümlələrin transformasiyaya uğraması gedişatını doguran qanunauyğunluğu aşkar və təhlil etməkdən ibarətdir.

Xüsusəndə, struktur-semantik təşkil olaraq zaman budaq cümləli tabeli mürəkkəb cümlənin ayırd edilməsi meyarlarının təsvirini, zaman budaq cümləsinin baş cümlə ilə əlaqələndirən bağlayıcı vasitələri təsvir etmək, zaman budaq cümləsində və baş cümlədə felin zaman formalarının işlənmə qanunauyğunluqlarına nəzər yetirməkdir.
Məlumdur ki, ingilis və Azərbaycan dillərində baş və budaq cümlələrinin zaman əlaqəsi bəzən eynidir, bəzən isə fərqlənir, lakin ümumi qayda budaq cümlənin baş cümlədə ifadə olunan hadisənin vaxtını, səbəbini, yerini və s. bildirməsidir.

Ingilis dilində "tense sequence" yəni zaman ardıcıllığı qaydaları daha qətiyyətli bir şəkildə tətbiq olunur.Azərbaycan dilində isə zaman əlaqəsi daha çox işlədilən felin növünə və sübhəsiz ki, cümlənin quruluşuna görə müəyyən edilir.

Azərbaycan dilində baş və budaq cümlələr arasındakı zaman əlaqəsi əsasən budaq cümlənin növündn asılıdır. İngilis dilində zaman əlaqəsi daha mürəkkəbdir. Bu, "past in the past" yəni keçmişdəki keçmiş, "past in the future" yəni keçmişdəki gələcək və s. kimi anlayışları əhatə edir.

Ingilis və Azərbaycan dillərində zaman budaq cümləsini baş cümləyə bağlanma vasitəsinə və baş və budaq cümlələrdə hərəkətlərin qarşılıqlı zaman əlaqəsinə görə təsnif etmək olar. Faktiki haldır ki, zaman budaq cümləsinin hər iki dildə baş cümləyə bağlanma vasitəsinə görə bölgüsü verildiyindən, bu məqalədə məqsəd baş və budaq cümlələr arasındakı zaman əlaqəsinə görə zaman budaq cümlələrini tədqiq etməkdən ibarətdir.

Təsdiq etdiyimiz hər iki dildə baş və budaq cümlələrdə hərəkətin icrasının qarşılıqlı zaman əlaqəsinə görə budaq cümlələrini üç qrupa bölmək olar.

1. Baş cümlədəki hərəkətlər eyni vaxtda (stimultaneous) baş verən zaman budaq cümləsi;
2. Baş cümlədəki hərəkətdən əvvəl (prior to) baş verən zaman budaq cümləsi;
3. Baş cümlədəki hərəkətdən sonra (posterior to) baş verən zaman budaq cümləsi;

İngilis və Aərbaycan dillərində baş cümlədəki hərəkətlə eyni vaxtda (stimultaneous) baş verən zaman budaq cümlələrinə aşağıdakı misalları aid etmək olar. İngilis dilində:

1. She noticed that the comforting personal tone he always used her,when she was at his room
-O, həmişə Cenni onun yanında olduğu vaxtlar danışdığı kimi sakit və dostcasına danışırdı
2. When he first began to be a part of their family affairs the conventional standards of Father Gerard proved un-truest worthy
-Brinder ailəsinin işlərində ilk dəfə iştirak etməyə başladığı zaman Herbart -ata gördü ki, nəyin pis, nəyin yaxşı olması haqqında təsəvvürü qənaətbəxş deyilmiş.

Yuxarıda verilmiş birinci cümlədə noticed baş cümlənin , was budaq cümlənin, ikinci cümlədə began to be a part zaman budaq cümləsinin, proved untrust-worthy isə baş cümlənin xəbərləri imi keçmiş qeyri-müəyyən zaman formasında işlənmış və hərəkətlərin baş və budaq cümlələrdə eyni vaxtda (stimultaneous) baş verdiyini göstərir.

Azərbaycan dilində:

1.Nə qədər ki, səninlə olurdum, nəhayətsiz bir sevinc duyurdum.
2.Haçan ki, kəndlinin əkin-biçini başlayır, heç kəsi evdə tapa bilməzsən .
3.Nə qədər ki, sən böyüyün sözünə baxmayacaqsan, işlərin düz getməyəcək.

Yuxarıda verilmiş tabeli mürəkkəb cümlələrin baş və budaq cümlələrindəki hərəkətlər eyni vaxtda (stimultaneous) baş verir. Birinci tabeli mürəkkəb cümlənin baş və zaman budaq cümlələrində -olurdum, -duyurdum xəbərləri şühudi keçmiş zamanda, ikinci cümlədə baş və budaq cümlənin xəbərləri -başlayır, -tapa bilməzsən indiki zamanda, üçüncü tabeli mürəkkəb cümlədə -böyüyün sözünə baxmayacaqsan, -düz getməyəcək xəbərləri gələcək zamanda eyni vaxtda baş verən hərəkətləri bildirir.

Dil quruluşunu, adətən sistemin ünsürləri arasındakı əlaqələrin məcmusu kimi izah edirlər. Dil sistemi deyərkən isə, biz dil vahidlərinin bir-birilə qarşılıqlı əlaqədə yaratdıqları mütəşəkkil, vahid bir bütöv, dil quruluşu adı altında isə həmin vahidlərin qarşılıqlı əlaqələrinin toplusu nəzərdə tutulur.

Araşdırmalardan bu qənaətə gəlmək olar ki, həm ingilis dilində, həm də Azərbaycan dilində baş və budaq cümlə komponentlərini bir-birinə bağlayan vasitələri, komponentlərin yerini nəzərə aldıqda, həmin tip budaq cümlələrin iki tipə bölündüyünün şahidi olarıq.

Azərbaycan dilindən fərqli olaraq müasir ingilis dilində mübtəda budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümlə komponentində mübtəda olmur, budaq cümlə komponenti buraxılmış mübtədanın əvəzində işlədilir. Sadə cümlədə mübtədanın daşıdığı funksiyanı mürəkkəb cümlədə mübtəda budaq cümləsi yerinə yetirir.

Əgər müasir ingilis dilindəki budaq cümlə komponenti baş cümlə komponentindən əvvəl gəlib, ona "who, what, which, whoever, whatever, when, where, whenever, wherever,how, however,why" bağlayıcı sözləri ilə baölanırsa, müasir Azərbaycan dilində "kim, kim ki, hər kim, hər kim ki, hər kəs, hər kəs ki" bağlayıcı sözləri ilə formalaşır və baş cümlə komponentinə bağlanır. Fikrimizi aşağıdakı cümlə nümunələri üzərində şərh etməyə çalışaq. Məsələn:

1.Whatever she has told you is true
2.Kim xalqın mənafeyinə zidd getsə, məndən aman gözləməsin

Araşdırmalardan bu nəticəyə gəlmək olar ki, müqayisə olunan hər iki dildə mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrin öyrənilməsi, onların sintaktik-semantik xüsusiyyətlərinin aşkara çıxarılması həm nəzəri, həm də təcrübi əhəmiyyətə malikdir.

Hər iki dildə mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələr bir-birinə tabelilik əlaqəsi əsasında təşkil olunur və həmin budaq cümlələrin budaq cümlə komponentlərində predikativlik olmalıdır.

Müasir Azərbaycan dilində müasir ingilis dilindən fərqli olaraq, elə mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələr vardır ki, onların baş cümlə komponentinin xəbəri ismi olub, səbəb bildirdiyi şəraitdə mübtəda budaq cümləsini tələb edir. Araşdırmalara əsaslanaraq hər iki dildə mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümlə komponentləri elə ifadələrlə işlənə bilməsini görmək olar, beləliklə onlar ara cümləyə meyilli olurlar.

Müasir ingilis dilindən fərqli olaraq, müasir Azərbaycan dilindəki mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümlə komponentlərində işlənən əvəzliklərin adlıq halda, daha doğrusu, mübtəda vəzifəsində çıxış etməsi zəruridir.

İngilis dilində baş və zaman budaq cümlələrində hərəkətlərin eyni zamanda baş verməsini əsasən when,as, while, as soon as, the moment və s. bağlayıcılarla göstərmək olar ki, bunalrın da içərisində when bağlayıcısı çoxmənaalı və çox işlənən bağlayıcı hesab olunur.

When bağlayıcılı tabeli mürəkkəb cümlənin həm baş cümləsində, həm də zaman budaq cümləsində Continuous zaman formaları işlənə bilər.Məsələn:

1.When they arrived at the office it was still raining.
2.When you are writing a business letter, begin "Dear Sir".

Yuxarıda verilmiş when bağlayıcılı tabeli mürəkkəb cümlələrin birincisində when they arrived at the office zaman budaq cümləsində Past İndefinite, baş cümləsində isə Past Continuous (was raining), ikinci tabeli mürəkkəb cümlənin baş cümləsində felin əmr forması (begin), when you are writing a business letter zaman budaq cümləsində isə Present Continuous işlənmişdir.

Azərbaycan dilində zaman budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlələrdə eyni zamanlılıq (stimultaneous) mütləq və nisbi olmaqla iki yerə bölünür. Azərbaycan dilində mütləq eynizamanlılıq budaq

cümlədə müəyyən zaman həddi ilə məhdudlaşmış olur. Məsələn:

1.Səhərə yaxın idi ki, atəş səsləri kəsildi.

2.Noyabrin sonları idi ki, qəfil bir hadısə baş verdi.

Nisbi zaman anlayışında isə ardıcıl hərəkətlərdən biri nisbətən əvvəl baş verir.Məsələn:

1.Əli geri dönmək istəyirdi ki, dostları ona yetişdilər.

2.Yağış bir qədər ara vermək istəyirdi ki, biz evdən çıxdıq.

Nisbi zaman ardıcıllığı bildirən tabeli mürəkkəb cümlələrin zaman budaq cümləsinin xəbəri istəmək feli ilə ifadə olunur.

Baş cümlədən əvvəl baş verən zaman budaq cümlələri İngilis və Azərbaycan dillərində izomorfk xüsusiyyət kəsb edir. Zaman budaq cümləsində əvvəl baş vermə (prior to) zaman əlaqəsi when, after, before və s. bağlayıcılarla göstərilə bilər. Məsələn:

…..when Ernest had said that the philosophers could never stand the test of the truth. Dr.Hammerfild demanded.

Ernest deyəndə ki, filosoflar həqiqət ölçüsünü itiriblər, doktor Hammerfild üstünə düşdü

Bill went to play with his friends after he had prepared his lessons

-Dərslərini hazırlayandan sonra Bill dostları ilə oynamağa getdi.

Azərbaycan dilində baş cümlədən əvvəl gələn zaman budaq cümlələri baş cümləyə əsasən "ki" bağlayıcısı ilə bağlanır. Məsələn: Külək təzəcə kəsmişdi ki, göy guruldadı, yağış yağmağa başladı.

Müasir İngilis dilində baş cümlədən əvvəl gələn, baş cümləsinin xəbəri Future tenses in-the-Past -da işlənən zaman budaq cümləli tabeli mürəkkəb cümlələr o qədər də məhsuldar deyildi.

When the one man arrived she would love him and she would go to him.

-Qoy o yeganə adam meydana çıxsın, Cenni onu sevər və onun arxasinca gedər

NƏTİCƏ: Birsıra hallarda zaman budaq cümləsindəki hərəkət baş cümlədəki hərəkətə nisbətən sonra (posterior to) baş verir. Budaq cümlədəki hərəkətin baş cümlədəki hərəkətdən sonra baş verdiyini bildirən zaman budaq cümlələrinə aşağıdakıları misal göstərmək olar.Məsələn:

1.They had constructed this bridge when I came to live here.

2.The hunter had killed the bear before night fell.

3.When the Gadfly raised his head the sun had set.

İngilis dilində praktik cəhətdən əhəmiyyət kəsb edən məsələlərdən biri when, as, as soon as, till, until, before, after və s. bağlayıcıları ilə bağlanan gələcəkdə baş verəcək zaman budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümləsində gələcək zamanın, yaxud felin əmr formadının, budaq cümləsində isə felin indiki zaman formasının işlənməsidir.Məsələn:

1.As soon as he manages to get tickets we'll go to the theatre.

2.Tell him to wait for us when he comes

İngilis və Azərbaycan dillərində zaman budaq cümlələrinin müqayisəli təhlili hər iki dildə bu problemlə bağlı bir sıra formal və semantik izomorfik və allomorfik cəhətlərin olduğunu deməyə əsas verir.

Ədəbiyyat

1. Məmmədova G.T. İngilis və Azərbaycan dillərində zaman budaq cümlələrinin tipoloji tədqiqi./ Humanitar elmlərin öyrənilməsinin aktual problemləri/ Mütərcim, III buraxılış, B., 2004
2. Müasir Azərbaycan dili.III cild.Sintaksis.Bakı 1981
3. Musayev O. İngilis dilinin qrammatikası. Bakı. 1986
4. Жигадло В.Н., Иванова И.П., Иофик Л.Л. Современный английский язык./Теорет курс грамматики/ М., 1956
5. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1974
6. Close R.A. A Reference grammar for students of English. M., 1979
7. Dreiser Th. Gennie Gerhardt. M.,1972
8. Michael Swan. Practical English usage. New edition. Oxford University press,1995

Кемаль Сейфиева

Азербайджанский государственный экономический университет

Преподаватель иностранных языков

Kemaleme@gmail.com

https://orcid.org/0009-0009-2809-9149

КЛАССИФИКАЦИЯ ВРЕМЕННЫХ ОТНОШЕННИЙ ОСНОВНЫХ И ДОПОЛНИТЕЛЬНЫХ ПРЕДЛОЖЕНИЙ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Резюме

Сопоставительное изучение азербайджанского и иностранных языков, а также обзоры полученные в результате многочисленных проведенных исследований, служат как для глубокого понимания методологии и вьявления современного состояния сравниваемых языков, так и для создания базы для последующих типологических исследований. Актуальность статьи обусловлена, в частности, тем, что в сопоставляемых языках прослеживается концептуальная ясность в отношении функциональных, семантических и структурных характеристик придаточного предложения времени, являющегося обьектом данного исследования.

Ключевые слова: соотношение времен главного и придаточного предложений, взаимозависимость частей сложноподчиненного предложений, сравнительный анализ придаточныхпредложений времени в английском и азербайджанском языках

Kemale Seyfiyeva
Azerbaijan State University of Economics
Department of Foreign Languages.teacher
Kemaleme@gmail.com
https://orcid.org/0009-0009-2809-9149

CLASSIFICATION OF THE MUTUAL TIME RELATIONSHIP OF MAIN AND BRANCH SENTENCES IN ENGLISH AND AZERBAIJAN LANGUAGES

Summary

The comparative study of the Azerbaijani and foreign languages, along with the reviews derived from numerous conducted studies, serves both to deeply understand the methodology and reveal the current state of the compared languages and to form a basis for subsequent typo logical research. A key reason for the article's relevance is the conceptual clarity found in the compared languages concerning the functional, Semantic and structural features of the temporal subordinate clause, the subject of this study.

Keywords:sequence of tenses between main and subordinate clauses, interrelation between main and subordinate clauses.

Rəyçi: f.f.d. P.Abbasova

DOİ 10.24412/2218-7588-2026-1-13-16

Gunel Bayramova
Doctor of Philological Sciences,
Professor atAzerbaijan University of Languages (Azerbaijan)
https://orcid.org/0000-0001-9591-542XUDK 811.13

THE PLACE OF ROMANCE LINGUISTICS WITHIN GENERAL LINGUISTICS: THEORETICAL FRAMEWORK, HISTORICITY, AND METHODOLOGY

ABSTRACT: This article examines the place of Romance linguistics within general linguistics by highlighting its theoretical, historical, and methodological significance. Romance languages, derived from Latin, constitute a unique empirical field for analyzing mechanisms of language change, typological evolution, sociolinguistic variation, and language contact. The study demonstrates that Romance linguistics plays a strategic role in general linguistics in three main respects: genetically, by tracing systematic divergence from a common source; typologically, by documenting the transition from synthetic to analytic structures; and sociolinguistically, by revealing the interaction between language, society, and institutions. Particular attention is paid to Vulgar Latin as a polycentric spoken koiné shaped by substrate, superstrate, and adstrate influences. The article further situates Romance studies within the history of linguistic thought, from the comparative-historical tradition to modern typology, areal linguistics, and corpus-based approaches. It argues that Romance linguistics functions not merely as a specialized philology but as a methodological testing ground for the core principles of general linguistics.

Keywords: Romance languages; Romance linguistics; general linguistics; Vulgar Latin; language contact; typological change; sociolinguistics.

INTRODUCTION: The Romance languages (French, Spanish, Portuguese, Italian, Romanian, Catalan, Occitan, Romansh, etc.) constitute a large family derived from Latin. Their study is not limited to an "intra-family" history, but rather represents a living laboratory for examining mechanisms of language change, areal influences, phenomena of bilingualism and diglossia, as well as policies of standardization.

Romance linguistics (***Romanistik***) holds strategic importance for general linguistics for three main reasons:

(i) Genetically, it makes it possible to follow step by step how languages diverged from a single source (Latin);

(ii) Typologically, it provides prototypical examples of the shift from a synthetic to an analytic structure (the reduction of the case system, the emergence of the article, the stabilization of SVO order, and the formation of analytic tenses with auxiliary verbs);

(iii) (iii) Sociolinguistically**,** it enables the historical tracing of language–society relations (empire, colonization, religion, law, education, the press, and modern media) [Marchello-Nizia, 1999; Posner, 1996; Harris & Vincent, 1988].

The term "Roman" originally derives from the political-ethnic adjective *romanus*, which in antiquity referred to a citizen or subject of Rome. In the Middle Ages, as the Western Empire disintegrated, the term gradually acquired a linguistic meaning, coming to designate the "vernacular spoken language" in contrast to "Latin as a written language" (*rustica romana lingua*) [Roegiest, 2009, pp. 16–17; Uytfanghe, 1976]. "Romance studies" (*Romanistik*) systematized as a philological tradition in the nineteenth century: it encompassed the historical grammar, etymology, dialectology, textual scholarship, and literary history of the Romance languages under a single umbrella, and over time expanded its scope to include areas such as sociolinguistics, pragmatics, corpus linguistics, and computational linguistics [Tomasin, 2023; Posner, 1996].

Latin, as a member of the Italic language family, took shape in Latium, interacting closely in its early stages with neighboring Etruscan and Greek environments, and more broadly with Celtic and Osco-Umbrian languages. The phonological basis of Classical Latin—five short and five long vowels (*i ī e ē a ā o ō u ū*)—was not consistently distinguished in writing; vowel length was sometimes indicated through graphic doubling [Clackson, 2016]. Between the third and first centuries BCE, diphthongs underwent monophthongization (*ei, oi, ou* > *ī, ū*), while *ae* and *au* remained stable, thus setting the framework for subsequent vocalism in the Romance languages [Ledgeway, 2016]. This "early phonological map" established the historical logic for the systematic sound changes observed across the Romance languages.

"-ness" vasitəsi ilə ad əsaslarında yaranan isimlər mənsubiyyət, şərait, keyfiyyət, vəziyyət bildirir.

Məsələn: "black" – zənci, "blackness" – 1) qara irqə mənsubluq;

2) zəncilərin xarakterik xüsusiyyətləri;

3) zəncilərin irqi məğrurluğu, zənci şüuru

"Indians" – hindu, "Indianess – Amerika hindlilərinə mənsubluq

-"ism" şəkilçisi artırmaqla yaranan bir çox törəmələr cəmiyyətdəki neqativ hadisələrə neqativ münasibətləri ifadə edir.

Məsələn: -"age" – yaş, ageism – qocaların hüquqlarının tapdanması

-"hardhat" – irticaçı, tərəqqi düşməni – "hardhattism"– düşmənləri yatırmaq üçün zor gücün işlədilməsi

-"skin-head" – başı qırxılmış küçə dələduzları dəstəsinin iştirakçısı – "skinheadism" – küçə dələduzluğu əsasən azlıqlara qarşı yönəlmişdir.

-"ism" şəkilçisi ən yüksək məhsuldarlığa malikdir. Bu şəkilçi isim düzəldən neologizmdir. Əsasən insan adları ilə birləşərək yeni isimlər yaradır. Bu şəkilçi ilə əsasən nəzəriyyələrin adları yaranır.

Məsələn: Leninizm – Leninizm Marksizmə əsaslanan iqtisadi-siyasi nəzəriyyə

-"ism" şəkilçisinin daha bir funksiyası özünü ümumi isimlərin əsasına birləşərək bəzi incəsənət cərəyanlarının adlarını yaratmaqda göstərir.

Məsələn: "auter" – özünəməxsus yaradıcı dəsti-xətti olan kino rejissoru, "auterism" – kino rejissorluğunda fərdi üslub; "absurd" – cəfəngiyyat, mənasız şey – "absurdism" – absurdizm, incəsənətdə cərəyan; "structure" – struktur, quruluş, "structurism" – strukturizm, incəsənətdə əsas kimi həndəsi fiqurların təsvirini göstərən cərəyan.

Əvvəlki şəkilçilərlə müqayisədə -"ship" şəkilçisi az məhsuldardır. Bu şəkilçilərin birləşdiyi sözlər əsasən müəyyən bir fəaliyyətlə məşğul olan şəxslərin adlarını ifadə edirlər. Əmələ gələn törəmələr ictimai vəziyyətin xüsusiyyətini bildirir.

Məsələn: "ombudsman" – dövlət idarələrinə gələn şəxsi şikayətlərə baxan, dövlətin təyin etdiyi şəxs, "ombudsmanship" – ombudsmanın hakimiyyəti və ya vəzifəsi

-"conman" (confidence man) – dələduz adam, fırıldaqçı bir kimsə, "conmanship" – əliəyrilik, dələduzluq, fırıldaqçılıq

Bir çox hallarda -"ship" şəkioçisi "man" sözünə birləşir və törəmə sözə məharət, qabiliyyət, cəldlik, bacarıq, sənət mənasını verir.

Məsələn: "horsemanship" – at çapmaq məharəti, "draftsmanship" – rəsmxət sənəti

-"manship" elementi əsasən ad əsaslı sözlərə birləşir. Onun vasitəsilə yaranan şəkilçili isimlər neologizmlərin 4%-ni təşkil edir. Bu sözdüzəldən elementin inkişafına İngilis yumoristi S.Potter böyük təsir göstərmişdir. O, "gamesmanship", "kifemanship", "bone-upmanship" sözlərini yaratmışdır.

-"ing" şəkilçisinin əmələ gətirdiyi neologizmlər idman növlərinin adlarını bildirirlər. Bir mənalı şəkildə, əsas həmin idman növünün obyektini bildirir.

Məsələn: "kart" – kart (böyük olmayan yarış avtomobili), "karting" – kartinq idman növü, "skareboard" – "skareboarding" – quru serfinq (asfaltda möhkəm olmayan rolikli taxta üzərində sürüşmə)

Neologizmlərin leksik tərkibinin araşdırılması göstərir ki, lüğətlərdə öz əksini tapmış neologizmlərin dörddə bir hissəsi həm adi sözdüzəltmə yolu ilə, həm də şəkilçi artırma və sözqoşmanı özündə cəmləyənbirləşdirmə üsullarının köməyilə təşkil olunmuşdur. Neologizmlər arasında sayca ən böyük yeri isimlər tutur. Çünki adlandırma anlayışı daha geniş yayılıb. Göründüyü kimi, -"ism" şəkilçisi yüksək məhsuldarlığı ilə seçilən şəkilçilər siyahısındadır.

Araşdırmalardan məlum oldu ki, ingilis dilində 25 şəkilçi vardır ki, onlar sifətlərə birləşərək isim yaradırlar: -acy; -y; -age; -um; -an; -ure; -ard; -itude; -ation; -th; -dom;
-ster; -er; -ness; -ery; -ment; -ase; -man; -en; -ling; -hood; -ity; -ia; -ist; -ism.

Müşahidələrdən belə qənaətə gəlinir ki, semantik neologizmlərin yaranma intensivliyibaşqa yeni sözyaratma üsullarına nisbətdə təxminən eyni səviyyədə uzun müddət qorunub saxlanılır. Bu isə dilin inkişafının ümumi qanunları çərçivəsində semantik yaranmalar sayəsində leksikanın artırılması və yenilənməsini tənzimləyən xüsusi mexanizmlərin olduğunu iddia etməyə imkan verir.

Ədəbiyyat:

1. Ахманова О.С. Словарь лингвистических терминов. М: Сов.Энциклопедия, 1966, 607 с.
2. Баш Л.М. Неологизмы, БСЭ, 3-е изд., 1974, т. 17, с. 1404-1405.
3. Волощин Ю.К.Словарные заимствования, наполнившие английскую лексику в XX веке. Автореферат. дис.конд. филол. наук. Киев, 1974, 19 с.
4. Мельцер Е.М. К вопросу о процессах словообразования в английском языке. Иностр. яз. в школе, 1957, № 4,с. 17–27.
5. Мячина А.В. Обратное образование слов (реверсия) в английском языке.
6. Автореф. дис. конд. филол. наук. Л., 1962, 32 с.
7. Мюллер В.К. Англо-русский словарь. М.: Изд-во иностр. и наукой словарей, 1956, 700 с.
8. Najafli E.B. English Semasiology. Baku, 2016, 250 p.
9. 8.Najafli E.B., Taghiyeva S.E. English lexicology. Baku, 2018, 328 p.
10. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Bakı Universiteti, 2000,399 c.

Sevinj Elmar gizi Tagiyeva
Azerbaijan University of Languages
Doctor of Philosophy in Philology, Associate Professor
e-mail: s.tagiyeva10gmail.com
(Baku city, R.Behbudov str.134)
Orcid: https://orcid.org/0009-0008-4071-5816

Neologisms with suffix in English

SUMMARY

The article deals with summary neologisms created with suffixes in English. In modern English, the suffix -"ism" is the most productive suffix. There are 25 suffixes in the English language that combine with adjectives to form nouns. It turns out that most neologisms are formed through both affixation and word building.

Keywords: *suffix, productive, neologisms, non-productive, noun-forming, word formation, semantic neologisms*

Севинж Эльмар Гизи Тагиева
Азербайджанский университет языков
Доктор философии в области филологии, доцент
e-mail: s.tagiyeva10gmail.com
(Город Баку, ул. Р. Бехбудова, 134)
ORCID: https://orcid.org/0009-0008-4071-5816

Окончания неологизмов в Английском языке

РЕЗЮМЕ

Статья посвящена неологизмам, образованным с помощью суффиксов в английском языке. В современном английском языке наиболее продуктивными являются суффикс -"ism". В английском языке существует 25 суффиксов, которые сочетаются с прилагательными для образования существительных. В результате нашего исследования мы пришли к выводу что, большинство неологизмов образуются как путем аффикцами, так и путем словообразования.

Ключевы слова:, *суффикс, продуктивный, неологизм, непродуктивный, создатель имение, словообразование, семантические неологизмы*

Rəyçi: **ADU-nun İngilis dilinin leksikologiyası kafedrası, dos. Təhməzova Mehriban**

DOİ 10.24412/2218-7588-2026-1-45-47

Məmmədova Şəhla Yusif qızı
Azərbaycan Tibb Universiteti " Xarici dillər"kafedrası.
i-mail: memmedovashehla3 @gmail.com
ORCİD: 0009-0008-7416-6835

İNGİLİS DİLİ MƏNŞƏLİ BEYNƏLMİLƏL TERMİNLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENLƏRİ

Xülasə: Beynəlmiləl sözlər xalqın ictimai həyatı, məişəti, mədəniyyəti, iqtisadiyyatı vəmənəviyyatı ilə əlaqədar olaraq müxtəlif dövrlərdə bir dildən digər dilə keçərək müxtəlif məna çalarları ifadə etmişdir.Beynəlmiləl sözlərin mənaxüsusiyyətlərinin inkişafı müqayisə edilən dillərin hər birinə məxsus olan spesifik daxili inkişaf qanunlarından asılıdır. Bu və ya digər beynəlmiləl sözə aid spesifiklik odur ki, onların semantik fərqlənmələri müqayisə olunan dillər çərçivəsindən uzaqlaşaraq ilk mənbə ilə əsaslandırılmışdır.

Açar sözlər: İngilis dili, terminlər, ekvivalentlər, beynəlxalq terminlər, Azərbaycan dili, dilin inkişafı

Giriş: .Beynəlmiləl terminlərhaqqında danışarkən prof.Məmməd Qasımovqeyd edir:"Sözün mənbəyinə görə eyni dildən alınmasına baxmayaraq, o hər bir dilin semantikasına görə ilk mənşəyindən fərqlənə bilər. İngilis dilində əgər sözün hansı dildən alınmasını o sözün mənşəyində görürüksə, başqa bütün mənalarını isə ilk mənşəyində axtarmaq olmaz. Söz bir dildən digərinə bütün mənaları ilə keçmir. Hər hansı bir dil digərindən ona lazım olan sözü götürür. İngilis dilində olan alınma söz öz etimologiyasından fərqli olaraq həmin dilin daxili inkişaf qanunları əsasında mənasını genişləndirə bilər. Bu da hər bir dil üçün lazımi şərait və imkandan asılıdır. İngilis dilində bir sözün müxtəlif dillərə keçməsi xalqların tarixi inkişafı nöqteyi-nəzərdən bir- biri ilə əlaqələrindənasılıdır."[1.s.43]

Əsas hissə: Dosent Rəfiq Cəfərov: "Qərbi Avropa mənşəli terminlərin izahı lüğəti"kitabında yazır:"Mədəniyyət , elm, texnika cəhətdən inkişaf etmiş dövlətlər daha çox mədəni, ticarət, texniki, iqtisadi və siyasi əlaqədə olurlar. Hər bir dil öz inkişafı prosesində müxtəlif amillər əsasında lüğət tərkibini zənginləşdirir. İngilis dilinin lüğət tərkibinin zənginləşməsində o dilin inkişaf qanunları mühüm rol oynayır. Hər bir dil öz daxili yaradıcılığı hesabına zənginləşib inkişaf edir. Beynəlmiləl sözlər də dilin zənginləşməsində mühüm rol oynayır və onun leksikasının müəyyən bir sahəsini əhatə edir."[2.s.116]

Bütün dillərin öz lüğət ehtiyatının zənginləşməsində sözlərin müxtəlif məna çalarlıqları əsas rol oynayır və onların dar məna çəçivəsində çıxaraq öz mənalarınıgenişləndirmələrinində mühüm əhəmiyyəti vardır.

Prof. Arnold I.V.The English Word Vysshaya shkola»kitabında qeyd edir:" İngilis dilinin uzun və mürəkkəb tarixi proses nəticəsində söz öz mənasını genişləndirərək yeni mənalar kəsb etmişlər. Əgər söz əvvəllər bir predmetin adını bildirirdisə, sonralar onun mənası genişlənmiş, məna strukturası mürəkkəbləşərəkhəmin söz bir neçə məfhumu əks etdirməyə qadir olmuşdur. Məsələn: briqada, avanqard, kanal və s."[3.p.295]

Rus dilşünası, professor H.K.Иванова "Лексикология современного английского языка" məqaləsində beynəlmiləl sözlərə aid öz münasibətini belə bildirir:"Bütün dünya dillərinə, o cümlədən ingilis və Azərbaycan dillərinə ən erkən daxil olan beynəlmiləl sözlərdən **latın və yunan** sözlərini göstərmək olar. Məhz bu səbəbdən də latın- yunan mənşəli söz və terminlərin formalaşmasında daha böyük dəyişiklik baş vermişdir. Bu mənşəli sözlərin əksəriyyəti öz ilk mənalarında demək olar ki , dildə az işlədilir. Bu sözlər öz mənşəyindən ayrıldıqdan sonra onların böyük bir qismi öz əvvəlki mənalarını indiki dövrdə saxlamamışdır.[4.c.28]

Prof.Л.Успенский: "Словообразование современного английского языка"kitabında yazır:"Bunlar dünyanın müxtəlif dillərində müxtəlif mənalar kəsb etmişdir. Bu nöqteyi-nəzərdən belə sözlərin bir neçəsinin məna xüsusiyyətləri ilə tanış olmaq məqsədəuyğundur. Latın dili mənşəli **auditpriya**(auditorium- dinləmək üçün yer) sözü öz mənşəyindən uzaqlaşaraq müxtəlif dillərdə çoxmənalılıq kəsb etməklə ilk mənasını da müəyyən qədər saxlamışdır. "Auditoriya" sözü istər müasir Azərbaycan, istərsə də ingilis dillərində auditoriya- məruzə oxunan zal, otaq, dinləyici, məruzəni dinlənən yer mənalarında başa düşülürvə həmçinin,mühazirəyə qulaq asanlar mənasında işlədilir. Bu sözün Azərbaycan dilində "dinləyici", "tamaşaçı",izləyici" mənalarında da rast gəlmək olar. Bu sözün müxtəlif mənalarına həm tərcümə, həm də bədii ədəbiyyatda rast gəlmək olar"[5.c.16].

Prof.Oruc Musayev: "İngilis dilində dubletlik və adekvatlıq halları" məqaləsində beynəlmiləl söz olan"**atmesfera**"termini haqqında öz fikrini belə izah etmişdir:"**"Atmosfera**" (yunanca atmes-hava, sfera-muhit), ingilisce "atmosphere", fransizca "atmosphaire", rusca "atmosfera" sözü də öz inkişafında müxtəlif məna ilə yeri bürüyən hava təbəqəsi , təzyiq vahidi, mühit, şərait mənalarında işlədilir. Göstərilən mənalar demək olar ki, rus, ingilis, fransız dillərində də öz əksini tapır. Bu sözün məcazi mənada işlədilməsinə danışıq dilində olduğu kimi yazılı ədəbiyyatda da rast gəlmək mümkündür.[6.s.170]

Prof.Vaqif Aslanov: "Azərb. dilində oxşarlıq və sinonimlikprinsipləri"kitabında yazır:"**Not (nota) lat. nota**- nişan, qeyd- ing.note-fr.note, rus nota sözü müasir Azərbaycan dilinə musiqi notlarin göstərən qrafiki işarə mahnıda hər hansı bir səs , ahəng, nota(diplomatik) bir hökümətin başqa hökümətə diplomatik müraciət mənalarında geniş işlədilir. Bu sözün Azərbaycan dilində bir neçə mənası varsa, ingilis dilində onun daha çox mənası var**. Note** sözünün ingilis dilində aşağıdakı mənalarını misal göstərmək olar

1) diqqət yetirmək və xatırlamaq;
2) ton;
3) keyfiyyət(səsin);
4) qeyd;

5) qisa məktub;

6) ödənilməli hesab, çek və s.

Qeyd etmək lazımdır ki, *note* sözünün ingilis dilindəki birinci mənası olan *qeyd* sözü Azərbaycan dilində də əvvəllər işlədilmişdir. Bu məna Azərbaycan dilinə rus dilinin təsiri ilə deyil, ingilis və fransız dillərinin təsiri ilə birbaşa daxil olmuşdur. Hal- hazırda bu sözün *qeyd* mənasında işlənməsinə Azərbaycan dilində təsadüf olunmur. Həmin sözün müxtəlif mənalarda işlədilməsinə təsadüf etmək olar.[7.s.192]**.**

Q.Bağırov:«Azərb. dilində feillərin leksik-semantik inkişafı kitabında qeyd edir: "Qeyd etdiyimiz kimi, ingilis dilində ümumi danışıq leksikası xüsusi terminalogiya hesabına müəyyən dərəcədə zənginləşir. Hər bir dildə yeni kəşfin adını ifadə edən söz digər dillərdə ona ekvivalent olmadıqda o söz olduğu kimi həmin dillərə keçir və məhdud çərçivədə bir məfhumu ifadə etməyə xidmət edir.Ümumi danışıq dili leksikasi xüsusi terminalogiya hesabına müəyyən dərəcədə zənginləşir. İngilis dili mənşəli beynəlmiləl sözlərdən danışarkən buraya ancaq sırf ingilis dilinə məxsus olan sözlər deyil, başqa dillərdən ona keçib və bu dilin daxili inkişaf qanunları əsasında inkişaf etmiş, yeni məna kəsb edərək, digər dillərə də keçərək yeni mənalarkəsb etməyi nəzərdə tutulur."[8.s.234]

Azərbaycan dilində işlənən **büdcə** beynəlmiləl sözü haqqındaV.Məhərrəmli:"Azərbaycan və türk dillərində daşlaşmış kök morfemlər"məqaləsində belə yazır:"Bir dildən digərinə keçən söz, o dilin tərkibində formalaşaraq yeni məna kəsb edən əvvəlki məna və quruluşunu itirən yeni məna ilə əvvəlki dildə və digər dillərə keçən sözün sonradan kəsb etdiyi məna hansı dilə aiddirsə, məhz həmin dil mənşəyindən hesab edilməlidir. Məsələn: fransiz dilində işlədilən "**budget"** sözü ingilis dilə məxsus olan alınma sözlər sırasına daxildir. Bu söz əvvəlcə fransız dilində **brgete** mənasında olub və ingilis dilinə keçmişdir. İngilis dilində yeni məna və forma kəsb etdiyi və fransızca bu mənanı verən söz olmadığından fransız dili bu sözü ingilis dilindən almışdır. Belə sözlər fransız deyil, ingilis dili mənşəli sözlərə aiddir. [9.s.245]

D.E.Rozantal və M.A.Telenkova:"Müasir dilçilikdə linqvistik terminlər lüğəti kitabında beynəlmiləl terminlər haqqında öz fikilərini belə izah etmişlər: "Dilimizdə beynəlmiləl sözlər iki qrupa bölünür:

1) Dəyişiklik edilmədən mənimsənilən sözlər. Beynəlmiləl sözlər.

2) Dəyişiklik edilərək mənimsənilən sözlər.

Hər bir dil başqa dilə məxsus terminlər ya bilavasitə, ya digər bir dil vasitəsilə alır. Terminlər bilavasitə mənbə dildən alınırsa, bunlar vasitəsiz alınma terminlər hesab olunur. Məsələn: Idman sahəsinə aid ingilis sözləri vasitəsiz alınma terminlərdir.

NƏTİCƏ: Terminlər başqa dilin vasitəsilə alınarsa, bunlar vasitəli terminlərdir.[10.s.147]. Dilimizdəki beynəlmiləl terminlərin əksəriyyəti bu bölmədəndir.

1) Dilimizdə dəyişiklik edilmədən mənimsənilən terminlərə bilavasitə alınan beynəlmiləl terminlər də daxilidr. Halbuki bu terminlərin əksəriyyəti ahəng qanununa tabe deyildir. Məsələn – partiya, respublika.

2) Müasir Azərbaycan ədəbi dili üçün sözün əvvəlində və axırında iki samitin yanaşı işlədilməsi xarakterik deyil. Lakin alınma terminlərdə belə bir prinsip mühafizə edilir. Məsələn – **start, park, metr, tank, telegraf, elektron, asfalt**.

3) Beynəlmiləl terminlər bəzilərində müxtəlif hecalardan olan iki sait birgə tələffüz edilir, sözün əvvəlində, ortasında, yaxud axırında iki müxtəlif və ya eyni sait qovuşur. Həmin terminlərə məxsus belə bir xüsusiyyət Azərbaycan dilində dəeynilə qalir. Məsələn – **pioner, okean, zooloq.**

4)Azərbaycan dilində vurğu bir qayda olaraq sözlərin son hecasına düşür. Bilvasitə alınan terminlərin əksəriyyətində vurğu rus dilində işlənərkən düşdüyü hecada qalır. Məsələn – **antena, analiz, avtoqraf, termometr**

ƏDƏBİYYAT:

1.M.Ş.Qasımov: "Beynəlmiləl terminlər və onlardan istifadə". Baki.1966.s.43
2.R.C.Cəfərov: "Qərbi Avropa mənşəli terminlərin izahı lüğəti".Baki.2013.s116.
3.Книга.Arnold I.V.«The English Word».Moscow «Vysshaya shkola»,1986,295 p.
4Н.К.Иванова:"Лексикологиясовременногоанглийскогоязыка"М."Наука"с.28
5. Л.Успенский:"Словообразование современного английского языка" М.1978.с.16.
6. O.Musayev: "İngilis dilində dubletlik və adekvatlıq halları"B," s.170.
7. V.Aslanov: "Azərb. dilində oxşarlıq və sinonimlik prinsipləri" B.2018 Elm. s.192
8. Q.Bağırov:«Azərb. dilində feillərin leksik-semantik inkişafı»B,"Elm".2010 s.234
9. V.Məhərrəmli:"Azərbaycan və türk dillərində daşlaşmış kök morfemlər problemi.Bakı."Maarif"n.1986.s.245.
10. D.E.Rozantal və M.A.Telenkova:"Müasir dilçilikdə linqvistik terminlər lüğəti"M."Elm"n.1978.s147.

ШахлаМаммадова
Кафедра «Иностранные языки» Азербайджанского Медицинского Университета.
электронная почта: memmedovashehla3 @gmail.com
ОРЦИД: 0009-0008-7416-6835

Международные термины английского происхождения и их азербайджанские эквиваленты

Резюме

Международные слова переходили из одного языка в другой в разные периоды в связи с социальной жизнью, повседневной жизнью, культурой, экономикой и духовностью людей, выражая различные оттенки значений. Развитие семантических особенностей международных слов зависит от специфических внутренних законов развития, присущих каждому из сравниваемых языков.

Специфика того или иного международного слова заключается в том, что его семантические различия связаны с первоисточником, выходящим за рамки сравниваемых языков. Несмотря на то, что слово

заимствовано из одного и того же языка по своему происхождению, оно может отличаться от своего первоначального происхождения по семантике в каждом языке.

В английском языке, если мы будем искать язык, из которого слово заимствовано, в его происхождении, мы не сможем найти все его значения в его первоначальном происхождении. Слово не переходит из одного языка в другой со всеми своими значениями.Любой язык заимствует необходимое ему слово из другого.

Заимствованное слово в английском языке, в отличие от своей этимологии, может расширять свое значение в соответствии с внутренними законами развития этого языка. Это также зависит от необходимых условий и возможностей для каждого языка. Перенос слова из английского языка в разные языки зависит от взаимоотношений народов друг с другом с точки зрения их исторического развития.

Ключевые слова: английский язык, международные термины, азербайджанский язык, развитие, словарный состав, семантические особенности.

Shakhla Mammadova
Azerbaijan Medical University "Foreign Languages" Department.
e-mail: memmedovashehla3 @gmail.com
ORCID: 0009-0008-7416-6835

International terms of English origin and their Azerbaijani equivalents

Summary

International words passed from one language to another in different periods in connection with social life, everyday life, culture, economy and spirituality of people, expressing different shades of meaning. The development of semantic features of international words depends on the specific internal laws of development inherent in each of the compared languages.

The specificity of that or another international word lies in the fact that its semantic differences are connected with the original source, which goes beyond the framework of the compared languages. Despite the fact that the word is borrowed from one and the same language by its origin, it can differ from its original origin in terms of semantics in each language.

In the English language, if we look for the language from which the word is borrowed, in its origin, we will not be able to find all its meanings in its original origin. A word does not transfer from one language to another with all its meanings.Any language borrows the word it needs from another. A borrowed word in English, unlike its etymology, can expand its meaning in accordance with the internal laws of the development of this language. It also depends on the necessary conditions and opportunities for each language. The transfer of words from the English language to different languages depends on the interrelationship of nations with each other from the point of view of their historical development.

Key words: English language, international terms, Azerbaijani language, development, vocabulary, semantic features.

Rəyçi: Sevinc Bağırova,f ilologiya üzrə fəlsəfə doktoru, dosent əvəzi.

DOİ 10.24412/2218-7588-2026-1-48-50

Məmmədova Zemfira Şahnəzər qızı, Rəhimova Gülnarə Sahib qızı
1. Doctor of Philology, Professor
2. Doctor of Philosophy in Philology, Associate Professor
Azerbaijan Medical University. Department of Foreign Languages
E-mail: zmemmedova@amu.edu.az
ORCID: 0009-0005-2688-4961
2-mail: grehimova@amu.edu.az
ORCID: org\0009-0007-4549-4285

THE ROLE AND IMPORTANCE OF BLINGUISM IN MODERN ENGLISH

Summary: In a globalized world learning a foreign language is wonderful benefit. Not only does it help when traveling, it is also a great advantage for studying in general and for career prospects abroad . The acquisition of the second language enables us to develop various mental abilities at all ages.

There has been a lot of research on bilingualism over the years. Many studies have found so many advantages of being bilingual or being able to speak more than one language. A trait that was once considered a hindrance, has now proved to be beneficial for children as well as adults. Physiological studies have found that speaking two or more languages is a great asset to the cognitive process.

Key words: benefit, Anglais language, development, research,term.

INTRODUCTION: Christina Bratt Pauluston: ”Internation Handbook of Bilingualism and Bilingual Education” .Greenwood press, 1988. The brains of bilingual people operate differently than single language speakers,and these differences offer several mental benefits .According to research,speaking a second language can mean that you have a better attention span and can multi -task better than monolinguals [1;- 78] .below are seven cognitive advantages of learning a foreign language .Many of these signs are only apparent in people who speak multiple languages regularly- if you haven"t spoken foreign tongue since your brain might not be gaining these bilingual benefits .However ,people who begin language study in their adult lives can still achieve the same level of fluency as a young learners,and still gain the same mental benefits,too. Ellen Bialystok .Bilingualism in Development:L anguage,Literacy and Cognition . Cambridge University Press,2001. Acquiring a second language improves you memory and increases your attention span.Speaking a foreign language improves the functionality of your brain by challenging it to recognize , negotiate meaning , and comminicate in different language systems .this skill boosts your ability to negotiate meaning in other problem - solving tasks as well . [2;p-108]. Students who study foreign languages tend to score better on standardized tests than their monolingual peers, particularly in the categories of math , reading , and vocabulary .Learning a second language also improves your native language, as it teaches you the mechanics and structure behind any language - not just new language.

MAIN PART: Multilingual people , especially children, are skilled at switching between two systems of speech, writing , and structure. According to a study from the Pennsylvania State University , this "juggling" skills makes them good at multitasking , because they can - easily switch among different structures. In one study, participants used a driving simulator while doing separete, distracting tasks at the same time .The research found that people who spoke more than one language made fewer errors in their driving.

There is a wide range of studies conducted on this on topic ,and the results are consistent. For monolingual adults, the mean age for the first signs of dementia is 71.4 .For adults who speak two or more languages ,the mean age for those first sign is 75.5 .Studies considered factors such as education level, income level, gender, and physical health , but the results of the American Academy of Neurology speaking more than one language increases the amount of neural pathways in the brain,allowing information to be processed through a greater variety of channels. Maria Estela Brisk, Margaret M. Literacy and Bilingualism: A Handbook for All Teachers . Lawrence Erlbaum Associates,2000.p.14-18They have also begun to demonstrate that multilingualism improves dvelopment in the brain`s areas of executive function and attention,no matter what age the language learner is. Additionally , educators often liken the brain to a muscle , because it functions better with exercise . Learning a language involves memorizing rules and vocabulary ,which helps strengthen that mental"muscle" .This exercise improves overall memory ,which means that multiple language speakers are better at retaining shopping lists , names and directions. A study from Spain`s University of Pompeu Fabra revealed that multilingual people are better at observing their surroundings.They are more skilled at focusing on relevant information and editing out the irrelevant .They are also better at spotting misleading information.Is it any surprise that Sherlock Homes and Hercule Poirot are skilled polyglots ?[3; p-262].

Peter Homel, Michael Palij. Childhood Bilingualism; Aspects of Linguistic, Cognitive and Social Development . Lawrence Erlbaum Associates,1987. According to Chicago,bilinguals tend to make more rational decisions .Any language contains nuance in its vocabulary,and this bias can subsconsciously influence your judgment . Bilinguals are more confident with the choices after thinking it over in second language and seeing whether their initial conclusions still stand up[4; p- 321]. As our world becomes more and more connected through technological advances ,it is becoming increasingly obvious that learning another language is beneficial for many reasons .After learning one foreign language ,it is easier to learn another one .As you begin to learn a second language begin to learn a second language ,you will find that the acquisition techniques you are using can be applied to learing additional languages as well . Austrian philosopher Ludwin Wittgenstein is credited with saying that "the limits of your language are the limits of your world".

Li Wei ,Jean-Marc Dewaele opportunities an d Challenges of Bilingualism. Lawrence Erlbaum 2002. How many

opportunity doors can a language open for you? Nowadays learning a second language is very easy. Mostly all schools and colleges give the opportunity to their students for learning a second language. Business companies are interested in people who can expand their lines, because international business is the most important thing for them. Learning a new language is crucial for many purposes. It is essential to point out that knowing more than one language opens up your vacation destination possibilities. Traveling through a foreign country becomes much easier if you can speak the language of that country.Fluency isn`t required . "[5; p- 81].

Locals anywhere appreicate that you have taken the time to at least attempt to learn and communicate in their language . It shows a greater level of respect and is easy way to meet new people.It is commonly argued that bilingualism is becoming a progressively necessary and essential skill for anyone who wants to keep up with today` srapidly increasing global economy . As more and more people recognize the importance of learning an additional language those who only speak one language will begin to get left behind in our shift towards a more integrated and connected global society. In order to master a new language ,conversations with native and fluent speakers are paramount. If you are shy but want to practice your speaking skills there is no substitute for spend with native speakers in making new friends, expanding your horizons and broadening your life experience .It is obvious that confidence increases when a new skill is mastered, and learning a foreign language is no different .It increases your self - confidence. Confident people are more interesting than those who are unsure of themselves. The techniques you use to develop a second language result in a greater sense open - mindedness.

There are also cultural benefits of bilingualism. For immigrant families and communities , raising bilingual children who can speak the language of their family and friends back in their country of origin preserves important relationships, traditions and identity. .Edith Harding- Esch, Philip Riley. The Bilingual Family; A Handbook for Parents. Cambridge University Press, 2003 .For families who speak foreign language at home , developing a high level of proficiency in another language opens doors to other ways of thinking about the world and the possibility of relationships with people in other communities and other countries . Some evidence also points to possible economic benefits of bilingualism. A study by the University of Florida found fully bilingual Hispanics earn an average of nearly $ 7,000 more per year than their peers who speak only English ,and that "corporations cannot find enough fully proficient bilingual employees." [6; p- 257] .Being able to speak two languages not only has practical and educational benefits. In addition ,it is healthy. With mastering two languages brain trains regularly. This extra training appears to translate into health benefits at old age,when brain deterioration sets in and its impact on brain functioning .The benefits of bilingualism don`t stop at elevated cognitive function or protection from neurodegerative discases . It is not surprising that learning a new language boosts the number of people with whom you can converse, but the latest round of research cinfirms that bilingualism changes how you communicate with others. Psychologists at the University of Chicago took to decumenting the social skills of bilingual and monolingual children. According to this study a person whonis able to speak two or move languages is better equipped to socialize with others who are also bilingual.

CONCLUSION :Asian languages would be able to have a lively discussion with someone who eats this fascinating food . They would probably be more accepting and even consider taking part in this custom social situations often results in a better understanding of the context in which conservations take place,reveals details about interpersonal relations and link places with conservation. A recent follow- up study , also completed by Katherine Kinzler pf cornell University and her colleagues at the University of Chicago ,showed that bilingual infants understand the idea of perspective. One conclusion researches reach is that multilingual speakers . Learning a foreign language improproblems and too one you ves not only your ability to solve problems and to think more logically ,it also makes you experiment with new words and phrases Leveling up your second language skills forces you to reach for alternate words when you can`t remember the original one you wanted to use . It improves you skill in divergent thinking, which is the ability to identify multiple solution to a single problem

Literature:

1.Christina Bratt Pauluston: ”Internation Handbook of Bilingualism and Bilingual Education” .Greenwood press, 1988.p.78
2.Ellen Bialystok .Bilingualism in Development:Language,Literacy and Cognition . Cambridge University Press,2001 .p.108.
3.Maria Estela Brisk, Margaret M. Literacy and Bilingualism: A Handbook for All Teachers . Lawrence Erlbaum Associates,2010.p.262.
4.Peter Homel, Michael Palij. Childhood Bilingualism; Aspects of Linguistic, Cognitive and Social Development . Lawrence Erlbaum Associates,1987.p.321
5.Li Wei ,Jean-Marc Dewaele.opportunities an d Challenges of Bilingualism. Lawrence Erlbaum 2012.p.81
6.Edith Harding- Esch,Philip Riley.The Bilingual Family; A Handbook for Parents. Cambridge University Press,2003 .p.257.

Z.Məmmədova, G.Rəhimova
1. Filologiya elmləri doktoru,professor
2. Filologiya üzrə fəlsəfə doktoru,dosent
Azərbaycan Tibb Universitet.Xarici dillər”kafedrası
I- mail: zmemmedova@amu.edu.az
ORCID: 0009-0005-2688-4961
2-mail: grehimova@amu.edu.az
ORCID: org\0009-0007-4549-4285

MÜASİR İNGİLİS DİLİNDƏ BLİNGVİZMİN ROLU VƏ ƏHƏMİYYƏTİ HAQQINDA

Xülasə

Müasir dövrdə iki dilin öyrənilməsi ilə bağlı çoxlu tədqiqatlar aparılmışdır. Bir çox tədqiqatlar iki və ya daha çox dildə danışmağın üstünlükləri barədə çox yazılmışdır.Məsələn, iki dildə danışmaq beynin fəaliyyətinə yaxşı təsir edir, təfəkkür prosesini sürətləndirir,yaddaşı yaxşılaşdırır, diqqəti və yaradıcılıq məhsuldarlığını artırır,daha şüurlu qərarlar

verməyə imkan verir. Xarici dilin öyrənilməsi doğma dilin mükəmməlləşdirilməsinə kömək edir. İki dildə danışmaq beyni daim məşq etdirir. Bu səbəbdən də blinqvlər başqalarına nisbətən xarici dilləri daha asan öyrənirlər və onlarda Alsheymer (unutqanlıq) xəstəliyi belə bir neçə il gec yaranır . Bilinqvlər daha yaradıcı insanlar olurlar . İkinci dilin öyrənilməsi doğma dilin daha dərindən fikirləşmə bacarığını inkişaf etdirməklə yanaşı onun söz və ifadələrin mükəmməl öyrənilməsinə kömək edir. Söz ehtiyatının artması ilə hər tərəfli fikirləşmə bacarığı formalaşmış olur və İki dildə danışanların əhatəsi daha geniş olur.

Açar sözlər: fayda, İngilis dili, inkişaf, tədqiqatlar,termin

З.Маммадова, Г.Рагимова
1. Доктор филологических наук, профессор
2. Доктор философии в области филологии, доцент
Азербайджанский медицинский университет. Кафедра иностранных языков
E-mail: zmemmedova@amu.edu.az
ORCID: 0009-0005-2688-4961
2-mail: grehimova@amu.edu.az
ORCID: org\0009-0007-4549-4285

О роли и значении двуязычия в современном Английском языке

Резюме

В современном время проводились многие исследования по одновременно изучению двух языков.Несколько исследование, написали об целесообразность изучение двух и более двух языков. Например, говорить на двух языках хорошо способствует в развитие мозга, прекрасно способствует умственному развитие, способствует развитию памяти, увеличивает творческий способность. Люди говорящие на двух языках более сознательно выполняют поставленное задание. Изучение иностранных языков, помогает усовершенствовать собственный родной язык. Говорить на двух языках постоянна тренирует мозга, поэтому,те говорящие на двух языках изучают иностранные языки более легкий и у них болезнь Alsheimer бывают нескольких лет позже. Люди говорящие на двух языках бывают более творческие. Изучение второго языка развивают способность думать глубока. Помогает изучать лучше слова и выражение в родном языке. Увлечение запас слов формирует способность думать универсально. Люди говорящие на двух языках имеет большой обзор.

Ключевые слова: польза, развитие, исследования,термин

Reviewer: Doctor of Philological Sciences, Associate Professor Yusif Suleimanov

DOİ 10.24412/2218-7588-2026-1-51-54

İsgəndərova Nüşabə Ramiz qızı

MƏTN DİLÇİLİYİNDƏ KATEQORİYALARIN SİSTEMİ VƏ FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ

Filologiya üzrə fəlsəfə doktoru., dosent
Azərbaycan Dövlət Tibb Universiteti
nushaba.isgandarova@gmail.com
Orcid id: 0000-0002-5315-341X

Xülasə. Bu məqalə mətn kateqoriyalarının müəyyənləşdirilməsi probleminə toxunur və mətnin formalaşması prosesində ayrılmaz və tam bir struktur kimi özünü göstərən müxtəlif kateqoriyaların təhlilini təqdim edir. Tədqiqatın aktuallığı müasir dilçilikdə mətn kateqoriyaları məsələsinin kifayət qədər inkişaf etməməsi və bu sahədə çoxsaylı mübahisəli aspektlərin mövcudluğu səbəbindən aktiv müzakirə mövzusu olaraq qalması ilə müəyyən edilir. Tədqiqatda linqvistik təhlilin təsviri və müqayisəli metodları tətbiq olunur. Məqalənin yekun hissəsində bütün mətn kateqoriyalarının bir-biri ilə sıx bağlı olduğu, vahid bir sistem təşkil etdiyi və bir-birini tamamladığı qənaətinə gəlinir.

Açar sözlər: mətn, kateqoriya, mətn nəzəriyyəsi, mətn vahidi, qrammatik məna

Giriş: Mətnin əsas vahidi məsələsi dilçilikdə mühüm nəzəri problemlərdən biri kimi qəbul edilir. Bu baxımdan aparıcı yanaşma ondan ibarətdir ki, mətn vahidi cümlədən daha geniş quruluşu əhatə etməlidir. Sadə cümlə ilə müqayisədə mürəkkəb cümlələrin bir neçə sadə cümlənin birləşməsi əsasında formalaşması onları mətnin minimal vahidi kimi qəbul etməyə müəyyən əsas yaradır. Mətn nəzəriyyəsinin kateqoriyalar və əlamətlər çərçivəsində öyrənilməsi isə bu sahədə sistemli yanaşmanın əsasını təşkil edir (2, s. 4; 1, s. 364).

Mətn kateqoriyalarının müəyyənləşdirilməsi müasir dilçiliyin aktual və eyni zamanda mürəkkəb problemlərindən biridir. Bu sahədə vahid mövqenin olmaması müxtəlif tədqiqatçıların fərqli metodoloji yanaşmalarından irəli gəlir. Mətnin həm struktur, həm də məzmun baxımından təhlili onun kateqoriyalarının müxtəlif aspektlərdən izahına səbəb olur. Bəzi hallarda kateqoriya ilə əlamət anlayışları eyniləşdirilir, digər hallarda isə onların sərhədləri aydın şəkildə fərqləndirilir (6, s. 74; 7, s. 3-8).

Əsas hissə: Mətnlərin növlərə bölünməsi də bu problemə təsir edən amillərdəndir. Xüsusilə bədii və qeyri-bədii mətnlərin fərqləndirilməsi onların kateqorial xüsusiyyətlərinin izahında mühüm rol oynayır. Qeyri-bədii mətnlərin müxtəlif fəaliyyət sahələrinə aid olması onların struktur və funksional baxımdan bir-birindən seçilməsinə səbəb olur və bu da ümumi təsnifatı çətinləşdirir (8, s. 81).

Dilçilikdə qəbul olunmuş yanaşmalardan birinə görə, hər hansı tədqiqat obyektinin öyrənilməsi onun kateqoriyalarının müəyyənləşdirilməsi ilə sıx bağlıdır. Bu baxımdan mətn də istisna təşkil etmir və onun mahiyyətinin açılması üçün kateqorial xüsusiyyətlərin araşdırılması vacib hesab olunur (2, s. 4).

Mətn kateqoriyalarının müəyyənləşdirilməsində əsas çətinliklərdən biri "kateqoriya" anlayışının çoxşaxəli xarakter daşımasıdır. Bu termin fəlsəfə, məntiq və dilçilikdə fərqli məzmun çalarları ilə işlədilir. Ümumi mənada kateqoriya obyektiv gerçəkliyin mühüm xüsusiyyətlərini ümumiləşdirən anlayış kimi çıxış edir. Eyni zamanda, müəyyən əlamətlər əsasında obyektlərin qruplaşdırılması və ya dil sistemində qrammatik münasibətlərin ifadəsi kimi də izah olunur (1, s. 364; 3, s. 230).

Mətnin kateqoriyaları. Mətnin kateqoriyası nitq məhsulunun onu başqa dil hadisələrindən fərqləndirən spesifik əlamətləri kimi təyin edilir (1, s. 364). Bu halda müəyyən əlamətlərin toplusu kateqoriya olur. Belə təyinetmə kateqoriyanın ikinci izahına uyğun gəlir.

Təhlil göstərir ki, mətnin əlaməti ilə mətnin kateqoriyası çox zaman eyniləşdirilir. Kateqoriya mətnin əlamətindən daha çox mücərrəddir, daha ümumiləşdirici səciyyə daşıyır və sahə strukturuna malikliklə seçilir. Mətnyaradıcı kateqoriyaların universallığı onların mətnin dilindən janr və növündən asılı olmayaraq əlaqəli mətndə üzə çıxmasındadır.

Bədii mətnin universal mahiyyəti baxımından kateqoriya bu mətnin məzmununun elə mücərrədləşdirilmiş pilləsi hesab edilir ki, bu halda konkret bədii mətnin məzmununa xas olan ideal mahiyyətlər ayrılsın (5, s. 61). Müəllifin istifadə etdiyi "bədii mətnin məzmununa xas olan ideal mahiyyət" ifadəsi qeyri müəyyəndir.

Mətnin kateqoriyalarını müəyyənləşdirməyi mətn dilçiliyinin mühüm məsələlərindən biri hesab edən, mətni tamamlanmış nitq əsəri sayan, mətnin kateqoriyalarını mətnin xüsusi əlamətləri kimi ayıran İ.R.Qalperin mətnin 10 əsas kateqoriyasını ayırmışdır: 1) informativlik; 2) hissələrə bölünmək; 3) koheziya; 4) kontinuum; 5) mətn parçalarının avtosemantikliyi; 6) retrospeksiya; 7) prospeksiya; 8) modallıq; 9) inteqrasiya; 10) tamamlanma [2, s. 76]. İlk dəfə İ.Qalperinin diqqət mərkəzinə çəkdiyi bu məsələyə sonralar ardıcıl olaraq müxtəlif tədqiqatçılar müraciət etmişlər. Nəticədə bir sıra digər mətn kateqoriyaları adları da ədəbiyyatda qeydə alınır. Əvvəlki informasiya, sonrakı informasiya, inisiallıq/qeyri-inisiallıq, proqressiya və staqnasiya, müəllif obrazı, bədii məkan, bədii zaman, mətnaltı məna, fərdilik, aspektuallıq kimi kateqoriyalar bu qəbildəndir. Göründüyü kimi, mətn kateqoriyalarının ifrat çoxluğu müşahidə olunur. Mətn kateqorilaranın çoxluğu məsələsinə münasibətini bildirən bu kateqoriyaların dairəsinin genişlənməsini nitq əlamətlərini (məsələn, informativlik) mətn üzərinə köçürmək, tam və hissə münasibətini pozmaq (prospeksiya və retrospeksiya), ekstralinqvistik amilləri kateqoriallaşdırmaq (məsələn, presuppozisiya) ilə əlaqələndirilir (1, s. 12).

Şübhəsiz ki, mətn kateqoriyaları mühüm və vacib əlamətlər üzrə təyin olunmalıdır. Bununla belə, mətn kateqoriyaları çərçivəsinə daxil edilən hər bir hadisənin də ətraflı öyrənilməsi vacibdir. Çünki bu, mətnin

kommunikativ mahiyyətinin açılmasına kömək göstərir. Məsələn, presuppozisiya linqvistik şərt kimi qəbul edilmədikdə məzmunun elliptik formaları ilə işlənən cümlələrin kommunikativ qənaətbəxşliyini izah etmək mümkün deyildir. Presuppozisiya haqqında yalnız ekstralinqvistik əlamət kimi danışmaq da özünü doğrultmur.

Konkret mətnin təhlili zamanı presuppozisiyanın mətn kateqoriyası və ya zəruri ekstralinqvistik şərti olmasını səciyyələndirmək, yaxud qiymətləndirmək də ayrıca bir məsələdir.

Bədii mətnə münasibətdə 14 mətnyaradıcı kateqoriya fərqləndirilir: 1) tamlıq; 2) əlaqəlik; 3) bitkinlik; 4) mütləq antroposentiklik; 5) sosiallıq; 6) dialoqluq; 7) açıqlıq; 8) ardıcıllıq; 9) statiklik; 10) dinamiklik; 11) gərginlik; 12) estetiklik; 13) obrazlıq; 14) yozumluluq.

A.N.Moroxovski mətn kateqoriyalarının belə «tükənməyən» çoxluğunu mətnin obliqator (əsas) və fakultativ əlamətlərini eyniləşdirmək, mətn və onun kateqoriyalarının əlamətlərinin keyfiyyətlə fərqləndirməyin qeyri-dəqiqliyində görür. Müəllif mətn kateqoriyalarının iyerarxiyasının qurulmadığını da diqqət mərkəzinə çəkmişdir (7, s. 3-8).

Yuxarıdakı təsnifdə tamlıq və əlaqəlik mətnin fundamental kateqoriyası sayılır və fundamental kateqoriyaların onlara yaxın gələn kateqoriyaları öz ətrafına çəkərək qruplaşdırılması qeyd olunur (6, s. 42).

T.V.Matveyeva mətn kateqoriyasını mətnin qarşılıqlı əlaqəli mühüm əlamətlərindən biri hesab edir. Onun fikrinə görə, kateqoriya mətnin ümumi məzmununun müəyyən hissəsinin dilin, nitqin və eləcə də bilavasitə mətnin [kompozitiv) müxtəlif vasitələri ilə inikasıdır (6, s. 74).

Mətn kateqoriyası sadə əlamət deyil, mühüm, əhəmiyyətli (qlobal, fundamental) əlamətdir. Ona görə də, ilk növbədə, mətnin fundamental əlamətlərini linqvistik obyekt olaraq ayırmaq lazım gəlir. Təbii ki, bu zaman dil, onun vahidləri və mətn haqqındakı ən müasir biliklər nəzərə alınmalıdır.

Mətn kateqoriyalarına münasibətdə diqqəti cəlb edən bir cəhət də budur ki, tədqiqatçılar bu anlayışı həm mətn keyfiyyəti, həm sahə, həm də mətnin təhlil vahidi kimi qəbul edirlər. Aydındır ki, belə yanaşma mətn kateqoriyaları siyahısına yeni hadisələrin daxil edilməsinə zəmin yaradır. Məsələn, temporallıq və bağlılıq (prospeksiya+retrospeksiya).

XX əsrin əvvəllərində mətnə sistem münasibət formalaşmışdır. Bu münasibətdə modus (mətn modallığı, müəllif modallığı) əlamətinə xüsusi diqqət verilir. Mətn müəllif modallığı ilə möhkəmləndirilmiş funksional, məzmun və struktur tamdır. Mətnin öyrənilməsinə kommunikativ aspektdən yanaşmada mətnin formal-struktur aləmətləri - hadisə, zaman və məkan; eləcə də, kommunikativ aktın iştirakçıları, dialoqluq kateqoriyası kimi təqdim edilən nitq subyektləri mətnin əsas kateqoriyalarını təşkil edir. Bu kateqoriyalar sisteminə janr və üslub sahələri də əlavə olunur.

O.N.Kopıtovun fikrinə görə fundamental kateqoriyalar üç tələbə eyni zamanda cavab verməlidir: 1) kompozitivlik (mətnin tamlığı və əlaqəliliyi); 2) sahə; 3) təhlilin işlək vahidi olmaq. Müəllif bu üç tələblə yanaşı, kateqoriyaların qarşılıqlı bağlılığını da ön plana çəkmiş və aşağıdakı 5 fundamental kateqoriyanı ayırmışdır:

1. Adresant və adresat kateqoriyası. Bunlardan birincisi müəllifə aid olan bütün xüsusiyyətləri özündə birləşdirir. O, ideya müəllifindən başlayaraq diktora və skriptora qədər, müəllif şəxsdən başlayaraq, bədii əsəri nəql edən ən ekzotik (it, pişik, eşşək, at, canavar və s.) müəllifədək, bəzən anonim qalan müəllifi də nəzərdə tutur. İkinci termin (adresat) oxucu və ya dinləyicini bildirir. Burada da oxucunun, dinləyicinin hər cür keyfiyyəti (savadlı, savadsız, yaxşı, pis, qəddar, rəhmdil və s.) nəzərə alınır.

2. Xronotop kateqoriyası. Bu kateqoriya zaman və məkan bağlılığının bütün formalarını (real, irreal) əhatə edir.

3. Hadisə kateqoriyası (işlərin, vəziyyətin müəyyən gedişi, halı; onun radiusu bütün mətnin radiusuna bərabərdir). Mətnin əsasında bir hadisə durur. Bu hadisə kifayət qədər çox və müxtəlif alt hadisələri özündə cəmləşdirir. Mətndə hadisənin təsviri bütün aktantları nəzərdə tutur.

4. Aktant kateqoriyası (nəqlin qəhrəmanı, təsvir predmeti, müzakirə mövzusu). Aktant-1- baş qəhrəman, aktant-p-personajlar; aktant-1-baş mövzu/əsas mövzu; aktant-n-alt mövzular/ yarım mövzular; aktant 1-təsvirin əsas obyekti, aktant-n onun əlamətləri və ya hissələri, yaxud aktant-1-i tamamlayan obyektlər.

5. Diktum və Modus kateqoriyası. Diktum mətndə olub real gerçəklikdəki ilə üst-üstə düşən, ona bərabər və ya uyğun olandır. Modus mətndə olan və onun diktumu üzərində məntiqi psixoloji əməliyyatlar aparılmaqla formalaşandır (4, s. 151-152).

Mövzu əsası ilə informasiya axını əlaqəlilik (koheziya) katoeqoriyasının bütün paradiqmalarını əhatə edir. Bura qrammatik-bağlayıcılar, anafora; semantik-sücet xətti, mövzu və üslubi əlaqələndirmə, remanın inkişafı, intertekstual əlaqələr və s. aiddir. Mətnin modusuna uyğun gələn müəllif başlanğıcı, sahə (sahə subkateqoriyası) müxtəlif səviyyə vahidlərini əhatə edir. Qiymətləndirmə, temporallıq-lokallıq-şəxs (aktuallaşma), imperativlik, sosial-modus, müəllifləşdirmə və doğruluğun ifadə üsulları vardır. Mətnin bağlılıq problemində, ilk növbədə, diqqəti cəlb edənləri mətnin düzgün və qeyridüzgün qurulması və nəqletmə (narrativ) qrammatikası prinsipləridir. Bura müxtəlif predmettamamlanması ilə fərqləndirilən tipoloji süjetlər də daxildir. Mətnin tamamlanması məcburi deyil, fakültətivdir. Mətnin bağlılıq və tamlıq kateqoriyası əsasında təhlili mətnini dinamikasını, çətin aşkarlanan "müəllif obrazı"nı aşkara çıxara bilmir.

Bəzən mətnin bütün əlamətlərini funksional semantik və üslubi spektrlər arasında bölürlər. Məsələyə bu yöndən yanaşdıqda İ.Qalperinin irəli sürdüyü 10 kateqoriya funksioanl və semantik sahələr üzrə paylanır. Hissələr bölünmə, koheziya, retrospeksiya və prospeksiya, inteqrasiya və tamamlanma funksional, informativlik, avtosemantiklik, mətn parçaları, kontinium, modallıq isə semantik sahəyə daxil olur.

F.U.Cabbarova mətn kateqoriyasının öyrənilməsində istifadə olunan metadil terminlərini sadalayaraq onların

sinonim olması qənaətinə gəlir və bundan sonra mətn kateqoriyasını belə izah edir: "Mətn kateqoriyasını mətnin müvafiq xüsusiyyətlərini aşkara çıxaran əlamətlər və ya anlayışlar toplusu kimi təyin etmək olar" (3, s. 230).

Mətn kateqoriyalarının sayı tədqiqat işlərində müxtəlif sayda qeydə alınır. Bu saya 1-dən (N.D.Zarubina, O.I.Moskalskaya) başlayaraq dəyişir. İ.R.Qalperin onların sayının 10 olduğunu göstərmişdir.

Z.Y.Turayeva, I.R.Qalperin, V.V.Odinsov və başqaları mətn kateqoriyalarını iki qrupa struktur və məzmun qruplarına ayırmışlar. Z.Y.Turayeva bu kateqoriyaların bir-birini qarşılıqlı şərtləndiyini göstərir. Çünki kateqoriyaları həm məzmun, həm də formal tərəfi vardır. Struktur kateqoriyalar mətnin strukturunda yer alır və linqvistik obyekt kimi ona xasdır. Məzmun kateqoriyalar obyektiv gerçəkliyi əks etdirməklə səciyyələnir (8, s. 81).

T.V.Matveyeva mətnin bütün kateqoriyalarını xətti, sahə və həcmi olaraq üç qrupa bölür (6, s. 16). Onun fikrinə görə, xətti kateqoriyalar bir funksional-semantik mənsubluğa malik dil vahidləri zəncirini əhatə edir. Bura tematik zəncir, mətnin məntiqi parçalanması, prospeksiya/ retrospeksiya aiddir. Sahə kateqoriyası müxtəlif səviyyə vahidləri ilə səciyyələnir. Bu vahidlər semantik yaxınlıq, mətn funksiyaları, dil vahidlərinin təşkilolunma üsullarına görə qruplaşır. Mövzu müəyyənliyi, tonallıq və qiymətləndirmə (subyektiv modallıq), temporallıq (zaman sahəsi), lokallıq (məkan sahəsi), tonallığın, zamanın və qiymətləndirmənin əlavə ifadə vasitələri, mətnin subyektiv təşkili (müəllifləşdirmə) bu qrupda yer alır. Həcmi kateqoriyalar struktur səciyyəlidir. Onlar xətti və sahə kateqoriyaları əsasında modelləşir.

Nəticə: Aparılan təhlillər göstərir ki, mətn kateqoriyaları məsələsi müasir dilçilikdə hələ də tam həllini tapmamış mürəkkəb problemlərdən biridir. Müxtəlif tədqiqatçılar tərəfindən fərqli şəkildə izah edilən bu anlayış, əslində, mətnin çoxqatlı və sistemli təbiətindən irəli gəlir. Aydın olur ki, mətnin kateqoriyaları ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqə və vəhdət şəklində fəaliyyət göstərir. Bu isə mətnin bütöv bir kommunikativ struktur kimi dərk edilməsini təmin edir və onun linqvistik təhlilində kompleks yanaşmanın zəruriliyini bir daha təsdiqləyir (6, s. 16; 5, s. 61).

Məqalənin aktuallığı. Mətnin kateqoriyalarını və əlamətlərini öyrənməyi aktuallaşdıran cəhət bu problemin mürəkkəb və olduqca mübahisəli olmasından irəli gəlir.

Məqalənin elmi yeniliyi. Mətn kateqoriyalarının ifrat çoxluğu müşahidə olunduğundan məqalədə təklif edilən təsnif prinsipləri əsasında onların sistemləşdirilməsi məqalənin elmi yeniyini təşkil edir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Praktiki cəhətdən bu elmi araşdırma mətnşünaslıq istiqaməti üzrə, mətnin linqvistik təhlili ilə bağlı aparılan tədqiqatlar üçün xüsusi əhəmiyyət kəsb edə bilər.

Ədəbiyyat

1. Бенвенист Э. Общая лингвистика: пер. с фран. (Общ. ред., вст. ст. и комм. Ю.С. Степанова). М.: Либроком, 2010.
2. Гальперин И. Р. Текст как объект лингвистического исследования. М.: Едиториал УРСС, 2005.
3.Жаббарова Ф.У. Категории текста. (Вестник Башкисркого университета), 2011, №3
4. Копытов, О. Н. Модус публицистического текста. (Научные журналы Урал. гос. пед. ун-та). Политическая лингвистика. №1 (35). (Электронный ресурс - URL: http:// iournals.uspu.ru/ling35, 2011.
5. Лотман Ю.М. Внутри мыслящих миров. Человек-текст-семиосфера-история. М.: Языки русской культуры, 1996.
Atasözleri, bireysel veya ulusal kültürün değil; çok lehçeli bir medeniyetin ortak sesleridir. Türk lehçeleri üzerinde zıtlık oluşturarak şekillenen atasözleri, dilin yapısını ve kültürel birikimleri aktarmak için zengin kaynaklar sunar. Dilsel birleşiminin, kültürel yapının ve ortak yaşamın izlerini taşır. Bunlar sadece geçmişi yansıtmaz geleceğe dairde anlamlı ifadeler biriktirerek kültürel bağlamda önemli bilgiler verirler.Atasözleri kalıplaşmış ifadelerin yanında kelimesel farklılıkları içinde barındıran en önemli kültürel unsurlardır bu unsurlar doğrultusunda gelişen ifadelerin ortaya çıkardığı birtakım farklılıklar lehçeler arasında ayrışarak günümüze kadar dilden dile yaygınlık göstermiştir. Bu farklılıklar bazen bir dil yapısı ile bazen hayat içinde geçen unsurlar doğrultusunda gelişerek değişimlere uğramıştır. Anlam ve ifade yolunda atasözleri bir kalıp halinde gelişmemiş insanların kendi ifade yönleriyle beraber öğretici ve öğüt verici nitelikler kazandırarak değer yargılarını yansıtmıştır.

Atasözlerinde doğru ve yanlış, var ve yok, aşağı ve yukarı, aç ve tok gibi karşıt kavramların birbiri ile olan etkileşimi doğrultusunda zıtlık oluşturarak kültürel bağlarının zenginliğini ortaya koymuş ve bazı aktarımlarda bulunmuşlardır (Acar, 2022: 414).

Milletlerin aynı kültürü paylaşmasını sağlayan dilsel anlamda farklılıklar sunsa bile bir olmanın önemini bize vurgulayan en önemli eserlerdir. Çobanoğlunun, ifadesin de "Türk atasözleri, milli karakterimizi yansıtan, coğrafya, lehçe vb. farklılıklarının ötesinde bütün Türkler'i birleştiren önemli bir kaynaktır " (Çobanoğlu, 2004: 1).

Atasözleri bir millettin temel yapısını ve düşünsel birikimlerini en güzel şekilde ifade eden yapı taşlarıdır. Memmedov, bu konuda "Atasözü, insanların zihinsel durumunun kelimelere yansıması ve parlak bir tezahürdür. Atasözlerinin muhtevası, insanların zihinsel gelişim düzeyini, doğuştan gelen yeteneklerini, estetik anlayışının zarifliğini içermektedir"(Memmedov, 2022:152).

2. İNCELEME

2.1. Yer Yön Zıtlıkları İle Yapılan Atasözleri

Türk dünyası atasözlerinde sıklıkla karşılaştığımız bazı yön adlarının oluşturduğu zıtlıklar, coğrafi dil yapısı ile gelişmiştir. Bu oluşum, insanların çevreye dair algılarının kültürel ve sosyal farklılıklarının var olduğunu anlamamızı sağlar. Atasözlerinin doğrudan gözleme dayalı olarak doğal unsurlar üzerinde de zıtlıklar oluşturduğunu gözlemlemekteyiz. Özellikle doğu, batı, kuzey, güney; bunların yanı sıra yer – yön zarfları ile yapılan bazı örnekler de vardır: İleri, geri, aşağı, yukarı… Bu örnekler, Türk dünyası lehçe gruplarında ise zıtlık kavramı içinde Türkiye Türkçesine göre farklı kelime biçimleri ile yazılmaktadır.

"Aşağı" ve "Yukarı" sözcükleri İle Yapılan Atasözleri

TTÜ. Aşağı tükürsen sakal yukarı tükürürsen bıyık. (TDOAS: 94)
ALTN.Aşağı tükürsem sakalim, yogari tükürsem mıyıgım.(TDOAS:94)
GAZR.Aşakı tüpürürüm sakkaldı yuharıda buğdu.(TDOSA:94)
KAZR.Aşağı tüpürem sakkal yuharı tüpürrem bığ. (TDOAS: 94)
KERK.Aşağı tifirsem sakal, yukarı tifirsem biğim.(TDOSA:94)
KIRM.Aşağı tükürsen sakal, yukarı tükürsen mıyık.(TDOSA:94)
TRKM.Aşak tüykürsem sakal zaya,yokarık tüykürsem murt.(TDOSA:94)

2.2. Anlamsal Zıtlıklar İle Yapılan Atasözleri

Atasözü içerisinde anlamsal olarak birbirine zıt olan kavramların bir arada kullanılmasıyla oluşur. Aynı eylemin hem olumlu hemde olumsuz yönünü vererek oluşur ve bu olumsuzluk anlam bakımından farklılık gösterir." Karşıt anlamlı çiftler ad, zarf ve sıfat durumu sözcüklerden oluşabileceği gibi fiilerden de meydana gelebilir" (Kuyma,2021: 69).

"Doyar" ve "Doymaz" Sözcükler İle Yapılan Atasözleri

TTÜ. Açın karnı doyar, gözü doymaz. (TDOSA:50-51)
GAGZ. Açın karnı doyar, gözü doymaz. (TDOSA:50-51)
OĞZT. Açın könlü toyarsa, gözi toymaz. (TDOSA:50-51)
BALK. Aç güzlinın karni doyar, güzi doymas. (TDOSA:50-51)
BAŞK. Üze tuygan küze tuymagan. (TDOSA:50-51)
KARY. Özi toydı, közü doymadı. (TDOSA:50-51)
KAZK. Aş adam özi toysa da közi toymadı. (TDOSA:50-51)
KRGZ. Açtın kursağı toysa da, közü toyboyt. (TDOSA:50-51)
KIRM. Özü toysa da, közü toymaz. (TDOSA:50-51)
KKLP. Közi toymagannıñ özi toymaydı. (TDOSA:50-51)
KRÇY. Cutnu karnı toysa da közü toymaz. (TDOSA:50-51)
UYGR. Açközniñ özi toysa, közi toymas. (TDOSA:50-51)
TRKM. Açgözüñ garnı doysa da, gözi doymaz. (TDOSA:50-51)

"Bakmak" ve "Bakmamak" Sözcükleri İle YapılanAtasözleri

TTÜ. Bakarsan bağ olur, bakmazsan dağ olur. (TDOSA:127)
UYGR. Baksan bag bolar, bolmisa tag bolar. (TDOSA:127)
TRKM. Bagı baksan, bag bolar, bakmazsan dag bolar. (TDOSA:127)
KARY. Baksan bağ, bakmazsan dağ. (TDOSA:127)

KAZR.Bağa baharsan bağ olar, bahmazsan dağ olar. (TDOSA:127)
KBRS. Bakarsan bağ olur, bakmassan dağ olur. (TDOSA:127)
KIRM. Baksan bag bolur, bakmasan dağ. (TDOSA:127)

2.3. Bağımlı Zıtlıklar İle Yapılan Atasözleri

Atasözlerinde bağımlı karşıt anlamlılık, iki zıt kavramın bir araya gelmesi ve aynı bağlamda olma durumunu ifade eder. Atasözlerinde bağımlı karşıt anlamlılık, sadece bir yargıya bağlı olarak değil; toplumsal ve kültürel söylemler açısından da anlamsal zıtlık oluşturacak şekilde günümüze kadar taşınmıştır.

"Kış" ve "Yaz" Sözcükleri İle Yapılan Atasözleri
TTÜ.Kış kışlığını etmezse yaz yazlığını etmez. (TDOSA:347)
OĞZT. Gış- gış gerek; yaz yaz gerek. (TDOSA:347)
KAZK. Kıs kıstığın kılmasa, jaz jazdığın kılmas. (TDOSA:347)
KIRM. Kış kışlığın etmese, yaz yazlığın etmez. (TDOSA:347)
KUMK. Kış kışlığın etmese, yaz yazlığın etmez. (TDOSA:347)
NOGY.Kıs kıslıgın etpese, yaz yazlıgın etmes. (TDOSA:347)
TRKM. Gıs gışlıgın etmen, yaz yazlıgını etmez. (TDOSA:347)
DBRC. Kış kışlıgın etmese, yaz yazlıgın etmes.(TDOSA:347)
OSML. Kış kış gerek yaz yaz. (TDOSA:347)

2.4. Benzeşme Zıtlıkları İle Yapılan Atasözleri

Türk dünyasının farklı bölgelerinde kullanılan bazı atasözleri, benzeşme yolu ile zıtlıklar oluşturur. Benzeşme (teşbih) zıtlık (tezat), bu iki sanat ile yapılan zıtlıklar mecazlı anlatımı güçlü kılmak ve öğüt verici kelimelerin etkisiyle lehçe grupları içinde kelime farkları oluştururarak zıtlık kurmuşlardır.

"Uzun" ve "Kısa" Sözcükleri İle Yapılan Atasözleri
TTÜ. Eşeğin kuyruğu gibi ne uzar, ne kısalır. (TDOSA:253)
BTRK. Eşeğin kuyruğu gibi ne uzar, ne kısalır. (TDOSA:253)
KBRS. Eşeğin kuyruğu gibi ne uzar, ne kısalır. (TDOSA:253)
KIRM. Eşek kuyrugunday ne uzar,ne kıskalır. (TDOSA:253)
KŞKY. Eşşek kuyruğu tekin ne öz ne yığılır. (TDOSA:253)

2.5. Derece Zıtlıkları İle yapılan Atasözleri

Dil bilimde sıfatlar, zarflar gibi niteleyici yapıların derece bakımından karşılaştırılması veya kademesel biçimde artırılmasıyla görülür. Atasözlerinde bu durum doğrudan olmaz; azlık – çokluk, iyi – daha iyi gibi bu durumlar örtük bir biçimde görülür. Farklı lehçe gruplarında da şu şekilde açıklanır.

"Az" ve "Çok" Sözcükler İle Yapılan Atasözleri
TTÜ. Alacağı olana altı az, verecek olana beş çoktur. (TDOSA:76)
BAŞK. Alganda altay za az, burgende bişey ze küp. (TDOSA:76)
KAZK. Alasığa altav az, beresige besev köp. (TDOSA:76)
KIRM. Bergenge beş kop, Alganga altı az. (TDOSA:76)
KKLP. Alarmanga altay az, berermenge besey köp. (TDOSA:76)
KRGZ. Alarmanga altoo az, berermanga beşöö köp. (TDOSA:76)
NOGY. Alamanga altav az, beremenge besev köp. (TDOSA:76)

2.5. SıfatlarınZıtlıkları İle Yapılan Atasözleri

Sıfatlar, nitelik ve nicelik yolu ile atasözlerine bağlam olarak anlam derinliği kazandıran önemli bir dil ögesidir. Atasözlerinde kullanılan sıfatlar; bir durumu övmek, yermek, karşılaştırarak ders verme amacı ile kullanılmıştır."Sıfatların kullanımı; kişi, nesne veya durumu açıklamada basit ve etkili bir ifade yolu olduğundan atasözlerinde de sıkça kullanılmıştır"(Tokay, 2021:390).

"Büyük"ve"Küçük"Sözcükleri İle Yapılan Atasözleri
TTÜ.Büyük balık küçük balığı yutar. (TDOSA:172)
ALTN.Ulu balik kiçi balikdi cutar. (TDOSA:172)
BALK.Büyük balık küçük balıgi yutar. (TDOSA:172)
GAZR.Böyük balık kiçik balığı eyer. (TDOSA:172)
KAZR.Böyük balık kiçik balığı yeyer. (TDOSA:172)
DLRM.Büyük balık kiçüü yudaar. (TDOSA:172)
BLGR.Büyük balık küçük balığı yutar. (TDOSA:172)
KBRS. Büyük balıg küçük balığı yutar. (TDOSA:172)

"Boş" ve "Dolu" Sözcükleri İle Yapılan Atasözleri
TTÜ. Boş tüfekten iki kişi korkar, doludan bir. (TDOSA:167)
KAZR.Boş tüfengden iki adam korhar doludan bir. (TDOSA:167)
KŞKY.Tüfeñgiñdolusundanbir nefer gorhar, halisinden iki nefer. (TDOSA:167)
TRKM.Oklı tüpenden bir kişi gorkar, oksuzdan mün kişi. (TDOSA:167)

2.6. Eşgüdüm Zıtlıklarİle Yapılan Atasözleri

Eş güdümlü anlatım dilbilgisinde ve, ile, ya da, hem… vb. cümleler içinde oluşan bağlaçlar veya yapısal benzerliklerden meydana gelir.

"Kuru" ve "Yaş" Sözcükleri İle Yapılan Atasözleri
TTÜ.Kurunun yanında yaş da yanar. (TDOSA: 374)
OĞZT.Guru gatında yaş da yanar.(TDOSA: 374)
OSML.Kuru yanında yaş da yanar.(TDOSA: 374)
BALK.Kurunun yanı sıra yaş ta yanar.(TDOSA: 374)
BLGR.Kurunun yanısıra yaş da yanar.(TDOSA: 374)
GAGZ.Kuruynan bile yaş ta yanarmış.(TDOSA: 374)
KAZR.Kurunun oduna yaşta yanar(TDOSA: 374)
KBRS.Kurunun yanında yaş da yanar.(TDOSA: 374)
KIRM.Kurunun katında yaş da yanar.(TDOSA: 374)
KUMK. Kuruga koşulup çiy de yanar.(TDOSA: 374)
KKLP.Kuv işinde cas canar. (TDOSA: 374)
KŞKY. Od düşende yaş ve kuru bile yanar.(TDOSA: 374)
GAZR.Yaş da kurunun oduna yanar.(TDOSA: 374)
KERK.Yaş ta kuru ayağına yanar.(TDOSA: 374)
DBRC.Kurınıñ katında yaş ta canar.(TDOSA: 374)
ALTN.Kuruga koşilip çiy de yanar.(TDOSA: 374)
KARY. Kuru bilen yaş yanar.(TDOSA: 374)
KRÇY.Kurgakga koşulub çiy da yanar.(TDOSA: 374)
UYGR.Hölniñyanida kurukma yanidu.(TDOSA: 374)

2.7. Toplumsal Roller Zıtlıkları İle Yapılan Atasözleri

Atasözleri, toplumun sosyal yapısını oluşan davranış şeklini yansıtan en önemli dil unsurudur. Atasözlerinde bu unsurlar, sosyal statü, aile içi duruma göre şekil alır. Bu değer, idealleri yaşamın birer parçasıdır ve değer yargılarını kültürel bağlamını ifade eder. Bu durum, atasözlerinde geçmişten günümüze kadar sosyal yapı içinde gelişerek gelmiştir. Türkiye Türkçesi başta olmak üzere diğer lehçe grupları içinde de kelime zıtlıkları oluşturmuştur.

"zengin" ve "Fakir" Sözcükleri İle YapılanAtasözleri
TTÜ. Zenginin keyfi gelinceye fakirin canı çıkar. (TDOSA:490-491)
OSML.Zenginin keyfi gelince fukaranın canı çıkar. (TDOSA:490-491)
BALK. Çak gelsın zenginin keyfi, fukaranın cani çıkar.(TDOSA:490-491)
BLGR.Ağanın kefi gelince, fukaranın canı çıkar.(TDOSA:490-491)
GAGZ.Zenginin kefi gelincek fukaaranın canı çıker. (TDOSA:490-491)
KARY.Zenginnın kefı kelgençek, fukarenın canı çığar. (TDOSA:490-491)
KBRS.Zenginin göynü olana kadar fukarenin canı çıkar. (TDOSA:490-491)

3. SONUÇ

Bu çalışmanın temel kaynağı, Özkul Çobanoğlu'nun *"Türk Dünyası Ortak Atasözleri Sözlüğü"*(2004) eseri üzerine oluşturuldu. Bu kaynağa esas alarak Azerbeycan, Türkmenistan, Özbekistan gibi Türk lehçe grupları üzerine zıt anlamlı ifadeler incelenmiştir. Bu incelemeler doğrultusunda karşıt anlamlılık olgusu yanlızca dilsel anlamda değil, aynı zamanda bir toplumun değer yargılarının, kültürel birikimlerinin ve yaşam olgularının yansıması olduğu üzerine durulmuştur.

Bu çalışmada, Türk dünyasına ait farklı lehçelerde yer alan atasözlerinde karşıt anlamlılığının nasıl kurulduğu, hangi sözcük çiftleriyle meydana gelmiş olduğu ve kültürel zemin ile nasıl örtüştüğü detaylı bir şekilde anlatıldı. Alt başlıklar hâlinde zıt anlamlılık olgusu; yön, derece, bağımlı, anlamsal ve nitelik bakımından çeşitli kategoriler altında sistemli şekilde incelendi ve buna bağlı olarak dilsel yapının anlamsal yönü lehçesel farklılıklar arasında görünür kılındı. Bu incelenme kapsamında farklı lehçelerde yer alan karşıtlık olgusu ele aldığımız başlıklar dâhilin de şu şekilde örnekler verilerek anlamlı hale getirildi. Bu örnekler Karşıtlık ilişkileri içinde; yön zıtlıkları (aşağı- yukarı), niceliksel karşıtlıklar (az- çok), anlamsal zıtlıklar (doyar-doymaz), bağımlı zıtlıklar (kış-yaz), benzeşme yolu ile olan (uzun-kısa), vb. başlıklar altında sistematik şekilde değerlendirilmişlerdir. Lehçeler arası farklılıklar sadece biçimsel düzeyde değil anlamsal düzeyde de kendini göstermiştir. Bu durum her lehçenin kendi içinde toplumsal yaşanmışlıklar ile şekillenen temel değerlerini bütünler hâlinde vermiştir. Elde edilen veriler, atasözlerinin Türk dünyasında kültürel birlikteliğin güçlü göstergesi olduğu, lehçe çeşitliliği içinde ortak kültürün ve hayat felsefesinin varlığını devam ettirdiğini ortaya koymuştur.

Sonuç olarak, atasözlerinde karşıt anlamlılık, sadece iki zıt kavramın karşı karşıya getirilmesi ile kalmamış; toplumların görüşünü, ahlaki tutumlarını, sosyal adalet anlayışını ve yaşam deneyimlerini yansıtan çok önemli bilgelik unsurları olarak bilinirler. Ortak kültür mirasını, dilsel çeşitliliğe estetik açıdan kaynak olduğunu ortaya koymaktadır. Aynı zamanda milletlerin hafizasında yer alan değerlerin, duyguların düşünce yapısını nesiller boyu devam ettirmesini sağlayan yapı taşlarıdır.

KISALTMALAR

TDOAS : Türk Dünyası Ortak Atasözleri Sözlüğü
VB : Ve benzeri
TTÜ : Türkiye Türkçesi
OSML : Osmanlı
BALK :Balkan

BAŞK : Başkurt
BLGR : Bulgar
DBRC : Dobruca
DLRM : Dolgan
GAGZ : Gagavuz
KAZK : Kazak
KAZR : Kazak
KIRM : Kırım
KRÇY : Karaçay
KUMK : Kumuk
TRKM : Türkmen
UYGR : Uygur
KERK : Kerey
ALTN : Altay
URML : Urum
NOGY : Nogay
KRGZ : Kırgız
KŞKY : Kaşkay
OĞZT : Oğuz
KKLP : Karakalpak

KAYNAKLAR

1. Yavuz Acar, E. (2022). Kazak Atasözlerinde Karşıtlıklar. Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (Türklad), 6(2), 413-427
2. Özden, H. Ö. (2001). Türk atasözlerinde insan. *Atatürk Üniversitesi İlahiyat Fakültesi Dergisi*, (15), 75-105
3. Çobanoğlu, Ö. (2004). Türk Dünyası Ortak Atasözleri Sözlüğü. Ankara: Atatürk kültür merkezi yayını: 301.
4. Tokay, Y. (2021). Dîvânu Lugâti't-Türk'te karşıtlık ilkesine dayalı atasözleri. Rumelide Dil Ve Edebiyat araştırmaları Dergisi(24), 386-402.
5. Kuyma, E. (2021). Yunus Emre'nin Dilinde Karşıt Anlamlı Çiftler Üzerine Söz Dizimsel Bir Analiz. Afyon Kocatepe Üniversitesi Sosyal Bilimler Dergisi, 23(Yunus Emre ve Türkçe Özel Sayısı), 69-82.
6. Memmedov, R. (2022). Azerbaycan ve Türkiye Türkçesi'nde Ortak Kullanılan Atasözlerinin Konuları Üzerine. Korkut Ata Türkiyat Araştırmaları Dergisi(8), 151-163.

ABSTRACT:

Proverbs are our most valuable heritage reflecting the priceless culture of a nation. They are information elements that convey our oral cultural accumulation, which offers a transfer from the past to the future, in the most beautiful way; and that give the cultural heritage and lexical richness of more than one nation in the most accurate way, not within a single nation. Proverbs are a set of expressions that keep the same culture alive, even if they have changed within different dialect groups for centuries. These are elements that make the aesthetic functional power of the language, which guides the society, such as giving advice, sustainable for generations. It is known that there are similar structures in different dialects of the Turkish world. These similarities reflect the function of the language; on the other hand, the differences reveal the social or cultural building blocks of the society. Proverbs reflect the traces of the common culture in the dialects of the peoples living in the same geography and the characteristics of the language that are suitable for the local conditions.

In this study, the antonyms in proverbs in the Turkish world were examined. By separating them into subheadings, studies were also conducted on the words including different dialect groups and the necessary explanations were given together with the subject headings. In the study, these types of proverbs were divided into meaning groups and expressed in comparisons by giving examples such as "down"-"up", "less"-"many", "there is"-"none". The proverbs were compiled from the book "Common Proverbs of the Turkish World Dictionary" (2004) by Özkul Çobanoğlu and made more meaningful with examples from the Turkish World dialects such as Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Turkmenistan, Uzbekistan. As a result, it was possible to observe regional expression differences.

Keywords: Antonyms, Turkish dialects, proverbs,

DOİ 10.24412/2218-7588-2026-1-69-71

Sima Quliyeva Məmməd
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent
sima.guliyeva51@gmail.com
https://orcid.org/0009-0007-3538-9078

TEXNİKİ TERMİNLƏRİN TƏRCÜMƏ PROBLEMLƏRİ VƏ TERMİNOLOJİ BAZA YARADILMASI

Xülasə : Məqalədə müstəqillik dövründə Azərbaycan dilində texniki terminlərin tərcüməsi problemləri və terminoloji bazanın yaradılması məsələləri araşdırılır. Qloballaşma və elmi-texniki inkişaf nəticəsində dilə daxil olan yeni terminlərin uyğunlaşdırılması, onların düzgün tərcüməsi və standartlaşdırılması aktual elmi problem kimi nəzərdən keçirilir. Tədqiqatda göstərilir ki, terminlərin tərcüməsində kalkalaşdırma, transliterasiya, məna və təsviri tərcümə kimi üsullar tətbiq olunsa da, hər bir yanaşmanın üstün və çatışmayan cəhətləri mövcuddur. Eyni zamanda terminoloji xaosun qarşısının alınması üçün vahid terminoloji bazanın formalaşdırılması və elektron resursların yaradılması mühüm əhəmiyyət daşıyır.

Açar sözlər: texniki terminlər, tərcümə problemləri, terminoloji baza, kalka, transliterasiya, təsviri tərcümə.

Giriş. Müstəqillik illərində Azərbaycan Respublikasında dil siyasətinin əsas istiqamətlərindən biri milli terminoloji sistemin formalaşdırılması və inkişaf etdirilməsi olmuşdur. Xüsusilə elmi-texniki tərəqqinin sürətlənməsi, informasiya-kommunikasiya texnologiyalarının geniş yayılması və qloballaşma prosesləri yeni anlayışların dilə daxil olmasını zəruri etmişdir. Bu baxımdan texniki terminlərin tərcüməsi və vahid terminoloji bazanın yaradılması mühüm elmi-praktik məsələ kimi aktuallaşmışdır.

Əsas hissə. Texniki terminlər spesifik sahələrə aid anlayışları ifadə etdiyindən onların tərcüməsi adi leksik vahidlərdən fərqli olaraq daha yüksək dəqiqlik və sistemlilik tələb edir. Müstəqillik dövründə Azərbaycan dilinə əsasən ingilis və rus dillərindən daxil olan terminlərin uyğunlaşdırılması zamanı bir sıra problemlər müşahidə olunur. Bu problemlərdən biri terminlərin birbaşa tərcüməsi ilə mənaca adekvat qarşılığın tapılması arasında yaranan ziddiyyətdir.Məsələn, bəzi hallarda terminlər kalkalaşdırma yolu ilə tərcümə olunur, lakin bu zaman onların semantik yükü tam əks olunmur. Digər tərəfdən, alınma terminlərin olduğu kimi saxlanılması dilin daxili inkişaf qanunauyğunluqları ilə ziddiyyət təşkil edə bilər. Terminlərin ya milli dil normalarına uyğunlaşdırılması, ya da beynəlxalq formanın saxlanılması arasında balansın tənzimlənməsi əsas problemlərdən biridir. Qloballaşma şəraitində texniki terminologiyanın böyük hissəsi beynəlxalq xarakter daşıyır. İnformasiya texnologiyaları, mühəndislik, tibb və digər sahələrdə istifadə olunan terminlərin əksəriyyəti ingilis dilindən qaynaqlanır. Bu isə Azərbaycan dilində terminoloji sistemin formalaşmasında xarici təsirlərin güclənməsinə səbəb olur.

Belə təsirlər bir tərəfdən lüğət tərkibinin zənginləşməsinə, digər tərəfdən terminoloji xaosun yaranmasına gətirib çıxara bilər. Eyni anlayış üçün bir neçə sözünişlədilməsiterminoloji dəqiqlikproblemləri yaradır. Buna görə də terminlərin standartlaşdırılması məsələsi xüsusi əhəmiyyət kəsb edir.

Müstəqillik illərində terminoloji fəaliyyətin əsas istiqamətlərindən biri sistemli terminoloji bazanın formalaşdırılması olmuşdur. Terminoloji baza yalnız terminlərin toplusu deyil, həm də onların izahı, istifadəsi və standartlaşdırılması prinsiplərini özündə birləşdirən kompleks sistemdir.

Belə bazanın yaradılması bir neçə mərhələdən ibarətdir: 1.mövcud terminlərin toplanması və sistemləşdirilməsi; 2. terminlərin semantik təhlili və müvafiqqarşılıqlarınmüəyyənləşdirilməsi; 3. elektron terminoloji resursların yaradılması və yayılması.

Elektron terminoloji bazalar müasir dövrdə xüsusi əhəmiyyət daşıyır. Onlar terminlərin operativ şəkildə yenilənməsinə, müxtəlif sahələr üzrə inteqrasiyasına və geniş istifadəçi kütləsinə çatdırılmasına imkan verir. Bu terminoloji resursların yaradılması və yayılması müasir informasiya cəmiyyətində elmi biliklərin sistemləşdirilməsibaxımından mühüm əhəmiyyət kəsb edir. Həmin resurslar müxtəlif sahələr üzrə terminlərin toplanması, standartlaşdırılması, saxlanılması və istifadəçilərə əlçatan formada təqdim olunmasını təmin edən rəqəmsal platformalar kimi çıxış edir.

Elektron terminoloji resursların yaradılması prosesi, ilk növbədə terminlərin etibarlı mənbələrdən toplanması və elmi prinsiplər əsasında təsnifləşdirilməsi ilə başlayır. Bu mərhələdə terminlərin mənşəyi, semantik xüsusiyyətləri, aid olduğu sahə və istifadə konteksti nəzərə alınır. Daha sonra terminlər arasında əlaqələr müəyyənləşdirilir və onların vahid struktur çərçivəsində təqdim olunması üçün xüsusi verilənlər bazası modeli hazırlanır.Bu model terminlərin çoxdilli qarşılıqlarını, sinonim və antonim münasibətlərini, eləcə də izahlarını özündə əks etdirir.

Rəqəmsal texnologiyaların inkişafı elektron terminoloji resursların funksional imkanlarını xeyli genişləndirmişdir. Müasir terminoloji sistemlər axtarış mexanizmləri, interaktiv istifadəçi interfeysləri və avtomatik yenilənmə funksiyaları ilə təchiz olunur. Bu isə həm mütəxəssislər, həm də tədqiqatçılar üçün terminlərə operativ çıxış və onların düzgün istifadəsini təmin edir.

Elektron terminoloji resursların yayılması məsələsi də ən az onların yaradılması qədər vacibdir. Bu proses müxtəlif platformalar – veb-saytlar, mobil tətbiqlər, elmi portallar və açıq məlumat bazaları vasitəsilə həyata keçirilir. Açıq çıxış prinsipinin tətbiqi terminoloji məlumatların geniş auditoriyaya çatdırılmasına şərait yaradır. Bununla yanaşı, terminoloji resursların beynəlxalq sistemlərlə inteqrasiyası da xüsusi əhəmiyyət daşıyır. Bu inteqrasiya müxtəlif dillər arasında terminoloji uyğunluğun təmin edilməsinə və qlobal elmi əməkdaşlığın gücləndirilməsinə xidmət edir.

Elektron terminoloji resursların davamlı inkişafı üçün onların müntəzəm yenilənməsi və ekspert nəzarətindən keçirilməsi vacibdir. Yeni terminlərin əlavə edilməsi, terminlərin təkmilləşdirilməsi və istifadəçi rəylərinin nəzərə alınması bu sistemlərin aktuallığını qoruyur. Eyni zamanda, terminoloji fəaliyyətin koordinasiyalı şəkildə təşkili və müvafiq elmi qurumlar arasında əməkdaşlığın gücləndirilməsi bu sahədə daha yüksək nəticələrin əldə olunmasına imkan verir.

Terminlərin tərcümə üsulu müasir dilçilikdə ən vacib və aktual məsələlərdən biri hesab olunur. Qloballaşma, elmi-texniki tərəqqi və müxtəlif sahələr üzrə beynəlxalq əməkdaşlığın genişlənməsi nəticəsində dillərarası termin mübadiləsi sürətlənmişdir. Bu isə yeni anlayışların düzgün, aydın və vahid şəkildə ifadə olunmasını zəruri edir. Terminlərin tərcüməsi zamanı yalnız sözün lüğəvi mənasını vermək kifayət etmir, onun işləndiyi sahə, kontekst və semantik çalarlar da nəzərə alınmalıdır. Bundan əlavə, uğurlu termin tərcüməsi dilin daxili qanunauyğunluqlarına uyğun olmalı, eyni zamanda istifadəçilər üçün anlaşıqlı və praktik olmalıdır. Bəzi hallarda terminlərin birbaşa tərcüməsi mümkün olmadıqda, transliterasiya, ekvivalent qarşılığın seçilməsi, kalkalaşdırma, təsviri tərcümə və ya yeni termin yaradılması kimi üsullardan istifadə olunur.

Transliterasiya beynəlxalq terminlərin formaca saxlanmasına imkan verir, lakin bəzən onların mənasının dərk edilməsiniçətinləşdirir.Bu tərcümə üsulu sözün fonetik və qrafik xüsusiyyətlərinin hədəf dilə uyğunlaşdırılması əsasında həyata keçirilir, məna isə birbaşa çevrilmədən olduğu kimi qorunub saxlanılır.Transliterasiya xüsusilə elmi-texniki terminlərdə, coğrafi adlarda, şəxsi adlarda və beynəlxalq səviyyədə sabitləşmiş anlayışlarda geniş istifadə olunur. Məsələn, "internet" sözü bir çox dillərdə olduğu kimi *"internet"* formasında saxlanılır və transliterasiya olunaraq istifadə edilir. Eyni qayda ilə "laser" termini Azərbaycan dilində *"lazer"*, "*computer*" termini isə *"kompüter"* şəklində işlədilir. Burada sözlərin forması hədəf dilə uyğunlaşdırılsa da, onların əsas quruluşu və beynəlxalq forması saxlanılır.

Kalkalaşdırma isə terminin strukturunu qoruyur, lakin semantik uyğunluq həmişə təmin olunmur. Ən optimal yanaşma terminin həm məzmununu, həm də dilin normativ xüsusiyyətlərini nəzərə alan kompleks yanaşmadır.

Terminoloji sistemin effektiv fəaliyyəti üçün normativləşdirmə mühüm rol oynayır. Standartlaşdırma prosesi terminlərin vahid formada qəbul edilməsini və istifadəsini təmin edir. Müstəqillik illərində bu sahədə müəyyən nailiyyətlər əldə olunsa da, hələ də bir sıra problemlər qalmaqdadır.Bu problemlər əsasən müxtəlif sahələr üzrə terminlərin koordinasiyasının zəifliyi, terminoloji komissiyaların fəaliyyətinin qeyri-kafi olması və mütəxəssislər arasında fikir ayrılıqları ilə bağlıdır. Nəticədə eyni termin müxtəlif mənbələrdə fərqli formalarda təqdim olunur.E.F.Karski terminlərin tərcüməsi ilə bağlı yazır: "terminlərin tərcümə məsələsi mürəkkəb prosesdir və termini tərcümə edərkən təkcə tərcümə olunan dilin normalarını nəzərə almaq kifayət deyil, donor dilin də qayda-qanunları, normaları eyni dərəcədə əhəmiyyətlidir. Yalnız bu halda terminin əsas məzmunu tam ifadəsini tapa bilər [,s.39].

Tərcümə o zaman uğurlu hesab edilir ki, mənbə dildəki vahidin semantik mahiyyəti və funksional yükü hədəf dildə adekvat şəkildə qorunub saxlanılsın. Bu baxımdan, yalnız formal uyğunluq deyil, məna ekvivalentliyi və kontekstual uyğunluq əsas meyar kimi çıxış edir. Kalka üsulu tətbiq edildikdə isə əsas prinsip tərcümə olunan vahidin struktur modelinin və komponentlərinin mümkün qədər saxlanılmasıdır, yəni mənbə dildəki ifadə forması hədəf dildə analoji şəkildə bərpa olunur.

Terminin sadəcə olaraq mexaniki şəkildə tərcümə edilməsi və ya hədəf dildə adekvat qarşılıq tapılmadıqda onu ümumi xarakterli leksik vahidlərlə əvəz etmək əksər hallarda uğurlu nəticə vermir. Belə yanaşma terminoloji dəqiqliyin pozulmasına səbəb olur. Bundan əlavə, bəzi hallarda terminin semantik tutumu o qədər spesifik olur ki, onu yalnız bir söz və ya sadə ifadə vasitəsilə tam şəkildə ifadə etmək mümkün olmur. Belə vəziyyətlərdə mənbə dildəki terminin daşıdığı məna çalarlarını, konseptual çərçivəni və istifadə kontekstini nəzərə almadan aparılan tərcümə qeyri-dəqiq və natamam olur. Bu baxımdan, terminlərin tərcüməsində əsas məqsəd yalnız formal qarşılıq tapmaq deyil, eyni zamanda anlayışın məzmununu, funksiyasını və sahəvi xüsusiyyətlərini adekvat şəkildə ötürməkdir. Zəruri hallarda izahlı tərcümədən, alınma sözlərdən və ya yeni termin yaradılmasından istifadə olunması daha məqsədəuyğun hesab edilir və terminoloji sistemin sabitliyinə xidmət edir. Məsələn, *hardware* termini – Sözbəsöz "sərt təminat" demək düzgün olmazdı. Azərbaycan dilində qəbul olunmuş qarşılıq "*aparat təminatı*"dır. Bu da göstərir ki, bəzən termin birbaşa yox, konseptə uyğun tərcümə edilir. "Privacy" termini – sadəcə "*gizlilik*" kimi vermək bəzi kontekstlərdə kifayət etmir. Məsələn, hüquqi sahədə "*şəxsi həyatın toxunulmazlığı*" kimi daha geniş və dəqiq ifadə tələb olunur. Burada izahlı tərcümə daha uyğundur.

Kalka alınmalar və məna tərcüməsi yolu ilə formalaşan terminlər həm oxşar, həm də fərqli xüsusiyyətlərə malikdir. Hər iki yanaşmanın əsas məqsədi mənbə dildə mövcud olan terminləri hədəf dilə uyğunlaşdırmaq və yeni anlayışların ifadəsi üçün terminoloji vahidlər yaratmaqdır. Lakin bu iki üsul arasında prinsipial fərqlər mövcuddur. "Tərcümə ilə fərqli məqam ondan ibarətdir ki, tərcümə prosesində yalnız məna tərcümə olunursa, yəni yalnız məna alınması halı müşahidə olunursa, kalkaetmə prosesində həm məna, həm də struktur alınır" [s.209]. Məsələn, *"cloudcomputing"* termini kalka üsulu ilə *"bulud hesablama"* kimi tərcümə olunur. Burada mənbə dildəki sözlərin strukturu saxlanılır və hər komponent birbaşa qarşılığı ilə verilir. Əksinə, *"software"* termini məna tərcüməsi əsasında *"proqram təminatı"* kimi ifadə olunur. Bu halda "soft" və "ware" hissələrinin sözbəsöz tərcüməsi deyil, anlayışın bütöv məzmunu əsas götürülür.

Təsviri tərcümə mənbə dildəki söz və ya terminin hədəf dildə birbaşa leksik qarşılığı olmadıqda onun mənasının izah yolu ilə ifadə edilməsidir. Bu tərcümə üsulunda əsas məqsəd sözün formal ekvivalentini tapmaq deyil, onun ifadə etdiyi anlayışı tam və aydın şəkildə çatdırmaqdır. Təsviri tərcümə daha çox elmi və texniki anlayışların

ifadəsində istifadə olunur. Çünki bəzi terminlər başqa dildə ya mövcud olmur, ya da mövcud olan qarşılıq məna baxımından kifayət etmir. Belə hallarda terminin semantik tutumu geniş şəkildə izah edilir və oxucunun anlaya biləcəyi formada təqdim olunur. Məsələn, *backup– ehtiyat nüsxələnmə*.

Nəticə. Müstəqillik dövründə texniki terminlərin tərcüməsi və terminoloji bazanın yaradılması Azərbaycan dilinin inkişafında mühüm rol oynamışdır. Lakin qloballaşma şəraitində bu proses daha da mürəkkəbləşmiş və yeni yanaşmaların tətbiqini zəruri etmişdir. Qloballaşma nəticəsində dünya dilləri arasında qarşılıqlı əlaqələr güclənmiş və bu, yeni terminlərin yaranmasına və mövcud terminlərin yenidən tərcümə edilməsinə ehtiyac yaratmışdır.Bu proses həmçinin milli texniki terminologiyanın beynəlxalq dil sistemləri ilə uyğunlaşmasını zəruri etmişdir.

Ədəbiyyat siyahısı

1. Abdullayeva-Nəbiyeva V. Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı. Bakı, 2020. 240 s.
2. Карский Е.Ф.Русскаядиалектология. Л., 2015, 172 с.

Сима Кулиева
Институт лингвистики им. Насими
при Национальной академии наук
Доктор филологических наук, доцент
sima.guliyeva51@gmail.com
https://orcid.org/0009-0007-3538-9078

Резюме

Проблемы перевода технических терминов и создание терминологической базы

В статье исследуются проблемы перевода технических терминов в азербайджанском языке в период независимости, а также вопросы создания терминологической базы. В результате глобализации и научно-технического развития внедрение новых терминов в язык, их адекватный перевод и стандартизация рассматриваются как актуальная научная проблема. В исследовании отмечается, что при переводе терминов применяются такие методы, как калькирование, транслитерация, смысловой и описательный перевод, однако каждый из подходов имеет свои преимущества и недостатки. Одновременно подчеркивается важность формирования единой терминологической базы и создания электронных ресурсов для предотвращения терминологического хаоса.

Ключевые слова: технические термины, проблемы перевода, терминологическая база, калька, транслитерация, описательный перевод.

Sima Guliyeva
Nasimi Institute of Linguistics of ANAS
PhD in Philology, Associate Professor
sima.guliyeva51@gmail.com
https://orcid.org/0009-0007-3538-9078

Abstract

Problems of translating technical terms and the creation of a terminological database

The article examines the problems of translating technical terms in the Azerbaijani language during the period of independence, as well as issues related to the creation of a terminological database. As a result of globalization and scientific-technical development, the adaptation of new terms into the language, their accurate translation, and standardization are considered an urgent scientific problem. The study shows that methods such as calquing, transliteration, semantic translation, and descriptive translation are used in the translation of terms; however, each approach has its own advantages and disadvantages. At the same time, the importance of forming a unified terminological database and creating electronic resources is emphasized in order to prevent terminological chaos.

Keywords: technical terms, translation problems, terminological database, calque, transliteration, descriptive translation.

Rəyçi: ***fil.ü.f.d., dos. Svetlana Novruzova***

DOİ 10.24412/2218-7588-2026-1-72-74

Fatimə İbrahimova Xanməmməd
ADU. Müəllim
fatimaibrahimova1@gmail.com
https://orcid.org/0009-0006-8745-6124

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FONOLOJİ İNKİŞAFIN MÜQAYİSƏLİ TƏHLİLİ

XÜLASƏ: Təqdim olunan məqalə müasir dilçiliyin ən aktual və mürəkkəb sahələrindən biri olan fonoloji sistemlərin inkişaf dinamikasının müqayisəli-tipoloji təhlilinə həsr edilmişdir. Tədqiqatın əsas obyekti fərqli dil ailələrinə və fərqli struktur tiplərinə (flektiv və aqqlütinativ) mənsub olan ingilis və Azərbaycan dillərinin fonoloji sistemləridir. Məqalədə hər iki dilin səs quruluşunun tarixi təkamül prosesi, fonemlərin differensial əlamətləri və fonotaktik qanunauyğunluqları qarşılıqlı şəkildə araşdırılır.

İngilis dilində fonoloji inkişafın mərkəzində vokalizm sistemində baş verən köklü dəyişikliklər, xüsusilə saitlərin kəmiyyət və keyfiyyət fərqlərinin (uzunluq və gərginlik) məna fərqləndirici funksiya qazanması dayanır. Bununla yanaşı, ingilis dilinin fonotaktik strukturunda müşahidə olunan mürəkkəb samit yığınları və vurğunun təsiri ilə baş verən reduksiya hadisələri fonoloji inkişafın spesifik istiqamətləri kimi təhlil olunur.

Azərbaycan dilində isə fonoloji inkişaf daha çox sabitlik və daxili nizamla xarakterizə olunur. Burada inkişafın əsas sütunu kimi ahəng qanunu və heca sabitliyi çıxış edir. Məqalədə Azərbaycan dilində saitlərin arxa və ön sıra, dodaqlanma və açıqlıq dərəcəsinə görə qruplaşması və bu sistemin tarixi inkişaf boyu necə qorunub saxlanılması elmi dəlillərlə izah edilir.

Müqayisəli təhlil nəticəsində müəyyən olunur ki, ingilis dili daha çox analitik meyllər nümayiş etdirərək səs sistemində sərbəstliyə yol verdiyi halda, Azərbaycan dili öz fonoloji strukturunda ciddi morfonoloji qanunauyğunluqları qoruyub saxlamışdır. Tədqiqatın nəticələri həm nəzəri fonologiya, həm də praktiki dil öyrənmə prosesində tələffüz modellərinin müəyyənləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: vokalizm, konsonantizm, fonem, ahəng qanunu, fonotaktika.

GİRİŞ: İngilis və Azərbaycan dillərinin fonoloji inkişaf yollarını müqayisə etdikdə, saitlər sistemindəki (vokalizm) dəyişikliklərin hər iki dilin akustik simasını müəyyən etdiyini görürük. İngilis dili fonologiyasının ən böyük inkişaf mərhələsi XV-XVIII əsrləri əhatə edən "Great Vowel Shift" (Böyük Sait Yerdəyişməsi) hadisəsidir.

Bu proses nəticəsində uzun saitlər daha yuxarı qalxmış, ən yuxarıdakılar isə diftonqlaşmışdır. Bu inkişaf müasir ingilis dilində 12 monofonq və 8 diftonqun yaranmasına səbəb olmuşdur. Fonoloji cəhətdən bu, dildə saitlərin həm keyfiyyət (açıqlıq dərəcəsi), həm də kəmiyyət (uzunluq) baxımından diferensiallaşmasına gətirib çıxarmışdır. Məsələn, "tense" (gərgin) və "lax" (boş) saitlər arasındakı fərq ingilis dilinin fonoloji inkişafının mərkəzi nöqtəsidir.

Əsas hissə: Azərbaycan dili fonologiyası isə daha çox sabitlik nümayiş etdirir. Burada 9 sait fonem (a, e, ə, i, ı, o, ö, u, ü) mövcuddur. Azərbaycan dilində fonoloji inkişafı tənzimləyən əsas qanun ahəng qanunu prinsipidir. Bu qanun nəinki kök daxilində, həm də sözə şəkilçi artırılarkən səslərin bir-birinə uyğunlaşmasını tələb edir. Müqayisə üçün qeyd edək ki, ingilis dilində belə bir məcburi fonotaktik qanun yoxdur; orada saitlərin yan-yana gəlməsi daha çox morfoloji deyil, leksik xarakter daşıyır.

Hər iki dilin samitlər sistemi kəmiyyət baxımından yaxın olsa da (ingilisdə 24, Azərbaycanda 23 (və ya 25) fonem), onların paylanma və inkişaf qaydaları fərqlidir. İngilis dili fonologiyasının inkişafı samitlərin həm onset (başlanğıc), həm də coda (son) hissəsində mürəkkəb kombinasiyalar yaratmasına imkan verir. Məsələn, "strengths" [streŋkθs] sözündə gördüyümüz kimi, dildə eyni hecada 3-4 samitin yan-yana gəlməsi fonoloji inkişafın icazə verdiyi bir haldır. Bu, ingilis dilini digər dünya dillərindən fərqləndirən əsas "ağır" fonetik xüsusiyyətdir.

Azərbaycan dilində samitlərin inkişafı daha çox söz ortasında və sonunda müəyyən məhdudiyyətlərlə qarşılaşır. Məsələn, dilimizin fonotaktik qaydalarına görə, sözün əvvəlində iki samit yan-yana gələ bilməz (istisnalar alınma sözlərdir). Fonoloji inkişaf prosesində biz samitlərin karlaşması (məs: kitab [kitap]) və ya asimilyasiya (məs: onlar [ollar]) hadisələrini görürük. Bu hadisələr Azərbaycan dilinin artikulyasiya bazasının asanlaşdırılmasına xidmət edən daxili inkişaf meyilləridir.

Heca hər iki dildə fonoloji sistemin fundamental vahidi olsa da, onun daxili strukturu və sərhədlərinin müəyyənləşdirilməsi fərqli prinsiplərə əsaslanır. İngilis dilində heca strukturu dünyadakı ən mürəkkəb modellərdən biri hesab olunur. Əksər dillərdə heca quruluşu sadə (C)V(C) tipində olsa da, ingilis dili həm onset (başlanğıc), həm də coda (son) hissəsində çoxsaylı samit yığınlarına icazə verir. Məsələn:

Onset mürəkkəbliyi: Play [pleɪ] (CCV), Street [stri:t] (CCCVC).

Coda mürəkkəbliyi: Text [tekst] (VCCCC), Strengths [streŋkθs] (VCCCC).

Bu cür ağır heca strukturları fonoloji inkişaf prosesində dildə vurğunun paylanmasına və ritmik quruluşa birbaşa təsir göstərir.

Azərbaycan dilində heca quruluşu daha şəffaf və sadədir. Dilimizdə 6 əsas heca tipi mövcuddur: V (a-na), VC (at), CV (ba-la), CVC (bağ), VCC (alt), CVCC (dörd). İngilis dilindən fərqli olaraq, Azərbaycan dilində hecanın onset hissəsində iki samitin yan-yana gəlməsi (məsələn, "str-" kimi) daxili fonotaktik qanunlara ziddir. Bu xüsusiyyət Azərbaycan dilini daha ahəngdar və ritmik baxımdan proqnozlaşdırıla bilən edir.

Prosodik xüsusiyyətlər dillərin musiqili strukturunu və nitq daxilində fonemlərin necə qruplaşdığını müəyyən edir. İngilis dilində vurğu dinamik və sərbəstdir. Bu o deməkdir ki, vurğu sözün istənilən hecasına düşə bilər və çox

vaxt sözün mənasını və ya nitq hissəsini dəyişir (məsələn: 'export – isim, ex'port – fel). İngilis dili fonologiyasında vurğu həm də saitlərin keyfiyyətinə təsir edir: vurğusuz hecalarda saitlər reduksiyaya uğrayaraq [ə] (schwa) səsinə çevrilir.

Azərbaycan dilində isə vurğu sabitdir və əsasən sözün son hecası üzərinə düşür. Bu, aqqlütinativ dillər üçün xarakterik bir inkişaf modelidir. Vurğu burada ingilis dilində olduğu kimi saitlərin strukturunu köklü şəkildə dəyişmir, daha çox sözün sərhədlərini müəyyən etməyə xidmət edir.

İngilis dili "stress-timed" (vurğuya əsaslanan ritm) dildir. Bu sistemdə vurğulu hecalar arasındakı vaxt intervalı bərabər olmağa meyllidir, bu da vurğusuz hecaların sürətlə tələffüz edilməsinə (kompressiyaya) səbəb olur. Azərbaycan dili isə "syllable-timed" (hecaya əsaslanan ritm) sisteminə daha yaxındır, burada hər bir hecanın tələffüzünə ayrılan vaxt nisbətən bərabərdir.

Dillərin fonoloji inkişafı səslərin birləşmə imkanlarını da tənzimləyir. İngilis dilində [tl-] və ya [dl-] kombinasiyaları onsetdə mövcud ola bilməz. Azərbaycan dilində isə söz sonunda bəzi samitlərin (b, d, g, c) karlaşması (p, t, k, ç kimi tələffüzü) mütləq fonetik qaydadır.

Aparılan müqayisəli təhlil göstərir ki, İngilis və Azərbaycan dillərinin fonoloji inkişafı fərqli struktur qanunauyğunluqlarına tabedir. İngilis dili mürəkkəb heca və sərbəst vurğu sistemi ilə seçildiyi halda, Azərbaycan dili ahəng qanunu və sabit heca-vurğu strukturu ilə xarakterizə olunur.

Dillərin fonoloji inkişafı birbaşa həmin dildə danışanların artikulyasiya bazası ilə bağlıdır. İngilis və Azərbaycan dillərində səslərin yaranma yeri və üsulu arasındakı fərqlər bu inkişafın əsasını təşkil edir.

İngilis dili fonologiyasında samitlərin əksəriyyəti alveolyar (diş yuvası) səslərdir. [t], [d], [n], [l], [s], [z] fonemləri tələffüz edilərkən dilin ucu üst dişlərə deyil, diş yuvasına toxunur. Bundan əlavə, Azərbaycan dilində olmayan [θ] və [ð] (interdental/dişlərarası) səsləri ingilis dilinin fonetik portretində mühüm yer tutur. Bu səslərin tarixi inkişafı göstərir ki, onlar ingilis dilinin özünəməxsusluğunu qoruyan ən çətin fonoloji vahidlərdəndir.

Azərbaycan dilində isə adları çəkilən [t], [d], [n], [l], [s], [z] səsləri dental, yəni diş səsləridir. Tələffüz zamanı dilin ucu birbaşa üst dişlərin arxa hissəsinə toxunur. Bu fərq iki dil arasında fonetik baryer yaradır. Azərbaycan dilində samitlərin inkişafı daha çox səslərin şəffaflığına və artikulyasiya enerjisinin bərabər paylanmasına yönəlmişdir.

İngilis dilində fonoloji inkişafın ən aktiv prosesi reduksiyadır. Vurğu xarici hecalarda saitlər öz keyfiyyətini itirərək mərkəzi [ə] səsinə çevrilir. Məsələn:

About [əˈbaʊt] – birinci heca tamamilə zəifləmişdir.

Photograph [ˈfəʊtəgrɑːf] vs. Photography [fəˈtɒgrəfi].

Burada vurğunun yeri dəyişdikcə eyni hərflərin fərqli səslərə (və ya reduksiyaya) uğraması ingilis dilinin ritmik dinamikasını təmin edir.

Azərbaycan dilində fonoloji sistem reduksiya hadisəsinə qarşı olduqca müqavimətlidir. Sözün hansı hecasında yerləşməsindən asılı olmayaraq, saitlər öz keyfiyyətini demək olar ki, tam saxlayır. Məsələn, "ana" sözündəki hər iki "a" səsi eyni aydınlıqla tələffüz olunur. Bu, Azərbaycan dilinin "heca ritmli" (syllable-timed) bir dil olmasının nəticəsidir. İngilis dilində [p], [t], [k] samitləri sözün əvvəlində vurğulu heca daxilində aspirasiya (nəfəsli) ilə tələffüz olunur (məs: Pen [pʰen]). Azərbaycan dilində bu hadisə fonoloji bir qayda kimi mövcud deyil. Bu, ingilis dilində samitlərin daha güclü bir partlayış enerjisi ilə inkişaf etdiyini göstərir.

Hər iki dildə kar və cingiltili samit cütlükləri mövcuddur. Lakin Azərbaycan dilində bu cütlüklər (məs: b-p, d-t, g-k) söz sonunda neytrallaşır və cingiltili samitlər karlaşır. İngilis dilində isə söz sonunda karlaşma hadisəsi baş vermir (məs: Bad sözündə [d] samiti sonda da öz cingiltiliyini saxlayır, əks halda məna dəyişib Bat olar).

Hər iki dilin vokalizm sistemində sait birləşmələri mövcuddur, lakin onların fonoloji mahiyyəti köklü şəkildə fərqlənir. İngilis dili fonologiyasında diftonqlar sadəcə iki saitin yan-yana gəlməsi deyil, vahid bir fonem kimi çıxış edən səs kompleksləridir. İngilis dilində 8 əsas diftonq mövcuddur (məsələn: [aɪ] – sky, [eɪ] – face, [əʊ] – home).

Bu səslərin inkişafı göstərir ki, tələffüz zamanı bir sait elementindən digərinə sürüşmə (glide) baş verir. Hətta bəzi hallarda üç saitin bir hecada birləşməsi – trifonglar da(məsələn: [aɪə] – fire, [aʊə] – flower) müşahidə olunur ki, bu da ingilis dilinin vokalizm sistemini son dərəcə mürəkkəbləşdirir.

NƏTİCƏ: Tədqiqatımız göstərdi ki:

1. İngilis dili fonologiyası dinamiklik, reduksiya və mürəkkəb kombinasiyalar istiqamətində inkişaf etmişdir.
2. Azərbaycan dili fonologiyası harmonizm, şəffaflıq və struktur sabitliyi prinsiplərinə sadiq qalmışdır.
3. Hər iki dilin fonoloji inkişaf yolları fərqli olsa da, səslərin artikulyasiya bazasındakı dəyişikliklər hər iki sistemin müasir vəziyyətini şərtləndirən əsas amildir.

Aparılan müqayisəli tədqiqat nəticəsində aşağıdakı elmi nəticələrə gəlinmişdir:

1. İngilis dilinin fonoloji sistemi mürəkkəb samit yığınları və vokalizm kəmiyyəti üzərində qurulmuşdur.
2. Azərbaycan dili fonologiyası ahəng qanunu və heca sabitliyi ilə səciyyələnir.
3. İngilis dilində vurğu və reduksiya dilin qrammatik inkişafına birbaşa təsir etdiyi halda, Azərbaycan dilində fonetik hadisələr morfoloji sabitliyi dəstəkləyir.
4. Xarici dil tədrisində bu fonoloji fərqlərin nəzərə alınması "interferensiya" hallarının (ana dilinin təsiri ilə yaranan xətaların) qarşısını almaq üçün mühüm şərtdir.

ƏDƏBİYYAT

1. Lehiste I. Suprasegmentals. C., 1970.
2. Gussenhoven C., Jacobs H. Understanding Phonology. L., 2011.

3. Kenworthy J. Teaching English Pronunciation. N.Y., 1987.
4. Collins B., Mess I. Practical Phonetics and Phonology. L., 2013.
5. Reed M., John L. The Handbook of English Pronunciation. S., 2015.
6. Roach P. English Phonetics and Phonology. C., 2000.
7. Gordon M. Syllable Weight: Phonetics, Phonology, Typology. R., 2007.
8. Hayes B. Metrical Stress Theory: Principles and Case Studies. C., 1995.
9. Hulst H. Word Stress: Theoretical and Typological Issues. L., 2014.

Фатима Ибрагимова Ханмамед
АУЯ. Преподаватель
фатимайбрахимова1@gmail.com
https://orcid.org/0009-0006-8745-6124

Сравнительный анализ фонологического развития в английском и азербайджанском языках

РЕЗЮМЕ

Данная статья посвящена сравнительно-типологическому анализу динамики развития фонологических систем английского и азербайджанского языков, представляющих разные языковые семьи и структурные типы (флективный и агглютинативный). В работе исследуются процессы исторической эволюции звукового строя, дифференциальные признаки фонем и фонотактические закономерности обоих языков в сопоставительном аспекте.

В центре фонологического развития английского языка стоят коренные изменения в системе вокализма, в частности, приобретение смыслоразличительной функции количественными и качественными характеристиками гласных (долгота и напряженность). Наряду с этим, анализируются сложные консонантные кластеры в структуре слога и явления редукции под влиянием динамического ударения как специфические направления английской фонологии.

Развитие фонологической системы азербайджанского языка характеризуется стабильностью и строгой внутренней упорядоченностью. Основным механизмом здесь выступает закон гармонии (сингармонизм) и слоговая устойчивость. В статье на основе научных данных объясняется классификация гласных по ряду, огубленности и степени открытости, а также сохранение этой системы на протяжении исторического развития.

В результате сравнительного анализа выявлено, что если английский язык демонстрирует аналитические тенденции, допуская значительную вариативность в звуковой системе, то азербайджанский язык сохраняет строгие морфофонологические закономерности в своей структуре. Результаты исследования имеют важное значение как для теоретической фонологии, так и для прикладной лингвистики в контексте определения моделей произношения при изучении иностранных языков.

Ключевые слова: вокализм, консонантизм, фонема, закон гармонии, фонотактика.

Fatima Ibrahimova Khanmammad
ASU. Teacher
fatimaibrahimova1@gmail.com
https://orcid.org/0009-0006-8745-6124

A comparative analysis of phonological development in english and azerbaijani languages

SUMMARY

This article is devoted to a comparative-typological analysis of the development dynamics of phonological systems in English and Azerbaijani, representing different language families and structural types (flectional and agglutinative). The study examines the historical evolution of the sound structure, differential features of phonemes, and phonotactic patterns of both languages in a reciprocal manner.

At the core of the phonological development of the English language lie fundamental changes in the vocalism system, particularly the acquisition of phonemic functions by quantitative and qualitative characteristics of vowels (length and tenseness). Alongside this, complex consonant clusters in syllable structure and reduction phenomena occurring under the influence of dynamic stress are analyzed as specific directions of English phonological development.

The phonological development of the Azerbaijani language is characterized by stability and internal order. The primary mechanism of this development is the law of harmony (vowel harmony) and syllable stability. Based on scientific evidence, the article explains the classification of vowels by row, labialization, and degree of openness, as well as the preservation of this system throughout historical development.

As a result of the comparative analysis, it is determined that while the English language demonstrates analytical tendencies by allowing significant variability in the sound system, the Azerbaijani language preserves strict morphophonological regularities in its structure. The findings of the research are of great importance for both theoretical phonology and applied linguistics in determining pronunciation models for second language learners.

Key words: vocalism, consonantism, phoneme, vowel harmony, phonotactics.

RƏYÇİ: dos. L.Ələkbərova

DOI 10.24412/2218-7588-2026-1-75-79

Alırzayeva Kifayət Ağarza qızı
ADU. Filologiya üzrə fəlsəfə doktoru,dosent
https://orcid.org/0009-0000-7345-4976
kalirzayeva@mail.ru

DİLDƏ FONETK İNTERFERENSİYANIN YARANMA SƏBƏBLƏRI

XÜLASƏ: İstənilən iki dildə oxşar xüsusiyyətlər olur ki, bu yeni dilin öyrənilməsinə müsbət təsir göstərir. Digər tərəfdən isə dillər arasındakı fərqli xüsusiyyətlər yeni dil öyrənənin qarşısında problemlər yaradır, doğma dilin vərdişləri yeni dilin öyrənilməsinə maneələr törədir. Bu vaxt isə interferensiya hadisəsi baş verir.Sistem və struktur cəhətdən ingilis dili ilə Azərbaycan dili fərqlidirlər.Ona görə də ingilis dilini xarici dil kimi öyrənib, bu dildə danışan azərbaycanlılar müəyyən çətinliklərlə üzləşirlər və bu çətinliklər dilin leksik, fonetik və qrammatik sahələrini əhatə edir.İngilis dilində hətta sərbəst danışan azərbaycanlıların danışığında da interferensiya prosesinin nəticəsi olan tələffüz səhvlərinə yol verilir.Səhvlər nitqdə yaranır, amma onun səbəbləri qarşılıqlı əlaqədə olan dillərin fonoloji sisteminə əsaslanır və mənşəyinə görə bu səbəblər dil sistemi ilə bağlıdır.

Açar sözlər:interferensiya,fonetik səviyyə, fonoloji, leksik, artikulyator,linqvistik

GİRİŞ: Müasir dövrdə qloballaşma cəmiyyətdə gedən proseslər dillərin qarşılıqlı əlaqəsini gücləndirir. Ana dili ilə yanaşı, ikinci dilin öyrənilməsi zamanın tələbinə çevrilir. Buna görə də , İkinci dilin öyrənilməsi zamanı ilk olaraq dildə interferensiya hadisəsi meydana gəlir. İnterferensiya qarşılıqlı əlaqədə olan dillərdən birinin təsiri ilə digər dildə yaranan normadan kənaraçıxma halları kimi təzahür edir. Lakin bu proses təkcə qloballaşma ilə bağlı yaranmamışdır. Özünün tarixi inkişafı dövründə insanlara xidmət etmiş dillər bir-biri ilə müxtəlif əlaqəyə girmiş və bu əlaqələr də öz növbəsində müxtəlif cür nəticələnmişdir. Dilin əlaqədə olması üçün, ilk növbədə, bu dilləri təmsil edən insanlar ünsiyyətdə olmalı, bunun üçün müəyyən tarixi şərait və zəmin yaranmalıdır. İnsan cəmiyyəti yarandığı dövrdən insanlar bir yerdə qalmamış, yer kürəsinə səpələnməyə başlamışlar. İllər boyunca cəmiyyət və dil qarşılıqlı olaraq biri digərinin inkişafında rol oynamış, onun inkişafında stimulverici amil olmuşdur.

ƏSAS HİSSƏ: İstənilən iki dildə oxşar xüsusiyyətlər olur ki, bu yeni dilin öyrənilməsinə müsbət təsir göstərir. Digər tərəfdən isə dillər arasındakı fərqli xüsusiyyətlər yeni dil öyrənənin qarşısında problemlər yaradır, doğma dilin vərdişləri yeni dilin öyrənilməsinə maneələr törədir. Bu vaxt isə interferensiya hadisəsi baş verir. Məlum olduğu kimi, müasir dövrdə ingilis dili əsas beynəlxalq dil səviyyəsində öyrənilir və biz də bunu gündəlik həyatımızda hiss edirik. Beynəlxalq əlaqələrin inkişafı və onlar arasında xarici dilin funksiyasının artması, dünya mədəniyyətlərinin ingilis dilində öyrənilməsi Azərbaycanda ingilis dilini öyrənənlərin nitqində də özünü göstərir. Müşahidələr göstərir ki, interferensiyanın müxtəlif növləri mövcuddur. "Xarici dilin öyrənilməsində yeni dil materialının mənimsənilməsi və xarici dilin müxtəlif elementlərinin öyrənilməsi həmin dilin fonetik, leksik və qrammatik normalarının dəyişməsi əsasında baş verir. İlk öncə xarici dili öyrənən həmin dilin xüsusiyyətlərini doğma dil normalarına uyğun öyrənməyə çalışır. Bu zaman hər iki dil həm fonetik, leksik və qrammatik müqayisə olunmalıdır"[1,s.258] İnterferensiyanın aşağıdakı növləri fərqləndirilir:

1. Mənşəyinə görə: daxili və xarici interferensiya;
2. Doğma dilin vərdişlərini öyrənilən dilə köçürülməsinin xarakterinə görə: birbaşa və dolayısı ilə interferensiya;
3. Yaranma xarakterinə görə: açıq və gizli interferensiya; 4. Linqvistik təbiətinə görə, səviyyəcə: fonetik, leksik (se mantik) və qrammatik interferensiya". Dillər arasında qarşılıqlı əlaqənin hansı linqvistik səviyyədə baş verməsindən asılı olaraq, fonetik və fonoloji, qrammatik və leksik interferensiya fərqləndirilir[8,s.17]. İnterferensiyanın əsas səbəbi qarşılıqlı əlaqədə olan dillərin müxtəlif sistemli olmasıdır. Bu dillər müxtəlif fonem tərkibli, müxtəlif intonasiya, qrammatik kateqoriyalı olmaları ilə bir-birindən fərqlənilir. Bütün bu fərqlər interferensiyaya səbəb olan amillərdir. İkinci dilin mənimsənilməsi prosesində bilinqvin şüurunda həmişə iki dil – doğma və yad dilin sistemləri qarşılıqlı əlaqədə olur.

Bu qarşılıqlı əlaqə zamanı, xüsusi ilə də ilkin uşaqlıq çağlarında ana dili ilə yanaşı ikinci dilin mənimsənilməsi prosesində hər iki dilin modeli yenidənqurmaya məruz qalır. Amma sonrakı ikidilliliyin formalaşdığı şəraitdə (ana dilinin mənimsənilməsindən sonra ikinci dilin öyrənilməsi zamanı) öyrənilən dilin strukturu böyük dəyişikliyə məruz qalır. Bu zaman doğma dilin ikinci dilə təsiri kifayət qədər güclü olur. Artıq qeyd edildiyi kimi, bilinqvizmlə məşğul olan dilçilər birmənalı olaraq interferensiyanın fonoloji səviyyədə daha qabarıq baş verdiyini qeyd edirlər. Bu isə, heç şübhəsiz, qarşılıqlı əlaqədə olan dillərdə ilk olaraq fonetik sistemdə normadan kənaraçıxma hallarının nəzərə çarpması ilə əlaqədardır. Dilçilərin bir çoxu hətta inter ferensiyaya məhz xarici dilin aksenti kimi yanaşmış və bu mənada interferensiyanın ancaq fonetikada olduğunu iddia etmişlər. Bu səbəbdən də fonetik səviyyədə interferensiya dilçilik baxımdan daha çox maraq doğurur. "Möhkəm eşitmə və ifadəetmə vərdişlərinə yiyələnən bilinqvin dilindəki səhvlərin səbəbləri qəbul etmə və ya ifadəetmə orqanlarından deyil, əksinə təmasda olan dillərin fonoloji sistemindən asılıdır. Başqa sözlə, səhvlər nitqdə yaranır, amma onun səbəbləri qarşılıqlı əlaqədə olan dillərin fonoloji sisteminə əsaslanır və mənşəyinə görə bu səbəblər dil sistemi ilə bağlıdır. Bunu N.S.Trubetskoy "süzgəc" adlandırır. Onun fikrincə, xarici dilin səsləri bizdə yanlış fonoloji interferensiya alır, belə ki, onlar bizim doğma dilin "süzgəci"ndən keçir. Dilin fonetik sistemi təkcə fonemlərdən ibarət deyil, fonetikada həm intonasiya, həm vurğu və həm də digər xüsusiyyətlər vardır. Sözsüz ki, birinci dilin bütün bu xüsusiyyətləri ikinci dilin öyrənilməsinin ilkin çağlarında ikinci dilə keçir"[5,s.31].

Fonetik interferensiyanın yaranma səbəblərindən danışarkən tədqiqatçılar onun müxtəlif amillərin təsiri nəticəsində yarandığını qeyd edirlər: "Bu amillər içərisində paradiqmatik faktorlar mühüm yer tutur. Təmasda olan

dillərin qarşılıqlı təhlili mühüm fonetik interferensiya hallarını müəyyənləşdirməyə imkan verir. Buna görə də, "paradiqmatik interferensiya" zamanı əsas məsələ iki dildə olan fonoloji elementlərin uyğunluğunu və dil sistemində olan hər bir fonemin yerini müəyyənləşdirmək, həmin fonemin əlaqədə olan sistemin oxşar foneminə olan münasibətini dəqiqləşdirməkdir. Bu cür tədqiqatın məqsədi hər iki dildə olan ekvivalent və qeyri-ekvivalent elementlərin kəmiyyət və keyfiyyət münasibətlərini öyrənməkdir"[5,s.17].Təmasda olan dillərin ekvivalent olmayan fonemlərinin kəmiyyət və keyfiyyəti məhz bu paradiqmatik planda potensial interferensiyanın sferasını təşkil edəcək. Paradiqmatik səs interferensiyasının aşağıdakı növləri var: fonetik substitusiya, nedodiferensiya, perediferensiya və reinterpretasiya.

1. Fonetik substitusiya o vaxt meydana gəlir ki, ikinci dil sisteminin bir fonem ilə birinci dilin bir fonemi arasında əlaqə yaranır. Məsələn, ingilis dilindəki /b/ → Azərbaycan dilindəki /b/ səsinə uyğun gəlir: black – bank.

2. Kifayət olmayan diferensasiya ikinci sistemin iki foneminin onların ekvivalentlərinin birinci dildə ayrıca fonem kimi fərqləndiyinə görə fərqləndirilmir. Bu vaxt ikinci dilin iki müxtəlif fonemi (bəzən isə hətta üç fonemi) birinci dildə bir fonemlə ifadə olunur[5,s.27]. İnterferensiyanın öyrənilməsi əlaqədə olan dillərin daxili mexanizmini açmaqla onların həm mənfi, həm də müsbət nəticələrini üzə çıxarır.

Dil sistemində belə norma pozuntuları interferensiyanın təsir nəticəsi kimi xarici dildə nitqin qurulmasının bütün səviyyələrində aşkar edilir[2,s.56]. Bu mənada ingilis dilini öyrənən azərbaycanlıların nitqində baş verən norma pozuntularının öyrənilməsi də müasir dövrdə çox aktualdır. İnterferensiya - bir proses kimi ana dili xüsusiyyətlərinin öyrənilən xarici dilə ötürülməsi anlamına daha yaxındır. İnterferensiyanın belə anlamı ancaq xüsusi hallar üçün doğru olardı. İnterferensiya heç də həmişə ümumi ola bilməz. İki dilin əlaqəsi zamanı interferensiya hadisəsinin müxtəlif aspektləri nitqdə meydana gələ bilər. Burdan belə bir nəticəyə gəlmək olar ki, dil interferensiyası kompleks bir problemdir və onu müxtəlif aspektlərdən öyrənmək daha məqsədəuyğundur. Fonetik səviyyədə interferensiya həm seqment, həm də superseqment vahidlər səviyyəsində özünü göstərir. Belə ki, fonetik səviyyədə baş verən normadan kənaraçıxmalar qarşılıqlı əlaqədə olan iki dilin fonetik səviyyəsində olan fərqli fonemlər və intonasiya ilə bağlı yaranır və bu proses ilkin bilinqvizm zamanı özünü daha çox göstərir. Azərbaycan və ingilis dillərinin fonetik sistemində də xeyli fərqli məqamlar vardır ki, bu fərqliliklər azərbaycanlı tələbələrin ingilis dili ilə ilkin tanışlığı zamanı normadan sapmalarla müşahidə olunur. Belə ki, ingilis dilində olan bir çox səslərə dilimizdə rast gəlinmədiyindən onların tələffüzü zamanı nitqdə Azərbaycan dilinin interferensiyası təzahür edir. Bu hal xüsusən, [Ɵ], [ð], [ʃ], [ʒ], [w], [ts], [dʒ] kimi səslərin tələffüzü zamanı baş verir.

Qarşılıqlı əlaqədə olan dillər bir-birinə təsir edərkən proses eyni səviyyədə baş vermir. Belə ki, dillərdən biri digərinə daha çox təsir edir və prosesi həyata keçirən dilə çevrilir. İkinci dil isə interferensiya prosesində təsirə məruz qalan dil hesab olunur.İkidilli cəmiyyətlərdə interferensiya hadisəsi daima baş verən prosesdir, lakin birdilli mühitdə bu, baş vermir.Qeyd etdiyimiz kimi dillərdən biri digərinə təsir edir, digəri isə təsirə məruz qalır. İnterferensiya hadisəsi hər iki tərəfin nitqinə təsir göstərir, çünki proses dillərin qarşılıqlı əlaqəsinin məhsuludur.Məsələn, fonologiya baxımından dil interferensiyası birinci dildən ikinciyə təsir edən intonasiya, yüksəklik, vurğu və nitq səsləri kimi xarici aspektlərlə bağlıdır.Birinci dilin qrammatikası ikinci dildə əvəzliklərin və təyinedicilərin felin zamanları, şəkilləri, ikiqat inkarlıq və söz sırası eyni dərəcədə vacibdir.Söz ehtiyatına gəldikdə, dil müdaxiləsi sözləri başqa bir dildə daha təbii səsləndirmək üçün sözləri dəyişdirməklə yanaşı bir dildən söz almaq deməkdir. Bu çevirmələr orfoqrafiyada da dəyişikliyə səbəb olur"[9.s.374].

Deməli, dillərarası interferensiyaya bir dilin elementlərinin digərinə ötürülməsinin nəticəsi kimi yanaşılır.Fonetik interferensiya ikidillilik mühitində fonetik interferensiya nitqdə tələffüz, vurğu, intonasiya normalarında kənara çıxmada özünü göstərir.Deməli, vurğu, tələffüz, intonasiya normalarında baş verən fərqlər fonetik interferensiya kimi öyrənilir."Fonoloji interferensiya birinci dilin fonoloji sisteminin ikinci dilə ötürülməsini nəzərdə tutur ki, bu da ilk dilin səs xüsusiyyətlərini, məsələn vurğu, ritm və intonasiya daxil edilir. Bu cür interferensiya iki dilin səs xüsusiyyətlərinin bir-birindən fərqli olduğu və ya bir dilin elementinin digərində təmsil olunmadığı hallarda baş verir"[8,s.43].Fonetik interferensiya üçün ən çətin məqamlardan biri fərdin ana dili ilə digər dilin, yəni ikinci dilin fonem sistemində kəskin fərqin olmasıdır.Fonoloji səviyyədə interferensiya fərdlər arasında müxtəlif şəkildə özünü göstərir. Gənc nəslin nümayəndələrində daha az fonetik interferensiya özünü göstərməkdədir, ancaq onlarla müqayisədə yaşlı nəslin nümayəndələrinin nitqində fonetik interferensiyaya daha çox rast gəlinir. "Fonoloji interferensiya daha çox yaşlı öyrənənlərdə müşahidə olunur, çünki onların ana dilinin fonoloji sistemi ikinci dilin hərfinin tələffüzünə təsir göstərir. Bu fenomeni nevroloji və fizioloji əsaslarla izah etmək olar: mövcud olanlara yeni tələffüz vərdişləri əlavə etmək böyük çətinlik yaradır" [8,s.49].

Öz ana dilin ilə ikinci dilin fonoloji sistemində müəyyən fərqlərin olması tələffüz zamanı müəyyən çətinliklər yaradır.Buna ən böyük səbəb kimi mövcud olan sözlərə yeni tələffüz vərdişlərinin əlavə edilməsidir. Məsələn, ikinci dili Azərbaycan dili olan fərdlər Azərbaycan dilindəki gözəl, gəlmək, götür və s. kimi sözləri qozal, qalmak, qotur kimi tələffüz edirlər. Buna səbəb ingilis dilində "g" səsinin olmamasıdır. "G" hərf kimi ingilis dilində "q" kimi tələffüz edildiyi üçün ikidilli fərdlər Azərbaycan dilində də onu (g hərfini) "q" şəklində tələffüz edirlər. Fonetik interferensiyanın yaranmasına səbəb iki dilin fonetik sisteminin bir çox məqamlarının üst-üstə düşməməsidir.R.Heydərov bu haqda yazır ki, "dünya dilləri içərisində hətta iki dil belə tapmaq olmaz ki, fonetik sistemləri tam olaraq üstü-üstə düşsün. Buna görə də əcnəbi dildə hər hansı bir sözü və ya ifadəni demək cəhdi artikulyasiyanın və informasiya vərdişlərinin yenidən qurulmasını tələb edir"[5,s.71].İkidilli fərdlər yaxşı bildiyi dilin səs sistemini digər dilə uyğunlaşdırmağa çalışırlar. Məsələn, ingilis dilində "th" hərf birləşməsi" [θ, ð], "s" hərfi [s, z

]kimi tələffüz edilir. Ancaq ikidilli şəxs onları bir çox hallarda qarışdıra bilir.Azərbaycan dilində ingilis dilində mövcud olan bəzi səslər olmadığı üçün ikidilli fərdlər onları dilimizdə tələffüz etməkdə çətinlik çəkilirlər.Məsələn, thanks sözündə [θ] kimi, they sözündə [ð] kimi tələffüz edilir.Azərbaycan dilində bu səsləri ifadə etmək üçün s, d, t kimi səslərdən istifadə edilir, ancaq bunlar da tam eyni səsi ifadə edə bilmir.İkidilli və ana dili sanki rus dili olan insanların da nitqlərində interferensiya hadisəsinə rast gələ bilərik.Məsələn, rus dilində "h" hərfi olmadığı üçün onlar danışarkən "h" səsinin əvəzinə "x" səsindən istifadə edirlər. Allah, halal, hələ və s. kimi sözləri Allax, xalal, xələ kimi tələffüz edirlər. Fonetik uyğunluq olmazsa, bu zaman əsas interferensiya vurğuda müşahidə olunur.Fonetik normada baş verən interferensiyalar ünsiyyət prosesini çətinləşdirir.Fonetik interferensiyada çox zaman ikidilli şəxslərin nitqində həmin dilə uyğun gəlməyən səslərin səhv şəkildə təkrarı baş verir.

Səslərin səhv şəkildə təkrarı o zaman baş verir ki, ikinci dilin elementlərinin ana dilində olmadığı fərqli formada və hallarda özünü göstərir.Fonetik interferensiya zamanı, ikidilli fərd öz nitqində xarici dilin səs sisteminə uyğun tələffüz etməyə çalışarkən müəyyən maneələrlə üzləşir.Fonetik interferensiya nəticəsində ikinci dildə həmin dil üçün uyğun olmayan vurğu formalaşır.Bundan sonra səslərin, vurğuların və intonasiyanın səhv formada ifadə olunması baş verir ki, bu da ikidilli fərdin nitqini savadsız eyni zamanda isə qarşı tərəf üçün tamamilə anlaşılmaz edir.Dünyada əlaqələrin inkişafı və xarici dilin funksiyasının artması, dünya mədəniyyətlərinin ingilis dilində öyrənilməsi, Azərbaycan və ingilis dillərinin interferensiyası prosesində də özünü göstərir.Bu əlaqələr özünü ən çox müxtəlif fəaliyyət sahələrində daha parlaq büruzə verir. Məsələn: "internet, kompüter, monitor, server, pleyer, reyting, limit, telefon, şou, şoumən, şoubizness, klip, kontur, broker, biznes, brifinq, boss, kontrol, konflikt" və s. kimi sözlər beynəlxalq aləmdə dəyişməz olaraq hamı tərəfindən qəbul edilməklə beynəlmiləl sözlər adlanır.İnterferensiya dil və ya dialekt daşıyıcıları olan müəyyən kollektivlərin əlaqəsi zamanımı təzahür edir;yad dili öyrənmə prosesində doğma və yad dilin sistemlərinin qarşılıqlı təsiri zamanımı təzahürüdür.İkidillilik mühitində fonetik interferensiya nitqdə tələffüz, vurğu, intonasiya normalarında kənara çıxmada özünü göstərir.

Deməli, vurğu, tələffüz, intonasiya normalarında baş verən fərqlər fonetik interferensiya kimi öyrənilir."Fonoloji interferensiya birinci dilin fonoloji sisteminin ikinci dilə ötürülməsini nəzərdə tutur ki, bu da ilk dilin səs xüsusiyyətlərini, məsələn vurğu, ritm və intonasiya daxil edilir. Bu cür interferensiya iki dilin səs xüsusiyyətlərinin bir-birindən fərqli olduğu və ya bir dilin elementinin digərində təmsil olunmadığı hallarda baş verir"[7,s.98].

Fonetik interferensiya üçün ən çətin məqamlardan biri fərdin ana dili ilə digər dilin, yəni ikinci dilin fonem sistemində kəskin fərqin olmasıdır.Fonoloji səviyyədə interferensiya fərdlər arasında müxtəlif şəkildə özünü göstərir. Gənc nəslin nümayəndələrində daha az fonetik interferensiya özünü göstərməkdədir, ancaq onlarla müqayisədə yaşlı nəslin nümayəndələrinin nitqində fonetik interferensiyaya daha çox rast gəlinir. "Fonoloji interferensiya daha çox yaşlı öyrənənlərdə müşahidə olunur, çünki onların ana dilinin fonoloji sistemi ikinci dilin hərfinin tələffüzünə təsir göstərir. Bu fenomeni nevroloji və fizioloji əsaslarla izah etmək olar: mövcud olanlara yeni tələffüz vərdişləri əlavə etmək böyük çətinlik yaradır"[7,s.73].Öz ana dilin ilə ikinci dilin fonoloji sistemində müəyyən fərqlərin olması tələffüz zamanı müəyyən çətinliklər yaradır. Buna ən böyük səbəb kimi mövcud olan sözlərə yeni tələffüz vərdişlərinin əlavə edilməsidir. Məsələn, ikinci dili Azərbaycan dili olan fərdlər Azərbaycan dilindəki gözəl, gəlmək, götür və s. kimi sözləri qozal, qalmak, qotur kimi tələffüz edirlər. Buna səbəb ingilis dilində "g" səsinin olmamasıdır. "G" hərf kimi ingilis dilində "q" kimi tələffüz edildiyi üçün ikidilli fərdlər Azərbaycan dilində də onu (g hərfini) "q" şəklində tələffüz edirlər. Fonetik interferensiyanın yaranmasına səbəb iki dilin fonetik sisteminin bir çox məqamlarının üst-üstə düşməməsidir.

Deyilənlərdən belə aydın olur ki, birbaşa (vasitəsiz) interferensiya zamanı bir dilin, məsələn, Azərbaycan dilinin semantik, qrammatik xüsusiyyətləri və tələffüz normaları, bütövlükdə digər dilə, məsələn, ingilis dili nitqinə keçir və başqalarından fərqli, xüsusi milli aksentlə xarici nitqdə səslənir. Nitq səhvləri birbaşa interferensiyanın əmələ gəlməsinə səbəb olur ki, bu da özündə sözün hərfi tərcüməsinin ana dilindən ingilis dilinə keçməsini ifadə edir.İnterferensiya başqa dil elementlərinin keçməsi ilə əlaqədar olaraq dil modellərinin struktur dəyişməsidir.İnterferensiyanın ilkin mərhələsində hər hansı bir yazıçının üslubunda, danışıq dilində leksik və ya qrammatik normadan yayınma halları müşahidə edilir.Bu hal beləcə də qala, dildə möhkəmlənə bilər.Bu, interferensiyaya aiddir.Xüsusilə müəyyən anlayışlara aid bəzi dil innovasiyaları dil sisteminə tədricən daxil olur."Dil onları müəyyən dövr ərzində sanki müşahidə edir, bəzən qəbul edir, bəzən də etmir. Məsələn, bir vaxtlar Azərbaycan dilində -ion sonluğu fransız dili modeli üzrə pozision, stansion tipli terminlər işlənirdi, lakin dilin inkişafı prosesində səs sisteminə uyğunlaşa bilmədilər və mənimsənilmədilər, nəticədə ekvivalentləri ilə əvəz olundular: pozisiya, stansiya.

Məlum olduğu kimi, ana dili öyrənilən ikinci dilə yalnız mənfi təsir etmir.Belə ki, dildə oxşar olan elementlər yeni dili öyrənərkən individə kömək də edə bilər.Məsələn, ingilis dilini öyrənərkən azərbaycanlı tələbə fonetik səviyyədə xeyli oxşar səslərlə rastlaşır.Heç şübhəsiz, bu səslər onun bu dili öyrənməsində ona kömək edir. Digər tərəfdən, ingilis dilində mütəxəssislər 44 səsdən danışırsa, Azərbaycan dilində cəmi 34 səs var və bu səslərin böyük bir qismi üst-üstə düşür. Lakin, ingilis dilində məsələn, [ð], [Ɵ] kimi səslər vardır ki, bu səslər Azərbaycan dilində yoxdur. Şübhəsiz, bu səslərin tələffüzü ingilis dili ilə yeni tanış olan Azərbaycanlı üçün ciddi problemlər yaradır və bu zaman Azərbaycan dilində oxşar səslər, konkret halda [s] və [z] səsləri bu səslərin yerində işlədilir. Amma ingilis dilində həm də bu səslər mövcud-dur.Bu səbəbdən də ingilis dilində öyrənən tələbənin nitqində normadan kənaraçıxma halları müşahidə olunur.

Əcnəbi dili yeni öyrənməyə başlayan şəxsə elə gəlir ki, xarici dilin bütün əsasını predmetlərin, anlayış və proseslərin başqa cür səslənməsi təşkil edir.Belə insanlar, hər şeydən əvvəl nəyin necə deyilməsini öyrənməyə tələsir və

səslənməyə o qədər də fikir vermirlər.Yeni dili mənimsəyərkən onlar öz doğma dillərinin artikulyasiya vərdişlərini istifadə etməkdə davam edirlər.Ancaq fərdin ikidillilik təcrübəsi artdıqca o daha çox dəqiqlik əldə edir, xarici dil axınını və onda olan ayrıca komponentləri dəqiq ayırmağa başlayır.Digər tərəfdən, nitq prosesində eyni bir fonem sözdəki yerindən, yəni ona yaxın səsin təsirindən və vurğudan asılı olaraq müxtəlif cür tələffüz edilir.Buna görə də fonem müxtəlif çalarlıq və variantlarda çıxış edə bilir. Məsələn: - "bag" və "box" sözlərini müqayisə etdikdə, birinci sözdəki [b] foneminin tələffüzündə ondan sonra gələn [əe] foneminin təsiri nəticəsində dodaqlar neytral vəziyyətdə olduğu halda, ikinci sözdə [o] foneminin tələffüzü ilə əlaqədar həmin [b] foneminin tələffüzündə dodaqlar nisbətən dairəviləşir. Ona görə də ingilis dilini öyrənərkən fonemlərin düzgün tələffüz edilməsinə xüsusilə diqqət yetirmək lazımdır.Yuxarıda göstərilən əsaslı fərqlər hər iki dilin fonetik sistemində baş verəcək interferensiya prosesi üçün səbəb olur.Hər hansı dil öyrənən tələbə ilk öncə həmin öyrəndiyi xarici dilin fonetik sistemini və ana dilinin fonetik sistemini bilməlidir.İlkin mərhələdə xarici dili öyrənən öz ana dilində olan səsləri öyrəndiyi xarici dilin səsləri ilə fərqləndirə bilmir.Yəni, həssaslığın zəif olması yanlış tələffüzə şərait yaradır və interferensiya baş verir. Bu halda interferensiyanın üç nəzəri halına diqqət yetirək: 1.Həssaslıq səviyyəsinə görə; 2.Təcrübəyə əsaslanan baza səviyyəsinə görə; 3. Əldə olunan nəticəyə görə.- Həssaslıq səviyyəsinə görə interferensiyadan danışarkən qeyd olunmalıdır ki, yeni dili öyrənməyə başlayan fərd tələffüz olunan səsləri yaxşı eşitmir və buna görə də müntəzəm eşitdiyi səsləri düzgün tələffüz etmir, yəni hər dəfə müxtəlif cür qəbul edir. Çünki ilkin səviyyədə fərd eşitdiyi sözləri anlamağa çalışır və bu zaman səslər sadəcə ikinci plana keçir. – Təcrübəyə əsaslanan baza səviyyəsinə görə - tələbə yaxşı eşidir, lakin düzgün tələffüz etmir. – Nəticə olaraq – yaxşı eşidir, düzgün tələffüz edir və heç bir fonetik səhvə yol vermir, getdikcə interferensiya aradan qalxır. Dil sistemlərinin belə pozulması interferensiyanın təsir nəticəsi kimi xarici dildə nitqin qurulmasının bütün səviyyələrində aşkar edilir.Beləliklə - interferensiya yavaş-yavaş baş verən prosesin ayrılmaz hissəsi olmaqla, qəbul edilmiş dil sistemində bu və ya digər dillərin hər elementinə təsir göstərməklə nüfuz edir.

İşin elmı nəticəsi: Yuxarıda araşdırılan mövzudan belə bir nəticəyə gəlmək olar ki,xarici dilin mənimsənilməsi daima ana dili ilə əlaqədə baş verir və bu mənimsəmə dilin bütün sahələrini- fonetik,fonoloji,leksik, qrammatik aspektlərini əhatə edir.İnterferensiya yazılı və şifahi nitqi əhatə etsədə, özünü danışıqda daha çox göstərir.Düzgün tələffüz vərdişlərinə yiyələnməkdilin fonemlərini artikulyator- akustik baxımdan tədqiq etmək,eşidib-anlama və şifahi nitqin uğur qazanmasının əsas şərtlərindən biridir.

İşin elmi yeniliyi: Məqalədə dildə interferensiya hadisəsi araşdırılsada,onun yaranma mexanizmi, dilinfonetik, fonoloji, leksik və qrammatik qatında tədqiqi də nəzərdən keçirilmişdir.

İşin tətbiqi əhəmiyyəti: bizə elə gəlir ki, təqdim olunan məqalə "Dildə fonetk interferensiyanin yaranma səbəbləri" mövzusu ilə maraqlanan hər bir kəs üçün əhəmiyyətli ola bilər.Bu məqalədən ingilis dilini tədris edən universitetlərin magistratura pilləsində ingilis dilinin fonetikasının tədrisində istifadə edilə bilər.

İstifadə olunmuş ədəbiyyat.

1Abdullayev, Ə.Z. Müasir Azərbaycan dili. Sintaksis / Ə.Z.Abdullayev, Y.M.Seyidov, A.Q.Həsənov. – Bakı: Maarif, – IV h. – 1985. – 336s
2.Верещагин, E.M. Психологическая и методическая характеристика двуязычия (билингвизма) / E.M.Верещагин. – Москва: Наука, – 1997. – с.138
2.Cəlilov F.Türk dillərinin fonotaktikası."Kontrastiv fonetika"toplusu,ADU, 1986,463s.
3.İbrahimova A. və Abbasova C. (2016).Dil öyrənməni aktuallaşdıran zərurət və bu sahədə pedaqoji təcrübənin rolu.http://www.anl.az/down/meqale/elm_eserler_tehsilprobins/2016/02/24(meqale).pdf
4.Heydərov, R. (2013). Dillərin inkişafinda dil əlaqələrinin rolu. Bakı: Elm və təhsil,216s.
5. Rəcəbov Ə.Ə. Dilçilik tarixi. Bakı: Maarif, 1987, 538 s. 44.
6.Rəcəbli Ə.Ə. Nəzəri dilçilik. Bakı: Nurlan, 2003, 515 s. 45.
7.Rəcəbli, Ə. (2016). İnterferensiya. Bakı: Elm və təhsil,17s.
7.Sirbu, A (2015). Language interference triggered by bilungualism.https://www.researchgate.net/publication/337472381_LANGUAGE_INTERFERENCE 6TRIGGERED_BY_BILINGUALISM527стр.

Alırzayeva Kifayat Agarza gizi
AUL. Doctor of Philosophy in Philology, Associate Professor
https://orcid.org/0009-0000-7345-4976
kalirzayeva@mail.ru

CAUSES OF PHONETIC INTERFERENCE IN LANGUAGE

SUMMARY

Any two languages have similar features, which have a positive effect on learning a new language. On the other hand, the different features between the languages create problems for the new language learner, and the habits of the native language create obstacles to learning the new language. At this time, the phenomenon of interference occurs. English and Azerbaijani are different in terms of system and structure. Therefore, Azerbaijanis who learn English as a foreign language and speak it face certain difficulties, and these difficulties cover the lexical, phonetic and grammatical areas of the language. Even in the speech of Azerbaijanis who speak English fluently, pronunciation errors are made as a result of the interference process. Errors arise in speech, but their causes are based on the phonological system of the interacting languages, and by their origin, these reasons are related to the language system.

Keywords:interference, phonetic level, phonological, lexical, articulatory, linguistic

Алирзаева Кифаят Агарза гизи
АУЯ Доктор философии в области филологии, доцент
https://orcid.org/0009-0000-7345-4976
kalirzayeva@mail.ru

ПРИЧИНЫ ФОНЕТИЧЕСКОЙ ИНТЕРФЕРЕНЦИИ В ЯЗЫКЕ

РЕЗЮМЕ

Любые два языка имеют схожие характеристики, которые оказывают положительное влияние на изучение нового языка. С другой стороны, различия между языками создают проблемы для изучающего новый язык, а привычки родного языка создают препятствия для его изучения. В это время происходит явление интерференции. Английский и азербайджанский языки различаются по системе и структуре. Поэтому азербайджанцы, изучающие английский как иностранный язык и говорящие на нем, сталкиваются с определенными трудностями, которые затрагивают лексическую, фонетическую и грамматическую области языка. Даже в речи азербайджанцев, свободно владеющих английским, в результате интерференционного процесса допускаются ошибки произношения. Ошибки возникают в речи, но их причины основаны на фонологической системе взаимодействующих языков и по своему происхождению связаны с языковой системой.

Ключевые слова: интерференция, фонетический уровень, фонологический, лексический, артикуляционный, лингвистический

Rəyçi: Qocayeva .X.Ə. İngilis dilinin fonetikası kafedrasının dosenti, f.f.d

DOİ 10.24412/2218-7588-2026-1-80-84

Vaqif Allahverdiyev
ADPU-nun Ağcabədi filialının dosenti
Vaqifapu@box.az
https://orcid.org/0009-0004-2805-9335

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA MİLLİLİK, BƏŞƏRİLİK, TARİXİLİK VƏ MÜASİRLİK

XÜLASƏ: Azərbaycan poeziyasının eləcə də milli düşüncə tariximizin ən parlaq simalarından biri də B.Vahabzadədir. O, geniş fəlsəfi dünyagörüşünə, milli və bəşəri özünüdərkinə kamil sənətkarlıq məziyyətlərinə görə böyük Şərq mütəfəkkiridir. Onun yaradıcılığında poetik fikrin, bədii ifadənin fəlsəfi qayəsi bəşəri mahiyyət kəsb edir. Onun poeziyasında ədəbi-bədii, ictimai-fəlsəfi, milli-mənəvi və dini komponentlər kül halında qovuşaraq, bəşəri dəyərlər xəzinəsini zənginləşdirir. Şairin poetik təfəkküründə millilikdə bəşəriliyin, bəşərilikdə milliliyin harmoniyası ehtiva olunur.

Açar sözlər: Bəxtiyar Vahabzadə, poeziya, şeir, obrazlılıq, bəşərilik, millilik, poetik.

GİRİŞ: Qəlbində ədəbiyyata, poeziyaya sevgi oyadan İbrahim Cəfər müəllimi həmişə böyük ehtiramla yad edərək yazır: "O, ədəbiyyatın sirlərini bizə bütün varlığı ilə çatdırmağa çalışan, ömrünü elmə, ədəbiyyata sərf edən edən savadlı müəllimlərdən biri idi. Mən hər dəfə yeni şeir yazanda ona müraciət edər, ondan məsləhət alar və ondan ayrılanda təzə bir şey öyrənərdim" [4-4].

ƏSAS HİSSƏ: Orta məktəb illərindən bədii yaradıcılığa həvəs göstərən B.Vahabzadənin ilk şeirləri məktəbin divar qəzetində dərc olunmuşdur, həmçinin o, məktəbin şeir və dram dərnəklərində fəal iştirak etmişdir.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunmuşdur. Ali məktəb həyatı onun həyatına və yaradıcılığına yeni yollar açır, poeziyaya, ədəbiyyata olan marağını daha da alovlandırır. Həmin illərdə professor Mir Cəlalın rəhbərliyi altında universitetdə fəaliyyət göstərən dərnəkdə B.Vahabzadə, Adil Babayev, Qabil İmamvediyev, Novruz Gəncəli və başqaları fəal iştirak edərək söz sənətinin incəliklərinə yiyələnmək üçün şeirlərini müzakirə edir və sənət məsələləri ilə bağlı elmi mübahisələr aparırdılar.

1943-cü ildə çap olunan "Ana və şəkil" şeiri Bəxtiyarın ilk mətbu əsəri idi.

Böyük Vətən müharibəsinə həsr olunmuş və vətənpərvərlik ruhunda yazılmış bu şeirdə öz övladlarını müharibəyə yola salan minlərlə ananın ürək ağrısı, kədəri, övlad həsrəti, həmdə sevgisi tərənnüm olunur.

Universiteti bitirdikdən sonra aspiranturaya daxil olan B.Vahabzadə 1950-ci ildə " S.Vurğunun poeziyası" adlı namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almış, 1964-cü ildə isə " S.Vurğunun yaradıcılıq yolu" adlı doktorluqdissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini almışdır.

Bildiyimiz kimi bədii ədəbiyyat onun ayrı-ayrı təmsilcilərinin simasında yaranır, formalaşır və daha da inkişaf edir. Məlumdur ki, söz sənəti sənətkarın özünəməxsus, fərdi bədii yaradıcılığıdır. Məhz bu yaradıcılıqda onun dünyagörüşü, əsərlərinin ideya-bədii xüsusiyyətləri, bədii materialın təsvirində işlətdiyi təsvir və ifadə vasitələri, sənətkarlıq xüsusiyyətləri, dil amilləri yazı tərzi, dəst xətti fərdi prizmadan oxucuya təqdim olunur. Bədii sənəti şərtləndirən yaradıcılıq fərdi xarakter daşıdığı üçün, bu fərdiliyin özündə hər şair, yaxud yazıçının özünəməxsus söz aləmi, bədii obyektə yanaşma prinsipləri, obyektiv reallığa, cəmiyyətə münasibəti ortaya çıxır.

Sadalanan xüsusiyyətlər hər bir sənətkarın fərdi yaradıcılıq möhürüdür ki, yaratdığı əsərlərdə onun yazı manerası, ifadə tərzi, dəst-xətti həmin möhürlə təsdiqlənir, tanınır.

Bu baxımdan B.Vahabzadənin yaradıcılığı bədii-fəlsəfi siqləti, poetik əlvanlığı, zamanla səsləşən mövzuların seçimi və yüksək poetik ovqatda işlənməsi, həmçinin böyük vətəndaşlıq keyfiyyətləri ilə əyaniləşir. Xalqımızın mənəvi və ictimai həyatında baş verən dəyişmələr onun poeziyasında mərhələlərlə öz bədii-fəlsəfi ifadəsini tapmışdır.

Bədii yaradıcılıqda millilik geniş anlayışdır. Ədəbiyyatda millilik düşüncəsi, hər şeydən əvvəl xalqın mənafeyinə xidmət etmək, onun həyatını, əməyini, ideyalarını, arzu və istəklərini, çətinlik və ehtiyaclarını ürəkdən əks etdirməkdir.

Şairin poetik axtarışlarında milli köklə, milli keçmişlə, yaddaşla əlaqə bağlılığının poetik tədqiqi üstünlük təşkil edir. Bəxtiyarın poetik təfəkküründə, düşüncəsində yaranan, üzə çıxan hər bir tapıntı, əsasən milli vətənpərvərlik ruhunu kəsb edərək təqdim olunur.

Bu qəmim, bu dərdim dağlardan ağırdı.
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən vətənə baxırdı,
Mən isə Vətəndən-Vətənə baxıram.

B.Vahabzadənin yaradıcılığında oxucunu düşündürmək, onu daim ruhlandırmaq, hər misrası, hər şeiri ilə onu həyata, ictimai fəaliyyətə səsləmək keyfiyyəti yüksəkdir və bu məziyyətlər onun poetik üslubunun xüsusi atributlarıdır.

Vətəndaş!
Nə gözəl səslənir bu söz.
Vətən əbədidir
Gedəriyik biz,
İnsan qiymətlidir öz vətənində

Bilirik dünyaya biz niyə gəldik.

Şairin yaradıcılığı mövzu rəngarəngliyi, məzmun dərinliyi və mündəricə genişliyi ilə zəngindir. Məlumdur ki, Bəxtiyarın bir şair kimi inkişafında, püxtələşməsində klassik ədəbi irsin, həmçinin folklor ənənələrinin böyük rolu olmuşdur.

Təsadüfi deyil ki, şair poeziyanın müxtəlif janrlarında bədii nümunələr yaratmışdır. Klassik şərq poeziyasının incəliklərinə dərindən yiyələnmiş, zəngin şərq poetikasının bədii-fəlsəfi mahiyyətini məharətlə əxz etmişdir.

B.Vahabzadənin qəzəllərində məhəbbət Nizami, Füzuli, Nəsimi şeirində olduğu kimi, fəlsəfi-sosial mahiyyət kəsb edir.

Daş ürəklərdə yanıb, daşları sındırdı muğam,
Haqqa düşmən olanı haqqa tanıtdırdı muğam.
Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü" ahıyla qurutdu, "Şah yandırdı" muğam.
Dəfn edin siz məni "Zabul" segahın mayəsinə
Deyirəm, bəlkə məni bir gün oyandırdı muğam.
Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbləri ahəstə qandırdı muğam.

Şairin bədii təfəkkürü həmişə fəlsəfi ümumiləşdirmələrə meyil etmişdir. O, birçox əsərlərində bütün bəşəriyyəti düşündürmüş və düşündürən böyük məsələləriön plana çəkmişdir ki, bu da şairin bəşəri düşüncələrinin təzahürüdür.

Nədən məzarlıqda vaxt düşmür yada?
Demə o burda da, burdada varmış!
Ölülər məskəni - məzarlıqdada,
Zaman qədəm - qədəm addımlayarmış.

Yurd sevgisi, xalq məhəbbəti, milli birlik eşqi onun şeirlərinin dərin və tükənməz enerji qaynağıdır. Onun poetik axtarışlarında milli köklə, milli keçmişlə, yaddaşla əlaqə bağlarının poetik tədqiqi üstünlük təşkil edir.

Çıxdı qarşımıza gah dağ, gah dərə,
Həyat gözümüzdə bir sual oldu.
Bir beşiyə sığan Nəsimilərə,
Sonra cahan özü darısqal oldu.

Yaxud

Bizim anaların laylalarından,
Axdı ruhumuza Vətənin özü.
Beşik kökümüzdür, ucalıb ordan,
Tanıdaq dünyaya öz kökümüzü!

Şairin düşüncəsində insan öz soy-kökünə sahib olduqca, öz kökünün dərin qatlarına endikcə dünyanın ictimai-fəlsəfi mənzərəsində daha çox tanınır. Beşiyə, yəni ilkliyə qayıdan insan ucalır və dünya bu ucalıqdan daha mənalı və dərin görünür.

B.Vahabzadə yaradıcılığında fəlsəfi lirika əsas yer tutur. "Piyada-sərnişin" şeirinə diqqət yetirək.

Sərnişin yol getdi yoldan xəbərsiz,
Bilmədi bu yolda kələ-kötür var.
Ancaq piyadanın xəbər-ətərsiz,
Alnında iz açdı getdiyi yollar.

Yol özü apardı sərnişinləri,
Yolda nə iz qaldı, nə də toz oldu.
Ancaq piyadalar gördü dünyanı
Sərnişin dünyadan xəbərsiz oldu.

Şeirdə rəmzi mənada sərnişin yolu həyat yolu kimi mənalandırılır və sərnişin bu məsafəni sürətlə gedir, ancaq bu sürətdə sərnişin hərəkət imkanını dincə qoyur, gördükləri sürətlə dəyişir və yox olur. Lakin piyada isə ayağı altında torpağı duyaraq gedir, gördükləri yaddaşının aynasında naxışlanır.

Şair şeirin bədii həllini poetik-fəlsəfi dərinlikdə ümumiləşdirir, çünki məzar hamının mütləq görüş yeridir.

Qəribə dünyadır sərnişin ilə
Piyada görüşür mənzil başında.

Bəxtiyarın lirik qəhrəmanı həmişə xalqını və vətənini sevən böyük vətənpərvərdir. Şairin özü kimi onun qəhrəmanı da torpağa, yurda bağlıdır.

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od
Mən oddan yaranmışam.

Bu misralarda Zərdüşt fəlsəfəsinin bədii inikası ifadə olunub. Daha sonraşairin bədii mətləbinin istiqamətini

görürük:

Neyləyək ki zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm.
İki başlı, bir qəlbli
Bir bədənə dönmüşəm.

Bu misralarda şimala və cənuba bölünmüş yurdun və xalqın bütövlük ağrısı boylanır.

Azadlıq, istiqlaliyyət mövzusu B.Vahabzadəni həmişə qayğılandırıb. Hələ sovet rejiminin çox güclü olduğu vaxtlarda da bu məsələyə dəfələrlə qayıdıb, millətin azadlıq haqqının hər şeydən uca olduğunu diqqətə çatdırıb.

Bəzi mətləbləri açıq ifadə etmək mümkün olmayanda simvollardan, ehyamlardan, rəmzlərdən istifadə edib, hansı yolla olur olsun sovet imperiyasının işğalçı siyasətinə qarşı fikrini, qəzəbini bildirməkdən çəkinməyib. "Qana bilmədi" şeirində bu məsələni daha aydın şəkildə ortaya qoymağı bacarır.

Filin ayağına hələ körpəykən
Zəncirli,qıfıllı qandal vurdular.
Niyə? Çünki filin gələcəyindən,
Ağır zərbəsindən çox qorxurdular.

Filin ayağına qandal vurulmasını şair çox ağrılı bir hal kimi qarşılayır. Lakin bundanda betər bir dərd var ki, ona dözmək çox çətindir.

Ayağına qandal vurulan filin bunun azadlığının əldən getməsi kimi dərk etməməsi ikiqat faciədir.

O, elə bildiki, elə sandıki,
Bəzəkdir, zinyətdir qandallar filə.
Fil elə bildiki, elə qandıki,
Dədə babasıda yaşamış belə.

Poema janrı şairin yaradıcılığında xüsusi bir yer tutur. Şairin müxtəlif vaxtlarda yazdığı "Sadə adamlar", "İztirabın sonu", "Şəbi-hicran", "Gülüstan", "Etiraf", "Yollar, oğullar", "Həyat ölüm", "Muğam", "Təzadlar", "Qiymət", "Atılmışlar", "İkinci ömür", "Salam", "Qəm içində sevinc", "Vətən mənəm, mən vətənəm", "Şəhidlər" və s. kimi poemalarını oxuyarkən yadımıza hər şeydən əvvəl "millilik" sözü düşür. Niyə "milli şeir?" Kimdir "milli şair?"Əlbətdə yalnız millətin adından danışan şair "milli şair" olur. Xalqın dərd-sərini xalqla bölməyən, vətən parçalananda ürəyi parçalanmayan şairə necə milli şair demək olar? B.Vahabzadə bu haqqı 50-ci illərdən "Gülüstan" poemasını yazdığı vaxtdan qazanıb. Vətənin iki yerə bölünməsinin tarixi "Gülüstan" müqaviləsi ilə başladığı kimi, onun ürəyi parçalanan şairin də ağrısı və hayqırtısı "Gülüstan" poeması ilə başlayıb.

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "ver" dedi.
Lap yaxşı eləyib doğrudan, bizə
Biri "baran" dedi, biri "xər" dedi.

50-ci illərin axırında yazılan "Şəki fəhləsi" qəzetində dərc olunan bu poema sonralar əl-əl gəzir, şüurlarda yeni bir istiqlal düşüncəsi formalaşdırır, sovet imperiyasına qarşı mübarizə, müqavimət istəyini yayırdı. Həmin poema Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda kəskin tənqid olunmuşdur. Əsərdə Azərbaycanın Gülüstan kəndində bağlanan həmin müqavilə bir xalqın faciəsinin başlanğıcı kimi dəyərləndirilir. Şair bu bədnam müqavilənin bir xalqı iki yerə parçaladığına kəskin tənqidi münasibət bildirir. Poemanın hər misrası sanki yadelliyə, işğalçıya qarşı atılan mərmiyə bənzəyir.

Yadlarmı edəcək bu xalqa imdad?!
Qoy qalxsın ayağa ruhu Tomrisin.
Babəkin qılıncı parlasın yenə,
Onlar bu şərtlərə sözünü desin.

Şair xalqımızın, millətimizin taleyinə qəsd edənlərin, millətin, yurdunikiyə bölünməsinin səbəbkarlarını cəsarətlə lənətləyir.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçir yerinə.
Eynəkli cənabla, təsbehli ağa
Qalxıb əldə verir bir-birinə.

Sovet imperiyasının, kommunist rejiminin at oynatdığı, siyasi senzuranın tüğyan etdiyi bir dövrdə öz xalqının, vətəninin ağrı dolu taleyini qələmə alaraq, işğalçıya kəskin nifrət hissini bədii sənət dili ilə ifadə etməsi böyük qəhrəmanlığa bərabər idisə, digər tərəfdən şairin şəxsi taleyi üçün ağır təhlükə sayılırdı.

B.Vahabzadə "Gülüstan" poeması ilə başlanan və həqiqi şair-vətəndaş qayəsi ilə daim yaşayan sənətkar olduğu üçün ədəbi düşüncəmizdə milli birliyin, vahid Azərbaycançılığın öncülünə çevrilir.

Görkəmli tənqidçi Vaqif Yusifli onu belə səciyyələndirir: "Onun poeziya tarixində xidmətlərini şişirtmək niyyətində deyilik. Ancaq fakt burasındadır ki, milli birlik, Azərbaycanı vahid görmək ideyası sovet dönəmində Bəxtiyar Vahabzadədən başlayır" [1-143].

B.Vahabzadənin poemasında dili, torpağı bütöv bir xalqın bu şəkildə parçalanması yalnız tarixin acı və

ədalətsiz faktı olaraq qeyd olunmur, həm də aydın dərk olunmuş, yaranmış bir ağrı hissi kimi ifadəsini tapır. Lakin bu kədər nə qədər ağır olsa da, xalqın mənəvi bütövlüyü, birlik ruhu bu iztiraba dözür.

Şair bu ağır faciəni əks etdirməklə bahəm, həm də xalqın milli bütövlüyünə inam hissini, gələcək qabiliyyətə ümid duyğusunu da ifadə etməyi öz şəxsi cəsarəti ilə göstərir.

Amansız təqiblərə baxmayaraq, xalqının qəlbində cəsarətli şair oğluna tükənməz və əbədi məhəbbət doğuldu. Təsadüfi deyil ki, qadağan olunmuş bu əsər xalqın vətənpərvər oğulları tərəfindən əzbərlənir, üzü köçürülülərək gizli surətdə əldən-ələ gəzirdi. Sanki ikiyə bölünmüş bu xalqın gələcəyini görür və nə vaxtsa azadlıq və istiqlaliyyət yolu ilə birləşərək, vahid Azərbaycan dövlətinin yaranacağını poetik şəkildə ifadə etmişdir. Göründüyü kimi şairin vaxtilə irəli sürdüyü milli birlik, Azərbaycanı vahid görmək ideyası bu günümüzün ən aktual problemlərindəndir ki, bu da B.Vahabzadə yaradıcılığında millilik, bəşərilik, tarixilik və müasirlik ideyasını şərtləndirən əsas amillərdir.

Nəhayət ən acı həqiqətlərin etirafı olan bu poemalara görə şairin başı çox ağrıyıb. Müxtəlif illərdə sovet hökumətinin xüsusi xidmət orqanlarının yerli-yersiz suallarına cavab verməli olub. "Yollar, oğullar" poemasına görə dəfələrlə istintaqa çağrılıb.

Şair yazır: "50-ci illərin sonunda Əlcəzair xalqı fransız imperializminə qarşı böyük azadlıq mübarizəsinə başladı. 8 il davam edən bu böyük istiqlal hərəkatı nəhayət əlcəzairlilərin qələbəsi ilə qurtardı. Mən 1964-cü ildə mübarizəyə "Yollar, oğullar" adlı bir poema həsr etdim. O zaman nəşriyyatda çalışan qələm yoldaşım (artıq rəhmətə getmiş bir şair) açıq imza ilə Yazıçılar İttifaqının sədri M.Hüseynə, Milli Təhlükəsizlik Nazirliyinə və Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə məktubla müraciət edib bu əsərin Əlcəzair Fransa müharibələrindən deyil, məhz rus-azərbaycan münasibətlərindən bəhs olunduğunu və bu əsərin antisovet təbliğatı ilə yazıldığını iddia etdi. Mənim həmkarımın yazdığı"danos"nə qədər həqiqət olsada məni o bəladan M.Hüseyn xilas etdi və dedi:

"İmperializmə qarşı yazılmış əsər nə vaxtdan antisovet hesab olunur.Aktual mövzuya həsr olunmuş bu əsərin nəşr olunmasının məsuliyyətini öz boynuma götürürəm"[2-6].

B.Vahabzadə poeziyasının başlıca keyfiyyətləri sırasında onun milli bədii irsə söykənən, ədəbi ənənədən yaradıcı şəkildə bəhrələnən, şeirlərinin müasirlik ruhunda olmasını xüsusi vurğulamaq lazımdır. Ona görə ki, şair tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizin, genetik yaddaşımızın çevrilmiş səhifələrinə müraciət edəndə də müasirlik aspektindən çıxış edir və aşıladığı ideyanı müasirliklə bağlayır.

Poeziyanın, bütövlükdə ədəbiyyatın müasirliyi və günümüzü, həmçinin çağdaş zamanın hüdudunda cərəyan edən hadisələri əks etdirən əsərlərlə məhdudlaşmır. Yəni, müasirlik təkcə bugünkü qayğılarımızdan, problemlərimizdən, yaşayışımızdan söhbət açan, müasir dövrü, zamanı, mühiti göstərən əsərlərə şamil deyil, həm də yaxın və uzaq keçmişimizi, tariximizi əks etdirən və tarixi keçmişimizin bu gün üçün örnək olası, müasir nəslin bəhrələnə biləcəyi səciyyəvi xüsusiyyətlərini yüksək poetik təqdimatda təsvir və ifadə edən sənət nümunələri aiddir. Müasirlik anlayışının bu cəhətini belə xarakterizə etmək olar ki, sənətkar keçmişə müraciət edəndə də təsvir və tərənnüm obyektinə, faktlara məhz bu günün nöqteyi nəzərindən yanaşır, xalqımızın tarixində baş verən hadisəni sadəcə yada salmaqla, xatırlamaqla kifayətlənmir, həm də oxucuya "tarixdən ibrət dərsi"verməyə səy edir, keçmişin mənfi cəhətlərinə-haqsızlığa, ədalətsizliyə qarşı nifrət oyadır, mütərəqqi hadisələrə, mili azadlıq mübarizəsinə və bu mübarizənin qəhrəmanlarına, ata babalarımızın müdrikliyinə və qəhrəmanlığına rəğbət və məhəbbət hissi aşılayır. B.Vahabzadənin "Ana dili", "Azərbaycan oğluyam", "Vətəndən-vətənə", "Nəsənsə, özün ol", "Ümid","Babamın komması", "Mən türkəm", "Şəhid anası", "Qarabağ atı", "Ata yurdu", "Gülüstan", "Beşik", "Vicdan xəstəsiyik" , "Utanıram", "Yurd yad əlində", "Şəhidlər", "Ümidə heykəl qoyun" və s. şeir və poemalrının ideya məzmun xüsusiyyətlərinin məhz müasirlik baxımından səciyyəsi həmin əsərlərin keyfiyyət göstəricisi kimi çox əlamətdardır. Şairin "Yurd yad əlində" şeiri babalarımızın yurdsevərlik, vətənsevərlik duyğularından, onların qoyduqları qayda qanunların müqəddəsliyindən ibrət, nümunə götürməyə bizi çağırır:

Hər gün neçə şəhid dəfn edirik biz,
Ağacı torpağa basdıran kimi.
Üzlərdə qəzəbdən nə kölgə, nə iz,
Dəfn mərasimi ötür an kimi.
...Düşmənə yönəlmir qəzəb də, kin də,
Dərs ala bilmədik əcdadımızdan.
Özümüz bu kökdə, yurd yad əlində,
Haray Çələbi xan, haray Pənah xan!

Bu şeirin poetik siqlətində müəllifin çağdaş ağrılarımızı tarixi dəyərlərimiz kontekstindən mənalandırılmasının, həmçinin mənəvi keçmişimizin müasirlik duyğusu ilə məharətlə əlaqələndirilməsinin, həm də bədii mətləbin yüksək vətənpərvərlik ruhunda ümumiləşdirilməsinin şahidi oluruq.

B.Vahabzadə yaradıcılığında müasirlik hissinin güclü olduğunu göstərən amillərdən biri onun milli məhdudiyyət tanımaması, milli çərçivəyə qapanmaması ilə şərtlənir. Onun lirikasında bəşəri mövzularla yanaşı, beynəlxalq aləmin ən mühüm hadisələri, dünyəvi-qlobal məsələlərə münasibət xüsusi yer tutur.

Ədəbiyyatşünas M.Məmmədovun müasirliklə bağlı maraqlı fikirləri vardır: "Müasirlik sənətkarın mənsub olduğu dövrün ümumbəşəri problemlərini öz əsərlərinin məğzinə və ruhuna hopdurmasıdır. Vətəndaşlıq, ictimai-fəlsəfi fikir dərinliyi sənətdə müasirliyin əsas göstəricilərindəndir. Müasirlik zamanın bu günü və gələcəyi üçün sənətkarın cavabdehliyidir. B.Vahabzadənin lirikası məhz həmin cavabdehliyin nümunəsidir"[3-176].

Ümumiyyətlə, müasirlik B.Vahabzadənin söz sənətinin üzvi bir keyfiyyəti olaraq onun yaradıcılıq pafosunun əsas qaynağını təşkil edir.

Nəticə: Azərbaycan poeziyasının, eləcə də milli düşüncə tariximizin ən parlaq simalarından biri Bəxtiyar Vahabzadədir. O, geniş fəlsəfi dünyagörüşünə, milli və bəşəri özünüdərkinə, kamil sənətkarlıq məziyyətlərinə görə böyük Şərq mütəfəkkiridir. Onun yaradıcılığında poetik fikrin, bədii ifadənin fəlsəfi qayəsi bəşəri mahiyyət kəsb edir. B.Vahabzadənin poetik təfəkküründə milliliyin, bəşərilikdə milliliyin harmoniyası ehtiva olunur.

İstifadə edilmiş ədəbiyyat:

1. V.Yusifli "Yanmaq Yaşamaqdır", "Azərbaycan Bəxtiyarı" 1995, səh 143;
2. V.Bəxtiyar "Sandıqdan səslər" , Bakı-Təfəkkür 2002, səh 6-7;
3. M.Məmmədov "Poeziya yeni təfəkkür işığında" Bakı, Yazıçı 1990. Səh 176;
4. M.İbrahimov " Üfüqlərə açıq yol" məqaləsi " Kommunist qəzeti, 25 iyul 1964. Səh 4;
5. V.Allahverdiyev "Bəxtiyar Vahabzadə yaradıcılığında milli özünüdərkin bədii-fəlsəfi ifadəsi. Bakı 2011. Monoqrafiya;
6. İ.Əliyeva "Bəxtiyar Vahabzadənin lirikası". Bakı 1983;
7. B.Vahabzadə. Seçilmiş əsərləri I-II cild.Bakı 2004.

Вагиф Аллахвердиев
Доцент Агджабадского филиала
Азербайджанского государственного университета
Vaqifapu@box.az
https://orcid.org/0009-0004-2805-9335

Национальность, гуманность, историчность и современность в творчестве Бахтияра Вахабзаде

РЕЗЮМЕ

Б. Вахабзаде — одна из самых ярких фигур азербайджанской поэзии, а также в истории нашей национальной мысли. Он — великий восточный мыслитель благодаря широкому философскому кругозору, национальному и человеческому самосознанию и совершенным художественным достоинствам. В его творчестве философская цель поэтической мысли и художественного выражения обретает человеческую сущность. В его поэзии литературно-художественные, социально-философские, национально-духовные и религиозные составляющие сливаются в сокровищницу человеческих ценностей. Суть поэтического мышления поэта заключается в гармонии человечности и национальности.

Ключевые слова: Бахтияр Вахабзаде, поэзия, образность, гуманизм, национальность, поэтический.

Vagif Allahverdiyev
Associate Professor, Aghjabat Branch
of Azerbaijan State University
Vaqifapu@box/az
https://orcid.org/0009-0004-2805-9335

Nationality, Humanity, Historicity, and Modernity in the Works of Bakhtiyar Vahabzade

SUMMARY

B. Vahabzade is one of the most prominent figures in Azerbaijani poetry, as well as in the history of our national thought. He is a great Eastern thinker thanks to his broad philosophical outlook, national and human self-awareness, and consummate artistic qualities. In his work, the philosophical purpose of poetic thought and artistic expression acquires a human essence. In his poetry, literary and artistic, socio-philosophical, national and spiritual, and religious components merge into a treasure trove of human values. The essence of the poet's poetic thinking lies in the harmony of humanity and nationality.

Keywords: Bakhtiyar Vahabzade, poetry, imagery, humanism, nationality, poetic.

DOİ 10.24412/2218-7588-2026-1-85-89

Zeynalova Aygün Nadir qızı
Milli Aviasiya Akademiyası. Müəllim
AygunZey@box.az
https://orcid.org/0009-0002-6051-7514

SƏMƏD VURĞUN YARADICILIĞINA BİR NƏZƏR

Biz Səməd Vurğunun ruhu qarşısında baş əyərək deyə bilərik:
əziz şairimiz, sənin canın qədər sevdiyin
Azərbaycan bu gün müstəqil dövlətdir.
Ümummilli lider Heydər Əliyev

XÜLASƏ: Görkəmli Azərbaycan şairi, dramaturqu, ictimai xadimi Səməd Yusif oğlu Vəkilovun – Səməd Vurğunun – anadan olmasından 120, vəfatından isə 70 il ötür. Bəli, 50 il yaşadı bu ürəyi, qəlbi Azərbaycanla döyünən böyük şair!

S.Vurğunun ilk əsəri 1925-ci ildə Tiflisdə çıxan "Yeni fikir" qəzetində çap olunan "Gənclərə müraciət" şeiri olur. Bu şeiri o, seminariyanı bitirmək münasibətilə qələmə alıb. Şairin ilk kitabı isə 1930-cu ildə işıq üzü görən "Şairin andı" əsəri olub.

Açar sözlər: vətən sevgisi, yaradıcılıq, böyük şair, ictimai-siyasi xadim, milli mədəniyyət, tərcüməçilik fəaliyyəti, ədəbi irs.

GİRİŞ: Görkəmli Azərbaycan şairi, dramaturqu, ictimai xadimi Səməd Yusif oğlu Vəkilovun – Səməd Vurğunun – anadan olmasından 120, vəfatından isə 70 il ötür. Bəli, 50 il yaşadı bu ürəyi, qəlbi Azərbaycanla döyünən böyük şair! Qısa ömür sürməsinə baxmayaraq xalqın qəlbində əbədi taxt qura bildi.

ƏSAS HİSSƏ:Şairin həyatına qısa nəzər salaq. O, 21 mart 1906-cı ildə Qazağın Yuxarı Salahlı kəndində anadan olmuşdu. 6 yaşında anasını itirən Səməd, atası və nənəsi Ayişə xanımın himayəsində qalmışdı. O dövrdə Firudin bəy Köçərli Qazaxda müəllimlər seminariyası açaraq, istedadlı uşaqları ora qəbul edirdi. Ayişə xanım da Səmədin əlindən tutub buraya gətirir. O zaman Səməd balaca, çəlimsiz bir uşaq idi. Firudin bəy onu görüb, - bu seminariya üçün çox balacadır, - deyərək inamsızlığını bildirir. Ayişə xanım təkid edərək uşağın istedadlı olduğunu bildirir. Bu zaman balaca Səməd əlini ürəyinə qoyaraq deyir: "Siz haradan biləsiniz ki, burada nələr vardır!" Onun bu sözləri təbəssümlə qarşılanır və Səmədi seminariyaya götürürlər. Doğrudan da o zaman Firudin bəy Köçərli haradan bilərdi ki, onun qarşısında gələcəkdə Azərbaycanın görkəmli şairlərindən biri durur.

S.Vurğunun ilk əsəri 1925-ci ildə Tiflisdə çıxan "Yeni fikir" qəzetində çap olunan "Gənclərə müraciət" şeiri olur. O dövrdə Səməd Vurğun Qazax, Gəncə və Qubanın kəndlərində ədəbiyyat dərsi deyirdi. 1929-1930-cu illərdə Moskva Ədəbiyyat Universitetində, sonra isə Azərbaycan Pedaqoji İnstitutunda təhsil alır.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaradıldıqda o, akademiyanın həqiqi üzvü seçilir.

Səməd Vurğunun Opera zalında keçirilən 50 illik yubileyində Konstantin Simonov, Georgi Leonidze, Qafur Qulam və başqaları iştirak etmişdilər. Lakin şairin özü ağır xəstəlik səbəbindən bu mərasimdə iştirak edə bilməmişdi. Hətta "Xalq şairi" fəxri adını da ona xəstəxanada təqdim etmişdilər. Səməd Vurğun Azərbaycanda bu fəxri adı alan ilk şair idi. Lakin elə həmin il,1956-cı ilin 27 may tarixində böyük şair əbədi olaraq gözlərini yumdu. Onu Fəxri xiyabanda dəfn etdilər.

Səməd Vurğunun yaradıcılığı çoxşaxəli və rəngarəngdir. Yuxarıda qeyd etdiyim kimi, onun ilk şeiri 1925-ci ildə çapdan çıxan "Gənclərə müraciət" şeiri olub. Bu şeiri o, seminariyanı bitirmək münasibətilə qələmə alıb. Şairin ilk kitabı isə 1930-cu ildə işıq üzü görən "Şairin andı" əsəri olub.

S.Vurğunun şeirləri arasında "Azərbaycan" şeirinin xüsusi yeri vardır. Azərbaycanda bu şeiri əzbərdən bilməyən tapılmaz-desəm, məncə mübaliğə etmiş olmaram. Bu şeir, sanki ölkəmizin vizit kartına çevrilmişdir. Şair bu şeir vasitəsilə vətənə olan sonsuz məhəbbətini göstərə bilmişdi. Əgər şair tək bu şeiri yazsaydı belə, bu onun məşhur olması üçün kifayət edərdi:

El bilir ki, sən mənimsən,
Yurdum-yuvam məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan! Azərbaycan!

Təsadüfi deyildi ki, bu ürəkdən gələn, doğma vətəni tərənnüm edən şeiri deyərkən möhkəm xarakterli, dəmir iradəli ümummilli liderimiz Heydər Əliyev çox duyğulanmış, özünün Azərbaycana olan sevgisinin tərənnümünü məhz bu şeirdə tapmışdı.

Şairin yaradıcılığında Böyük Vətən müharibəsi xüsusi yer tutur. Müharibə mövzusunda o, 60-dan çox şeir, bir neçə poema və "Bakı dastanı"nı qələmə alır. Şairin o dövrdə yazdığı şeirlərdən "Ananın öyüdü", "Qırmızı şahinlər", "Rəhbərin çağırışı","Cəsur xalqın əsgərinə" və s. şeirləri zavodlarda, fabriklərdə, hərbi hissələrdə səslənir, qəzetlərdə çap olunurdu. Bu şeirlər xalqda düşmənə nifrət, qələbəyə inam hissini gücləndirərək onları səfərbər edirdi. Bu müharibədə 600 mindən çox həmvətənimizlə birlikdə mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz də vuruşub:

Bilsin Ana Torpaq, eşitsin Vətən!
Müsəlləh əsgərəm mən də bu gündən!

S.Vurğunun müharibə mövzusunda olan şeirlərindən biri də "Ananın öyüdü" şeiridir:

Geyib əsgər paltarını silahlandı qəhrəman,
Onun polad sinəsinə sığışmadı ürəyi.
-Dayan!-deyib yaxın gəldi, öpdü onun alnından
Yay gününün xoş səhəri, bir də dağlar küləyi.
-Ana! Getdim, salamat qal!- deyib öpdü qarını.
Ana igid balasına açdı öz qollarını,
Üz-gözündən öpə-öpə bağrına basdı onu,
Dedi: "Oğlum, göz bəbəyim, sən ey ömür çiçəyim!
Tarixlərin şahididir mənim bu ağ birçəyim.
Görürəm ki, qəhrəmansan, sənə halaldır südüm.
Qulağında yaxşı qalsın mənim sənə öyüdüm:
Biz sənsiz də dolanarıq, uğur olsun yoluna,
Qılıncını çalan zaman qüvvət gəlsin qoluna!

Böyük şairin bu şeiri bu gün mənə oğullarını torpaqlarımızı işğaldan azad etmək üçün yola salan ağbirçək analarımızı, ağsaqqal atalarımızı xatırlatdı. Qəhrəmancasına şəhid olan övladlarının bayrağımıza bükülərək gətirilən tabutlarının başında ürəkləri qan ağlasa da –"Vətən sağ olsun!"-deyərək başlarını dik tuturdular. Sən yanmasan, mən yanmasam, bəs bu torpağı kim qoruyacaq, kim qaytaracaq. Bu şeirdən bəhs edərkən bir məqamı da qeyd etmək istəyirəm. Şairin "Ananın öyüdü" şeiri 1943-cü ildə ABŞ-də keçirilən müharibə əleyhinə yazılmış əsərlərin müsabiqəsində yüksək qiymətləndirilmişdi. Bu müsabiqəyə müharibə mövzusuna həsr olunmuş dünya poeziyasının 20 ən yaxşı nümunəsi təqdim edilmişdi. S.Vurğunun "Ananın öyüdü" şeiri də daxil olmaqla 20 şeirin hamısı Nyu-Yorkda çap olunaraq hərbçilər arasında yayılmışdı.

Səməd Vurğunla bağlı materialları vərəqləyərkən "Dil və ədəbiyyat" jurnalının 1/89 2014-cü il tarixli sayında şairlə bağlı bir məqalə diqqətimi çəkdi. Müəllif S.Vurğunun epistolyar janrını araşdırarkən belə bir maraqlı məktub təqdim etmişdi:

"Döyüşçü İdris Vəliyevə!

İdris! Sən yaxşı bilirsən ki, müharibə dəhşətli bir müharibədir. Onun çovğunları və boranları hələ qabaqdadır. Gələcəkdə də dözümlü ol! Məndən yoldaşlarına salam söylə və de ki, hər xalqın hünəri müharibə günlərində imtahan olunur. Siz də böyük bir xalqın oğlusunuz. Azərbaycan torpağı hər vaxt igidlər yuvası olmuşdur. İndi vətənimizin namusu, bayrağı sizin əllərinizə tapşırılmışdır.

Siz hər gün göstərdiyiniz hünərlə xalqımızın qəhrəmanlıq tarixinə bir səhifə də artırırsınız. Siz bir şeyi də unutmayın ki, bu saat Azərbaycan xalqının hər sahədə böyük insanları və nümayəndələri var. Ordu sıralarında, hərb aləmində də bizim böyük mütəxəssislərimiz – generallarımız çox olmalıdır. Ordumuzun hər hissəsində igid oğullarımız və qızlarımız öz hünərini göstərir. Bu vaxtdan istifadə edərək xalqımız üçün öz içinizdən hərbi dühalar yetirin! Bu da yalnız uzun müddət ordu sıralarında qalmaqla və hərbi elmlərə sahib olmaqla mümkün olacaqdır. Başqa bir sözüm yoxdur. Sizin Səməd Vurğun."

Bu məktubu oxuyarkən düşündüm ki, bu qədər işin, yaradıcılığın, ictimai xadim olaraq dövlət işlərinin arasında sadə bir əsgərə məktub yazmağa belə vaxt ayıra bilib böyük şair, böyük insan!

S.Vurğunun poetik yaradıcılığının ruhunu müasirlik təşkil edirdi. Bununla yanaşı vətənpərvərlik, xəlqilik və tarixi köklərinə bağlılıq da onun yaradıcılığına məxsus əsas amillərdən idi. V.Q.Belinski deyirdi ki, hər bir şairin böyüklüyü ondadır ki, onun hisləri, düşüncələri tarixə, cəmiyyətə bağlı olsun.

Səməd Vurğun, demək olar ki, bütün əsərlərində qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edirdi. O hesab edirdi ki, bizim gündəlik dünyamız iş-güclə, qayğılarla doludur. Biz o zaman bu həyatın bir parçası oluruq ki, ürəkdən sevirik, yaşayıb-yaradırıq, xeyirxah işlər görürük. Onun yaradıcılığı insan davranışlarını öyrənməyə, problemləri nəzərdən keçirməyə kömək edir.

S.Vurğun öz xalqının adət-ənənələrini, psixologiyasını, etik və estetik cəhətlərini yaxşı bilirdi. Bu da onun bütün əsərlərində öz əksini tapırdı. Şairin yaradıcılığı ilə tanış olduqda görürük ki, onun əsərlərində yaratdığı obrazların əksəriyyəti öz xarakterinə, daxili aləminə uyğun qəhrəmanlardır.

S.Vurğun dramaturq kimi də böyük şöhrət qazanmışdı. Onun "Vaqif"-1937-ci il, "Xanlar"-1938-1939-cu illər, "Fərhad və Şirin"-1941-ci il, "İnsan" 1944-1945-ci illərdə qələmə aldığı dramları indi də maraqla oxunur.

Yuxarıda sadaladığımız dram əsərləri içərisində "Vaqif " dramı xüsusi yer tutur. Bu əsər "birnəfəsə" oxunan əsərlərdəndir. Onu xüsusi olaraq əzbərləməyə ehtiyac yoxdur. Oxuduqca misralar mirvari kimi qulağa süzülür, yaddaşa həkk olunur. Xüsusilə, bu dram əsərinin Vaqifin Qacarla görüşməsi səhnəsi böyük maraq kəsb edir.Vaqifin şair kimi Ağaməhəmməd şah Qacarın qarşısında məqrur dayanması, təzim etməməsi, onun təklifinə rədd cavabı verməsi, sanki, S.Vurğunun öz xarakterini ortaya qoyması təəssüratını yaradır. Hətta, S.Vurğun yaradıcılığını araşdıran bəzi mənbələrdə göstərilir ki, Vaqifin Qacarın hüzurunda olma səhnəsində şair özünün Mircəfər Bağırovun qəbuluna çağırılma səhnəsini əks etdirib:

Qacar:

-Şair,hökmdarın hüzurundasan!

Vaqif:

-Bunu sizsiz belə düşünürəm mən.

Qacar:
-Bəs baş əymədiniz?
Vaqif:
-Əymədim,bəli.
Əyilməz vicdanın böyük heykəli...
Qacar:
-Aha...sınayırdım idrakınızı,
Doğrudan bir şair görürəm sizi,
Xoşbəxt xəlq eləmiş sizi Yaradan.
Vaqif:
-Dünyada qalacaq yalniz yaradan...
Qacar:
-Çox gözəl, çox gözəl inanın ki, mən
Sizin ruhunuzu sevdim ürəkdən.
Bu dövlət, bu cəlal, bu şanlı saray,
Göylərin büsatı o ulduz, o ay
Sizə tapşırılsın bu gündən gərək,
Ancaq bir şərtim var.
Vaqif:
-Buyurun görək.
Qacar:
-Gərək fars dilində yazsın sənətkar.
Vaqif:
-Farsın öz qüdrətli şairləri var,
Nə çoxdur onlarda böyük sənətkar.
Bizim bu dağların oğluyam mən də,
Az-az uydururam yeri gələndə.

Tarixi hadisələrə müraciət edərək, şair o dövrün insanının hiss, həyəcan, düşüncə, arzu və istəklərini anlamağa çalışır. O belə bir qənaətə gəlir ki, insanı nə qədər çox və yaxından tanısan, onun müəyyən həyat situasiyalarında özünü necə aparmağını dərindən anlaya bilərsən.

S.Vurğun hesab edirdi ki, müharibədə təkcə müxtəlif xalqlar deyil, həmçinin müxtəlif dünyagörüşlər, müxtəlif münasibətlər, həyata, insana, hətta təbiətə müxtəlif fəlsəfi baxışlar toqquşur, qarşı-qarşıya gəlir.

Bu baxımdan şairin "İnsan" romantik dramı böyük bədii-idraki maraq kəsb edir. Şairin özü bu pyesə tənqidi yanaşırdı. O, pyesdə mücərrəd fəlsəfi elementlərin olduğunu, qəhrəmanların real gerçəklikdən uzaq ifrat romantik təsvir edildiklərini iddia edirdi. Nəhayət, 1945-ci ilin fevralında S.Vurğun xəbər verir: "Müharibə dövründə uzun və çətin düşüncələrdən sonra bu yaxınlarda özümün şeirlə yazılmış monumental "İnsan" dramımı bitirdim. Mənim dramımın personajları iki cəbhəyə bölünür: ideya cəhətdən qalib olanlar və ideya cəhətdən məğlub olanlar…"

Pyesin əsas mövzusu müharibədir.u " İnsan" pyesi qəddar düşmən olan alman faşizminə qarşı mübarizəyə həsr olunub. Pyesin süjet xətti iki istiqamətdə inkişaf edir. Birinci süjet xəttində, xalqın əxlaqi-siyasi böyüklüyü, onun qəhrəmanlığı, humanizmi, insan ağlının qələbəsinə inamı poetik formada təqdim edilir. İkinci süjet xəttində isə xalqın mənəvi zənginliyi, müharibə illərində müxtəlif xalqlar arasındakı dostluq və qardaşlıq tərənnüm edilir.

S.Vurğun yaradıcılığında tərcümə sahəsi mühüm yer tutur. Şairin ən uğurlu tərcümələrindən biri 1936-cı ildə tərcümə etdiyi A.S.Puşkinin "Yevgeni Onegin" əsəridir. Bu əsərin tərcüməsi zamanı o Azərbaycan dilinin saflığını, əlvanlığını, ahəngdarlığını qoruyub saxlaya bilmişdir. Bu işdə ona dilimizin zənginliyi kömək olmuşdur.Məsələn, Olqa haqqındakı misraları yazarkən:

Yamaclarda bitmiş bu vəhşi çiçək,
Nə bir yağış görmüş, nə də ki, külək…

Yaxud, Tatyananın təmiz, səmimi etirafını təsvir edərkən dilimizin zənginliyi onun köməyinə çatmışdır.

Bilmirəm heç hardan gəldiniz bizə?
Görünməsəydiniz bu kənddə əgər
Nə mən rast gələrdim ömrümdə sizə,
Nə də rast gələrdi mənə bu qəmlər.
Dadmazdım sevginin ilk hicranını,
Sınaqsız qəlbimin həyəcanını
Söndürüb (bəlkə də nə bilək bunu?),
Tapardım ömrümün könül dostunu;
Mən də namuslu bir qadın olardım,
Analıq mehrinə sadiq qalardım.

Puşkin komitəsi "Yevgeni Onegin" poemasının tərcüməsinə görə Səməd Vurğunu Puşkin medalı ilə təltif etmişdir.

Yenə də 1936-cıildə şair gürcü şairi Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin bir hissəsini Azərbaycan dilinə tərcümə etmişdir. Buna görə də o, Gürcüstan SSR-nın Fəxri Fərmanı ilə təltif olunmuşdu.

1939-cu ildə şair Nizami Gəncəvinin Leyli və Məcnun" əsərini tərcümə etmiş, M.Qorkinin "Qız və ölüm" poemasının, M.Lermontov, T.Şevçenko, V.Mayakovski və başqa şairlərin şeirlərinin tərcüməsini tərtib etmiş, həmçinin T.Şevçenko, İ.Çavçavadze, Cambulun bəzi əsərlərini tərcümə etmişdir.

Bir çox gənc şair və yazıçı S.Vurğun yaradıcılığından bəhrələnmiş, böyük şairin əsərləri onlar üçün mayak olmuşdur. İctimai televiziyanın görkəmli şair Məmməd Arazın yaradıcılığına həsr olunmuş "Ötən günlər" verilişində səslənən fikir diqqətimi çəkdi. Şair haqqında xatirə söyləyənlərdən biri qeyd etdi ki, Məmməd Arazdan-Necə oldu ki, şair oldun?- sualina-Səməd Vurğunun " Dilican dərəsi" şeirini oxuyandan sonra-cavabını vermişdi:

Yenə gördüm səni, Dilcan dərəsi,
Yadıma çox köhnə zamanlar gəlir.
Ömür dedikləri bir karvan yolu,
Nə canlar gedərək, nə canlar gəlir.

Fələklər yaratmış bu yeri cənnət
– Desəm, çox münasib həqqindir əlbət.
Səndə var doğruluq, var səmimiyyət,
O ibrət bağrına loğmanlar gəlir...

...Yüksələr tar səsi hər eyvanından,
Quşlar qanad salar keçsə yanından.
Daşlar boyanmışdı bir gün qanından,
Xəyalına qara dövranlar gəlir...

Məqalənin əvvəlində ümummilli liderimiz Heydər Əliyevin sözlərini yada salmağım təsadüfi deyildi. O həmişə Azərbaycanın istedadlı şair və yazıçılarını yüksək qiymətləndirmiş, onları təzyiq və hücumlardan qorumuşdu. S.Vurğuna qarşı irəli sürülən ittihamlardan biri də onun repressiyadan sağ çıxması olmuşdur. H.Əliyev S.Vurğunun 90 illik yubileyindəki çıxışında 1920-1930-cu illərin ağır repressiya illərini yada salır və həmin faciəni xalqımızın ürək ağrısı ilə xatırladığını diqqətə çatdırır, repressiyadan qurtula bilənlərin isə mədəniyyətimizi, ədəbiyyatımızı, təhsilimizi, həyatımızın başqa sahələrini yaratdıqlarını, inkişaf etdirdiklərini şükranlıqla yada salır. Deyir ki, "Bəli, biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim bu ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yaradacaqdı? İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər. Onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onları da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrdə o xatalardan qurtara bildilər. Əgər 30-cu illərdə o itirdiklərimizlə yanaşı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb-yaratmasaydılar, o əsərlərimiz olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm".

Ulu öndərin S.Vurğunun ev muzeyinin Fəxri qonaqlar kitabına yazılmış ürək sözləri:

"Bu gün böyük şair Səməd Vurğunun 90 illik yubileyini qeyd edərkən, 1975-ci ilin oktyabr ayını xatırlayıram. O günlər ölməz Səməd Vurğunun ev muzeyinin təntənəli açılışı oldu. Ötən illər muzey Səməd Vurğunun həyat və yaradıclığını təbliğ etmək üçün çox iş görüb, xalqımızın, mədəniyyətimizin inkişafına bövük xidmət göstərib. Əminəm ki, Səməd Vurğunun ədəbi irsi daim yaşayacaq, muzey ölkəmizin görkəmli mədəniyyət ocağı kimi o şərəfli işə bundan sonra da xidmət edəcəkdir".

Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti

Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir. Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında bütövlükdə yeni mərhələ olmuşdur. Azərbaycan Elmlər Akademiyasının ilk akademiklərindən biri olan Səməd Vurğunun görkəmli ictimai-siyasi xadim kimi xidmətləri də təqdirəlayiqdir.

İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti

Digər görkəmli şəxsiyyətlərdən bəzilərinin S.Vurğun haqqında yazdıqları. Orduda belə bir qayda var: şəhid olan nadir qəhrəmanın adı hissənin siyahısında hər səhər yoxlama zamanı başda çəkilir. Ədəbiyyat ordumuzun işində də müasir şeirimizin qəhrəmanı Səməd Vurğun buna bənzər şərəfli bir yer tutmuşdur.

Mir Cəlal, professor

Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir.

Üzeyir Hacıbəyov, Xalq artisti, akademik

Səməd Vurgun yalnız poeziya aləmində deyil, ümumən ədəbiyyatımızın ön cəbhəsində getmiş və ölməz bədii əsərləri, məruzə və nitqləri, məqalə və çıxışları ilə ədəbiyyatımızı və ictimai fikrimizi istiqamətləndirmişdir. Yalnız müasir mövzuda deyil, tarixi mövzuda yazdığı əsərlərində də həmişə müasir olmuş, tarixi mövzuları da zamanın tələbləri baxımında işləmiş, bunlara bugünün gözü ilə baxmağı bacarmışdır.

Bəxtiyar Vahabzadə, Xalq şairi

Dünyanın mədəniyyət irsinə Qərbdə Homerdən Puşkinədək, Şərqdə Füzulidən Səməd Vurğunadək neçə-neçə nəsillərin təxəyyül qüdrəti və təcrübəsi sərf olunmuşdur.

Çingiz Aytmatov, Qırğızıstanın Xalq yazıçısı

Səməd Vurğun Azərbaycan poeziyasının ağ saçlı qartalı, Azərbaycan sovet ədəbiyyatının atası və oğludur. Azərbaycan və Səməd Vurğun bir-birindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni məfhumdur, çünki Səməd xalqının ən yaxşı xüsusiyyətlərini – onun sadəliyini, cəsarətini, dərin zəkasını və istedadını təcəssüm etdirir.

Rəsul Həmzətov Dağıstanın Xalq şairi

Görkəmli şair Səməd Vurğun 1956-cı il may ayının 27-də Bakıda vəfat etmişdir.

Şair vaxtilə dostlarına demişdi ki, "mən öləndən sonra 100 yaşım olanda məzarımın üstünə 100 bənövşə qoyun". Bu vəsiyyətə görə ilk 100 bənövşəni hörmətli Aybəniz xanım, S.Vurğunun qızı, martın 22-də şairin qəbri üstə qoymuşdu.

İstifadə olunmuş ədəbiyyat

1. S.Vurğun "Seçilmiş əsərləri", 5 cild, Bakı-1972.
2., S.Vurğun "Seçilmiş əsərləri", 6 cild, Bakı-1972.
3. Babayev Q. "S.Vurğun. Yaradıcılıq oçerki". M.,1981.
4. S.Vurğun (Şair haqqında deyimlər, xatirələr, tədqiqatlar), B.,Elm, 1976.
5. Qurbanov S. Ömürdən səhifələr. Bakı, Yazıçı, 1980.
6. Vahabzadə B. Səməd Vurğun. B., Azərnəşr, 1968

Зейналова Айгюн Надир гызы
Милли Авиасия Академия. Мюэллим
AygunZey@box.az
https://orcid.org/0009-0002-6051-7514

Резюме

ВЗГЛЯД НА ТВОРЧЕСТВО САМЕДА ВУРГУНА

Исполнилось 120 лет со дня рождения, 70 лет со дня смерти видного Азербайджанского поэта, драматурга, общественного деятеля Самеда Юсиф оглы Векилова. Да, этот великий поэт, чье сердце принадлежало Азербайджану, прожил всего 50 лет.

Первое произведение С.Вургуна, которое называлось «Обращение к молодежи» опубликовано в 1925 году в газете «Новое мышление» в городе Тифлис. Это стихотворение было написано в честь окончания семинарии.

А первая книга поэта «Клятва поэта» вышла в свет в 1930 году.

Ключевые слова: любовь к родине, творчество, великий поэт, общественно-политический деятель, национальная культура, переводческая деятельность, литературное наследие.

Zeynalova Aygun Nadir gizi
Milli Aviation Academy. Muellim
AygunZey@box.az
https://orcid.org/0009-0002-6051-7514

Abstract

A LOOK AT THE WORK OF SAMAD VURGUN

120 years have passed since the birth and 70 years since the death of the prominent Azerbaijani poet, playwright, and public figure Samad Yusif oglu Vekilov. Yes, this great poet, whose heart belonged to Azerbaijan, lived only 50 years.

S. Vurgun's first work, entitled "Appeal to the Youth," was published in 1925 in the "New Thinking" newspaper in Tiflis. This poem was written in honor of his graduation from the seminary.

The poet's first book, "The Poet's Oath," was published in 1930.

Keywords: love of country, creativity, great poet, public and political figure, national culture, translation, literary heritage.

RƏYÇİ: dos. L.Ələkbərova

DOİ 10.24412/2218-7588-2026-1-90-94

Rəhman Böyükağa oğlu Quliyev
Bakı Mühəndislik Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
rquliyev@beu.edu.az
https://orcid.org/

M.FÜZULININ QƏZƏLLƏRINDƏ SÖZÜN POETIK GÜCÜ

Xülasə: Qəzəl janrının misilsiz örnəklərini ərsəyə gətirmiş M.Füzuli hələ gənc yaşlarından bu janrın ustadı kimi şöhrət tapmışdır.Dahi şairin qəzələ üstünlük verməsinin bir səbəbi isə, hər şeydən əvvəl, özünün mütərəqqi görüşlərini, ürək sözlərini geniş xalq kütlələrinə çatdırmaq təşəbbüsündən doğan bir hiss kimi izah edilə bilər.

Sözün, poetik gücü bədii təsvir və ifadə vasitələri əsasında özünü göstərir. Bədii dilin əsas meyarı ümumxalq Azərbaycan dili, onun quruluşu və ifadə vasitələridir. Bu vasitələrlə yanaşı, ədəbiyyatımızda bir sıra yeni və maraqlı dil xüsusiyyətləri də vardır ki, Füzuli qəzəllərində öz inikasını tapmışdır.

1.Təcrid sözdüzəltmə tərzi–abstraktlaşdırma (mücərrədləşmə) terminina müvafiq gələn bu söz lirik qəhrəmanı danışan şəxs (“mən”) mövqeyində deyil, dinləyən şəxs (“sən”) qismində təqdim edir. Sənətkar bəzi məqamlarda təxəllüsünü xitab funksiyasında işlədir.

2. Füzulinin poetik ifadə tərzindən biri də müvazilikdir. Füzuli şeirində ali bir nizam, hökm – forma mütənasibliyini ifadə edən müvaizilik aparıcı amillərdəndir.

3.Füzuli lirikasında ifadəliliyin təsir gücünün artırılmasında mühüm amillər içərisində iştiqaq (təcnis) müstəsna rola malikdir.

4. Sözün poetik gücünün qabarıq təqdimində əks (xiazm) diqqəti cəlb edən maraqlı məsələlərdəndir. Misra daxilində əvvəlki sintaqmın son sözünün sonrakı sintaqmın ilk sözü kimi işlənməsi bu poetik hadisənin əsas səciyyəvi əlaməti hesab edilirdi.

Məqalədə M.Füzuli yaradıcılığında sözün poetik gücü şairin ana dilinin zənginliklərinə dərindən bələd olması və bundan məharətlə istifadə etməsi kontekstində şərhlər verilir.

Açar sözlər: qəzəl janrı, sözün sehri, bədii dil, təcrid, bədii ifadə vasitəsi, xitab funksiyası, sintaqm, inversiya, klassik poeziya

Giriş: Ədəbiyyatımızın orta əsrlər dövründə yaşayıb-yaratmış şairləri sırasında anadilli şeirin ən parlaq simalarından olan Füzulinin yaradıcılığı istər mövzu-ideya, istərsə də məzmun-forma baxımdan son dərəcə zəngindir. Orta əsrin zəruri ədəbi növ və janrlarını əhatə etsə də, şairin adı Yaxın Şərqdə lirik şeirin ən böyük ustad sənətkarlarının adı ilə bir sırada çəkilir.

Qəzəl janrının misilsiz örnəklərini ərsəyə gətirmiş Füzuli hələ gənc yaşlarından bu janrın ustadı kimi şöhrət tapmışdır. Şairin lirik şeir sahəsində, xüsusən bu ədəbi növün parlaq nümunəsi sayılan qəzəl yaradıcılığında mükəmməl qüdrət sahibi olması bir tərəfdən sözə, onun əzəmət və sehrinə fərqli diqqət və qayğı ilə yanaşmasının nəticəsi, eyni zamanda şairin öz ana dilinə sonsuz sevgisinin təzahürüdür.

Əsas hissə: Ədəbiyyatımızın orta əsrlər dövründə yaşayıb-yaratmış şairləri içərisində anadilli şeirin ən parlaq simalarından olan Füzulinin yaradıcılığı istər mövzu-ideya, istərsə də məzmun-forma baxımından son dərəcə zəngindir.

Dahi şairin qəzələ üstünlük verməsinin bir səbəbi isə, hər şeydən əvvəl özünün mütərəqqi görüşlərini, ürək sözlərini geniş xalq kütlələrinə çatdırmaq təşəbbüsündən doğan bir hiss kimi də izah edilə bilər. Füzuli ana dilində yazdığı şeir divanının müqəddiməsində döürünün qəzəl janrına münasibətini aşağıdakı beytlərlə bu cür ifadə edir:

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güli-bustanı-hünər.
Qəzəl bildirər şairin qüdrətin,
Qəzəl artırar nazimin şöhrətin…
Qəzəl de ki, məşhuri-dövran ola,
Oxumaqda, yazmaq da asan ola.

Göründüyü kimi, dahi söz ustadı lirik şeir janrları içərisində qəzəli dövrün papulyar nümunəsi olaraq yüksək qiymətləndirir. Dövrün ictimai-sosial çatışmazlıqları bu janrı daha da aktuallaşdırırdı. Təbliğatın ən mühüm vasitəsi sayılan mətbuatın olmadığı qeyri-müəyyən bir şəraitdə şairin qabaqcıl ideya və fikirlərinin geniş yayılmasında qəzəl ən zəruri və müvafiq janrlardan hesab edilir. O cümlədən qəzəl musiqi janrı ilə əlaqədar olduğu üçün xanəndələr tərəfindən geniş yayılırdı ki, bu amil də onun dövr üçün əlverişli janr hesab olduğunu sübut edir.

İstedadlı şair həmçinin qəzəli” hünər bostanının gülü “ hesab edirdi. Ona görə ki, qəzəl sənətkardan xüsusi bacarıq, qeyri-adi istedad, sözlərdən mükəmməl istifadə etmək, onu öz yerində işlətmək şücayiət və qabiliyyəti tələb edir.

Dahi sənətkarın yaradıcılığında sözün poetik gücü probleminin təhlilinə keçməzdən əvvəl məsələ ilə əlaqədar olan iki anlayışa – bədii dil və ədəbi dil anlayışına aydınlıq gətirilməsini məqsədəuyğun hesab edirik. Bu iki anlayışla bağlı bəzi tədqiqatlarda onların birinin digərinin yerində işləndiyi hallar da müşahidə edilir. Bu isə belə anlayışların semantik cəhətdən qarışdırıldığının və nəticədə səhv mülahizələrin meydana çıxmasının səbəbi kimi dəyərləndirilir.

Ədəbi dil ümumxalq dili əsasında seçmə və əvəzetmə üsulu ilə yaranan anlayışı ifadə edir. Ədəbi dil, bir növ kodlaşdırılmış dildir. Bu dil anlayışında konkret məhdudiyyət vardır. Ədəbi dil bədii dilin əvəzində işlənə bilməz. Belə

kommunikativ tərz bədii dilin əzəmətinə zərər vermiş olar. Bədii dil sərbəstdir, poetik füunksiya daşıyır. Kommunikasiyanın bu tərzində söz müstəqil fəallığa malikdir. «Ədəbi dildən fərqli olaraq bədii dilinə, həm də ünürlərinə yer verilir. Lakin bunların bədii dildə işlənməsi bədii cəhətdən əsaslandırılmalıdır. Bədii dildə, bədii məntiq baxımından təbii verilən hər söz (hətta mənasız «sözlər» - səslər toplusu)» bədii əsərdə özünə yer tuta bilər»[1,s. 205]

M.Füzuli qəzəllərində və ümumən yaradıcılığında sözün sehrindən, əzəmətindən, incə məna və məqamlarından olduqca mükəmməl şəkildə istifadə etmişdir. Dahi söz ustadı özünün sözə, ifadəyə, şeirə, məzmun və formaya yeni yanaşması ilə bərabər, özünəqədərki yazıb-yaratmış Azərbaycan şairlərinin ən yaxşı ənənələrini də davam və inkişaf etdirmişdir.

Füzulinin fərdi dili ümumxalq Azərbaycan dilinə söykənir. Ustad sənətkar Azərbaycan ədəbi dilinin formalaşmasında misilsiz xidmət göstərmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, şair ana dilinə böyük məhəbbət və ehtiramla yanaşmış, bu dildə möhtəşəm sənət nümunələri yaratmağın mümkünlüyünü incə ruhlu lirikası ilə sübut etmişdir.

Yüksək ideyaları səmimi inikası ilə ülvi bir vəhdət təşkil edən Füzulinin əsərlərindəki şeiriyyət zəngin dil və üslub xüsusiyyətləri ilə bağlıdır. Sözün nominativ, kommunikativ, ekspressiv və poetik funksiyaları ayrı-ayrı müstəvilərdə onun (sözün) gücünün təzahürü olaraq dəyərləndirilir.

Sözün poetik gücü bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadə əsasında özünü göstərir. Bədii dilimizin əsas meyarı ümumxalq Azərbaycan dili, onun quruluşu və ifadə vasitələridir. Bu vasitələrlə yanaşı, ədəbiyyatımızda bir sıra yeni və maraqlı dil xüsusiyyətləri də vardır ki, Füzuli qəzəllərində bunların ən mükəmməl nümunələri öz inikasını tapmışdır:

1.Təcrid sözişlətmə tərzi – Füzuli qəzəllərində təcrid adlanan sözişlətmə tərzi sözün poetik gücünü, şeirdə poetizmi artıran bədii priyomlardan biridir. Alt qatı (daxili struktur mənası) baxımından abstraktlaşma (mücərrədləşmə) terminə müvafiq gələn bu söz lirik qəhrəmanı danışan şəxs («mən») mövqeyində deyil, dinləyən şəxs («sən») qismində təqdim edir. Zahiri strukturda önə çəkilən cəhət budur ki, sənətkar bəzi məqamlarda təxəllüsü xitab funksiyasında işlədir.

Ey Füzuli, xubrilərdən təğafüldür yaman,
Gər cəfa həm gələ anlardan bir ehsandır sana…
Ey Füzuli, aləmin gördüm qamu nemətlərin,
Hiç nemət görmədim didari-dilbər tək ləziz.

Bu cür ünsiyyət – dil formulalarının müraciət mövqeyindən təqdim edilməsi bir tərəfdən mücərrədləşmə funksiyasını – üçüncü şəxslə nitq predmeti arasındakı məsafəni uzadır, onları bir-birindən uzaqlaşdırırsa, ikinci şəxs bu məsafəni silib aradan çıxarır; eyni zamanda şairin əsas qayəsinin poetik şəkildə ifadəsinə geniş imkan yaratmış olur.

İrəli sürülən fikrin yuxarıdakı ikinci beyt üzərindən şərhi daha məqbul sayılır. Təsvir edilən mülahizəyə görə, beytdə sənətkarın insan gözəlliyinə, insana olan məhəbbətinə münasibətin təzahürü öz əksini tapmışdır.

2.Füzulinin poetik ifadə tərzindən və ümumən Füzuli şeirinin başlıca məziyyətlərindən biri də müvazillikdir. Lüğəvi mənası baxımından ərəb mənşəli olan müvazi sözü bərabər anlayışını bildirir. Füzuli şeirində isə ali bir nizam, hökm-forma mütənasibliyini ifadə edən müvazilik aparıcı amillərdəndir. Beytlərdə və bəndlərdə misraların nəzm meyarlarına müvafiq əlaqələndirilməsi sənətkardan xüsusi məharət və mükəmməl bacarıq tələb edir.

Gər lalə isən, nə dağdasan?
Vər susən isən, nə bağdansan?...
Ey cövhəri-canımın havası…
Vey dideyi-bəxtimin ziyası…

Füzuli lirikasında müvaziliyin bir növü sayılan paralelizm üsulundan da məqsədyönlü şəkildə istifadə edilmişdir. Şairin şeirlərində paralelizmin birhecalı formasından və sətirbaşı mövqeyindən daha fəal istifadə edilmşidir:

Var ol özü güc nigarə məndən,
Var da bu söylə yarə məndən,
Key türfə nigari nazənimin,
Vey arizuyi-dili-həzinim.

«Dahi şairin lirikasında klassik şərq poeziyasına məxsus müvazilik (məqlub)» ilə qədim türk (Azərbaycan) xalq şeirinə məxsus alliterasiya bir vəhdətdə çıxış etdiyindən çox zaman bunları fərqləndirmək də asan olmur. Füzuli sənətkarlığının səciyyəvi cəhətlərindən biri də məhz bu cür poetik tərənnüm və fiqurların transformasiyasıdır. Şairin yaradıcılığında ritmqurma məharəti məxsusi istedadla müşahidə edilir.

«Sən bir avarə müsafirsən, bu
Viran, ribat"…

"Misrada səs toplularına fikir verin: bir-bir-fir-vir-var-rib (bir-rib) at vahidlərində əks sıralı alliterasiya və ya məqlub (müvazilik) vardır [2, s. 326].

Füzuliyə qədər məqlub türk şeirləri üçün səciyyəvi olmamışdır. Türk sözləri nəzmdə bu mövqedə funksional səviyyədə sınanılmamışdır. Şeirə məxsus bu cür müvazilik prinsipi ilk dəfə Füzuli lirikasında aşkarlanmışdır.

Füzuli şeirində məqlub hadisəsi beytdə müxtəlif mbvqedən, müxtəlif istiqamətdən (horizontal və şaquli) müşahidə edir. Belə poetik hadisə beyti təşkil edən misraların hər ikisində eyni leksik vahid (söz) paralel manevr etmiş olsun:

Gər zülf ilə gərmək istəsən xal,

Gör həyəti-nöqtə, peykəri dal…

Bədii təhlil etdikdə gər vahidi həmin misrada gərmək ilə şaquli xətdə isə güclü mövqe tutan gör ilə paralel işlənərək məqlub yaratmışdır.

Füzuli şeirində məqlubun (müvaziliyin) yaranma üsullarından sayılan söz təkrarlarının bolluğu xüsusi ilə diqqəti cəlb edir.

Yer tutam derdi könül nalə ilə küyündə,
Yetmədi bir yerə hər necə ki, əfqan etdi…
Hər gün açır könlümü zövqi, visalın yengidən
Gərçi güllər açmağa hər ildə bir novruz olur…

Şeirə nəzər saldıqda təkrarlanan vahidlər içərisində daha çox "y" və "h" samitləri ilə başlanan sözlərin təkrarı diqqət çəkir (yer, yerə, hərə).

"Füzuli müxtəlif morfoloji kateqoriyaların" (kəmiyyət, hal, şəxs, təsdiq-inkar, təsriflənən və təsriflənməyən feillər) ümumi keyfiyyətlərindən maksimum səviyyədə istifadə etməklə ölməz sənət nümunələri yaratmışdır [3,s. 444].

Füzuli lirikasında sözün poetik gücünü təzahür etdirən vasitələr içərisində alliterasiyanın mövqeyi xüsusidir. Ümumən xalq dilinə məxsusluğu ilə daha çox seçilən alliterasiya klassik şeirimizdə təkcə Füzuli lirikası üçün səciyyəvi olmasa da, ahəngdarlıq və musiqilik cəhətdən heç kəs onu Füzuli səviyyəsinə qaldıra bilməmişdir.

Eyni söz və ya ünsürün alliterasiya tərzində işlənməsi dahi sənətkarın yaradıcılıq istedadının təzahürü kimi dəyərləndirməyə layiqdir:

Mən kiməm, bir bikəsü biçarəvü bixaniman…
Göründü gözümə bir pəriru
Xoşləhcəvü xoşcəmalü xoşbu…
Bədrəkü bədxilasü bədxusən…

3. Füzuli lirikasında ifadəliliyin təsir gücünün artırılmasında mühüm amillər içərisində istiqaq müstəsna rola malikdir. Ümumən belə bir fikir qeyd etmək mümkündür ki, qədim lirik şeir janrlarına aid bəzi terminlər ilk semantik mahiyyətindən fərqli şəkildə izah edilir ki, bu da həmin terminlər arasında etimoloji əlaqənin pozulmasını deməyə əsas verir. Müasir ekvivalenti təcnis hesab edilən iştiqaq termini də belə ifadələrdəndir. "məsələn, müasir dövrdə təcnis termini belə şərh olunur: "Lirik janrın nisbətən az yayılmış şəkillərindən biri [4,s. 117].

Ədəbiyyatşünaslıq elmində təcnis dedikdə sözün forma bənzərliyi ilə müşahidə edilən omonim, omofon, omoqraf anlayışları nəzərdə tutulur. Təcnisin onlarla fərqləndirilən bu cür söz bənzərlərindən biri də iştiqaq adlandırılır.

Spesifik cəhətinə görə misra və beytdə hərflərinin miqdarı və sırasının eyniliyi ilə müşahidə edilən iştiqaq hadisəsi Füzulinin lirikasında məharətlə təşkil edilmişdir. Aşağıdakı beytlərdə bu hadisənin parlaq nümunələrinin yaradılmasını görmək mümkündür.

Mülki-sevdanın budur guya səvadi-əzəmi…
Xoş ol zaman ki, hərimi-Vüsalə məhrəm idim…
Xoş kamili-zamansan, əhsəntü bu kəmalə…
Ar qətlimdən sənə, mən həsrət abi-tiğanə,
Öldürər həsrət, gər öldürməzsən, ey qatil, məni…

3. Sözdə iştiqaq hadisəsi çox nadir hallarda özünü göstərir.

Füzuli lirikasında da həmin sözlərin işləndiyi nümunələrə rast gəlmək mümkündür:

Mədrəsə içrə müdərris verdiyi min dərsdən
Yeydurur meyxanada bir çam vermək bir gözəl…

Eyni zamanda eşq-aşiq-məşuq triadasından ibarət iştiqaq (təcnis) Füzuli lirikasında diqqəti cəlbedən hadisələrdəndir:

Fani ol eşq içrə kim bənzər fənası aşiqin… və s. nümunələr bunun bariz nümunəsi ola bilər.

"Füzulinin qəzəllərində hüs eşq, zöhd, mülkü mal tematikanı müəyyənləşdirən, əsas ünsürlərdir. Hüsn ilə eşq bir-birini müəyyənləşdirir. Sevgili, məşuqə gözəlliyi, hüsnü təmsil edir. Hüsn nə qədər çoxdursa, eşq də o qədər artıqdır" [6, s. 453].

Rişteyi-canım yetər, et bir gireh,
Salma səri-zülfi-səmansayə tab.

4. Füzuli qəzəllərində sözün poetic müstəvidə nüfuzunu qabarıq göstərən amillərdən biri də misra daxilində əvvəlki sintaqmın son sözünün sonrakı sintaqmın ilk sözü kimi işlənməsi və nəticədə sözlərin qovuşub ayrılmasıdır.

Yüz şükür ki, yox sənə xilafim,
İnsafim var, var etibarım.
Nə kim, bir gəz yanar, yandırmaq onu qeyri-mümkündür.

Demək iki fərqli sintaqm misra daxilində tərs paralelizm prinsipləri əsasında sıralanır. Bu poetik klassik təsisat əks (xiazm) adlanır. Belə bədii priyom misrda ahəngi gücləndirməklə yanaşı, həyəcanlı və gərgin bir nitq situasiyası da yaradır və beləliklə, ana dilinin qüdrəti parlaq tərzdə təzahür edir.

Yanan eşq atəşinə atəşi-düzəxdən eyməndir…
Can vermə qəmi-eşqə ki, eşq afəti-candır…

Misralarda sözlərin bir-birinə təkrarlanaraq ahəngdarlıq məzmunu ötürməsi ümumilikdə şeirdəki musiqilik

ruhunu kifayət qədər gücləndirir.

5.Füzuli sənətkarlığının əlamətdar cəhətlərindən biri kimi misranı müstəqilləşdirmək, bitkin, dərin mənalı mükəmməl fikir ifadəetmə xüsusiyyətləri də tədqiqat hədəfinə daxil edilən məsələlərdəndir. "O, Azərbaycan ədəbi dilinin banisi və yeni bir ədəbi məktəbin əsasını qoyan sənətkar olmuşdur. Füzulinin lirik şeirlərində yüksək məzmun, mütərəqqi fikirlər son dərəcə yüksək sənətkralıqla verilmişdir" [7, s. 271].

Qeyd edilən keyfiyyətlər misrada müəyyən bir ümumiləşdirmə yaradır. Bu ümumiləşdirmə mənası nəticədə aforizm kimi səslənir, yaddaşlarda həkk edilir:

Düşməz bu yana sənin güzərin…
Dərdə məni eylədin həvalə…
Azadələrin yeri ədəmdir…
Can cövhərinə bədəldir övlad…

Füzuli şeirlərinin komponentini təşkil edən misralar struktur etibarilə də fərqlənir. Belə ki, bir çox misralarda iki cümlə verilir, deməli, iki fikir ifadə edilir:

Yarın mən isəm? Mənə nəzər qıl…
Ol dəm gəldi ki, gəldi Adəm…
Nə gördü? Niqah içində bir nur…
Çün mən səninəm, sən olma qeyrin…

Ümumiyyətlə, dahi sənətkarın misraları cümlə strukturu baxımdan çoxkomponentlidir. Misra və beytlərdə cümlənin zəngin tiplərinə rast gəlinir. Şair tabeli mürəkkəb cümlənin hər iki növündən lirikasında geniş istifadə etmişdir. Dilin iyerarxiyası hesab edilən sintaksisin vahidləri sırasında şairin linqvistik yaradıcıllığı özünü daha çox mürəkkəb cümlələr üzərindən təzahür etdirir. Cümlənin mürəkkəb konstruksiyasında inversiya sintaktik aktuallaşma, baş və budaq cümlənin dəyişkən mövqeyi və s. Füzulinin linqvstik istedadından xəbər verir:

Ey Füzuli, bil ki, ol gül arizin görmüş degil
Kim ki, tən eylər mənim çaki-giribanim görüb…
Hicr şamında qəm etmişdi, Füzuli qəsdi-can,
Olmasaydı mərhəmətdən dəm vurub qəmxar sübh…

6.Klassik poeziyamızda şeirin ifadəliliyini və ana dilinin zənginliyini əks etdirən üslubi imkanlardan biri də sual-cavab üsuludur. Qeyd etmək mümkündür ki, anadilli yazılı ədəbiyyatımızın ilk poetik nümunəsi də məhz sual-cavab üsulu əsasında yaranmışdır. Həsənoğlunun məşhur qəzəli də əvvəldən-axıra bu prinsiplə qurulmuşdur.

Apardı könlümü bir xoş qəmər yüz, canfəza dilbər,
Nə dilbər? dilbər şahid. Nə şahid? Şahidi-sərvər…

"Dahi Füzuli klassik şərq poeziyasının bu ənənəsini mükəmməl tərzdə davam və inkişaf etdirmişdir. Bu ənənənin ən bariz nümunəsini şair "Leyli-Məcnun" poemasında vermişdir:

Xətt üzrə qalırdı o gözəllər
Min naz ilə bəhslər, cədəllər.
Əmma nə cədəl? – Kəmali-ülfət
Nə bəhs? – Nəhayəti-məhəbbət…"[5,s.73]

Müasir dilçilik terminologiyasında "dialoqun ekvivalenti olan "sual-cavab" ifadəsi məzmunun asan anlaşılmasını təmin etməklə yanaşı, həm də vəziyyətin emosional təsir gücünü artıran vasitələrdən hesab edilir.

Nəticə: Dövrün ictimai-sosial çatışmazlıqları qəzəl janrını daha da aktuallaşdırırdı. İstedadlı şair qəzəli hünər hesab edirdi. Ona görə ki, qəzəl sənətkardan xüsusi bacarıq, qeyri-adi istedad sözlərdən mükəmməl istifadə etmək, onu yerli-yerində, dürüst işlətmək şücayəti tələb edirdi.

Beləliklə, Füzuli irsinin zənginliyi bir tərəfdən şairin dogma dilinin incəliklərinə dərindən bələd olması, eyni zamanda dilin zənginliklərindən xüsusi məharətlə istifadə etməsi şəklində təzahür edir.

Ədəbiyyat

1. Adilov M. Əsərləri (V c.). s. 205. Elm və təhsil – Bakı – 2019, 464 s.
2. Adilov M. Məqalələr (1982-1994-cü illər). X cild. s. 326. Elm və təhsil, - Bakı – 2005, - 456 s.
3. Adilov M. Məhəmməd Füzulinin üslubi və poetik dili (VIII cild), s. 441. Elm və təhsil, - Bakı – 2020, - 680 s.
4. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. s. 453. Ozan, - Bakı – 2008, - 696 s.
5. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. s. 271, - Uşaqgəncnəşr, - Bakı – 1958, - 311 s.
6. Adilov M. Məqalələr (1955-1969-cu illər) VIII cild. s. 258, - Elm və təhsil, - Bakı – 2020, - 700 s.
7. Adilov M. Məqalələr (1970-1980-ci illər) s. 63. Elm və təhsil, - Bakı – 2020, - 448 s.

Рахман Кулиев
Бакинский инженерный университет
Доктор филологических наук
rquliyev@beu.edu.az
https://orcid.org/

Поэтическая сила слова в газелях М. Фузули

М. Фузули, создавший уникальные образцы жанра газели, с юных лет прославился как мастер этого жанра. Одна из причин предпочтения великим поэтом газелей объясняется, прежде всего, чувством, возникающим из стремления донести свои прогрессивные взгляды и проникновенные слова до широких масс народа.

Поэтическая сила слова проявляется на основе художественного описания и средств выражения. Глав-

ным критерием художественного языка является национальный азербайджанский язык, его структура и средства выражения. Наряду с этими средствами, в нашей литературе нашли отражение в газелях Фузули ряд новых и интересных языковых особенностей.

1. Это слово, соответствующее термину изолированного словообразования – абстракция, представляет лирического героя не в позиции говорящего («я»), а в позиции слушателя («ты»). В некоторых местах художник использует свой псевдоним в качестве обращения.

2. Одним из стилей поэтического выражения Фузули является параллелизм. Параллелизм, выражающий более высокий порядок, соразмерность правил и форм, является одним из ведущих факторов в поэзии Фузули.

3. Среди важных факторов, усиливающих выразительность лирики Фузули, исключительную роль играет истикак (спряжение).

4. В ярко выраженной поэтической силе слова одним из интересных моментов, привлекающих внимание, является контраст (хиазм). Использование последнего слова предыдущего синтагма в качестве первого слова следующего синтагма в строке считается главной характерной чертой этого поэтического явления. В статье комментируется поэтическая сила слова в творчестве М. Фузули в контексте глубокого знания поэтом богатства родного языка и его умелого его использования.

Ключевые слова: жанр газели, магия слов, художественный язык, изоляция, средства художественного выражения, функция обращения, синтагма, инверсия, классическая поэзия

Rakhman Kuliyev
Baku Engineering University
PhD in Philology
rquliyev@beu.edu.az
https://orcid.org/

SUMMARY

Poetic strength of words in gazelles M. Fusuli

M. Fuzuli, who created unique examples of the gazelle genre, became famous as a master of this genre from a young age. One of the reasons for the great poet's preference for ghazals is explained, first of all, by the feeling arising from the desire to convey his progressive views and insightful words to the broad masses of the people.

The poetic power of the word is manifested on the basis of artistic description and means of expression. The main criteria of the artistic language is the national Azerbaijani language, its structure and means of expression. Along with these means, in our literature we found a number of new and interesting linguistic features reflected in Fuzuli's gazelles.

1. This word, corresponding to the term isolated word formation - abstraction, represents the lyrical hero not in the position of the speaker ("I"), but in the position of the listener ("you"). In some places, the artist uses his pseudonym as a reference.

2. Parallelism is one of the styles of Fuzuli's poetic expression. Parallelism, expressing a higher order, proportionality of rules and forms, is one of the leading factors in Fuzuli's poetry.

3. Among the important factors that enhance the expressiveness of Fuzuli's lyrics, the conjunction (conjugation) plays an exceptional role.

4. Contrast (chiasm) is one of the interesting points that attract attention in the highly expressed poetic power of the word. The use of the last word of the previous syntagm as the first word of the next syntagm in the line is considered the main characteristic feature of this poetic phenomenon. In the article, the poetic power of the word in the creation of M. is commented. Fuzuli in the context of the poet's deep knowledge of the richness of his native language and his skillful use of it.

Key words: genre of ghazals, magic of words, artistic language, isolation, means of artistic expression, function of turning, syntagma, inversion, classical poetry

RƏYÇİ: dos. S. Abbasova

DOİ 10.24412/2218-7588-2026-1-95-97

Əsgərova Kəmalə Tofiq qızı
AzMIU Baş müəllim
kemale.haji58@gmail.com
https://orcid.org/0009-0001-7953-5192

SPECIFIC FEATURES OF SHEAKESPEARE'S PLAYS

Summary: William Shakespeare's dramatic heritage represents a unique synthesis of poetic imagination, psychological depth, and theatrical innovation. His plays transcend the boundaries of time, culture, and genre, offering universal insights into human nature, power, love, morality, and identity. This article examines the distinctive features of Shakespeare's dramaturgy, focusing on his language, characterization, genre blending, philosophical themes, dramatic structure, and enduring influence on world literature and theatre.

Keywords: tragedy, comedy, characterization, theatre, influence, dramaturgy, culture

Introduction: The dramatic works of William Shakespeare represent a cornerstone of world literature and continue to influence modern literary, linguistic, and theatrical traditions. His plays combine poetic expression, psychological realism, philosophical inquiry, and theatrical innovation in ways that transformed Renaissance drama and established new artistic standards. This article analyzes the defining characteristics of Shakespeare's dramaturgy, including his language, characterization, structural techniques, genre hybridity, philosophical depth, and cultural legacy. Through examining these elements, the study demonstrates why Shakespeare remains universally relevant and intellectually compelling across centuries and cultures.

The English Renaissance was an era of intellectual awakening marked by renewed interest in classical antiquity, scientific discovery, and the value of human experience. Drama became one of the most powerful artistic forms of the period, reflecting social change and philosophical exploration. Within this context, Shakespeare emerged not merely as a playwright but as a cultural phenomenon whose works transcended theatrical entertainment and became profound studies of humanity.

What distinguishes Shakespeare from his contemporaries is the remarkable synthesis of poetry, philosophy, and performance. His plays do not simply tell stories; they investigate the psychological, ethical, and existential dimensions of life. As a result, they remain central to academic scholarship, theatrical production, and global cultural discourse.

1. The Poetic Power of Shakespearean Language

1.1 Blank Verse as a Dramatic Medium

Shakespeare's primary linguistic tool is blank verse—unrhymed iambic pentameter—which provides rhythmic flexibility while maintaining poetic elevation. This structure mirrors natural speech patterns, allowing dialogue to sound realistic yet artistically refined.

1.2 Prose Versus Verse

A significant stylistic feature is Shakespeare's strategic alternation between verse and prose. Noble or reflective characters often speak in verse, while prose is used for everyday conversation, comic situations, or moments of psychological disintegration. This contrast reinforces social hierarchy and emotional shifts within the drama.

1.3 Linguistic Creativity

Shakespeare enriched the English language through neologisms, inventive metaphors, and expressive syntax. His works demonstrate how language can shape perception, emotion, and identity, transforming speech into dramatic action.

1.4 Imagery and Symbolism

Recurring imagery—nature, light and darkness, disease, time, and decay—functions symbolically to reveal internal states and thematic tensions. Shakespeare's imagery is dynamic, evolving alongside the characters' psychological journeys.

2. Psychological Realism and Character Complexity

2.1 Individualized Characters

Before Shakespeare, dramatic characters were often allegorical or stereotypical. Shakespeare introduced multidimensional individuals with conflicting desires, doubts, and moral struggles.

2.2 The Use of Soliloquy

The soliloquy allows audiences to access the private consciousness of characters. Through this technique, internal conflict becomes externalized, transforming thought into theatrical experience.

2.3 Moral Ambiguity

Shakespeare avoids simplistic moral categorization. Characters are neither entirely virtuous nor wholly corrupt; instead, they embody the complexity of real human nature.

2.4 Transformation and Development

Many characters undergo profound psychological change, reflecting Renaissance interest in personal growth and self-knowledge.

3. Fusion of Tragic and Comic Elements

3.1 Rejection of Classical Rigidity

Unlike classical dramatists who strictly separated tragedy and comedy, Shakespeare blended emotional registers to create a more lifelike dramatic form.

3.2 Comic Relief as Structural Balance

Humorous scenes serve not only to entertain but also to intensify tragic tension by contrast. Laughter and sorrow coexist, mirroring the unpredictability of human existence.

3.3 The Emergence of Tragicomedy

Some plays defy categorization altogether, combining danger with reconciliation. This hybridization reflects Shakespeare's innovative approach to dramatic form.

4. Exploration of Universal Human Themes

4.1 Power, Authority, and Corruption

Political ambition and ethical responsibility are central concerns. Shakespeare examines how the pursuit of power can distort judgment and alienate individuals from moral truth.

4.2 Love in Its Many Forms

Love appears as passion, loyalty, illusion, sacrifice, and reconciliation. Shakespeare portrays it not as a single emotion but as a complex psychological and social force.

4.3 Time and Mortality

The transient nature of life is a recurring theme. Shakespeare's characters confront aging, death, and the desire for legacy, reflecting Renaissance anxieties about human limitation.

4.4 Identity and Self-Knowledge

Many plays dramatize the search for identity, often through disguise, mistaken perception, or existential reflection.

5. Dramatic Structure and Theatrical Innovation

5.1 Multi-Layered Plot Construction

Shakespeare frequently interweaves main plots with subplots that echo or contrast thematic concerns. This structural richness deepens meaning and sustains audience engagement.

5.2 Stagecraft and Performance Awareness

His plays are highly performative, designed to exploit movement, gesture, and audience interaction. The text is inseparable from its theatrical realization.

6. Philosophical and Humanistic Foundations

6.1 Renaissance Humanism

Shakespeare's works emphasize human dignity, intellectual inquiry, and ethical responsibility. His characters confront philosophical questions about freedom, conscience, and truth.

6.2 Skepticism and Uncertainty

Rather than offering definitive answers, Shakespeare dramatizes uncertainty. Knowledge is shown as partial, unstable, and open to interpretation.

6.3 The Relationship Between Order and Chaos

Many plays explore the breakdown and restoration of social or moral order, reflecting Renaissance concerns with harmony in both politics and the cosmos.

7. Representation of Society and Culture

7.1 Social Hierarchy

Shakespeare portrays kings, nobles, merchants, and commoners, presenting a cross-section of society. This inclusiveness contributes to the universality of his drama.

7.2 Gender and Power Dynamics

His plays often challenge traditional gender expectations by presenting intelligent, articulate female characters who influence action and interpretation.

7.3 Political Reflection

Although set in distant times or places, Shakespeare's works subtly comment on governance, legitimacy, and national identity.

8. Emotional and Intellectual Engagement of the Audience

8.1 Catharsis and Empathy

Shakespeare's tragedies evoke emotional purification, encouraging audiences to confront fear, pity, and ethical reflection.

8.2 Intellectual Participation

Wordplay, philosophical dialogue, and ambiguity require active interpretation, making audiences collaborators in meaning-making.

9. Influence on Later Literature and Theatre

9.1 Development of Modern Drama

Shakespeare's integration of psychological realism influenced later playwrights and novelists.

10. Timelessness of Shakespeare's Artistic Vision

The enduring appeal of Shakespeare lies in his ability to unite poetic beauty with tradition and existential insight. His plays speak simultaneously to emotion and intellect, innovation, individuality and universality.

Conclusion: The specific features of Shakespeare's plays—poetic language, psychological depth, thematic universality, structural innovation, and philosophical richness—establish his works as foundational to world literature.

Shakespeare transformed drama into a medium capable of exploring the full complexity of human experience. His plays remain relevant not because they belong to the past, but because they continually illuminate the present.

Literature (References)

1. Bloom, H. Shakespeare: The Invention of the Human. New York: Riverhead Books, 1998.
2. Greenblatt, S. Will in the World. New York: Norton, 2004.
3. Garber, M. Shakespeare After All. New York: Pantheon, 2004.
4. Wells, S. Shakespeare: A Life in Drama. London: Norton, 1997.
5. Kastan, D. S. Shakespeare and the Book. Cambridge University Press, 2001.
6. McDonald, R. The Bedford Companion to Shakespeare. Bedford/St. Martin's, 2001.
7. Leech, C. Shakespeare's Tragedies. Routledge, 1969.
8. Knight, G. W. The Wheel of Fire. Routledge, 1930.
9. Honigmann, E. A. J. The Stability of Shakespeare's Text. Edward Arnold, 1965.
10. Barber, C. L. Shakespeare's Festive Comedy. Princeton University Press, 1959.
11. Dawson, A. B. Shakespeare in Performance. ManchesterUniversityPress, 2002.

Əsgərova Kəmalə Tofiq qızı
AzMIU Baş müəllim
kemale.haji58@gmail.com
https://orcid.org/0009-0001-7953-5192

Şekspirin pyeslərindəki əsas xüsusiyyətlər

Xülasə

Şekspirin pyeslərinin fərqli xüsusiyyətləri — poetik dil, psixoloji dərinlik, tematik çox yönlülük, struktur yeniliyi və fəlsəfi dərinlik — onun əsərlərini dünya ədəbiyyatının təməl daşı edir. Şekspir dramı insan təcrübəsinin mürəkkəbliyini araşdıra bilən bir vasitəyə çevirib. Onun pyesləri keçmişə aid olduqları üçün deyil, indiki dövrü daim işıqlandırdıqları üçün aktuallığını qoruyub saxlayır.

Açarsözlər:faciə, komediya, xarakterik, teatr, təsir, dramaturgiya, mədəniyyət

Аскерова Кемале Тофик Гизи
AzMIU ст.преп
kemale.haji58@gmail.com
https://orcid.org/0009-0001-7953-5192

ОСОБЕННОСТИ ПЬЕС ШЕКСПИРА

Резюме

Особые черты пьес Шекспира — поэтический язык, психологическая глубина, тематическая универсальность, структурные новаторства и философская глубина — делают его произведения основополагающими для мировой литературы. Шекспир превратил драму в средство, способное исследовать всю сложность человеческого опыта. Его пьесы остаются актуальными не потому, что принадлежат прошлому, а потому, что они постоянно освещают настоящее.

Ключевые слова:трагедия, комедия, характеристика, театр, влияние, драматургия, культура

RƏYÇİ: dos. E.Vəliyeva

DOI 10.24412/2218-7588-2026-1-98-102

Tərlan Əliş qızı Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı Baş müəllim
https://orcid.org/0009-0009-1484-1031
tarlaneliyeva60@gmail.com

ORXAN-YENİSEY ABİDƏLƏRİNİN ƏDƏBİ VƏ İDEOLOJİ DƏYƏRİ

Xülasə : Məqalədə qeyd edilir ki, Orxan-Yenisey abidələri, türkdilli xalqların qədim mədəniyyətinin, dilinin və ideologiyasının əhəmiyyətli şahidləridir. Bu abidələr, IX-XI əsrlərdə Orxan və Yenisey çayları boyunca yerləşən köhnə türk xalqları tərəfindən yazılmışdır və onların ədəbi və ideoloji dəyərləri günümüzədək qorunub saxlanmışdır. Abidələrin ədəbi dəyəri, türk dilinin inkişafını göstərən zəngin nümunələr təqdim etməklə yanaşı, həm də bədii üslub və sintaksis baxımından mühüm tədqiqat sahəsidir.

Məqalədəhəmçininqeyd edilir ki, Orxan-Yenisey abidələri, sadəcə dil və ədəbiyyat baxımından deyil, həm də türk xalqlarının dövlətçilik, sosial və dini ideologiyalarını əks etdirən qiymətli mənbələrdir. Bu yazıtlar, türklərin döyüşçü ruhunu, milli kimliyini və dövlətçilik anlayışlarını dərin bir şəkildə özündə cəmləşdirir. "Köktürk Yazıtları" (Orxan Yazıtları) və "Yenisey Yazıtları" türk mədəniyyətinin və ideologiyasının ilk mühüm yazılı ifadələridir və dövlət quruluşunun, xalqın birliyinin və dini inancın təsiri bu abidələrdə açıq şəkildə əks olunub.

İdeoloji olaraq, Orxan-Yenisey yazıtlarında "Tanrı", "dövlətin gücü", "kağan" və "xalqın birliyi" kimi motivlər əhəmiyyətli yer tutur. Ədəbi baxımdan, abidələrdə həm epik, həm də didaktik elementlər mövcuddur. Bu yazılarda türklərin qəhrəmanlıq mübarizələri, dövlət quruluşu və dini inanc sistemləri barəsində dərin təfəkkürlər ortaya qoyulub. Bu abidələr, müasir türk xalqlarının mədəniyyətində, xüsusən də dilin və milli kimliyin qorunmasında önəmli rol oynayır.

Açar sözlər: Orxan-Yenisey abidələri, ədəbi dəyər, ideoloji dəyər, türk dili, milli kimlik, dövlət quruluşu, bədii üslub.

GİRİŞ: Orxan-Yenisey abidələri, türk ədəbiyyatının ən qədim yazılı nümunələrindən biri olaraq, həm ədəbi, həm də ideoloji baxımdan böyük əhəmiyyətə malikdir. Bu abidələr, türkdilli xalqların mədəniyyətinin, sosial quruluşunun və dilinin ən qədim izlərini daşıyan qiymətli mənbələrdir. Orxan Yazıtları və Yenisey Yazıtları, bu abidələrin ən tanınmış nümunələridir və onlar türk dünyasının qədim mədəniyyətini, ideologiyasını və dövlətçilik anlayışlarını əks etdirir. Bu abidələr, yalnız dil və ədəbiyyatın deyil, həm də türk dövlətlərinin sosial, siyasi və dini həyatının dərin izlərini özündə cəmləşdirir.

ƏSAS HİSSƏ: Bu işin məqsədi, Orxan-Yenisey abidələrinin ədəbi və ideoloji dəyərlərini daha yaxından araşdırmaq və onların türkdilli xalqların tarixində və mədəniyyətindəki yerini təhlil etməkdir. Orxan-Yenisey abidələrinin ədəbi dəyəri, dilin zənginliyi və bədii üslub xüsusiyyətləri ilə birgə, onların ideoloji təsiri və türk dövlətinin formalaşmasında oynadığı rol mühüm araşdırma sahəsi olacaqdır.

Orxan-Yenisey abidələrinintarixi və coğrafi konteksti

Orxan-Yenisey abidələri, türkdilli xalqların qədim mədəniyyətinin ən qiymətli yazılı izləridir və bunlar IX-XI əsrlərdə Orxan və Yenisey çayları boyunca yerləşən qədim türk dövlətlərinin ərazisində yaranmışdır. Bu dövr, Köktürk və Uygur dövlətlərinin varisi olan türk xalqlarının tarixi və mədəni inkişafında əhəmiyyətli bir mərhələni təşkil edir. Yazıtlar, yalnız dövlətin idarəetmə strukturu və sosial həyatını əks etdirmir, həm də türklərin dövlətçiliyinə, ideoloji təsir və inanclarına dair əvəzsiz məlumatlar təqdim edir. Bu yazılar həmin dövrün sosial və siyasi şəraitinin, türk xalqlarının dünyagörüşünün, milli kimlik və dövlətin qorunması ideyasının təcəssümüdür.

Mütəxəssislər Orxan Yazıtlarını çox vaxt türk dilinin zənginliyi və qədim türk dövlətinin gücü ilə əlaqələndirirlər. Bayramov qeyd edir ki, *"Köktürk Yazıtları, yalnız türklərin dövlətinin siyasi gücünü deyil, həm də bu dövrün dilinin və ədəbiyyatının necə təkamül etdiyini nümayiş etdirir" [Bayramov, 2013, səh. 34]*. Yenisey yazıtları isə Sibir bölgəsində tapılaraq, həmin bölgədəki qədim türk xalqının dil və mədəniyyətinin izlərini qoruyur. Bu yazıtlar, həmçinin türklərin Şamanizm və Tengrizmə bağlı dini inanclarını və bu inancların dövlətdəki təsirini də göstərir.

- ✓ Orxan Yazıtları: Bu yazıtlar, Orxan çayı ətrafında, Qırğızıstanın cənub hissəsində yerləşən qədim türk ərazilərində tapılmışdır. Orxan Yazıtları, Köktürk dövlətinin siyasi və ideoloji gücünün təcəssümü olaraq, həmin dövrün siyasi hakimiyyətinin necə təşkil olunduğunu və idarə edildiyini əks etdirir. Burada, dövlətin ideologiyasını möhkəmləndirən motivlərdən biri də, kağanın Tanrı tərəfindən təyin olunmuş yüksək səlahiyyətli şəxs kimi təqdim edilməsidir.
- ✓ Yenisey Yazıtları: Yenisey yazıtları isə Sibir bölgəsində yerləşən Yenisey çayı boyunca tapılmışdır. Yenisey yazıları, xüsusilə regionda yaşayan qədim türklərin həyat tərzini, etnik və sosial strukturunu, həmçinin onların şamanistik və tengrizm inançlarını izah edir. Yazıtlar bu bölgə üçün yalnız dil, mədəniyyət və tarix baxımından deyil, həm də dini baxımdan mühüm əhəmiyyət daşıyır.

Orxan-Yenisey abidələrininədəbi dəyəri

Orxan-Yenisey abidələri qədim türk dilinin zəngin strukturlarını və ədəbi üslub xüsusiyyətlərini nümayiş etdirir. Bu yazılar, həm sintaktik, həm də morfoloji baxımdan çox zəngindir. Orxan yazılarında istifadə olunan dil, bu dövrün döyüşçü və dövlət quruluşunu dəstəkləyən obrazlı və güclü bir dil idi. Bayramov yazır: *"Orxan Yazıtlarının dilindəki struktur və üslub, türkdilli xalqların dövlətçilik təfəkkürünü ifadə edərkən, həm də ədəbi estetikaya və mürəkkəb sintaksisə böyük diqqət yetirildiyini göstərir" [Bayramov, 2013, səh. 78]*.

Sözügedən dil xüsusiyyətləri həm də türk dilinin zamanla necə təkamül etdiyini göstərir. Bu abidələr, həm dilin fonetik, həm də morfoloji cəhətdən təkamülünü izləmək üçün mühüm bir qaynaqdır. Dildəki söz birləşmələri, qrammatik

strukturlar və sintaktik elementlər, o dövrün sosial və siyasi təsirlərini əks etdirir.

Orxan-Yenisey abidələri, həm epik, həm də didaktik üslubda yazılmışdır. Epik üslubda qəhrəmanlıq, döyüş və dövlətçilik anlayışları əsas mövzular olaraq yer alır. Məsələn, Kültəgin və Bilgä Kağan yazıtlarında türklərin qəhrəmanlıq döyüşləri və dövlətin möhkəmləndirilməsi məqsədilə edilən çağırışlar geniş şəkildə təhlil edilir. Yazıların şairanə üslubu, həm də türklərin əzəmətli dövlətçilik anlayışını göstərir. Həmçinin, yazılarda təkrarlanan ifadələr və müəyyən simvollar, yazıların təsir gücünü artırır.

Didaktik üslubda isə, türklərin sosial dəyərləri və mənəvi prinsipləri diqqət mərkəzinə qoyulub. Bu üslub, xüsusilə xalqın birliyinə və dövləti qorumağa olan çağırışları ilə seçilir. Bu çağırışlar, yazıtların ideoloji məqsədini formalaşdırır və dövlətin müdafiəsi üçün fərdi sədaqət və qətiyyətin vacibliyini bildirir.

Orxan-Yenisey abidələri, türk ədəbiyyatının ilk nümunələrini təşkil edir və onların təsiri, gələcək ədəbi inkişafda mühüm rol oynayıb. Yazıtlardakı qəhrəmanlıq motivləri və dövlətçilik ideyaları, türk ədəbiyyatında həm milli kimlik, həm də dövlətin qorunması mövzularının əsasını qoyur. Orxan yazıtlarında türklərin döyüşçü ruhunun tərənnümü və dövlətin birliyi üçün verilən tövsiyələr, sonrakı dövrlərdə türk ədəbiyyatında geniş yer tutmuşdur. Bu yazılar, eyni zamanda, türk dilinin inkişafını da təmin etmişdir.

Müasir türk ədəbiyyatında, bu abidələrin əhəmiyyəti özünü açıq şəkildə göstərir. Onlar, türk xalqının milli kimliyinin və mədəni irsinin qorunması və gələcək nəsillərə çatdırılması baxımından da əvəzsiz mənbələrdir. Bayramov yazır: *"Orxan Yazıtları, türk ədəbiyyatının təməl daşlarından biridir və bu yazıların gücü, həm ədəbi formanın, həm də ideoloji mesajın harmonik şəkildə birləşməsidir" [Bayramov, 2013, səh. 92]*.

Orxan-Yeniseyabidələrinin ideoloji dəyəri

Orxan-Yenisey abidələri yalnız türk dilinin inkişafını və ədəbiyyatını deyil, həm də qədim türk dövlətçiliyi, milli kimlik və dini inanc sistemləri haqqında mühüm ideoloji mesajlar da təqdim edir. Bu yazıtlar, türk dövlətinin ideoloji əsaslarını və xalqa verilən mesajları göstərən nadir mənbələrdir. Abidələrdəki ideoloji təsirlər, dövrün siyasi və dini həyatını, dövlətin gücünü və türk xalqının birlik anlayışını vurğulayan əsas prinsipləri ortaya qoyur. Bu bölümdə, Orxan-Yenisey abidələrinin ideoloji dəyərləri, dövlət quruluşu, milli kimlik və dini təsirlər baxımından geniş təhlil ediləcəkdir.

Orxan-Yenisey abidələri, qədim türk dövlətlərinin idarəetmə sisteminin və siyasi strukturlarının necə qurulduğunu açıq şəkildə göstərir. Yazıtlarda dövlətin gücünün, Tanrı tərəfindən verildiyi və yalnızca Tanrının iradəsi ilə qanuni olacağı vurğulanır. Dövlətin rəhbəri olan kağan, həmçinin həm müharibə, həm də sülh dövründə xalqı idarə edən və qoruyan bir şəxs kimi təqdim edilir**.** Bu baxımdan, kağanların yalnız hökmdar deyil, həm də Tanrı ilə əlaqəli müqəddəs liderlər olduğu ideyası ön planda durur. Məsələn, ***"Kağan Tanrı tərəfindən təyin olunmuşdur və yalnız ona xidmət etməliyik. Dövlətin gücü Tanrı ilə birləşir və hər kəs kağanın iradəsinə itaət etməlidir"*** [Bayramov, 2013, səh. 56].

Orxan yazıtları, həmçinin dövlətin əsas prinsipini – hər kəsin dövlətin birliyini və gücünü qorumağa yönəlmiş bir sosial məsuliyyətə malik olduğunu göstərir. Kağanlar, dövlətin davamlılığını təmin etmək üçün yalnız siyasi gücə deyil, həm də yüksək əxlaqi dəyərlərə sahib olmalıydılar. Yazıtlarda ***"Birlik olmadan dövlət davamlı ola bilməz, bu birliyə hər kəs hörmət etməli və çalışmalıdır"*** [Əfəndiyev, 2012, səh. 78]. kimi ifadələr yer alır.

Orxan-Yenisey abidələrinin ən vacib ideoloji aspektlərindən biri də türk xalqının milli kimliyinin və mədəniyyətinin qorunması və inkişafıdır**.** Yazıtlarda, türk xalqlarının öz dilini və mədəniyyətini qorumağa və yaşatmağa olan çağırışlar, bu dövrün ideologiyasının əsasını təşkil edir. Abidələrdəki ideoloji mesajlar, xalqın birliyinə və mədəniyyətinin qorunmasına dair dərin fikirlərdən ibarətdir.

Yazıtlarda türklərin özlərini dünyadakı digər xalqlardan fərqli olaraq tanımaları, öz dilinə və mədəniyyətinə olan hörmətləri xüsusi yer tutur. Məsələn, Orxan Yazıtlarında**:*"Türk xalqı öz torpağını, dilini və mədəniyyətini qorumaqla, güclü və böyük olacaqdır" [İsmayılov, 2010, səh. 122]***. Bu, yalnız milli kimliyin qorunması deyil, həm də türk xalqının gələcək nəsillərə bu irsin ötürülməsi üçün mühüm bir ideoloji təməl formasıdır. Yazıtlarda bir çox hallarda "Türk" sözü, döyüşçü və mübariz insanın simvolu kimi istifadə olunur, bu da türk xalqının mədəniyyətinin və sosial strukturlarının formalaşmasına yardımçı olur.

Türk xalqlarının xüsusilə Orxan Yazıtlarında yer alan dövlətin gücü ilə bağlı düşüncələr, yalnızca siyasi deyil, həm də mədəni gücün təcəssümü kimi qiymətləndirilir**.** Yəni dövlətin varlığı, türk xalqının tarixinin və mədəniyyətinin ən mühüm elementi kimi göstərilir. Bu yazıtlarda dövlətin ideologiyası, xalqın mədəniyyətinə, dilinə və ənənələrinə hörmət göstərməyi özündə birləşdirir [Məmmədov, 2009, səh. 131].

Orxan-Yenisey abidələri, türk xalqlarının dini inanclarını və bu inancların dövlətdəki rolunu izah edən əhəmiyyətli mənbələrdir. Əsasən, TengrizmvəŞamanizm kimi dini inancların təsiri burada özünü göstərir. Tengrizm**,** Türk xalqlarının dövlətlə əlaqəli olan dini inanc sistemidir və bu inanca görə, türk dövlətinin rəhbəri Tanrı tərəfindən təyin olunur və onun hökmdarlığı, Tanrı ilə birləşir. Yazıtlarda ***"Kağan Tanrı tərəfindən seçilir və onun əmrləri Tanrının iradəsi ilə uyğun gəlir" [Qarayev, 2005, səh. 97].*** kimi ifadələr, türk dövlətinin Tanrı ilə əlaqəsini vurğulayır.

Orxan Yazıtlarında, Tanrı və dövlətin birliyi fikri geniş şəkildə təbliğ olunur. Burada dövlətin bərqərar olmasında, Tanrının rəhbərliyi və iradəsinin əhəmiyyəti xüsusi vurğulanır. Yazıtlarda, dövlətin davamlılığının Tanrının lütfü ilə mümkün olduğu deyilir və buna görə də xalq, dövlətin lideri olan kağanın əmrlərinə mütləq itaət etməlidir. Bu, dövlətin müstəqilliyini və ideoloji gücünü qorumağın yollarından biridir.

Əlavə olaraq, Yenisey yazıtlarında, Şamanizm və Tengrizm kimi dini elementlərin xalqın gündəlik həyatına və dövlət idarəçiliyinə necə daxil olduğunu da müşahidə etmək mümkündür. Bu yazıtlarda Tanrı ilə birgə dövlətin gücünün nə qədər vacib olduğu və xalqın bu güc qarşısında necə davranmalı olduğu göstərilir. Şamanistik təsirlər, xüsusən yazıtlarda tanrıların müdaxiləsi ilə bağlı olan məqamlarla əks olunur.

Orxan-Yenisey abidələrindəki digər bir mühüm ideoloji məzmun da sosial və mənəvi dəyərlərlə əlaqəlidir. Abidələr, xalqın öz sosial öhdəliklərini yerinə yetirərək dövlətin gücünü qorumaqla bağlı çağırışlar edir. Yazıtlarda ***"Xalq yalnız birliyini qorumaqla, böyük dövlətlər qarşısında duruş gətirə bilər" [İsmayılov, 2010, səh. 129]***. Bu çağırış, həm dövlətin gücünü qorumaq, həm də xalqın birliyini möhkəmləndirmək məqsədini güdür.

Orxan-Yenisey abidələri, yalnız türkdilli xalqların qədim ədəbiyyatının deyil, həm də dilinin inkişafının əhəmiyyətli mənbələridir. Bu yazıtlar, köhnə türk dilinin fonetik, morfoloji və sintaktik xüsusiyyətləri barədə əvəzsiz məlumatlar təqdim edir. Orxan-Yenisey abidələrinin dili, sadə və obrazlı üslubun birləşməsi ilə diqqət çəkir, bu da onları həm ədəbi, həm də dilçilik sahəsində müasir araşdırmalar üçün qiymətli edir. Bu bölümdə, Orxan-Yenisey abidələrinin dil strukturu, sintaktik quruluşları və bədii üslubunun xüsusiyyətləri geniş şəkildə təhlil ediləcəkdir.

Orxan-Yenisey abidələri qədim türk dilinin ən erkən yazılı nümunələrindən biridir. Bu yazıtlar, türk dilinin təkamülünün müxtəlif mərhələlərini göstərir və onun fonetik, morfoloji və leksik xüsusiyyətlərini günümüzədək qorunmuş şəkildə təqdim edir. Dil, həm də yazının bədii təsirini artıran, ifadə gücünü yüksəldən bir vasitə olaraq seçilmişdir.

Dil və üslub xüsusiyyətləri**,** xüsusilə türklərin hərbi, dövlətçilik və mənəvi dəyərlərini təqdim edən bir çox simvol və metaforlarla zəngindir. Məsələn, ***"Türk kağanı Tanrı tərəfindən seçilib və onun hökmdarlığı xalqın birliyini təmin etmək üçündür"*** [Bayramov, 2013, səh. 42]. Bu ifadələr həm dilin obrazlılığına, həm də dövlətin ideoloji gücünü ortaya qoymağa xidmət edir.

Orxan-Yenisey abidələrinin dilində zəngin bir leksikon istifadə olunur. Burada hərbi və idarəetmə ilə əlaqəli çoxsaylı terminlər, həmçinin dini təsvirlər və təbirlər mövcuddur. Yazılarda "kağan", "xalq", "Tanrı", "dövlət" kimi anlayışlar təkrarlanır və bu sözlər yalnız mənaları ilə deyil, eyni zamanda onların ideoloji funksiyaları ilə də vurğulanır. Bayramov qeyd edir: ***"Orxan yazılarında istifadə olunan leksik elementlər, türklərin öz dövlətini və xalqını necə dəyərləndirdiklərini göstərir" [Bayramov, 2013, səh. 54]***. Bu dil xüsusiyyətləri, türk xalqlarının dövlətçilik təfəkküründün formalaşmasına təsir etmişdir.

Bundan əlavə, abidələrdəki dilin sadəliyi və birbaşa ifadə üsulu**,** yazıların təsir gücünü artırır. Yazıtlar həm bədii, həm də ideoloji məqsəd daşıyır və bu məqsəd hər bir sözü daha da gücləndirir. Məsələn, ***"Xalqın birliyi olmadan heç bir dövlət qalıcı olmaz"*** [İsmayılov, 2010, səh. 123].

Orxan-Yenisey abidələrinin dilində morfoloji xüsusiyyətlər çox zəngindir. Bu yazılarda qədim türk dilinin fonetik və qrammatik quruluşu mükəmməl şəkildə qorunmuşdur. Bu dövrün türkcəsində isim, fel, sifət kimi söz növləri sistemli şəkildə işlənir. Morfoloji baxımdan, əvəzliklər, bağlayıcılar və söz birləşmələri də istifadə edilirki, bu da dilin strukturunu daha mürəkkəb və ifadəli edir. Həmçinin, cümlələrdəki müxtəlif zaman və hal şəkilləri**,** türk dilinin təkamülünü izləməyə imkan verir.

Sintaktik quruluşda isə sadə və mürəkkəb cümlələr istifadə olunur. Cümlə quruluşunun əsas xüsusiyyətlərindən biri də söz sırasıdır**.** Orxan-Yenisey abidələrində ümumiyyətlə subyekt-obyekt-fel (S-O-V) ardıcıllığına riayət edilir. Bu sintaktik quruluş, qədim türk dilinin müasir dövrə nisbətən sadə və düz quruluşda olmasını göstərir. Məsələn, ***"Tanrı bizi qorudu, xalqa böyüklük verdi"*** [Məmmədov, 2009, səh. 98]. Bu cümlədə sadə və aydın bir sintaktik struktur istifadə edilib.

Bundan başqa, abidələrdə müqayisəli və nisbət qaydaları**,** dövlətin və xalqın münasibətini açıq şəkildə əks etdirən şəkildə işlədilmişdir. Yazıtlarda müxtəlif cümlə tipləri**,** xüsusilə əmr cümlələri ilə xalqı birliyə çağıran, dövləti qorumağa yönəlmiş bəyanatlar geniş yer tutur.

Orxan-Yenisey abidələrinin bədii üslubu həm şairanə**,** həm də didaktik elementlərlə zəngindir. Bu üslub, yazıların yalnız siyasi və ideoloji məqsəd güdməkdən çox, həm də ədəbiyyat və dil vasitəsilə xalqı təbliğ etməyə çalışır**.** Yazılarda tez-tez təkrarlanan ifadələr**,** simvolizmvə metaforalar istifadə olunur.

Yazıtlarda qəhrəmanlıq**,** döyüşçü ruhu və milli birlik kimi motivlər əsas yer tutur. Həmçinin, ***"Böyük dövlətin qorunması üçün hər bir fərd öz vəzifəsini yerinə yetirməlidir"*** [Çakmak, 2011, səh. 64]. kimi ifadələr, bədii üslubun siyasi ideologiya ilə necə əlaqələndirildiyini nümayiş etdirir.

Orxan yazıtlarında şəxsiyyətin Tanrı ilə əlaqəsi, dövlətin Tanrı tərəfindən qorunması və xalqa nəsihət verilməsi kimi motivlər xüsusi əhəmiyyət kəsb edir. Bədii üslubda sadə və aydın bir dil istifadə olunsa da, yazıların hər birində təkrarlanan ideoloji motivlər (xüsusilə birlik, dövlətin qorunması) yazıların mənəvi gücünü artırır.

Abidələrdəki dilin bədii təsiri, həmçinin xalqın ruhunu tərənnüm edən epik üslub elementləri ilə birləşir. Yazıtlardakı bədii üslubun əsas məqsədi, türklərin milli kimliyini və dövlətçilik anlayışlarını qorumaq və yaymaqdır.

Orxan-Yenisey abidələrində həm epik, həm də didaktik elementlər bərabər şəkildə istifadə olunur. Şairanə ifadələr, yazıların ideoloji gücünü artıran bir vasitə kimi çıxış edir. Hər bir yazı, xalqı birliyə və dövlətin müdafiəsinə çağıran əhəmiyyətli bir mesaj daşıyır. Bu cür ifadələr, həm də dilin gücünü və təsirini artıran bir vasitə olaraq çıxış edir.

Epik üslubda istifadə olunan obrazlar, yazıların əsas ideoloji məzmununu göstərir."Tanrı türk xalqını qoruyur" və "Dövlətin möhkəmliyi xalqın birliyindədir" kimi ifadələr, abidələrdəki şairanə ifadə tərzinin ən güclü nümunələrindəndir. Bu ifadələr həm epik, həm də ideoloji məzmunla zənginləşdirilmişdir və dilin gücünü artıran bir element kimi çıxış edir.

NƏTİCƏ: Orxan-Yenisey abidələri, türk xalqlarının qədim mədəniyyətini, dilini və ideologiyasını əks etdirən əvəzsiz yazılı mənbələrdir. Bu yazıtlar yalnız dil və ədəbiyyat baxımından deyil, həm də türklərin dövlət quruluşu, sosial və dini həyatının formalaşmasında mühüm rol oynamışdır. Abidələrin ədəbi dəyəri, qədim türk dilinin morfoloji və sintaktik xüsusiyyətlərini öyrənməyə imkan verir, həmçinin ədəbiyyatın inkişafında ilkin mərhələləri təmsil edir. Onlar, türkdilli xalqların birliyinin və dövlətin gücünün təsdiqi olaraq həm epik, həm də didaktik üslubda yazılmışdır.

Orxan-Yenisey abidələrinin ideoloji dəyəri, türk xalqlarının milli kimliyinin formalaşmasında və dövlətçilik anlayışının güclənməsində mühüm yer tutur. Yazılarda həm dövlətin müstəqilliyi, həm də milli kimliyin qorunması üçün xalqın birliyinə çağırışlar mövcuddur. Abidələr, türklərin dini inanclarının, xüsusən Tengrizm və Şamanizmin təsirini və dövlətin Tanrı ilə əlaqəsini əks etdirir.

Nəticə etibarilə, bu abidələr, həm də türk mədəniyyətinin inkişafında mühüm mərhələni təşkil edir. Onların təsiri, yalnız öz dövründə deyil, sonrakı əsrlərdə də türk xalqlarının mədəni, ədəbi və ideoloji inkişafına təsir etmişdir. Orxan-Yenisey abidələri, türk dilinin, ədəbiyyatının və mədəniyyətinin qədim dövrlərdən gələn mirasını qoruyub saxlamaqla yanaşı, müasir türk xalqlarının dil və kimlik inkişafında əhəmiyyətli rol oynamağa davam edir.

Ədəbiyyat siyahısı

1. Əfəndiyev, M. (2012). Orxan-Yenisey yazıları və ideoloji aspektləri. İstanbul: Türk Kültürü Yayınları, 220 s.
2. Bayramov, A. (2013). Orxan-Yenisey abidələrinin dili və ədəbiyyatı.Bakı: Elm və Təhsil, 156 s.
3. İsmayılov, Z. (2010). Türk ədəbiyyatında Orxan-Yenisey abidələri. Moskva: Rus-Türk Araşdırmaları Mərkəzi, 188 s.
4. Məmmədov, İ. (2009). Türk xalqlarının abidələri. Ankara:Türk Dünyası Araşdırmaları, 240 s.
5. Qarayev, T. (2005). Orxan-Yenisey abidələri və onların ədəbi dəyəri. Bakı: Şərq-Qərb Nəşriyyatı, 320 s.
6. Çakmak, M. (2011). Köktürk yazıtları: Dil və mənada dəyişikliklər. İstanbul: Anadolu Yayınları, 176 s.

Tarlan Alish gizi Aliyeva
Azerbaijan State Pedagogical University
Agjabadi Branch Head Teacher
https://orcid.org/0009-0009-1484-1031
tarlaneliyeva60@gmail.com

LITERARY AND IDEOLOGICAL VALUE OF THE ORKHAN-YENISEY MONUMENTS

Summary

The article notes that the Orkhan-Yenisey monuments are important witnesses of the ancient culture, language and ideology of the Turkic-speaking peoples. These monuments were written by the ancient Turkic peoples living along the Orkhan and Yenisey rivers in the 9th-11th centuries, and their literary and ideological values have been preserved to this day. The literary value of the monuments, in addition to providing rich examples showing thedevelopment of the Turkic language, is also an important area of research in terms of artistic style and syntax.

The article also notes that the Orkhan-Yenisei monuments are valuable sources reflecting not only the language and literature, but also the statehood, social and religious ideologies of the Turkic peoples. These inscriptions deeply embody the warrior spirit of the Turks, their national identity and concepts of statehood. The "Köktürk Inscriptions" (Orkhan Inscriptions) and the "Yenisei Inscriptions" are the first important written

expressions of Turkic culture and ideology, and the influence of statehood, people's unity and religious belief is clearly reflected in these monuments.

Ideologically, motifs such as "God", "power of the state", "kagan" and "unity of the people" occupy an important place in the Orkhan-Yenisei inscriptions. From a literary point of view, the monuments contain both epic and didactic elements. These inscriptions reveal deep thoughts about the heroic struggles of the Turks, statehood and religious belief systems. These monuments play an important role in the culture of modern Turkic peoples, especially in the preservation of language and national identity.

Keywords: Orkhan-Yenisei monuments, literary value, ideological value, Turkish language, national identity, state structure, artistic style

Тарлан Алиш кызыАлиева
Азербайджанский государственный педагогический университет
Глава филиала в Агджабади
https://orcid.org/0009-0009-1484-1031
tarlaneliyeva60@gmail.com

ЛИТЕРАТУРНАЯ И ИДЕОЛОГИЧЕСКАЯ ЦЕННОСТЬ ПАМЯТНИКОВ ОРХАН-ЕНИСЕЯ

Резюме

В статье отмечается, что орханско-енисейские памятники являются важными свидетелями древней культуры, языка и идеологии тюркоязычных народов. Эти памятники были созданы древними тюркскими народами, проживавшими вдоль рек Орхан и Енисей в IX-XI веках, и их литературная и идеологическая ценность сохранилась до наших дней. Литературная ценность памятников, помимо предоставления богатых примеров, демонстрирующих развитие тюркского языка, также является важной областью исследований с точки зрения художественного стиля и синтаксиса.

В статье также отмечается, что орханско-енисейские памятники являются ценными источниками, отражающими не только язык и литературу, но и государственность, социальные и религиозные идеологии тюркских народов. Эти надписи глубоко воплощают воинственный дух тюрков, их национальную идентичность и концепции государственности. «Кёктюркские надписи» (орханские надписи) и «енисейские надписи» являются первыми важными письменными выражениями тюркской культуры и идеологии, и влияние государственности, единства народа и религиозных убеждений ясно отражено в этих памятниках.

В идеологическом плане важное место в орханско-енисейских надписях занимают такие мотивы, как «Бог», «власть государства», «каган» и «единство народа». С литературной точки зрения, памятники содержат как эпические, так и дидактические элементы. Эти надписи раскрывают глубокие размышления о героической борьбе турок, государственности и религиозных системах верований. Эти памятники играют важную роль в культуре современных тюркских народов, особенно в сохранении языка и национальной идентичности.

Ключевые слова: орханско-енисейские памятники, литературная ценность, идеологическая ценность, тюркский язык, национальная идентичность, государственная структура, художественный стиль.

RƏYÇİ: prof. L.Əhmədova

DOİ 10.24412/2218-7588-2026-1-103-105

Heyran İmran qızı Vəkilova

"KİÇİK" ADAMIN "BÖYÜK" HEKAYƏSİ

BDU, Qazax filialı, Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrası, Baş müəllim
vekilovaheyran2@gmail.com
https://orcid.org/0009-0003-6638-7092

Xülasə: Kiçik hekayələrin böyük yaradıcısı olan Cəlil Məmmədquluzadənin "Poct qutusu" hekayəsinin qəhrəmanı Novruzəli XIX əsr Azərbaycan kəndlisininümumiləşdirilmiş obrazıdır. Novruzəlinin başına gələn hadisələr o dövrün sadə insanı olan kəndliyə təlqin etdiyi cahillik və savadsızlığın bariz nümunəsidir. Novruzəlinin xana itaətkarlığını isəavamlığı kimi deyil, xanına olan sədaqəti kimi qiymətləndirməliyik."Poçt qutusu" kiçik hekayə olsada, zamanın tələbindən doğan böyüksənət əsəridir.

Açar sözlər: Mirzə,Vətəndaş, qəzet, hədəf, aktuallıq, yazı-pozu, poçtxana, sovqat.

Giriş: Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadə imzası ilə məşhurlaşan Mirzə Cəlil qüdrətli dramaturq, publisist, kiçik hekayənin böyük yaradıcısı, ictimai xadimdir. O, təkcə öz ölkəsində deyil, bütün Şərq dünyasında "Mola Nəsrəddin" satirik və rəngli karikaturalı mətbu orqanın yaradıcısı kimi də tanınır. Cəlil Məmmədquluzadə eyni zamanda adının əvvəlinə "mirzə" ifadəsi artırılan xoşbəxt sənətkarlarımızdan biridir. Yeni ədəbi məktəb yaratması, kiçik hekayənin böyük ustadı kimi məşhurlaşması, mübariz bir jurnala əsrin dördə biri qədər müddət rəhbərlik etməsi C.Məmmədquluzadəyə mirzə adını daşımaq şərəfini bəxş etmişdir. Onun zamanında "Mirzə" rütbəsini Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Mirzə Şəfi Vazeh kimi sənətkarlarımız da qazanmışlar. Akademik İsa Həbibbəyli "Cəlil Məmmədquluzadə" monoqrafiyasında yazır: "Cəlil Məmmədquluzadə - Molla Nəsrəddin - Mirzə Cəlil ayrı - ayrı tələffüz qaydalarına tabe olan sözlərdir. Lakin onların hamısı bir mühüm mətləbi çox dolğun şəkildə ifadə edir: Qüdrətli vətəndaş yazıçı."

Əsas hissə: Qori Müəllimlər Seminariyasında oxuyanda müəllimi olan AlekseyCernyayevskini daha çox sevmişdir. Hətta həyat yoldaşı Həmidə xanım Cəlil Məmmədquluzadə ilə bağlı xatirələrində onun müəlliminin şəklini döş cibində gəzdirdiyini qeyd edir.

Cəlil Məmmədquluzadənin zəngin yaradıcılığında nəsri xüsusi yer tutur. O, "Danabaş kəndinin əhvalatları", "Ölülər" əsərləri ilə bədii nəsrimizin həqiqi ustadı olduğunu göstərmişdir. Ədibin "Poçt qutusu", "Qurbanəli bəy", "Mirzə Səfər" kimi kiçik hekayələri zamanın tələbindən doğan həyatın aydın və real təcəssümüdür. Kiçik hekayələrindəki təsvir olunan sadə adamlar nə qədər qüsurlu olsalar da, yazıçının sevdiyi adamlardır. Sanki yazıçı onlara deyir: gəlin qardaşlarım, bitli də, sirkəli də olsanız, fal açdırmaq kimi çürük xürafata inansanız da, siz mənim qardaşlarımsınız, biz bir torpağın vətəndaşlarıyıq, siz mənimsiniz, buna görə də mən sizi atmayacam, nə qədər nəfəsim çıxır qüsurlarınızı deyəcəyəm. Amma sizi atmayacağam. "Sizin dostlarınız mənim də dostlarımdı, sizin düşmənləriniz mənim də düşmənlərimdi".

Bədii yaradıcılığa "Çay dəstgahı" ilə başlayan ədibə daha sonralar "Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "Quzu", "Konsulun arvadı", "Nigarançılıq" hekayələri ədəbiyyatımızda kiçikhekayələrin böyük ustadı kimi ad qazandırır.

Cəlil Məmmədquluzadə bu kiçik hekayələri ilə XX əsrin əvvəllərindəki real mənzərəni canlandırmış, sadə, saf, avam, eyni zamanda sədaqətli insanların obrazlarını yaratmaqla yanaşı, eyni zamanda, milliözünüdərkə olan zərurəti də göstərmişdir. 1904-cü ildə "Şərqi-Rus" qəzetində işıq üzü görən "Poçt qutusu" kiçik hekayənin ən möhtəşəm nümunəsidir. Həm də bu kiçik hekayə ədəbiyyatımızda hekayə janrının ən kamil nümunəsi kimi də dəyərlidir. Bu yığcam, ibrətamiz hekayə zaman mövzusu ola biləcək ictimai mətləbləri ifadə etmək imkanlarının əyani sübutudur.

Cəlil Məmmədquluzadənin 1905-ci ilə qədər yazdığı – "Çay dəstgahı", "Danabaş kəndinin əhvalatları", "Danabaş kəndinin məktəbi", "Keçmiş oyunu" əsərləri içərisində "Poçt qutusu"nun böyük ədəbi, bədii və ictimai əhəmiyyəti vardır. Fikir və ideya istiqaməti etibarilə "Əhvalatlar" ındavamıdır, yoxsul, daim əzilən yoxsul kəndliyə bəslənən səmimi bir məhəbbətlə yazılmış gülməli və həm də ürək yanğısı ilə qələmə alınmış bir hekayədir. Hekayənin baş qəhrəmanı Novruzəli avamlığı ücbatındantürməyə belə düşür. Onda əvvəlki qəhrəmanları olan Zeynəb, Məmmədhəsən əmidəki kimi təmiz, saf ürək var. O, xəmiri halallıqla yoğrulan zəhmətkeş, yoxsul kəndli obrazıdır. Haramın nə olduğunu bilməyən, əməksevər bir kəndlinin ümumiləşmiş obrazı o vaxt üçün ədəbiyyatımızda böyük bir hadisə idi. Bütün əsər boyu sanki həzin,musiqi kimi səslənən yumor və lirik kədər Novruzəlini bizə sevdirir. Böyük ustalıqla və ilhamla işlənmiş sətirlər oxucunu inandırır ki, Novruzəlinin avamlığı onun kütlüyündən deyil, onu əhatə edən mühitdəndir. Yuxarıda qeyd olunan əsərləri kimi "Poçt qutusu" da dərin ideyalı sənət əsəridir.

"Poçt qutusu" çox kiçik bir əhvalatın təsviridir, ancaq bu əhvalat uydurma deyil, real həyatdır. Oxucu kəndlinin avamlığı ücbatından nə müsibətlərə düçar olduğunu oxuduqca həm gülür, həm də gülməkdən sonra dərin fikrə gedir.

"Poçt qutusu" hekayəsinin məzmununa qısa bir nəzər yetirək:

-Vəli xan evində oturub İrəvandakı dostuna məktub yazır və məktubu poçtxanaya göndərmək üçün evdəki nökəri tapa bilmir, bu zaman Novruzəli kənd sovqatları ilə ulaqla birlikdə Vəli xanın həyətinə daxil olur. Vəli xan Novruzəliyə deyir ki, bu məktubu poçtxanaya aparsın, Novruzəli isə, mən poçtxana tanımıram. Vəli xan isə: poçtxana naçalnik divanxanasının yanındadır. Novruzəli oranı tanıdığını bildirir və məktubu götürüb gedir. Poçtxanaya çatır,

amma poçt qutusundan istifadə etmək qaydasını bilmədiyi üçün gözləmək məcburiyyətində qalır. Bir erməni uşağı gəlib gətirdiyi məktubu qutuya atır, daha sonra bir zadəgan rus qadını poçt qutusuna məktub daxil edir. Bundan sonra Novruzəli başa düşür ki, məktubu necə daxil etmək lazımdır. O da məktubu poçt qutusuna atır, sonra isə orada oturub gözləyir, çünki o bilmirdi ki, bundan sonra gözləmək lazımdır, yoxsa məktubu atandan sonra çıxıb getməlidi. Bu zaman poçtalyon gəlir və qutunu açır, oradakı məktubları götürür. Novruzəli bunu görür, o, düşünür ki, bu bir oğrudu, məktubları oğurlamaq istəyir, ona görə də poçtalyonla dalaşır, onu döyür. Nəticədə Novruzəlini tuturlar, ona həbs cəzası verilir.

Hekayənin əsas qəhrəmanı İtqapan kəndlisi Novruzəlidir. O, köhnə dünyanın adamıdır. Zəmanədən xəbərsiz, öz avamlığından bəlaya düşən, ağasına sadiq, təmiz və saf bir ürək sahibidir. XX əsr Azərbaycan kəndlisinin ümumiləşmiş obrazıdır. Süjet yığcamlığı, dilinin şirinliyi, mənalılığı etibarı ilə dünya ədəbiyyatının ən yaxşı novellaları ilə bir sırada durur. Burada böyük yazıçı sənətkarlıq etibarı ilə rus klassiki A.P.Çexovdan heç də geri qalmayacaq bir əsər yaradaraq əsl möcüzə yaratmışdır. Novruzəlinin avamlığı və geriliyi kütlüyündən deyildir, əksinə bacarıqlı və iradəlidir. Avamlığına səbəb isə onu əhatə edən ictimai mühitdir. Böyükədəbiyyatşunasımız Firudin bəy Köçərli bunu Azərbaycanda realizmin, demokratik ideyaların ən parlaq təzahürü kimi qiymətləndirir.

Novruzəli mədəni gerilikdən geri qalan bir kəndlidir. Onun başına gələn olay poçt qutusundan istifadə edə bilməməsiidr. Həmin dövrdə poçt qutusundan istifadə elmi yenilikdən geri qalmaq demək idi. Hansı ki, bugünki günümüzdə yaşlı adamlarımız sosial şəbəkələrdən istifadə edə bilmirlər. Biz onlara cahil, avam, geridə qalmış deyə bilmərik. Sadəcə Novruzəlini mədəni gerilikdən əziyyət çəkən bir obraz kimi dəyərləndirə bilərik. Cəlil Məmmədquluzadə də hekayəsində onları qələmə almışdır. Bu da Novruzəlilərin düşüncəsiz, nadan olmasına dəlalət etmir.

Novruzəliyə vurulan avam, cahil ittihamlarının əsasında duran hadisə Novruzəlinin poçt qutusundan istifadə etməyi bacarmamasıdır. Həmin dövrdə, poçt qutularının olması elmi-texnoloji bir yenilik hesab olunurdu. Aydındır ki, yenilik öncə şəhərlərdə, daha sonra isə kəndlərdə yayılır. Novruzəliisə kəndlidi, kəndli bir insanın poçt qutusundan istifadə edə bilməməsi böyük bir qəbahət deyil və normaldır. Beləliklə, biz Novruzəli haqqında cahil, avam, geridə qalmış deyə bilmərik. Novruzəli, sədəcə mədəni gerilikdən əziyyət çəkən bir obraz kimi təqdim oluna bilər.

Novruzəli etiraz bildirməyi bacaran, haqqını tələb edən bir obrazdır. Novruzəlinin naçalnik divanxanasına şikayət etməyə getməsi onun sosial ədalətsizlikləri görən, ayıq bir obraz olmasına dəlalət edir. Novruzəli kimi ayıq, haqqını tələb etməyi bacaran, sosial adalətsizliklərə münasibət bildirməyi bacaran bir obraz qul psixologiyasına məhkum ola bilməzdi.

Vəli xan həmin dövrdəkimülkədarların obrazıdır. Vəli xan haqqında belə fikirlər var ki, güya o zalım kəndlilərin haqqını yeyən, talançı bir obrazdır. Bu yanlış düşüncədi, çünki zalım, kəndliləri soyan, bir obraz haqqında Novruzəli kimi haqqını tələb etməyi bacaran, sosial ədalətsizliyi sezə bilən bir obraz desin ki, mən ömrümün sonuna qədər sənə qulam, mənim yetim-yesirim sənə qurban olsun. Necə ola bilər ki, Novruzəli kimi bir insan zalım bir mülkədara hədiyyələr gətirsin, ona xoş sözlər desin, ona sovqat gətirsin. Beləliklə, biz bu qənaətə gəlir ki, Novruzəli obrazı, o cümlədən, Novruzəlinin təmsil etdiyi Azərbaycan kəndliləri avamlığı, cahilliyi olan insanlar deyil. Novruzəlio cümlədən, həmin dövrdə yaşamış Azərbaycan kəndlisi, yetərincə düşüncəli, öz fikrini müstəqil şəkildə bildirməyi bacaran, sosial hadisələri müşahidə edib, ona qiymət verməyi bacaran insanlardır, həm də ağasına sadiq olan kəndlidir, və o dövrdə onun kimiləri çox idi.

Cəlil Məmmədquluzadəni ədəbiyyata gətirən nə pul qazanmaq, nədə şöhrət həvəsi idi. O zaman ədəbiyyat və mətbuat müəlliflərə maddi xeyirdən çox zərər verirdi, kitab və ya qəzet nəşr edən əlində olan kiçik bir sərmayəni belə itirmək təhlükəsi ilə meydana atılırdı. Yaradıcılıqda özünə qarşı çox tələbkar olan bu böyük sənəktkar öz əsərləri sarıdan çox təvazökar idi. Yazdıqlarını gözə soxmaq, tərifləmyi heç sevməzdi. Bu cəhətdən 1903-cü ilin dekabrında Tiflisdə yeznəsi ondan "Təzə yazı-pozudan yanında bir şey varmı" – deyə soruşur. "Poçt qutusu" cibində ola-ola "birşey yoxdur"-cavabını verir. Bunun səbəbini yazıçı belə izah edir: "Ondan ötrü belə dedim ki, mən əsərlərimi həvəs ilə ona-buna göstərənyazıçıları dost tutmaram, bəlkə iyrənərəm, Allah şahiddir ki, mənum üçün ondan ağır bir təklif yoxdur ki, özüm yazdığım bir yazını öz əlinlə çıxardasan və onun - bunun qabağına tutub nişan verəsən. Onun üçün də məni tanıyanların heç birisinin yadına gəlməz ki, mən asanlıqla öz əsərimi çıxardam və bir kəsə göstərəm, ya bir kəsə oxuyam."

Nəticə: "Poçt qutusu" hekayəsi "kiçik" adam haqında qələmə alınmış böyük bir əhvalatdır. Bu kiçik adam hekayəsi xan-bəy və rəiyyət arasında olan qarşılıqlı münasibət zəminində formalaşdırılıb. Avam, savadsız, saf qəlbli Novruzəlinin faciəsi onun cahilliyindən doğan faciəsidir. Novruzəli dövrün cəhalətini əks etdirir. Bəlkə indiki dövrümüzün cəhalətini də əks etdirir. Lakin, cahillik təkcə bilməmək deyil, bilmədiyini belə dərk edə bilməməkdir. Novruzəli nəyi səhv etdiyini hekayənin sonuna kimi başa düşmür. Əsərdə qeyd olunan digər vacib bir məqam isə Novruzəlinin xana daim ehtiram göstərməsi, ona baş əyməsi, ona təzim etməsi, ailəsini və özünü onun qabağında alçaltması idi. Lakin Novruzəli hələdə dərk edə bilmir ki, onun faciəsində ən böyük günahkar xanın özüdür. Çünki rəiyyəti savadsızlığa doğru çəkən xan-bəy zümrəsidir. Novruzəlinin kənddən gətirdiklərıniyeyib-içən Vəli xan və onun kimilər əsərdəki əsas tənqid hədəfləridir. Biz Novruzəliyə gülsək də, daxilən ona ağlayırıq. 100 ildən çox vaxt keçməsinə baxmayaraq əsər hələ də, aktualdır.Cahillik, avamlıq cəhalətlə mübarizə üçün ən dəyərli vəsaitdir. Çünki hələ də aramızda Novruzəlilər var...

Ədəbiyyat siyahısı:

1. Cəlil Məmmədquluzadə seçilmiş əsərləri. "Maarif". 1987
2. Mirzə İbrahimov "Böyük demokrat". Bakı. 1957
3. Cəlil Məmmədquluzadə. Əsərləri II cild Bakı. Azərnəşr. 1936
4. M.Cəlal. F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı "Marif".1974
5. "Cəlil Məmmədquluzadə ensiklopediyası".Bakı. 2008
6. Vahabova, S.***Cəlil Məmmədquluzadə nəsrinin poetikası*** (Bakı; Elm və təhsil, 2014).
7. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: biblioqrafiya. Bakı. 2005
8. SəadətVahabova. CəlilMəmmədquluzadənəsrininpoetikası. Bakı. 2014
9. FikrətHüseynov. Adi əhvalatlardaböyükhəqiqətlər. Bakı. 2015
10. Nizami Cəfərov. Mirzə Cəlil: mühiti və müasirləri. Bakı. 2010
11. TeymurKərimli. CəlilMəmmədquluzadəvə milli realizm. Bakı. 2012

Хейран Имран Гизи Вакилова

«Большая» история «маленького» человека

БГУ, Казахстанский филиал, Кафедра языка, литературы и методики их преподавания
, Старший преподаватель
vekilovaheyran2@gmail.com
https://orcid.org/0009-0003-6638-7092

Резюме

Новрузали, герой рассказа «Почтовый ящик» Джалила Мамадгулузаде, великого мастера коротких рассказов, представляет собой обобщенный образ азербайджанского крестьянина XIX века. События, постигшие Новрузали, являются ярким примером невежества и неграмотности, внушавшихся крестьянам, простым людям того времени. Повиновение Новрузали хану следует оценивать не как его невежество, а как его преданность хану. Хотя «Почтовый ящик» — это короткий рассказ, это великое произведение искусства, рожденное в соответствии с требованиями времени.

Ключевые слова: Мирза, Гражданин, газета, цель, актуальность, стиль письма, почта, подарок.

Heyran Imran gizi Vakilova

THE "BIG" STORY OF A "LITTLE" MAN

BSU, Kazakh branch, Department of Language, Literature and Methodology of Their Teaching
, Senior Lecturer
vekilovaheyran2@gmail.com
https://orcid.org/0009-0003-6638-7092

Summary

Novruzali, the hero of the short story "The Mailbox" by Jalil Mamadguluzade, a great master of short stories, is a generalized image of the 19th-century Azerbaijani peasant. The events that befell Novruzali are a striking example of the ignorance and illiteracy instilled in peasants, the common people of that time. Novruzali's obedience to the khan should be assessed not as ignorance, but as loyalty to the khan. Although "The Mailbox" is a short story, it is a great work of art, born in accordance with the demands of the time.

Keywords: Mirza, Citizen, newspaper, purpose, relevance, writing style, mail, gift.

RƏYÇİ: dos. E.Vəliyeva

DOİ 10.24412/2218-7588-2026-1-106-108

Zahidova Bibixanım Müzəffər qızı
Ağdaş Dövlət Humanitar Kolleci 1 Saylı Şöbə müdiri
e-mail :bibixanimzahidova5@gmail.com
https://orcid.org/0009-0006-9014-5546

CULİAN BARNSIN "AQIBƏT DUYĞUSU" ROMANINDA YADDAŞIN İLLÜZİYASI

Xülasə. Müasir ingilis yazıçısı Culian Barns (Julian Barnes, 1946) zamanın təbiətini dəqiq və amansızcasına araşdıran yazıçılardandır. Əgər "Floberin tutuquşusu" (Flaubert's Parrot, 1984) romanını o, postmodernizmə əməl edərək tarixi həqiqəti anlaşılmazlığın və keçmişin istehzası kimi təsvir edirdisə, yaradıcılığının sonrakı dövrlərində bu problemin kəskin şəkildə dəyişdiyini izləyə bilərik. C.Barns üçün keçmiş əyləncə olmaqdan çıxır, mənəvi duruma çevrilir. C.Barns dünyasında insan öz xatirələrinin cəmidir, lakin yaddaşın özü olduqca etibarsızdır. O, tərcümeyi-halı "düzəltmək" və onu əlverişli bir şəkildə təqdim etməyə sadəcə psixoloji bir müdafiə deyil, mənəvi "boşluğun" bir forması kimi baxır. Yazıçıya görə keçmiş faktların donmuş salnaməsi deyil, illər əvvəl qorxaqlıq və ya düşüncəsizlikdən edilən səhvlərə görə onunla haqq-hesab sürən bir qüvvədir. Esselərinin birində C.Barsn belə bir fikir irəli sürür: "zaman və yaddaş haqqında daha çox düşünməyə başlayır, zamanın yaddaşla və yaddaşın zamanla nə etdiyini fikirləşirsən. Həmçinin gənclik illəri kimi yaddaşa etibar etmirsən: bunun yaddaşı bərpa etməkdən daha çox təxəyyül olduğunu başa düşürsən" [3].

Açar sözlər: C.Barns, "Aqibət duyğusu", roman, yaddaşın illüziyası, etiraf

Giriş. Əgər C.Barns erkən yaradıcılığında istehza və skeptisizmə üstünlük verirdisə, son illər yazdığı əsərlərdə diqqəti daha çox əxlaqi məsələlərə yönəldir. C.Barns üçün keçmiş "olanlar" deyil, qəhrəmanları üçün cavabdehlik hissi, "olacaqların" davamıdır. Başqa sözlə, ona görə yaddaş sadəcə xatirə deyil. Yaddaş onun üçün keçmişin təhrifi və həqiqətə qarşı dərin bir şübhədir. Görünür elə bu səbəbdən yazıçı keçmişi insanın özü-özünə danışdığı hekayələr kimi irəli sürür. Yazıçının "Aqibət duyğusu" (The Sense of an Ending, 2011) romanının qəhrəmanı da keçmişin sadəcə qırıq-kəsik xatirələr deyil, həm də qəsdən təhrif olunduğunu anlayır. Bu romanında o, keçmiş hadisələrin yenidən canlanmasını, insan ləyaqətinin isə nə olursa olsun, əbədi bir dəyər olaraq qaldığını göstərir. Qəhrəman üçün keçmişlə qarşılaşma, yaşanan həyat üçün məsuliyyətdən ayrılmaz bir həqiqət anına çevrilir: "Amma ən kiçik bir sevinc və ya ağrı bizə zamanın elastik olduğunu öyrədir. Bəzi hisslərin təsiri altında yavaşlayır, digərlərinin təzyiqi altında sürətlənir və bəzən haradasa yoxa çıxır kimi görünür, amma sonda elə bir nöqtəyə çatır ki, o, həqiqətən yox olur və heç vaxt geri qayıtmır" [4, s.6].

"Aqibət duyğusu" romanında C.Barns yaddaşın "parçalanması" ideyasını irəli sürür. Əsərin qəhrəmanı Toni Vebster gənclik illərindəki dostunun gündəliyini əldə edir və bu qeydlər onu həyatı yenidən düşünməyə vadar edir. Məktuba qədər Toni özündə keçmişi ilə bağlı xoş xatirələr yaradır, özünü şəraitin qurbanı və ya sadəcə adi bir insan hesab edir. Beləliklə, C.Barns unutqanlığı sözün əsl mənasında insanın müdafiə mexanizmi kimi təqdim edir: "Hamımız zaman daxilində mövcuduq – o bizi formalaşdırır, amma mənə elə gəlir ki, onu heç vaxt tam başa düşməmişik"[4, s.26].

Əsas hissə: Toni Vebster həyatını sarsıntılar və böyük günahlar olmadan keçirmiş, orta səviyyəli bir insan kimi təqdim edir. Beləcə, C.Barns insan yaddaşını çox vaxt özünə bəraət qazanan bir vasitə kimi göstərir. Toni özünü Veronika ilə ayrılmasını və dostu Adrianın intiharını ağrılı, lakin gəncliyin səhvi olduğuna inandırır. O, özünün yaratdığı "adi insan" statusundan istifadə edir və pisliyə qadir olmadığına inanır. C.Barns göstərir ki, "zərərsiz" bir adi insan fəlakətin səbəbkarına çevrilə bilər. "O vaxtlar biz elə düşünürdük ki, azadlığa çıxmaq üçün hansısa bir yerdə əzab çəkirik. Həmin an gələndə həyatımız və zamanın özü sürətlə keçib gedəcək. Həyatın artıq başladığını, artıq irəlilədiyini və bəzi itkilər verdiyimizi haradan bilərdik? Üstəlik, əgər bir yerə buraxılsaq, yalnız fərqli bir yerə, daha geniş bir yerə, ayırd etmək çətin olan, sərhədləri olan bir yerdə olardıq"[4, s.37].

Toni tamamilə "unutduğu" məktubu aldığı anda özünü aldatdığını, yaddaşını "ütülədiyi"ni başa düşür."Siz, bir-birinizə layiqsiniz və sizə çoxlu sevinc arzulayıram. Ümid edirəm ki, bir-birinizə vurduğunuz yaralar heç vaxt sağalmayacaq qədər dolaşıq olacaq. Ümid edirəm ki, sizi tanış etdiyim gündən peşman olacaqsınız. Ümid edirəm ki, ayrıldıqdan sonra yalnız zəhərlə qalacaqsınız, bu da başqaları ilə bütün münasibətlərinizi zəhərləyəcək.... İndi sənə çata bilmərəm, amma zaman çatacaq. Zaman hər şeyi öz yerinə qoyacaq. Başqa cür ola da bilməz. Uğurlar... birləşmiş başlarınıza xlorid turşu yağsın. Toni" [4, s.67].

Keçmişin məktubu onu sarsıdır. Toninin xatirələrində dostları ilə ayrılığı adi, ya da heç olmasa neytral idisə, məktub nifrət, lənət və kinlə dolu idi. Bu məktub onu keçmişə qaytarır. Məktəb illərində baş verən hadisələri yenidən canlandırır.Göründüyü kimi, C.Barns romanın əsas məqamını təqdim edir. Toni yalnız faktları unutmur, eyni zamanda da öz emosiyalarını da redaktə edir.Toni hər şeydən uzaq, yaşlı təqaüdçü obrazını məktubdakı acıqlı, kinli və qəddar gənclə uzlaşdıra bilmir. Bu uyğunsuzluq onun varlığını məhv edir. Əgər o, özünü xatırladığı Toni deyildisə, bəs kimdir? Castin Cordan tam haqlı olaraq qeyd edir ki, "kitabın tədricən artan ironiyasında – ikinci hissədə ustalıqla təsvir edilmiş xatirələrin həqiqiliyi şübhə altına alınır" [5].

Toni gənclik illərində sevdiyi Veronikanın ailəsinin və dostu Adrianın sirrini məntiqi ardıcıllıqla açmağa çalışır. O, səbəb-nəticə zəncirləri quraraq cavab axtarır, lakin hər yeni cəhd, yeni uğursuzluqla nəticələnir.Qəhrəman inanır ki, faktları toplaya bilsə, baş verən hadisələri açа biləcək. Amma C.Barns Veronikanın dili ilə hər dəfə eyni sözləri təkrarlayır: "Sən hələ də heç nə başa düşmədin. Sənə heç nə çatmır. Nə əvvəllər çatmırdı, nə də indi çatır". İstənilən vaxt Marqaretə zəng edə bilməyim və onun heç nə olmamış kimi mənimlə nahar etməyə razı olması ruhumu bir az da incidir. Nə qədər çox yaşayırsan, bir o qədər az başa düşürsən – bunlar kimin sözləridir?"[4, s.125]. Toni keçmiş həyat yoldaşı Marqaret ilə Veronikanın oxşar eyhamını da qarışdırır, eyni eyham, yoxsa yaddaşın qarışıqlığı sualı ona sakitlik vermir.

Toninin çarəsizliyi keçmişi izah edə bilməməsini şərtləndirir. C.Barns belə bir fikir irəli sürür: keçmişi oxunmuş kitab kimi bağlamaq olmaz. Keçmiş ya məsuliyyət hissini silir, ya da özünəməxsus şəkildə "ləğv" edir. Məlum olur ki, zaman keçdikcə insandan asılı olmayaraq başqalarına vurulan zərər daha da güclənir. Unudulan keçmiş nə vaxtsa haqq-hesab çəkir. C.Barns göstərir ki, insan öz həyatının obyektiv tarixidir.İnsanın məsuliyyəti yaddaşın yaratdığı yalanların bitdiyi və zərərsiz olmadığını qəbul etdiyi yerdən başlayır. "Təsadüfi deyil ki, kitabın əvvəli Toninin gəncliyinə, çəhrayı çalarlarlı sakit günlərinə yönəlir, sonrakı onilliklər isə demək olar ki, tələsik keçir. Bu xatirələr onun yaxşı bir həyat yaşadığına, xoşbəxt olduğuna inamını gücləndirir, amma bu inamı sarsıtmaq və danışılmamış şübhələri üzə çıxarmaq üçün kifayətdir" [6]. Keçmişdən qalan bir məktub onun xatirələri ilə ziddiyyət təşkil etdikdə, yaddaşın zirzəmisi üzə çıxır və Toninin həyatını fəlakətə çevirir. O, gənclik hikkəsinin faciəyə səbəb olduğunu dərk edir. "Zamanla xarakter dəyişirmi? Əlbəttə ki, romanlarda, əks halda yazacaq heç nə olmazdı. Bəs həyatda? Bu maraqlı bir sualdır. Fikirlərimiz dəyişir, yeni vərdişlər və qəribəliklər ortaya çıxır, amma bu fərqli olur, sanki bərbəzəyə çevrilir. Xarakter isə zəka kimi tədricən zirvəyə çatır: iyirmi ilə otuz yaş arasında olduğu kimi. Yalnız bundan sonra sahib olduqlarımızla kifayətlənirik. Özümüz qərar veririk. Bu da bir çox taleləri izah edir, elə deyilmi? Açıq deyək, bu bizim faciəmizdir"[4, s.160].Toni Vebsterin mənəvi oyanışı ani bir oyanış deyil, öz şəxsiyyətini olduğu kimi qəbul etməyin ağrılı bir prosesidir. C.Barns göstərir ki, insanın oyanışı faktları xatırlamaq deyil, həyatında ciddiyə almadığı insanlara qarşı günah hissini etiraf etməkdir. Rəvan Cavid yazır ki, Toninin "tarixə, keçmişə axtardığı tərif özünə ünvan tapa bilmir. Yazıçı oxucuyla bərabər yaddaşımızın bizim həyatımıza təsirini, keçmişimizin boşluqlarına atdığımız daşları araşdırır" [1].

Toni tədricən belə bir fikrə gəlir ki, keçmişlə bağları qırmaq heç də onu məsuliyyətdən azad etmir. İllər boyu o, heç bir cinayət törətmədiyi üçün vicdanının təmiz olduğuna inanır. Lakin gənclikdə yazdığı məktub onun düşüncələrini, həyata baxışını alt-üst edir. O, Adrian və Veronika üçün bədbəxtlik arzulayan gənclik məktubunu oxuyanda sanki yuxudan oyanır. Toni sətirlər arası yad bir insanı görür. Bu insan çox kinli və qəddardır. Toninin oyanışı etirafla başlayır: "Bunu mən yazmışam"[4, s.89]. Toni sözlərinin faciəyə səbəb ola biləcəyini anladıqda dəhşətə gəlir, faciənin masştabı daha da genişlənir. Onun "sadəcə hisslərimi ifadə edirdim" fikri dostu Adrianın həyatını geri qaytarmır. Əsmər Əliyevaya görə "Toni öz keçmişini yenidən xatırlayır, hadisələri təhlil edir və başa düşür ki, yaddaşın təqdim etdiyi "həqiqət" bəzən insanın özü tərəfindən formalaşdırılmış bir illüziyadan başqa bir şey deyil" [2, s.156].

Nəticə: C.Barns yaddaş və keçmiş qarşıdurmasına məsuliyyət problemini əlavə edir. Keçmiş insan məsuliyyəti və ya səbəb-nəticədir. Qəhrəmanın mənəvi oyanışı keçmişin silinmədiyini, yalnız başqa şəkil aldığını, daha acımasız geri döndüyünü göstərir.

Toni ən böyük səhvinin diqqətsizlik olduğunu anlayır. O, Veronikanın ağrısını hiss etmir və Adrianın dərinliyini anlamır, hər ikisinə dəyər vermir. Toninin mənəvi oyanışı çox gec, ömrünün son illərinə təsadüf edir. Artıq evliliyi sona yetmiş, qızı və keçmiş həyat yoldaşı ilə münasibətlərini bitirmişdir. Veronika ilə yenidən görüş də məktubun izi ilə baş verir. Onların nə hiss etdiyini Tonini heç vaxt düşündürmür. Boyd Tonkin yazır ki,"romandakı zaman əvvəlcə bizi sakitləşdirir, sonra çaşdırır" və yaddaşın dolaşıqlığı onun narahatedici "elastikliyini" izah edir" [7].

Toni daha yaxşı və daha müdrik olduğuna görə sakit həyat sürmür. O, Adrianı məhv edən həyatın mürəkkəbliyini qavraya bilməyəcək qədər bəsit olduğuna görə hamı kimi yaşaya bilir. Öz bəsitliyinin dərki onun bir insan kimi oyanışının vacib mərhələsidir. Toni bu oyanışa təqaüd yaşında çatır. Görünür elə bu səbəbdən yaddaşını qınayır, bu yaşında onun heç bir mahiyyət kəsb etmədiyini deyir: "Yaddaşın zəifləməyə başlayanda (söhbət Altsheymerdən deyil, yaşla gələn dəyişiklikdən gedir), fərqli reaksiyalar verə bilərsən. Oturub tanış bir adı, bir çiçəyin adını, bir metro stansiyasını, bir astronavtın soyadını xatırlamaq üçün beynini qarışdıra bilərsən... Məğlubiyyəti etiraf edib bir məlumat kitabına və ya internetə müraciət edə bilərsən. Yaxud sadəcə təslim olub – unutqanlığı unuda bilərsən və sonra itirilmiş fakt bir neçə gün ərzində, çox güman ki, yaşla gələn yuxusuzluq zamanı üzə çıxacaq"[4, s.136].

C.Barsn etirafın, hətta deyə bilərik ki, tövbənin də çarəsizliyini səsləndirir. C.Barns insanın oyanışının ən faciəli tərəfini – çox gec baş verməsi fikrini irəli sürür. Etiraf və tövbə artıq qəhrəmanın davranışlarını geri qaytara bilmir. Adrian ölüb, Veronika ona nifrət edir. Onun keçmiş davranışları şikəst talelərlə nəticələnir. Başqa sözlə, keçmişi geri qaytarmaq mümkün deyil. Toni gerçəklik qarşısında tənhadır. O, göz ardı edə bilmədiyi günahkarlıq yükü ilə qalır. Onun son vəziyyəti oxucuya mesajlar ötürür. İnsan münasibətlərində son cavab yoxdur, yalnız sonsuz məsuliyyət hissi var. Bu gün etdiklərimiz gələcəkdə mütləq qarşımıza çıxacaq: "Həyat sona çatır – daha doğrusu, həyatın özü deyil, başqa bir şey: bu həyatda dəyişiklik üçün bir fürsət. Sənə uzun bir fasilə verilir, özündən soruşmaq üçün kifayət qədər vaxt verilir: mən başqa nəyi səhv etdim?" [4, s.152].

C.Barns üçün insanın oyanışı həqiqət məqamıdır. Bu həqiqət məqamı qəhrəmanlıq deyil, özümüzə etiraf etməli olduğumuz bir sıra kiçik xəyanətləri və anlaşılmazlıqları qəbul etməkdir.

Ədəbiyyat:

1. Cavid , R. Culian Barnsın aqibət bələdçiliyi. 525-ci qəzet. 11.11.2018
2. Əliyeva, Ə. Culian Barnsın yaradıcılığında psixologizm. "Dil və ədəbiyyat" jurnalı. №2 (128), 2025. 154-158 s.
3. Barnes, J. Julian Barnes on The Sense of an Ending: 'I learned to do more by saying less'. The Guardian. 14 Jun., 2021
4. Barnes, J. The Sense of an Ending. Vintage. 2012. 163 p.
5. Jordan , J. The Sense of an Ending by Julian Barnes – review. The Guardian. 26 Jul., 2011.
6. 'The Sense of an Ending' by Julian Barnes (Review). https://tonysreadinglist.wordpress.com/2025/06/16/the-sense-of-an-ending-by-julian-barnes-review/
7. Tonkin B. The Sense of an Ending, By Julian Barnes. İndependent. 05 August 2011

Захидова Бибиханим Музаффар кизи
Заведующая кафедрой № 1,
Агдашский государственный гуманитарный колледж
e-mail: bibixanimzahidova5@gmail.com
https://orcid.org/0009-0006-9014-5546

Иллюзия памяти в романе Джулиана Барнса«Предчувствие конца»

Резюме

В своем романе «Предчувствие конца» Дж.Барнс показывает, что память — это механизм, который меняется со временем и редактируется человеком для самозащиты. Писатель выдвигает идею ненадежности памяти, показывая, что человек искажает важные факты, чтобы его прошлое казалось безобидным. По мнению автора, судьба памяти — это не объективная истина, а обязанность человека столкнуться с последствиями своих собственных действий. В романе «Предчувствие конца» память также представлена как форма ответственности. Прошлое героя оставляет после себя трагические следы, оставленные юношескими ошибками в жизни других. Дж.Барнс показывает, что человек не просто помнит прошлое, но и изобретает его, чтобы оно соответствовало его собственным представлениям.

Ключевые слова:Дж.Барнс, «Предчувствие конца», роман, иллюзия памяти, признание

Zahidova Bibikhanim Muzaffar qizi
Head of Department No. 1, Agdash State Humanitarian College
e-mail: bibixanimzahidova5@gmail.com
https://orcid.org/0009-0006-9014-5546

The Illusion of Memory in Julian Barnes's "The Sense of an Ending"

Summary

In his novel "The Sense of an Ending", J.Barnes shows that memory is a mechanism that changes over time and is edited by humans for self-protection. The writer puts forward the idea of the unreliability of memory, showing that people distort important facts to make their past seem harmless. According to the author, the fate of memory is not objective truth, but a person's obligation to face the consequences of their own actions. In the novel "The Sense of an Ending", memory is also presented as a form of responsibility. The protagonist's past leaves behind tragic traces of youthful mistakes in the lives of others. J.Barnes shows that people do not simply remember the past, but invent it to fit their own ideas.

Keywords: J.Barnes, "The Sense of an Ending", novel,illusion of memory, confession

RƏYÇİ: prof. L.Əhmədova

DOİ 10.24412/2218-7588-2026-1-109-111

Qasımova Sədaqət Nadir
ADNSU.Müəllim
qasımovaseaddet@box.az

HÜSEYN CAVİDİN ƏDƏDBİ İRSİNİN ÜSLUBI MƏDƏNİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Xülasə: Məqalədə H.Cavidin ədədbi irsinin üslubi mədəni xüsusiyyətlərindənbəhs edilir. Tədqiqat işində Azərbaycan ədəbiyyatında özünəməxsus dəst-xətti ilə seçilən, milli mənzum dramın banisi H.Cavidin yaradıcılığı araşdırılır. Dramaturqun keşməkeşli yaradıcılıq yolu və bu yolda onun üzləşdiyi çətinlikər haqqında məlumatlartəhili edilir. Humanist insan və böyük maarifçi Hüseyn Cavid millətinin gənclərinə şad, firavan fərəh dolu günlər arzulayırdı. O, insanı ruhən sağlam, güclü, nikbin həyata hazır bir varlıq kimi görmək istəyirdi. Cavidə görə, kamil insanı fiziki-cismani baxımdan yetkin olmadan təsəvvür etmək qeyri-mümkündür. MəqalədəHüseyn Cavidin əsərlərindəki insan konsepsiyası məsələləri də təhili edilir.

Açar sözləri: Azərbaycan ədəbiyyatı, Hüseyn Cavid, insan konsepsiyası, ictimai quruluş,mədəniyyət

Giriş: "Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış adamdır. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaqdır, yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir".
Heydər Əliyev

Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilən, mənzum dramın əsasını qoyan, ömrü boyu həqiqət əsiri olan Hüseyn Cavidin bədii düşüncəsi, sənət əsərləri tariximizin əvəzsiz nümunələrindən biridir. O, Azərbaycan ədəbiyyatı tarixində türkçülük məfkurəsi ilə yeni bir çığır açmış,həyatını xalqının azadlığı yolunda fəda etmiş,dözülməz məşəqqət və mərhumiyyətlərə mərdliklə sinə gərən böyük mütəfəkkirdir.

Əsas hissə: Ədəbi fəaliyyətinə şair və publisist kimi başlayan H. Cavid ilk mətbu addımlarını 1904-cü ildə "Şərqi-Rus" qəzetində atmışdır. Sevimli müəllimi M.T. Sidqinin vəfatı münasibətilə yazdığı nekroloq-məktub onun geniş oxucu kütləsinə təqdimatı oldu. Bu uğurlu başlanğıcdan sonra o, dövrün nüfuzlu mətbu orqanları olan "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal" və "Açıq söz" qəzetlərində müntəzəm çıxış edərək fikir adamı kimi tanındı (1).

Dramaturgiya sahəsinə keçidi isə 1910-cu ildə qələmə aldığı "Ana" pyesi ilə reallaşdı. Süjeti orta əsr italyan novellasından qaynaqlansa da, Cavid bu əsəri milli təfəkkürə və Azərbaycan-türk mentalitetinə ustalıqla uyğunlaşdıraraq orijinal sənət nümunəsi meydana gətirdi (3).

Şairin erkən dövr yaradıcılığı iki mühüm topluda cəmləşmişdir:"Keçmiş günlər" (1913)adlanan 24 səhifəlik bu toplu fərdin daxili aləmi ilə cəmiyyətin sərt reallıqları arasındakı ziddiyyətləri əks etdirən lirik-romantik şeirlərdən ibarətdir."Bahar şəbnəmləri" adlı toplusunda insan taleyinin fəlsəfi qatları, millətin keçmişi və gələcəyi ilə bağlı narahatlıqlar poetik dillə ifadə olunmuşdur.

İstanbul Universitetində təhsil aldığı illərdə Türkiyə ədəbi mühitində də tanınan şairin "Hübuti-Adəm" və "Yadimazi" kimi ilk şeirləri keçmişin ideallaşdırılması və didaktik ruhu ilə seçilir.

1912-1918-ci illər Cavid yaradıcılığında dramaturgiyanın yüksəliş dövrüdür:"Maral"əsəri Azərbaycan qadınının hüquqsuzluğunu və sosial faciəsini işıqlandırır."Şeyx Sənan" əsəri müəllifin ilk uğurlu faciəsi kimi teatr tariximizdə silinməz iz qoymuş, sarsılmaz eşqin rəmzinə çevrilmişdir (2, 149)."Şeyda" (1917) əsəri ilə sənətkar qlobal-fəlsəfi mövzulardan daha realist və lokal müstəviyə keçid edərək canlı xarakterləri səhnəyə gətirmişdir.

Tarixi mövzularda yazıb yaradan Hüseyn Cavid öz əsrlərinin mövzularınıelə qüdrətlə dəyərləndirirdi ki, o, bütün ədəbi döyüşlərdən zəfərlə çıxırdı. Elə bu səbəbdən də onun əsərlərində təkcə Azərbaycan deyil, bütün bəşəriyyətidüşündürən ən vacib problemlərə, məsələlərə toxunulurdu. Cavidin axtardığı həqiqətin bir mənası vardı: milləti azad, xoşbəxt və birlikdə görmək! Onun gənclik illərində dostlarına yazdığı məktubundakı "Əsl məqsəd vətənə layiqincə xidmət etməkdir" fikri bütün ömrünün epiqrafına çevrildi (6, 106).

Ulu Öndər Heydər Əliyevin Cavid yaradıcılığına həmişə diqqət və həssaslıqla yanaşmışdır. Ulu Öndərin başqa bir fikri bu dahi sənətkarın bir şəxsiyyət kimi məziyyətlərini açıqlayır: "Hüseyn Cavid həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həqiqətən canından artıq sevmişdir".Hüseyn Cavid daima həqiqət axtarışında olmuşdur. Böyük ustad bu haqda yazırdı: "Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir!"(7, 239-243).Həqiqət axtarışı onu çətin, keşməkeşli, ağır təzyiqli, dözülməz bir yola yəni, repressiyaya sürüklədi. Ədib məfkurə davasını insanların beyninə, milli zehniyyətinə aşılamaq istəyirdi:

Turana qılıncdan daha kəskin ulu qüvvət
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!..

1937-ci il bir çox işıqlı simaların mütərəqqi arzularına son qoydu. Təəssüf ki, 1937-ci ilin amansız repressiyaları Caviddən də yan keçmədi. "Vətən xaini" damğası ilə Sibirə sürgün edilən böyük sənətkar, oranın sərt iqlimində belə öz mənəvi dözümü və sarsılmaz iradəsi ilə məğrurluğunu qorudu.

Tənqidçi M.Əlioğlu haqlı olaraq göstərirdi ki, Hüseyn Cavidin sənəti, görüşləri və yaradıcılıq taleyi haqqında düşünərkən fikrmizin fövqundə çox əzəmətli və məğrur bir sima, incə, həssas, həm də son dərəcə qüdrətli bir istedad canlanır. (8, 62-75).

Hüseyn Cavidin əsərlərindəki insan konsepsiyası, onun mənəvi-əxlaqi əqli mühüm yer tutur. Cavidə görə, kamil insanı fiziki-cismani baxımdan yetkin olmadan təsəvvür etmək qeyri-mümkündür. Ona görə də böyük ədib öz əsərlərində gənc nəslin yetişdirilib formalaşmasında ilk növbədə fiziki tərbiyə və sağlamlıq məsələlərinin vacibliyini xüsusi qeyd edirdi.

Maarifpərvər xadim olan H.Cavid insanın bir şəxsiyyət kimi formalaşmasında təlim və tərbiyənin əhəmiyyəti və s. vacib problemləri əks etdirən məqalələrinin birində "Həsbi-hal"da buna daha geniş izahat verir. Avropanın Kant, Spenser kimi dahi filosof və qabaqcıl pedaqoqların fikir və mülahizələrinə istinad edən yazıçı, təhsilin təkmilləşməsində təlimin müstəsna rolunu xüsusi vurğulayaraq qeyd edir ki, "Elmi - həyat, məktəb şagirdlərinin yeyib-içmək, gəzib-oturmaq, zəif və qüvvətli olmaq kimi hallarından bəhs edir. Bədənin və bədəndə olan məşvü-nümanın hansı təsir ilə və nə səbəblə dəyişə biləcəyini göstərir".

Ədib insanı nikbin, fədakar, vətənpərvər, ruhən sağlam bir varlıq kimi görmək istəyirdi. O, zəif iradəli, xaraktersiz insanları heç cürə qəbul etmir.

Hüseyn Cadidin əsərlərindəki bütün qəhrəmanlar əzmkar, cəngavər xarakterli obrazlardır.Ona görədə bu obrazlar ruhi və mənəvi xüsusiyyətlərinə görə digərlərindən fərqlənir, bu da ilk növbədə həmin obrazların müxtəlif şəraitdəki davranışında, başqa adamlara münasibətində, ictimai və şəxsi həyatın verdiyi qiymətdə təzahür edir. Əlbəttə ki, Hüseyn Cavidin müraciət ettdiyi mövzular yeni mövzular deyildir. Cavid o dövrün eybəcərliklərinə qarşı açıq-aydın mübarizə aparan və bütün hadisələrin mərkəzində olan ədib idi.O, insanın içərisindəki naqisliyisöküb dağıtmaq, yoxa etməkistəyirdi. Cavidin hər kəlməsinin böyük mənası vardır. Bəlkə də buna görə o, hər şeyin, hər sözün üstündə əsirdi, naşı barmaqlara xəbərdarlıq edirdi. «İmlasına toxunulmasın».

H. Cavid XX əsr Azərbaycan ədəbiyyatına on beş orijinal əsər bəxş etmiş, onun yaradıcılığı iki dövrü, Oktyabr inqilabından əvvəlki və Oktyabr inqilabından sonrakı sovet dövrünü əhatə edir.

H.Cavidin dram əsərləri istər ictimai, istərsə də milli və bəşəri məzmununa görə xüsusi mövqeyi olan əsərlərdəndir. Obu əsərlərini bir çox təxəllüslərlə; Müxbir, Növrəs, Qədirşünas, Gülçin, Arif, Hüseyn, Salik, H. Cavid, H. Naxçıvanlı, H.R. Naxçıvani, H. Rasizadə, H.S. Rasizadə Naxçıvani, H.C. Hüseyn Cavid, Hüseyn Rasizadə Naxçıvani və s. imzalarla yazıb yaratmışdır.Rasizadə-moizə oxuyan, Tanrıdan gələnləri danışan, bir yolu olan, haqq yolunun yolçusu deməkdir. Cavid bunu dərrakəli şəkildə özünə familiya-soyad etmişdir. Özü də ölüncə bu müqəddəs əməlində nəsillikcə ruhani olduğunu isbat etmiş nəticədə Tanrı səviyyəsinə qalxıb, ulduza çevrilmişdir. Cavid möhkəm xarakteri, heç bir səciyyəvi xüsusiyyəti olmayan, tez-tez təsir altına düşən, zəif iradəli, bir sözlə, xaraktersiz insanları heç cürə qəbul etmir (5).

Cavid Naxçıvan, Tiflis, Bakı və s. kimi şəhərlərdə gənc nəslin təlim-tərbiyəsi işində müəllim kimi böyük işlər görmüşdür. Onuilk növbədə millətin gələcəyi olan gənc nəslin taeyi narahat edirdi. O, çağdaş Turan dövlətinin əzəmətini yüksəldərək gənclərin geniş ensiklopedik biliyəvə dünyagörüşünə malik olmaq arzusu ilə yanırdı.

Humanist insan və böyük maarifçi Hüseyn Cavid millətinin cocuqlarına şad, firavan fərəh dolu günlər arzulayırdı. O, insanı ruhən sağlam, güclü, nikbin həyata hazır bir varlıq kimi görmək istəyirdi.

Ədib tez-tez təsir altına düşən, zəif iradəli insanları heç cürə qəbul etmir. Hüseyn Cavid dramaturgiyasına nəzər yetirsək, onun yaratdığı bütün qəhrəmanlar cəsur, əzmkar, qorxmaz xarakterli obrazlardır. Cavidə görə, cəsur insanların müsbət keyfiyyətləri onu əhatə edən ictimai quruluşun təsiri ilə yaranır və tərbiyə olunur. Cavidin yaratdığı sənət əsərlərinin hamısında ağıla, idrakl, müdrüklüklüyə bağlı elm var idi. Cavidi də qeyri-adi edən və onu bir çoxlarından üstün edən cəhət də bu ağıla, dərrakəyəmalik olması idi. Hüseyn Cavidin məsləki əsasən,vətənə məhəbbət, qadına hörmət, insanlar arasında sevgi, mədəniyyətə, maarifçiliyə can atma, mütərəqqi ideyalara meyl, bədxahlığa, riyakarlığa ikrah hissi, insanlaşdırmağa çağırış idi.

H.Cavidin ədəbi irsi zəngin xəzinədir. Bu xəzinəni araşdırdıqca qədim türklərin alp-ərdəmli soy-kökündə, etnogenezində qərarlaşmış igidlik, cəsurluq əlamətləri bir daha nəzərə çarpır.

Böyük Cavidin çoxşaxəli ədəbi yaradıcılığında, habelə geniş ictimai-pedaqoji irsində insan konsepsiyası, onun əqli, mənəvi, əxlaqi-iradi və fiziki tərbiyəsi mühüm yer tutur. Cavidə görə, kamil insanı fiziki-cismani baxımdan yetkin olmadan təsəvvür etmək qeyri-mümkündür. Böyük maarifçi ədib öz pedaqoji fəaliyyətində gənc nəslin tam şəkildə yetişdirilib formalaşmasında tərbiyə, sağlamlıq məsələlərinə lazımi diqqətin artırılmasının zəruriliyini xüsusi qeyd edirdi (9,153 s).

Cavid Azərbaycan ədəbiyyatı tarixində türkçülük məfkurəsi ilə yeni bir çığır açmış, həyatını xalqının azadlığı yolunda fəda etmiş, dözülməz məşəqqət və mərhumiyyətlərə mərdliklə sinə gərmişdir. Cavidin yaşadığı sağlam həyat tərzibütün gənc nəsil üçün bir örnəkdir.

Çətin, ağır və keşməkeşli bir həyat yolu keçmiş H.Cavid möhkəm iradə, qüdrətlizəkanın hünəri ilə uzaq Sibirin sərt iqliminə mənəvi dözümü ilə tab gətirə bilmişdir. Mərhum tənqidçi M.Əlioğlu haqlı olaraq göstərirdi ki, Hüseyn Cavidin sənəti, görüşləri və yaradıcılıq taleyi haqqında düşünərkən fikrmizin fövqundə çox əzəmətli və məğrur bir sima, incə, həssas, həm də son dərəcə qüdrətli bir istedad canlanır.

Beləliklə, sözü və əməli vəhdət təşkil edən Hüseyn Cavid Azərbaycan ədəbiyyatının zənginləşməsində misilsiz xidmətləri olan nadir şəxsiyyətdir. Onun yaratdığı ədəbi məktəb vətənpərvərlik və humanizm dərsidir. Cavid irsi xalqımızın milli sərvəti kimi gələcək nəsillərin yoluna işıq saçmağa davam edəcəkdir.

Ədəbiyyat siyahısı

1. Məmmədli Q. «Cavid ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi». Bakı: Yazıçı, 2016

1982, səh. 149.
2.Əkbərov Z. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977, 148 s.
3. H.Cavid. Əsərləri. III cilddə, I cild.Bakı.Azəməşr. 1969.
4. H.Cavid. Əsərləri. VI cilddə, III cild. Bakı. Yazıçı. 1984. «Topal Teymur»dan.
5. H.Cavid. Əsərləri. IV cilddə. IV cild. Bakı. Yazıçı. 1985.
6. Əlioğlu M. Məsləkqardaşları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 160 s.
7. Elmi axtarışlar, VIII toplu, Bakı, 2002, s. 239-243.
8. Əlioğlu M. Eşq və ülviyyət / Cavidşünaslıq. I (araşdırmalartoplusu).Bakı: Elm, 2007, s.62-75.
9. Əzizova N. H.Caviddramaturgiyasındaİnsan, İblis, Tanrı ("ŞeyxSənan", "İblis", "Peyğəmbər"), Bakı: Elm, 2007, 153 s.

Гасимова Садакат Надир
Преподаватель ASOIU
qasımovaseaddet@box.az
https://orcid.org/0009-0009-3670-3377

О стилистических и культурных особенностях литературного наследия Хусейна Джавида

Резюме

В статье рассматриваются стилистические и культурные особенности литературного наследия Х. Джавида.В исследовательской работе анализируется творчество Г. Джавида, основателя национальной стихотворной драмы, отличающегося своим уникальным стилем в азербайджанской литературе.В статье анализируется бурный творческий путь драматурга и трудности, с которыми он столкнулся на этом пути.Гуманист и великий педагог Хусейн Джавид пожелал молодежи своей страны счастливых, процветающих и радостных дней.Он хотел видеть человека как духовно здоровое, сильное, оптимистичное существо, готовое к жизни.По словам Джавида, невозможно представить себе идеального человека, не достигшего физической зрелости.В статье также анализируются вопросы, касающиеся концепции человека в произведениях Гусейна Джавида.

Ключевые слова: Азербайджанская литература, Хусейн Джавид, концепция человека, социальная структура, культура.

Gasimova Sadaqat Nadir
ASOIU.Teacher
qasımovaseaddet@box.az
https://orcid.org/0009-0009-3670-3377

On the stylistic and cultural characteristics of Huseyn Javid's literary heritage

Summary

The article examines the stylistic and cultural features of the literary heritage of H. Javid.The research paper analyzes the work of G. Javid, the founder of national verse drama, distinguished by his unique style in Azerbaijani literature.The article analyzes the playwright's turbulent creative path and the difficulties he faced along the way. The humanist and great educator HuseynJavid wished the youth of his nation happy, prosperous and joyful days..He wanted to see man as a spiritually healthy, strong, optimistic being, ready for life.According to Javid, it is impossible to imagine an ideal person who has not reached physical maturity.The article also analyzes issues related to the concept of man in the works of HuseynJavid.

Key words: Azerbaijani literature, HuseynJavid, human concept, social structure, culture

DOİ 10.24412/2218-7588-2026-1-112-115

Rüstəm Kamaloğlu Rəsulov
Filologiya elmləri doktoru, professor.
Odlar Yurdu Universiteti
"Filologiya və humanitar fənlər"
kafedrasının müdiri
rüsremkamal@box.az
https://orcid.org/0009-0001-3396-3909

NATƏVAN DƏMİRÇİOĞLU NƏSRİNİN POETİKASİ HAQQINDA BƏZİ QEYDLƏR

Xülasə: Məqalədə istedadlı nasir Natəvan Dəmirçioğlunun poetikasının bəzi xüsusiyyətləri nəzərdən keçirilir. N.Dəmirçioğlu ədəbiyyata 90-cı illərdə gəlmişdir, povest və hekayələr ilə oxucuların diqqətini cəlb etmişdir. Poetik obrazlılıq, milli kolorit, təbiilik onun nəsr dilinin səciyyəvi xüsusiyyətləridir.

N.Dəmirçioğlu nəsrinin bir maraqlı cəhəti də yuxulardan və ya yuxu motivlərindən geniş istifadə etməsidir. Əsərlərin süjet təşkilində, hadisə zəncirinin qurulmasında yuxular və yuxu motivləri fəal iştirak edir. Bu motivləri oneyromotivlər-(yuxu motivləri) də adlandırmaq olar. Məqalədə nasirin bədii dil və təhkiyə xüsusiyyətlərinə də toxunulur.

Açar sözlər: poetika, nəsr, motiv, yuxu, xatirə.

Giriş: Natəvan Dəmirçioğlu ədəbi prosesin xaotik "vurhavurunda" fəallığını bir qədər məhdudlaşdırsa da, arada bir müsahibələr verir, yaradıcılıq "mətbəxin"dən söz açır, bədii-estetik görüşlərini oxucularla paylaşır. Artıq ədəbi hadisə kimi qarşılanan "Açar" romanını da təqdim etdi. Bundan əvvəl, "Birinci kitab"ı rus dilinə tərcümə olunaraq, Moskvada nəfis şəkildə çap edildi.İstedadlı nasir Natəvan Dəmirçioğlunun yaradıcılığı haqqında bu mənim ikinci yazımdır. "Birinci kitab"ına ön söz də yazmışam. Radiojurnalistikanın bir az standart, qəlibləşmiş, bir az da yeknəsək "aurası" sanki onun nəsrinin poetik ruhuna qətiyyən toxunmayıbdır.

Ədəbi tənqid də, təəssüf ki, bu maraqlı nasirin yaradıcılığına yetərincə diqqət yetirməyib. Hələlik bir neçə məqalə və resenziyadan başqa ciddi bir yazı gözümə dəyməyib.

Natəvan Dəmirçioğlu əsərlərinə qısa, konkret və metaforik yüklü adlar verir: "Üç nöqtə", "Səbət", "Yetim", "Açar". Bu adlarla əsərlərinin ifadə-məzmun planı arasında assosiativ münasibətlər qurulur.

Əsas hissə: Natəvan Dəmirçioğlu nəsrinin əsas problemi metafizika problemidir, yəni insanla taleyi arasındakı münasibətlər məsələsidir. Tale (alın yazısı,qismət, qəzavü-qədər) bu metafizikanın mühüm kateqoriyasıdır.

Onun nəsrində milli-mənəvi dəyərlərin saxta, populist təqdimatına rast gəlmirik.

N.Dəmirçioğlu nəsrində yuxular, ilğımlar, qarabasmalar hadisələrin bədii dərkini şərtləndirir, personajların mistik-irrasional zonaya daxil olmasına imkan verir. Povestlərin süjeti "yuxu (ölüm) – həyat – ölüm" mifoloji sxemi üzrə qurulur. Onlar beyinlərində hansısa bədbəxt hadisənin gözləntisi ilə yaşayırlar. Müəllif sanki qəhrəmanlarını olacaqlara hazırlayır.

Yuxu personajların axtardığı, sığındığı işığın və səsin yeridir. "Yetim"dən bir örnək gətirək: "Hava hələ tam qaralmamış, kişinin gözləri qaranlıq gətirmişdi. Hava tamam qaralmışdı, amma o hər yanı işıq içində görürdü. Aydınlıqda qulaqları da eşitməyə başladı. İşıqlıqdan bir çətən külfəti, əlil qardaşı, xəstə anası olan ona tərəf gəlirdi. Ona çatanda "salam" – dedi. Onu da dedi ki, "Əmiroğlu, səni o dünyada belimdə gəzdirəcəm".(2, s.89)

Yuxu personajların keçmişini və gələcəyini sanki bir məxrəcdə birləşdirir. Yuxu etik yaddaşın ifadəsi kimi çıxış edir: ömrün mənasını və insanın yaşam obrazını anlamaq üçün ən gərəkli vasitədir.

Yazıçı, avtobioqrafik başlanğıcı ustalıqla "uzaqda saxlasa" da, bəzi bioqrafik arxetipləri yuxu mətninin toxumasına daxil edir. Məsələn: "Sonra anasını gördü. Çiynində səhəng... Əli silahlı iki nəfər onun yolunu kəsdi. Qadın səhəngi yerə qoydu. Sonra silahlının biri əlini atıb onun yaylığını açdı... İşgüzar adam "ana" deyib qışqırmaq istədi.(2, s.30)

N.Dəmirçioğlunun oneyropoetikasının -(yuxupoetikasının) mifoloji təsəvvürlər kontekstində tədqiqi gərəkli məsələlərdən biridir. "İnsanın yuxularında və fantaziyalarında mif və nağıl motivlərini xatırladan bəzi obrazlar girir".(3,s.38)

"– Aaaaa... – deyib bağırdı.

... İlan kürəyindən sürüşüb sinəsinin altında qıvrılıb yumruq boyda yığıldı..." (2, s.30)

Bu, müəllifin öz anasının vaxtsız ölümü ilə bağlı yaşantılarının təzahürüdür. Onun metaforik düşüncəsi ana-qadın sferası ilə (doğuş, südəmər uşaq və s.) sıx bağlıdır.Metaforalar Natəvan Dəmirçioğlunun mifoloji düşüncəsinin gücündən xəbər verir. Metaforik nəsri ancaq şair kimi yazmaq olar: "Yer süddən kəsilmiş uşaq kimi südə baxmır. Nə varsa, insanın qarnındadır. ... Göylərə baxan yoxdur"(2, s.15). "Dünya doğuş üstündəki qadının ağrısını çəkirdi. Bu varlığın əzəl ağrısıydımı, son ağrısımı? Nə idisə, dəhşətli bir ağrı idi... Birdən apaydın, güclü bir səs işıq kimi bürüdü hər yanı. "Ol!" – dedi o Səs və dünya saçlarını üzünə çəkdi. Doğuşdan sonra qadın üzündə ləkə qalmasın deyə, saçlarını üzünə çəkdiyi kimi" (2, s.11). "Dünya süddən kəsilsə də, beşikdən düşə bilmir. Beşikdə qocalır Yer"(2, s.15).

N.Dəmirçioğlu nəsrinin psixologizmini şərtləndirən amillərədn biri də personajların "ürəyini oxumaq" dır. "Ürəyi oxumaq" müəllifdən xüsusi həssaslıq tələb edir. Natəvan Dəmirçioğlu qəhrəmanların o dünyadakı tarixini ölüm ərəfəsindən oxumağa başlayır – "kinolentini geriyə qaytarır". Bu, ölüm ərəfəsi ömrün yuxu olduğunu anlamağınsonuncu imkanıdır:

"Ata ömrünün sonunu yaşayırdı. Amma niyəsə həyatının əvvəllini hey yadına salmağa çalışırdı. Ta əzələ

qayıdır, olmuşları xatırlayır... O dünyadakı ömrünün isə ancaq başlanğıcını bilirdi -qarşılanma hissəsini.Dünən gecə Qızına dedi: "Getdim... Şiş təpənin bəri yanına qədər getdim. Qəbristanlıqda nə qədər adam var, hamısı yolun qırağına çıxmışdı..." (1, s.65)

Ölüm onun personajlarının həyatından gerçək və vacib hadisə kimi keçir. Ölüm ömrün müəyyən epizodlarını, anlarını kinolenti kimi bir göz qırpımında nəzərdən keçirməyə və bütövləşdirməyə imkan verir. Ölüm bəlkə də onların (eləcə də yazarın!) söyləmək istədiyi həqiqətlərin təsdiqidir, yaxud son imkanıdır. Tanatos (ölüm) başlanğıcı bəzən əsərlərin estetikasını müəyyənləşdirir. Povestlərin ("Üç nöqtə", "Səbət", "Yetim") alt qatlarında ölümlə bağlı müdhiş suallar gizlənir: Mən də ölə bilərəmmi? Ölüm qaçılmaz əmrdirmi? Ümumiyyətlə, ölüm nə olan şeydir? və s. N.Dəmirçioğlu maraqlı priyom işlədir: ölünün öz "gözü" ilə dəfn prosesini izləyir, ölü "özü"nü müşahidə edir. "Açar" romanında "meyidin müdhiş təqdimatına" diqqət yetirək. "Amma ürəyincə idi gördükləri. Öz cənazəsini görürdü. Onu tər-təmiz yuyub kəfənləmişdilər. Elat xalçasının üstündə uzatmışdılar. Kəfən yumşaq, rahat idi, təzə parça qoxusu verirdi. Xalçanın gözəlliyini isə son dəfə görmək, əllərilə naxışlara toxunmaq istəyirdi. Amma bu, artıq mümkün deyildi. Bu gözəlliyi hiss etmək, bir də xatırlamaq olardı"(1, s. 66). Bu yazıçı novatorluğudur. Ümumiyyətlə, Natəvan Dəmirçioğlu nəsrində ədəbi kəşflərə sıx-sıx rast gəlinir.

Yuxular və xatirələr "o dünya" ilə əlaqə saxlamaq üçündür. Özü də hər şey bir anda, bir anlığa baş verir. "An" Natəvanın sevdiyi zaman vahididir. O, bütöv bir hadisəni, emosional epizodu bir anın içinə yığır. Ancaq bu bir an müddətində tale göz qabağına gətirilir.

Xatirə ilə ölümün arasında sirli bir əlaqə, gizli keçid mövcuddur. Ata artıq dünyadan köçmüş insanı xatırlayır və bir anlığa görmək istəyir: "Ata isə yuxunu unudub, tələbəlik dostu Məhərrəmi xatırladı. Onu görməyi arzuladı... Görən çağırtdırsam, gələrmi? Bunu da yalnız bir anlıq düşündü.

Məhərrəm il yarım idi ölmüşdü..." (1, s. 69).

N.Dəmirçioğlu nəsrində məişət dünyasını spiritual atmosfer müşayiət edir. Ona görə də onların varlığı, davranışı, dialoqları yuxu – ölüm – xatirə səviyyəsində baş verir. Yazıçı personajların sözlərini deyil, onların içindəki, təhtəlşüurundakı səslərini eşidir. Özü də bu səslər hardansa lap uzaqlardan, qeyb aləmindən gəlir. Xatirələrdən boylanan səslər, yuxulardakı səslər isə dialoqları fraqment formasına gətirir, dialoqları yuxu, xatirə mətnləri ilə uzlaşdırır – bir-birinə "calayır".

Yuxugörmələr və ayrı-ayrı yuxu motivləri,yəni qəhrəmanın oneyrosferasının elementləri əsərin kompozisiyasında fabulası ilə bağlı olur,bəzən isə assosiativ əlaqələrin qurulmasında iştirak edir.Rusiya ədəbiyyatşünası V.İ.Tyupa kompozisiyasının tabe olduğu faktoru belə izah edir: "... hissələr,fəsillər,bölmə,bir qayda hadisə zəncirinin müvafiq parçaları olaraq,ayırmaq,fərqləndirmək və bağlamaq üçün xidmət edir".[4,c.119]

"Danışanları eşidə-eşidə beynində uşağı haqqında fikirləşirdi. Bir il əvvəl onunla olan söhbətini xatırlayırdı..."(1, s.212)

Qəhrəmanların məişət səviyyəsində mükaliməsi, qadın-kişi dialoqları sadəcə təhkiyənin və süjetin tələb etdiyi nitq davranışı, aktları deyil. Bu, hadisələrin mistik-irrasional məntiqini anlamaq üçündür. Düşüncə, fikir - personajların taleyə, dünyaya ciddi münasibətinin göstəricisidir. Dialoq tamamlananda yaxud kəsiləndə isə fikrin, təhtəlşüurun monoloqu başlayır. Ümumiyyətlə, N.Dəmirçioğlu nəsrinin dialoq məkanı – əslində bir-birinə keçirilmiş monoloqlardır. Dialoq monoloqdan törəmədir. Bütövlükdə müəllifin monoloq nəfəsini hiss edirsən...

" – Nə satırsan? !!!

- Heç nə! Günlərimi. Hərdən qazancım da olur. Xırım-xırda. Uşağa verirəm. Uşağın varmı? – Cavab almamış, - uşağını qoru,- dedi. – Hər şeydən qoru. Pis yola düşməkdən qoru..."(2, s. 23)

Ümumiyyətlə, bu nəsrin dialoq məkanında Uşaqlar xüsusi yerə malikdir. Uşaqlar iki dünyanın arasında olan varlıqlardır. Uşağı bədnəzərdən, pis yoldan və başqa təhlükələrdən qorumaq personajların yeganə instinktidir.

" – Nə satırsan? !!!

- Heç nə! Günlərimi. Hərdən qazancım da olur. Xırım-xırda. Uşağa verirəm. Uşağın varmı? – Cavab almamış, - uşağını qoru,- dedi. – Hər şeydən qoru. Pis yola düşməkdən qoru..." (2, s. 23)

Əsl nəsr nümunəsi bətnində poeziyanı yaşatmalıdır. Poeziya – bədii mətnin ritmik təşkilini formalaşdırır.

N.Dəmirçioğlu nəsrinin epik təhkiyəsinin və dilinin "fizioloji" effekti hiss olunur. Yazıçı təhkiyəsinə etnoqrafik gerçəkliyin səsini hopdurur, bununla da bədii mətnin mistik energetikasını artırır.Bəzi epik təhkiyə vahidlərini alt-alta düzüb,poetik mətn kimi təqdim etsək, görün nə alınar:

"Dərdi silkələdi.
Dəymişi dura-dura
Kalı töküldü..." (2, s. 49)

Yazıçı öz personajlarının xasiyyətinə,xarakterinə yaxşı bələddir. Qadınları sual səviyyəsində, kişiləri isə cavablar səviyyəsində canlı, təbii söylədə bilir. Natəvan dialoq ustasıdır.

Onun bir yazıçı kimi ustalığı bir də ondadır ki, kişilərin təhtəlşüur kodlarını açıb göstərə bilir. Yazıçı təxəyyülü kişi düşüncəsindəki səsləri eşitməyə imkan verir.

"Açar" romanının "mifoloji-mistik damarı" da yuxular - ölülər dünyasının bizim yaxınlığımızda olmasını hiss etdirir. N.Dəmirçioğlu romanında ənənəvi belletristika yolu ilə gedib, sadəcə hadisələri danışa bilərdi, amma hekayəti müxtəlif rakurslarda təqdim edərək, oxucunu nəsrin bütöv havasına daxil edir, irrasional-mistik məkana götürür, yəni oxucunun təhtəlşüurunu da "gizli oyuna qoşur".Real və qeyri-real (virtual) dünyalar arasında sərhəd həddindən artıq

şəffafdır. "O (ruhlar, əcdadlar) dünya" daim "bu dünya"nın içindədir. Dirilərin bir ayağı "orda"dır, onlar inanırlar ki, qabaqlarına həmişə təhlükəli, qorxulu məqamlar çıxa bilər.

Yuxular, qarabasmalar da "səsli" mətnlərdir. "...Allah, su artsa, boğazımıza çıxar, boğularıq. Su artırdı. Dedilər gəmi gəlir. Kimsə düşdü gəmidən... Nəsə səs eşidildi". (2, s. 44)

N.Dəmirçioğlunun mistik instinkti Səsə və İşığa həddən artıq etibar edir. Səs və İşıq obrazları hadisələrin mənasını göstərmək üçündür.

Səs və İşıq qaranlıq ruhun hərəkət çevrəsini göstərir. "Səs" və "İşıq" ın ontoloji mənalar kəsb etməsini "Açar" romanında qaranlığın və səsin qatılaşması prosesinin təsvirindən görmək olar: "Axşam qaranlığı təzə-təzə duman kimi ətrafa çökürdü. Çökdükcə qatılaşıb gecə qaranlığına çevrilirdi. Qaranlıq isə sıxlaşıb qalın pərdə kimi hər tərəfi örtürdü".(1, s. 75)

İşıq və Səs ("İşıq düşdü, sonra axıb getdi. Nəsə eşidildi. Səs gələn tərəf bir az işıqlandı" ("Səbət") "o dünya" ilə (qeyb, yuxu) əlaqə saxlamaq vasitəsi olur.

Dialoqlar, söhbətlər mütləq uzaq xatirələrin havasını gətirir. Xatirə "o dünya"ya açılan qapılardır. "İndi bunları xatırladıqca uşağın o gözləri qadının gözləri qarşısında böyüyüb-böyüyüb işıqlı qapı kimi açılırdı. Ona elə gəlirdi ki, bu açılan qapıdan o yana keçməlidi. O yan isə o biri dünyadı"(1, s. 213)

Natəvan Dəmirçioğlu nəsrinin özünəməxsus poetikası var. Onun nəsrində personajlara konkret adlar verilmir. Adları sosial status, yaş, qohumluq bildirən sözlər əvəz edir: Qoca, Gəlin, Uşaq, Kişi, Yetim, İşgüzar Adam, Qaçqın Qoca... Adsızlıq onları "o dünya"nın nümayəndəsinə çevirir.

Təhkiyə strukturunda ilk baxışdan daxili əlaqələr pozulur. Yuxularda, nağıllarda olduğu kimi. Yazıçı bu əlaqələri assosiasiyalarla, simvolik qatlarla ("Səbət"də) bərpa edir.

Maraqlıdır ki, N.Dəmirçioğlu nəsrində kənd həyatının və personajının etnoqrafik həssaslığı varsa, şəhər həyatında isə "ailə peyzajı" ön plana çıxır. Kənd keçmişdisə, şəhər bu gündür. Məsələn: "Yazağzıydı deyə, xırdaca otlar göyərmişdi. Torpaq və ot ətri vurdu Onu. Allah, Allah, burda necə də hər şey doğmaydı. Uzaq-uzaq keçmişləri yada salırdı. Bir tərəfdə araba təkəri atılıb qalmışdı, qoyun-quzu bir-birinə qarışmasın deyə xal-xal kəsilmişdi quzulara. Ocağın üstündə mis qazanda su buxarlanırdı, ağsaqqal bir kişi ağac kötüyünün üstündə oturub təsbehini dizinə keçirmişdi..." (2, s. 50).

Şəhərdə Uşaq yaşayır, kənddə isə uşaqlıq xatirəsi qalır.

Nəticə: Natəvan Dəmirçioğlu təhkiyədə "şaman təcrübəsi"ni gerçəkləşdirir. O bir şaman kimi təxəyyülünün və "təhkiyə ekstazı"nın (əgər belə demək mümkünsə) köməyi ilə ruhları "o dünya"dan çağırır, ya da "o dünya"ya yola salır."Açar" romanında qəhrəmanını Şuşaya göndərir,onu şəhərin mistik ruhu "vəhdəti-vücud" edir.

"Oyyy!!! Nə gözəl hava var...Cıdır düzündən,Topxana meşəsindən bir topa ağ bulud qalxıb,tül kimi süd abı rəngdə səmaya açılmışdı. Qaçqın Qocanın yeddi arxa dönənindən əvvəlki nəsil-şəcərəsi də Qarabağda yaşamışdı. Yazar Qarbağda "Qarabağ" otelinin eyvanından bir tərəfdə,Gövhər Ağa məscidinə,digər tərəfdə Qarabağ xanının baş vəziri,şair-üləma Molla Pənah Vaqifin yaşadığı Salahlılar məhəlləsinə və Saatlı məscidinə baxıb,Şuşanın büllur şüşə kimi saf havasını ciyərlərinə çəkirdi. Uzaqdan çağa səsi eşidildi. Hindən boğuq xoruz səsi gəldi. Ardınca itlər hürüşdü. Kiminsə ağacda gecələmiş xoruzu bərkdən banladı və sonra dünyaya gələn çağanın ikinci dəfə qışqırıq səsi gecənin qaranlığına işıq zolağı kimi süzüldü. İnsana ilahi güc verən,könlünü,gözünü,ruhunu sevindirən bu səs horminiyası izah edilməz idi..... Yazar bilirdi ki,bu səslər ahəngi yurdun ölməzliyi,itməzliyidir. Bu səslər ta qədimdən-dünyanın nə vaxtından var idi və qiymətəcən olacaqdı. Bunun indi eşidilməsi isə Tanrının lütfü, Yerin Göyə ehtiramı,yaşamın birliyi,diriliyidir...."(1, s.227)

Belə mətnləri yazmaq isə əslində müəllifdən xüsusi daxili, ruhi güc və səfərbərlik tələb edir. Natəvan Dəmirçioğlu bu ağır və təhlükəli sınaqdan uğurla çıxır...

Ədəbiyyat:

1.Dəmirçioğlu Natəvan, "Açar" romanı, Bakı, "Təhsil", 2024, 240 s.
2.Dəmirçioğli Natəvan, "Birinci Kitab", Bakı, "Təhsil", 2006, 180 s.
3.Тастернак Б.Л.Толное собрание сочинений: в 11 T.IV.Доктор Живаго, 1945-1955.-M.:Слово/Slovo,2004.-760c.
4.Тюпа, В.У.Археотектоника и композиция//Поэтика " Доктора Живаго" в нарративном прочтении "Коллективная монография"M.:İntrada,2014.-c.8-40.

Rustam Kamaloglu Rasulov
Doctor of Philology, Professor.
Head of the Department of "Philology and Humanities"
of Odlar Yurdu University
rüsremkamal@box.az
https://orcid.org/0009-0001-3396-3909

SOME NOTES ON THE POETICS OF NATAVAN DEMIRCHIOĞLU'S PROSE

S U M MA R Y

The article examines some features of the poetics of the talented prose writer Natavan Damirchioghlu. N. Damirchioghlu entered literature in the 1990s and attracted readers' attention with her novellas and short stories. Poetic imagery, national color, and naturalness are the characteristic features of her prose language.

One of the interesting aspects of N. Damirchioghlu's prose is her extensive use of dreams and dream motifs. Dreams and dream motifs play an active role in shaping the plot of the works and in constructing the chain of events. These motifs can also be called oneiromotifs (dream motifs). The article also touches upon the writer's artistic language and narrative features.

Keywords: poetics, prose, motif, dream, memory.

Рустам Камалоглу Расулов
Доктор филологических наук, профессор.
Заведующий кафедрой «Филология и гуманитарные науки»
Университета Одлар Юрду
rüsremkamal@box.az
https://orcid.org/0009-0001-3396-3909

НЕКОТОРЫЕ ЗАМЕЧАНИЯ О ПОЭТИКЕ ПРОЗЫ НАТАВАН ДЕМИРЧИОГЛУ

Резюме

В статье рассматриваются некоторые особенности поэтики талантливой прозаики Натаван Демирчиоглу. Натаван Демирчиоглу пришла в литературу в 90-е годы, привлекая внимание читателей своими повестями и рассказами. Поэтическая образность, национальный колорит и естественность являются характерными чертами её прозаического языка.

Одной из интересных особенностей прозы Натаван Демирчиоглу является широкое использование снов или мотивов сновидений. Сны и мотивы сновидений активно участвуют в организации сюжета произведений и построении цепочки событий. Эти мотивы можно также назвать онейромотивами (мотивами сновидений). В статье также затрагиваются особенности художественного языка и повествования прозаики.

Ключевые слова: поэтика, проза, мотив, сон, воспоминание.

Rəyçi: dos. S.Abbasova

DOI 10.24412/2218-7588-2026-1-116-118

Bəşirova Lalə Vidadi qızı
Bakı Dövlət Universiteti
Media və kommunikasiya əlaqələri kafedrasının
2-ci kurs magistrantı
lalebesirova8@gmail.com
https://orcid.org/0009-0004-6843-9324

RƏQƏMSALLAŞMA DÖVRÜNDƏ UŞAQ VERILIŞLƏRININ DƏYIŞMƏSI

Xülasə: Bu məqalədə rəqəmsallaşma dövründə uşaq verilişlərinin transformasiyası və bu prosesin uşaqların psixoloji inkişafına təsiri kompleks şəkildə təhlil olunur. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində ənənəvi televiziya modeli dəyişmiş, rəqəmsal platformalar uşaq auditoriyası üçün əsas media mənbələrindən birinə çevrilmişdir. Tədqiqat çərçivəsində rəqəmsal mühitin uşaq verilişlərinin məzmununa, strukturuna və təqdimat formasına təsiri araşdırılmışdır. Məqalədə rəqəmsallaşmanın uşaqların kognitiv, sosial və emosional inkişafına müsbət təsirləri ilə yanaşı, ekran asılılığı, zərərli kontentə çıxış, sosial izolyasiya və fiziki sağlamlıq problemləri kimi mənfi tərəfləri də geniş şəkildə təhlil edilmişdir. Nəticə olaraq qeyd edilir ki, rəqəmsallaşma uşaqlar üçün yeni inkişaf imkanları yaratsa da, bu prosesin düzgün idarə olunması və nəzarət mexanizmlərinin tətbiqi zəruridir. Məqalədə valideynlərin, təhsil sisteminin və dövlət qurumlarının bu istiqamətdə rolu xüsusi vurğulanır.

Açar sözlər:*rəqəmsallaşma, uşaq verilişləri, rəqəmsal media, uşaq psixologiyası, media təsiri, interaktivlik, ekran asılılığı, media savadlılığı, uşaq inkişafı, rəqəmsal platformalar*

Giriş: Müasir informasiya cəmiyyətində rəqəmsallaşma prosesi qlobal miqyasda sosial, iqtisadi və mədəni transformasiyaların əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində media sistemində köklü dəyişikliklər baş vermiş, ənənəvi kommunikasiya modelləri rəqəmsal mühitə inteqrasiya olunmuşdur. Bu transformasiya bütün yaş qruplarına təsir etsə də, xüsusilə uşaqlar üçün nəzərdə tutulmuş media məhsullarında daha aydın şəkildə özünü göstərir. Uşaqlar rəqəmsal texnologiyalara yüksək adaptasiya qabiliyyətinə malik olduqları üçün bu dəyişikliklər onların gündəlik həyatında, davranış modellərində və psixoloji inkişafında mühüm rol oynayır.[1]

Ənənəvi dövrdə uşaq verilişləri əsasən televiziya kanalları vasitəsilə yayımlanır və müəyyən proqram şəbəkəsinə uyğun şəkildə təqdim olunurdu. Bu modeldə uşaqlar passiv izləyici rolunda çıxış edir, kontentin seçimi isə media qurumları tərəfindən həyata keçirilirdi. Rəqəmsallaşma ilə birlikdə bu yanaşma dəyişmiş, media istehlakı daha fərdiləşmiş və interaktiv xarakter almışdır. Rəqəmsal platformaların inkişafı nəticəsində uşaqlar artıq istədikləri məzmunu istədikləri vaxt və məkanda izləmək imkanına malikdirlər. [1] Bu isə onların informasiya əldə etmə imkanlarını genişləndirərək öyrənmə prosesinə yeni dinamika gətirmişdir. [3]

Əsas hissə: Rəqəmsallaşmanın uşaq verilişlərinə müsbət təsirlərindən biri kontentin əlçatanlığının artmasıdır. Əvvəllər müəyyən coğrafi və texniki məhdudiyyətlər səbəbindən uşaqlar yalnız yerli televiziya kanallarının təqdim etdiyi proqramlarla kifayətlənirdilərsə, hazırda internet vasitəsilə dünyanın müxtəlif ölkələrində istehsal olunan yüksək keyfiyyətli uşaq proqramlarına çıxış əldə edə bilirlər. Bu isə onların dünyagörüşünün genişlənməsinə, müxtəlif mədəniyyətlərlə tanış olmasına və qlobal düşüncə tərzinin formalaşmasına şərait yaradır.[2]

Rəqəmsal mühitin digər mühüm üstünlüyü interaktivliyin təmin olunmasıdır. İnteraktiv uşaq verilişləri və proqramları uşaqları yalnız izləyici deyil, həm də iştirakçı kimi prosesə cəlb edir. Bu tip kontent uşaqların aktiv öyrənmə prosesinə qoşulmasına, problem həll etmə bacarıqlarının inkişafına və yaradıcılıq potensialının üzə çıxmasına kömək edir. Məsələn, interaktiv təhsil proqramlarında uşaqlar müxtəlif tapşırıqları yerinə yetirərək biliklərini praktik şəkildə tətbiq edirlər. Bu yanaşma konstruktivist öyrənmə nəzəriyyəsinə uyğun olaraq uşaqların bilikləri daha effektiv mənimsəməsini təmin edir.

Rəngarəng animasiyalar, dinamik süjetlər və səsləndirmə effektləri uşaqların diqqətini cəlb edir və onların yaddaşında məlumatların daha uzun müddət qalmasını təmin edir. Bu xüsusiyyət xüsusilə erkən yaş dövründə olan uşaqlar üçün əhəmiyyətlidir, çünki bu mərhələdə onların öyrənmə qabiliyyəti daha yüksək olur.

Riyaziyyat, təbiət elmləri, dil öyrənilməsi və digər sahələr üzrə hazırlanmış interaktiv kontent uşaqların məktəb proqramını daha asan mənimsəməsinə kömək edir. Xüsusilə oyunlaşdırma (gamification) elementlərinin tətbiqi öyrənmə prosesini daha maraqlı və motivasiyaedici edir. Uşaqlar bu prosesdə həm əylənir, həm də öyrənirlər ki, bu da təhsil psixologiyasında effektiv metod kimi qiymətləndirilir.

Rəqəmsallaşmanın mühüm üstünlüklərindən biri də fərdiləşdirilmiş öyrənmə imkanlarının yaradılmasıdır. Müasir rəqəmsal platformalar istifadəçilərin davranışlarını analiz edərək onların maraq və ehtiyaclarına uyğun kontent təqdim edir. Bu yanaşma hər bir uşağın fərdi inkişaf tempinə uyğun öyrənmə mühiti formalaşdırır.

Rəqəmsal mühit həmçinin uşaqlarda erkən yaşlardan texnoloji savadlılığın formalaşmasına şərait yaradır. Müasir dövrdə rəqəmsal bacarıqlar əsas kompetensiyalar sırasına daxildir və gələcək əmək bazarında uğur qazanmaq üçün vacib şərt hesab olunur. Uşaqlar rəqəmsal cihazlardan istifadə etməklə informasiya axtarışı, məlumatların emalı və kommunikasiya bacarıqları əldə edirlər. Bu isə onların gələcəkdə daha rəqabətqabiliyyətli fərdlər kimi formalaşmasına kömək edir.

Rəqəmsallaşmanın psixoloji aspektdə müsbət təsirlərindən biri də emosional inkişafla bağlıdır. Keyfiyyətli uşaq

verilişləri uşaqlara empatiya, dostluq, əməkdaşlıq və digər sosial dəyərləri öyrədir. Animasiya və hekayə əsaslı proqramlar vasitəsilə uşaqlar müxtəlif emosional vəziyyətlərlə tanış olur və bu vəziyyətlərə uyğun reaksiyalar formalaşdırırlar. Bu proses onların emosional intellektinin inkişafına müsbət təsir göstərir.

Eyni zamanda, rəqəmsal mühit uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafına da geniş imkanlar yaradır. Müxtəlif rəqəmsal alətlər və proqramlar vasitəsilə uşaqlar rəsm çəkə, musiqi yarada, video hazırlaya və digər yaradıcı fəaliyyətlərlə məşğul ola bilirlər. Bu isə onların özünüifadə bacarıqlarını inkişaf etdirir və fərdi potensiallarını üzə çıxarır.

Sosial inkişaf baxımından da rəqəmsallaşmanın müəyyən müsbət təsirləri mövcuddur. Rəqəmsal platformalar vasitəsilə uşaqlar müxtəlif ölkələrdən olan həmyaşıdları ilə ünsiyyət qura bilir, fikir mübadiləsi aparır və sosial şəbəkələrdə iştirak edirlər. Bu isə onların kommunikasiya bacarıqlarını inkişaf etdirir və multikultural mühitdə uyğunlaşma qabiliyyətini artırır.

Bununla yanaşı, valideyn-uşaq münasibətlərində də müsbət dəyişikliklər müşahidə olunur. Birgə rəqəmsal fəaliyyətlər - məsələn, təhsil proqramlarının birlikdə izlənməsi və ya oyunların oynanılması - valideynlə uşaqlar arasında ünsiyyəti gücləndirə bilər. Bu isə ailə daxilində emosional bağların möhkəmlənməsinə kömək edir.

Rəqəmsallaşmanın digər mühüm üstünlüklərindən biri inklüzivlik imkanlarının genişlənməsidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün hazırlanmış rəqəmsal proqramlar onların təhsil və inkişaf prosesinə daha aktiv qoşulmasına şərait yaradır. Məsələn, eşitmə və ya görmə məhdudiyyətli uşaqlar üçün uyğunlaşdırılmış kontent onların informasiya əldə etmə imkanlarını artırır.

Rəqəmsallaşma prosesi uşaq verilişlərinin inkişafında yeni imkanlar yaratmaqla yanaşı, bir sıra ciddi problemləri də gündəmə gətirmişdir. Xüsusilə uşaqların psixoloji, sosial və fiziki inkişafi baxımından bu prosesin mənfi tərəflərinin təhlili mühüm elmi və praktik əhəmiyyət kəsb edir. Uşaqların rəqəmsal mühitdə daha çox vaxt keçirməsi onların davranış modellərinə, düşüncə tərzinə və ümumi həyat keyfiyyətinə birbaşa təsir göstərir. Bu təsirlər bəzən uzunmüddətli və geri dönüşü çətin olan nəticələrə səbəb ola bilər.

Rəqəmsallaşmanın ən ciddi problemlərindən biri uşaqlar arasında ekran asılılığının formalaşmasıdır. Ekran asılılığı və uşaq verilişlərinin azlığı barədə professor Qulu Məhərrəmli "Yeni Müsavata" danışıb: "Çox təəssüf ki, bizim televiziya məkanında uşaq verilişlərinin sayı "Çox təəssüf ki, bizim televiziya məkanında uşaq verilişlərinin sayı hədsiz dərəcədə azdır. hədsiz dərəcədə azdır. Görünür ki, uşaq verilişlərinin xüsusi bir özəlliyi var, ona görə də televiziyalarımız ona o qədər də maraq göstərmirlər.Məsələn, ARB-nin bir xətti olan "Günəş TV" özəl uşaq kanalı imkanları daxilində maraqlı verilişlər etməyə çalışır. Lakin zəngin proqram siyasəti üçün zəngin də maliyyə lazımdır. Bu işdə maliyyə məsələləri mühüm rol oynayır. Çünki məlum olduğu kimi, uşaq verilişləri o qədər də reklam gətirən, sponsor cəlb edən verilişlər olmur. Adətən bu cür verilişlərə televiziyanın özü maliyyə qoymalıdır, yəni özü maliyyələşdirməlidir.Bəzən müşahidə edirik ki, maliyyələşən verilişlər belə kifayət qədər auditoriya cəlb edə bilmir, çünki uşaqlar çox erkən yaşından dinamik oyunlara cəlb olunur, 3-4 yaşından əlində çox sayda oyun proqramları yazılmış telefon, planşet olur. Bunun nəticəsində uşağın qavrayışı xüsusi dinamizm tələb edir. Yəni artıq televiziyaların hazırladığı ləngərli verilişlərə baxmaq istəmirlər".[6]

Rəqəmsallaşma uşaqların sosial inkişafına da mənfi təsir göstərə bilər. Virtual mühitdə ünsiyyət real sosial münasibətləri əvəz etdikdə uşaqların sosial bacarıqları zəifləyir. [3] Onlar üzbəüz ünsiyyət, emosiyaların düzgün ifadəsi və empatiya kimi vacib sosial bacarıqları kifayət qədər inkişaf etdirə bilmirlər.

Bununla yanaşı, uşaqların uzun müddət ekran qarşısında hərəkətsiz qalması fiziki aktivliyinazalmasına səbəb olur. Bu isə piylənmə riskinin artmasına, əzələ və skelet problemlərinin yaranmasına gətirib çıxarır. Bundan əlavə, ekranlardan yayılan mavi işıq uşaqların yuxu ritmini pozur və yuxusuzluq problemlərinə səbəb olur. Keyfiyyətsiz yuxu isə uşaqların həm fiziki, həm də psixoloji sağlamlığına mənfi təsir göstərir.

Görmə problemləri də rəqəmsallaşmanın geniş yayılmış mənfi təsirlərindən biridir. Uzun müddət kiçik ekranlara fokuslanmaq göz yorğunluğu, quru göz sindromu və uzaqgörmə problemlərinə səbəb ola bilər. Bu problemlər xüsusilə erkən yaşlarda yaranarsa, gələcəkdə daha ciddi sağlamlıq problemlərinə gətirib çıxara bilər.

Nəticə: Rəqəmsal mühitdə uşaqların məruz qaldığı digər risklərdən biri də informasiya təhlükəsizliyi ilə bağlıdır. Uşaqlar çox vaxt şəxsi məlumatların qorunması qaydalarını bilmədikləri üçün müxtəlif təhlükələrlə qarşılaşa bilirlər. Onlar fərqində olmadan şəxsi məlumatlarını paylaşa, kibertəhlükələrə məruz qala və ya zərərli şəxslərlə ünsiyyət qura bilərlər. Bu isə onların təhlükəsizliyi baxımından ciddi risk yaradır.

Həmçinin sürətli və qısa formatlı kontentə alışan uşaqlar uzun və dərin məzmunu qəbul etməkdə çətinlik çəkirlər. Bu isə onların analitik düşünmə qabiliyyətinə və akademik inkişafına mənfi təsir göstərir.

Ailə münasibətləri baxımından da müəyyən problemlər yaranır. Uşaqların rəqəmsal cihazlara həddindən artıq bağlı olması valideynlərlə ünsiyyətin azalmasına səbəb olur. Bu isə ailə daxilində emosional əlaqələrin zəifləməsinə gətirib çıxarır. Valideyn nəzarətinin zəifləməsi isə uşaqların daha çox risklə qarşılaşmasına şərait yaradır.

Nəticə etibarilə, rəqəmsallaşma uşaq verilişlərinin inkişafına ciddi təsir göstərməklə yanaşı, uşaqların psixoloji, sosial və fiziki inkişafi baxımından bir sıra risklər yaradır. Bu risklərin minimuma endirilməsi üçün kompleks yanaşma tələb olunur. Rəqəmsal mühitin üstünlüklərindən səmərəli istifadə etmək üçün onun mənfi təsirlərinin vaxtında müəyyənləşdirilməsi və aradan qaldırılması vacibdir. Yalnız bu halda rəqəmsallaşma uşaqların sağlam və balanslı inkişafına xidmət edə bilər.

İstifadə olunan ədəbiyyat
1. UNICEF – Children in a Digital World
2. Sonia Livingstone (2009). *Kids Online*
3. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) (2020). *İnformasiya cəmiyyəti və rəqəmsal transformasiya problemləri*. Bakı.
4. Bakı Dövlət Universiteti (2022). *Media və kommunikasiya üzrə dərs vəsaitləri*.
5. Əliyev, Ə. (2021). "Rəqəmsal media və uşaqların inkişafi". Bakı: Elm nəşriyyatı.
6. https://musavat.com/news/azerbaycanda-usaq-verilisleri-niye-azdir_1110587.html

Bashirova Lala Vidadi qizi
Baku State University
2nd year master's student
lalebesirova8@gmail.com
https://orcid.org/0009-0004-6843-9324

Transformation of Children's Television Programs in the Era of Digitalization

Summary

This article provides a comprehensive analysis of the transformation of children's television programs in the era of digitalization and the impact of this process on children's psychological development. Due to the rapid development of information and communication technologies, the traditional television model has changed, and digital platforms have become one of the main media sources for the children's audience. Within the framework of the study, the impact of the digital environment on the content, structure, and presentation form of children's programs has been examined.

The article also analyzes both the positive effects of digitalization on children's cognitive, social, and emotional development, as well as negative aspects such as screen addiction, exposure to harmful content, social isolation, and physical health problems. It is concluded that although digitalization creates new development opportunities for children, proper management of this process and the implementation of effective control mechanisms are essential. The role of parents, the education system, and state institutions in this regard is particularly emphasized.

Keywords: digitalization, children's programs, digital media, child psychology, media influence, interactivity, screen addiction, media literacy, child development, digital platforms

Баширова Лала Видади кызы
Бакинский Государственный Университет
студентка 2 курса магистратуры
lalebesirova8@gmail.com
https://orcid.org/0009-0004-6843-9324

Трансформация детских телепрограмм в эпоху цифровизации

Резюме

В данной статье проводится комплексный анализ трансформации детских телепрограмм в эпоху цифровизации и влияния этого процесса на психологическое развитие детей. В результате стремительного развития информационно-коммуникационных технологий традиционная модель телевидения изменилась, а цифровые платформы стали одним из основных источников медиаконтента для детской аудитории. В рамках исследования рассматривается влияние цифровой среды на содержание, структуру и формы представления детских программ.

В статье также анализируются как положительные эффекты цифровизации на когнитивное, социальное и эмоциональное развитие детей, так и негативные аспекты, такие как зависимость от экранов, доступ к вредному контенту, социальная изоляция и проблемы физического здоровья. В заключение отмечается, что, несмотря на создание новых возможностей для развития детей, цифровизация требует правильного управления и внедрения эффективных механизмов контроля. Особо подчеркивается роль родителей, системы образования и государственных учреждений в данном процессе.

Ключевые слова: цифровизация, детские программы, цифровые медиа, детская психология, влияние медиа, интерактивность, зависимость от экранов, медиаграмотность, развитие детей, цифровые платформы

RƏYÇİ: dos. L. Ələkbərova

DOI 10.24412/2218-7588-2026-1-119-121

Shahla Vaqif qızı Huseynova
BDU Pedaqogika kafedrasının muəllimi
https://orcid.org/0009-0000-3475-4538
Shahla@box.az

КРЕАТИВНОЕ ОЦЕНИВАНИЕ, ВЛИЯЮЩЕЕ НА ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

РЕЗЮМЕ: Креативное мышление — это умение отыскивать нестандартные подходы и решения сложных ситуаций. Люди с развитым креативным мышлением умеют отойти от шаблонов и знают, что у проблемы может быть больше одного решения.

Ключевые слова: Креативность в образовательной среде, креативность в XXI веке, способности, образование, креативное мышление, обучение, мотивация.

2. Bədəlova Əsmər Təlim və tərbiyə. Bakı 2015. Səh 220- ADPU nəşriyyatı 291 səh.
3. Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişaf ı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2009-cu il Fərmanı.
4. Əhmədov H.H. Pedaqogika: eksperimental dərs vəsaiti. Orta ixtisas məktəblərinin pedaqoji fakültələri üçün dərs vəsaiti. Bakı, ABU, 2006, 295 s.
5. Əliyev P.B.,Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı, Təhsil, 2006, 41 s.
6. Hüseynzadə R.L., İsmayılova M.C. Tərbiyə işi və onun metodikası. Bakı, ADPU nəşriyyatı, 2012, 294 s
7. Hüseynzadə R.L. Əzizova Z. M., Əliyev S.H. Əliyeva Ü.M. Pedaqogika, dərslik. Bakı Mütərcim 2021, 488 s.
8. Quran (Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsində), Bakı,Azərnəşr, 1992. 114 surə

Sevda İslam qızı Abbasova

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti

sevda411@mail.ru

https://orcid.org/0000-0002-6516-2444

Formation of economic culture of pedagogical university students 140

SUMMARY

The formation of the economic culture of students of pedagogical universities is discussed in the article. This quality is evaluated as a condition of their professional training.

As a result of the conducted research, it becomes clear that the young generation - students of secondary schools and students of pedagogical universities - do not have the necessary level of knowledge for the formation of economic culture. The modern world requires that for the successful development of society, its members should be inculcated with creative activity, responsibility for decisions, risk-taking ability, respect for business partners and qualities included in the concept of economic culture. However, this need is not instilled in students at the required level.

The article explains the conditions for the formation of the economic culture of students of pedagogical universities in order to improve their professional training. It is noted that the successful formation of the economic culture of a student of a pedagogical university as a complex, integrative, practical-oriented, moral-economic personality can be ensured in the following cases: the economic culture should become a professional need of the future teacher; the content of the process of forming the economic culture of students in a pedagogical university should include intellectual, emotional, value and practical components; in the process of forming an economic culture, both traditional and specialized courses should be used, stimulating the transfer of knowledge, skills and habits acquired by students to future students; it can be effective to reveal the essence, structure and content of the concept of economic culture, as well as the analysis of the specifics of the problem in connection with the professional needs of future teachers.

Keywords: professional training, economic culture, future personality, knowledge and skills.

Севда Ислам кызы Аббасова

Доцент, Азербайджанский Государственный Педагогический Университет

sevda411@mail.ru

https://orcid.org/0000-0002-6516-2444

Формирование экономической культуры студентов педагогических вузов

Резюме

В статье рассматривается формирование экономической культуры студентов педагогических вузов. Это качество оценивается как условие их профессиональной подготовки.

В результате проведенного исследования становится ясно, что молодое поколение – учащиеся средних школ и студенты педагогических вузов – не обладают необходимым уровнем знаний для формирования экономической культуры. Современный мир требует, чтобы для успешного развития общества его члены были привиты творческой активности, ответственности за принимаемые решения, способности к риску, уважению к деловым партнерам и качествам, включенным в концепцию экономической культуры. Однако эта потребность не прививается студентам на необходимом уровне.

В статье объясняются условия формирования экономической культуры студентов педагогических вузов с целью повышения их профессиональной подготовки. Отмечается, что успешное формирование экономической культуры студента педагогического вуза как комплексной, интегративной, практико-ориентированной, нравственно-экономической личности может быть обеспечено в следующих случаях: экономическая культура должна стать профессиональной потребностью будущего учителя; содержание процесса формирования экономической культуры студентов в педагогическом вузе должно включать интеллектуальную, эмоциональную, ценностную и практическую составляющие; в процессе формирования экономической культуры следует использовать как традиционные, так и специализированные курсы, стимулирующие передачу знаний, навыков и привычек, приобретенных студентами, будущим студентам; может быть эффективным выявление сущности, структуры и содержания концепции экономической культуры, а также анализ специфики проблемы в связи с профессиональными потребностями будущих учителей.

Ключевые слова: профессиональное обучение, экономическая культура, будущая личность, знания и навыки.

RƏYÇİ: dos. T.Əliyev

DOI 10.24412/2218-7588-2026-1-144-147

Ofeliya Namiz qızı Əşrəfova
Milli Aviasiya Akademiyası
Dil və ictimai fənlər kafedrasının baş müəllimi
ofeliya.ashrafova@bk.ru
https://orcid.org/0009-0003-8628-1738

KOMMUNİKATİV TƏSNİFATIN PRİNSİP VƏ MEYARLARI

Xülasə: Müasir dünyanın simasını əks etdirən qloballaşma sürətli informasiya axını ilə müşayiət edilir ki, bu da xalqlar və dövlətlər arası inteqrasiyanın formalaşması və inkişafında mühüm rol oynayır. Bu informasiya məzmunu cəhətdən rəngarəng səciyyəyə malikdir: işgüzar, elmi, siyasi və s. Bu məlumatlar funksionallığı baxımdan fərdi və işgüzar xarakterli ola bilər. Bunlar da özlüyündə ünsiyyətin müxtəlifliyini təşkil edir.Ünsiyyətin rəngarəngliyi ayrı-ayrı prinsiplər üzrə təzahür edir. Bu prinsiplər əsasən aşağıdakılardır:məzmun; forma;tip; növ; tərz.

Hər bir prinsip özünəməxsus meyara əsaslanır və məzmun prinsipinin meyarları belə qeyd edilir: a) üslubi çalarlıq; b) məzmunun ifadə forması. 2. Forma prinsipinə görə ünsiyyətin meyarları: a) şifahi; b) yazılı şəkillərdən ibarət olur. 3. Tipinə görə ünsiyyətin iki meyarı vardır: a) səslilik; b) səssizlik (daxili və xarici ünsiyyət). 4. Növü baxımdan qarşılıqlı və tək çıxış (monoloji və dialoji). 5. Ünsiyyətin tərzi prinsipi iki meyara əsaslanır: a) başqasının fikrinin eynilə verilməsi meyarı; b) özgə nitqinin məzmununun verilməsi meyarı (vasitəsiz və vasitəli). Məqalədə qeyd edilənlər ətraflı şəkildə şərh olunur, kommunikativ təsnifatın prinsip və meyarları elmi cəhətdən əsaslandırılır.

Açar sözlər: kommunikasiya, ünsiyyətin məzmunu, verbal və qeyri-verbal kommunikasiya, monoloji və dialoji nitq, şifahi və yazılı nitq

Giriş: Kommunikasiya mədəniyyəti nitqdə ifadə olunan davranış mədəniyyətinin bir hissəsidir. Nitq ünsiyyəti mədəniyyəti linqvistik vasitələrin seçilməsində özünü göstərən çoxkomponentli keyfiyyətdir ki, müəyyən ünsiyyət şəraitində müasir linqvistik ünsiyyət etika normalarına riayət etməklə ünsiyyət məqsədlərinə çatmağa imkan verir.

Müasir dünyanın simasını əks etdirən qloballaşma sürətli informasiya axını ilə müşayiət edilir ki, bu da xalqlar və dövlətlərarası inteqrasiyanın formalaşması və inkişafında mühüm rol oynayır. Bu informasiya məzmunu cəhətdən rəngarəng səciyyəyə malikdir: işgüzar, elmi, siyasi və s. Bu məlumatlar tərzi və funksionallığı baxımından fərdi və işgüzar xarakterli ola bilər.

Əsas hissə: Nitqin forması özünü ünsiyyətin şifahi və yazılı şəkildə göstəricisidir. İfadə məzmunu isə ünsiyyətin hansı tərzdə-səsli, yəni adi danışıq formasında, yaxud işarələr, simvollar, jest, mimika və digər elementlərlə ifadəsini əhatə edir. Bunlar da özlüyündə ünsiyyətin müxtəlifliyini təşkil edir. Ünsiyyətin rəngarəngliyi ayrı-ayrı prinsiplər üzrə təzahür edir. Bu prinsipləri əsasən belə qeyd edə bilərik: məzmunu cəhətdən; forması baxımından; tipinə görə; növünə görə; tərzi xüsusiyyətləri cəhətdən. Bu prinsiplər də öz rəngarəngliyi ilə diqqəti cəlb edir. Qeyd etmək mümkündür ki, hər prinsip spesifik meyara əsaslanır. I. Birinci prinsipi - məzmun prinsipinin səciyyəvi əlamətlərini nəzərdən keçirək.

1. Bildiyimiz kimi, məzmunda həm üslubi çalarlıq, həm də ifadə tərzi aparıcıdır. Məzmunda üslubi çalarlıq ünsiyyətin üslubi cəhətlərini, yəni işgüzar, elmi, siyasi, rəsmi, məişət, epistolyar, publisistik və s. rəngarəngliyini inikas etdirir. Buradan da ünsiyyətin funksional üslubları meydana çıxır:Bədii üslub;Rəsmi üslub;Elmi (akademik) üslub;Publisistik üslub;Məişət üslubu;Epistolyar üslub.

"Funksional üslubların yaranması və formalaşmasına aşağıdakı amillər xüsusi təsir göstərir:Milli ənənə;Milli mədəniyyət;Dövlət quruluşu;Dini təbliğat;Dil siyasəti" [1, s.151].

2. Məzmun prinsipinin ikinci meyarı ifadə tərzidir. Başqa sözlə, ünsiyyət məzmununun ifadə tərzinə-formasına görə iki cür olur;a) Verbal kommunikasiya (ünsiyyət);b) Qeyri-verbal kommunikasiya ünsiyyət.

Bu termin bəzi mənbələrdə haqlı olaraq "ifadə forması"da adlandırılır. "Forma" leksik vahidi bir qədər anlaşılmazlığa da yol açır. Çünki nitq və ünsiyyətdən bəhs etdikdə forma birmənalı şəkildə şifahi və yazılı formanı ehtiva edir. Ümumiyyətlə, forma hər hansı predmet və əşyanın zahiri görünüşünə dair elementləri özündə ehtiva edən əlamət qismində-təzahür edir.

Forma nitqin, ünsiyyətin şifahi və yazılı şəkliningöstəricisidir. İfadə məzmunu isə ünsiyyətin hansı tərzdə-səsli, yəni adi danışıq formasında, yaxud işarələr, simvollar, jest, mimika və digər elementlərlə ifadəsini əhatə edir.

II. Forma prinsipi iki amili özündə birləşdirir:Şifahi ünsiyyət (nitq):Yazılı ünsiyyət (nitq).

Bunların da hər birinin öz xüsusiyyətləri: ümumi və fərqli (diferensial) əlamətləri mövcuddur.

III. Tipinə görə-bu prinsipinə görə ünsiyyətin (nitqin) iki tipi vardır:

a) Daxili ünsiyyət (nitq);
b) Xarici ünsiyyət (nitq).

IV. Növünə görə-ünsiyyətin (nitqin) növü dedikdə iki meyar əsas götürülür:

a) Dialoji nitqi;
b) Monoloji nitq.

V. Ünsiyyətin tərzi baxımından nitq iki cür olur:

a) Vasitəsiz ünsiyyət;
b) Vasitəli ünsiyyət.

Ünsiyyətin təsnifatının nəzəri bölgüsünü praktik müstəviyə çevirsək, aşağıdakı qrafik sxem alınar;



Təsnifatın komponentini qrafik sxemdəki ardıcıllıqla xarakterizə etmək qoyulan problemin həlli üçün məqbul hesab edilə bilər

I. Yuxarıda qeyd etdiyimiz kimi, məzmun prinsipində bir tərəfdən üslubi rəngarəngliyi, yəni üslub müxtəlifliyi; digər cəhətdən məzmunun ifadə tərzi (forması) ehtiva edilir. Məzmun prinsipinin birinci istiqaməti ünsiyyətin üslub müxtəlifliyini nəzərdə tutur. Bu da təbiidir, ünsiyyət üslubca vahid olunur:

"Ədəbi dilin funksional üslubları mənşə etibarilə ayrı-ayrı dövrlərdə yaranmışdır. Bu müxtəliflik ictimai hadisə və ictimai formasiyalara görə müəyyən edilir" [5, s.153].

Üslubiyyat problemi dilçiliyin mühüm problemlərindən olub ən qədim dövrlərdən tədqiq edilməkdədir. Dil məsələləri ilə məşğul olan romalılar üslub və üslubiyyat probleminə də laqeyd qalmışlar. "Yunanlar üçün üslub sübutetmə vasitəsi olmuşdur. Klassik elmdə üslubiyyaat çox zaman ritorika gölgəsində şərh edilmişdir.

Qədim hindlilər üsluba nitqin zahiri əlaməti, onun bəzəyi kimi baxmışlar. Üslubiyyatı isə dilin ifadə vasitələri haqqında təlim hesab etmişlər [6, s.187].

Üslubların inteqrativ və diferensial cəhətləri vardır. Belə ki, bütün üslublar vahid normaya tabedir. Başqa sözlə, ədəbi dilin normaları bütün üslublar üçün məqbuldur. Lakin funksionallığı, həmçinin yaranması və fəaliyyət dairəsi baxımından üslublar fərqlidir. Dilçilikdə belə bir tendensiya mövcuddur ki, tarixən ən qədim və aparıcı üslub bədii üslubdur. Digər üslub növü ilə müqayisədə bədii üslubun funksional imkanları daha genişdir.

"Bədii üslubun tələbinə görə söz mətində bədii funksiya daşımalıdır. Bədii vəzifə daşıyan sözə poetik söz, onun daşıdığı vəzifəyə isə poetik funksiya deyilir" [4, s.33]. Bədii üslubun funksional imkanlarının genişliyindən bədii təsvir və bədii ifadə vasitələri yaranmışdır. Bunların da hər birinin öz növləri vardır:

a) *Bədii təsvir vasitələri:* Təşbeh; Epitet; Metafor; Metonimiya; Sinekdoxa; Simvol;
b) Bədii ifadə vasitələri; Təkrir; Kinayə; Mübaliğə; İnversiya; Antiteza; Bədii sual və bədii nida

Beləliklə, bədii üslubu birinci növbədə başqa üslublardan obrazlılıq xüsusiyyəti fərqləndirir. Bədii əsərlərdə işlədilən bütün fonetik, leksik və qrammatik vahidlər geniş mənada obrazlılıq yaratmağa xidmət edir.Elmi üslub- elmi həqiqətlərin dərin və sistemli izahı-elmi mühakimələr, məntiqi sübutlar və ümumiləşdirmə bu üslubda mühüm rol oynayır. Elmi əsərlər ixtisaslı oxucuları öz ətrafında birləşdirdiyi üçün elmi üslubda ünsiyyət məhdud dairəni əhatə edir.

Publisistik üslub-daha çox mətbuatın, radio və televizorun dilini əhatə edir. Mətbuat janrları operativ və kütləvi olduğundan yığcamlığa üstünlük verir. İctimai-siyasi terminlər publisistik üslub üçün olduqca səciyyəvidir.

Rəsmi-əməli üslub- ünsiyyətin məqsəd və vəzifəsi həm dövlət idarələri, ictimai təşkilatlar arasındakı münasibətləri tənzim etməkdir. Professional terminlərin işlədilməsi, idarə və müəssisə adlarının ixtisarı, müraciət olunan şəxsə soyuq rəsmi münasibət və s. bu üslub üçün daha səciyyəvi hesab edilir.

"Ümumi üslublar dedikdə bütövlükdə dilə məxsus üslublar başa düşülür. Lakin həmin üslublardan istifadə edənlərin özünəməxsus ifadə tərzi fərdi üslubların yaranmasına səbəb olur. Fərdi üslub müəllifi digərlərindən ayıran, onun fərdi yaradıcılıq keyfiyyətlərini göstərən üslubdur" [3, s.34].

2.Məzmunun ifadə forması dedikdə söhbət şəraitində fikrin məzmununun verbal, yəni adi danışıqda olduğu kimi-səslər, sözlər və cümlələr vasitəsi ilə, yaxud qeyri-verbal formada, yəni işarələr, simvollar, məsafə, jest, mimika və s. nəzərdə tutulur.

II. Ünsiyyətin (nitqin) forması dedikdə şifahi və yazılı kommunikasiya başa düşülməlidir. Hər birinin öz xüsusiyyətləri mövcuddur:

1) Şifahi kommunikasiya- cəmiyyətin təşəkkülü ilə əlaqədar yaranmışdır. Kommunikasiyanın bu növünü səciyyələndirən əsas amil intonasiyadır. Şifahi kommunikasiya orfoepik normalar əsasında tənzimlənir. "Düzgün danışıq qaydalarını tənzimləyən orfoepiya danışıq səslərini (sözəvvəli, sözortası və sözsonu mövqedə). Fonetik hadisələri, vurğu və intonasiya məsələlərini əhatə edir [2, s.32-33].

2) Yazılı kommunikasiya orfoqrafiya qaydaları ilə tənzimlənir. Yaranma tarixi "Kitabi-Dədə Qorqud"la hesablanır. Şifahi kommunikasiyadan fərqli cəhətlərindən bir intonasiyasız olmasıdır. İntonasiyanın şifahi ünsiyyətdə yaratdığı emosionallıq, zəriflik və s. yazılı nitqdə durğu işarələri vasitəsilə formalaşdırılır.

III.Ünsiyyətin tipi - Ünsiyyət təsnifatının komponentində mühüm yer alan prinsiplərdən birini təşkil edir. Bu prinsipə əsasən ünsiyyət daxili və xarici olmaq üzrə iki cür olur. Başqa sözlə, ünsiyyətin tipi dedikdə daxili və xarici ünsiyyət nəzərdə tutulur:

1) Xarici nitq- Danışıq səsləri ilə ifadə edilən nitqdir. Xarici ünsiyyətdə cəmiyyətin müəyyən siyasətinə, etika və əxlaq qaydalarına əməl edilir. Ədəbi dilin normaları xarici ünsiyyət üçün mütləqdir. Ünsiyyətin bu növü həm də aydınlıq, məntiqilik, ardıcıllıq, səlislik, təsirlilik, ahəngdarlıq və s. tələb edir.

2) Daxili nitq- tələffüz edilməyən səssiz nitqdir. Psixoloqlar eksperiment nəticəsində müəyyənləşdirmişlər ki, daxili nitq prosesində nitq cihazının yalnız iki üzvü – dil və qırtlaq hərəkətdə olur. Ünsiyyətin bu tipi lakonik və sürətli olur. Daxili ünsiyyət qrammatik quruluşu baxımdan elleptik tipli yarımçıq cümlələrə bənzəyir və predikativ xarakterlidir.

IV. Ünsiyyət növünə görə iki yerə bölünür: dialoji, monoloji

Bunları (dialoji və monoloji nitqi) ünsiyyətin məqsəd və şəraiti formalaşdırır. Zərurət olduqda ünsiyyət monoloji, ehtiyac duyulduqda isə dialoji şəkildə funksionallaşır. Monoloji nitqin əsas əlaməti müəyyən bir ideya, fikir, məsələ, problem, məlumat, xatirə, tezis və s. janrlar üzrə bir nəfərin ardıcıl, rabitəli, geniş və ya qısa nitqi şəklində təzahür edir. Mühazirə, məruzə, çıxış, məktub, məqalə, monoqrafiya janrları monoloji ünsiyyətə məxsusdur. Monoloji ünsiyyət özü də formaca şifahi və yazılı olur.

Dialoji nitq - yunan mənşəli olun mənası söhbət, müsahibə anlamını verən dialoji nitq insanın xüsusiyyəti, fəaliyyəti başqalarına münasibəti haqda verir. Dialoji ünsiyyətdə sual-cavab forması əsas rol oynayır. Dialoqda iştirak edən şəxslərin hər birinin danışığı replika adlanır. Yazılı dialoji nitqdə bütün replikalar təzə sətirdən yazılır və əvvəlində tire işarəsi qoyulur. Replikalar qrammatik quruluşu baxımdan yarımçıq və söz cümlələrdən ibarət olur.

Nitq inanılmaz dərəcədə güclü bir vasitədir, ancaq istifadə etmək üçün çox düşüncəyə sahib olmaq lazımdır. Bəzən dil və nitqi qələm və mətnlə müqayisə edirlər. Dil qələmdir, nitq bu qələmlə yazılmış mətndir [4, s.43].

V. Ünsiyyətin tərzi dedikdə iki üsul nəzərdə tutulur Vasitəsiz ünsiyyət (nitq);2) Vasitəli ünsiyyət (nitq).

Danışıq prosesində və yazıda bəzən başqasının sözlərindən istifadə edilir. Başqasının sözləri müəllif nitqi içərisində iki yolla verilir: ya başqasının nitqi eyni ilə (leksik vahidlər, cümlələrin qrammatik quruluşu və s.) saxlanılır, ya da həmin nitqin ancaq məzmunu verilir. Buna uyğun olaraq dildə özgə nitqini əks etdirmək üçün ünsiyyətin iki üsulu yaranmışdır:

1. *Vasitəsiz nitq*- başqasının sözlərinin olduğu kimi çatdırılması. Məsələn, Ulu Öndər Heydər Əliyev demişdir: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir."

2. Vasitəli nitq- başqasının fikrinin məzmununun çatdırılması. Məsələn, Ulu Öndər Heydər Əliyev demişdir ki, o dövlət hər şeyə qadirdir ki, onun güclü iqtisadiyyatı olsun.

Nəticə: Mədəni nitqə yiyələnmək üçün dilin yalnız leksik-qrammatik normalarını gözləmək kifayət etmir. Bunun üçün nitq üslubi cəhətdən də düzgün qurulmalıdır. Yəni danışarkən elə sözlər seçilməli, cümlələr elə qurulmalıdır ki, fikir dəqiq və aydın ifadə oluna bilsin .

Beləliklə, ünsiyyətin təsnifat prinsip və meyarları nəzəri biliklərin zənginləşdirilməsində mühüm rol oynadığı kimi, ünsiyyətin tətbiqi prosesinin uğurla nəticələnməsi işində də böyük əhəmiyyətə malikdir. Ünsiyyətin funksionallığı onun üslubları (bədii, rəsmi, elmi, publisistik, məişət, epistolyar) vasitəsilə təzahür edir. Bu üslubların hər biri ədəbi dilin fonetik, leksik və qrammatik normalarına tabedir.

Ədəbiyyat

1. Həsənzadə N, Pənahova G, Abbasov Ə. Azərbaycan dili və nitq mədəniyyəti. Ecoprin; Bakı-2016; 256s.
2. Həsənzadə N, Abbasov Ə, Zeynalova A. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. MAA; Bakı-2024; 307s.
3. Həsənova S. Nitq mədəniyyəti və üslubiyyat. ADPU; Bakı-2005; 192s.
4. Xəlilov B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Adiloğlu; Bakı-2021; 472s.
5. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Elm və təhsil; Bakı-2021; 512s.
6. Qurbanov A. Ümumidilçilik (II cildi). Elm; Bakı- 2011; 532s.
7. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Elm və təhsil; Bakı-2010; 452s.

Офелия Намиз Гизи Ашрафова

Национальная авиационная академия

Старший преподаватель кафедры языка и социальных наук

ofeliya.ashrafova@bk.ru

https://orcid.org/0009-0003-8628-1738

Принципы и критерии коммуникативной классификации

РЕЗЮМЕ

Глобализация, отражающая облик современного мира, сопровождается быстрым потоком информации, который играет важную роль в формировании и развитии интеграции между народами и государствами. Эта информация имеет разнообразное содержание: деловое, научное, политическое и т. д. Эта информация может быть личной и деловой по функциональности. Именно это и составляет многообразие коммуникации.

Многообразие коммуникации проявляется в различных принципах. Эти принципы в основном следующие: 1. Содержание . 2. Форма. 3. По типу. 4. Тип. 5. Стиль

Каждый принцип основан на своих собственных критериях.

1. Критериями содержательного принципа являются: а) стилистический нюанс; б) форма выражения

содержания. 2. Критериями коммуникации по формальному принципу являются: а) устная; б) состоит из письменных образов. 3. Существуют 2 критерия коммуникации по типу: а) вокализация; б) молчание (внутренняя и внешняя коммуникация). 4. Речь по типу (монологическая и диалогическая). 5. Принцип стиля коммуникации основан на 2 критериях: а) критерий точной передачи чужой идеи; б) критерий передачи содержания чужой речи (прямая и косвенная).

Таким образом, принципы и критерии классификации коммуникации играют важную роль в обогащении теоретических знаний, а также имеют большое значение для успешного исхода коммуникационного и прикладного процесса. Функциональность коммуникации проявляется через ее стили (художественный, официальный, научный, журналистский, повседневный, эпистолярный).

Ключевые слова:коммуникация, содержание коммуникации, вербальная и невербальная коммуникация, монологическая и диалогическая речь, устная и письменная речь

Ofelia Namiz gizi Ashrafova
National Aviation Academy
Senior Lecturer, Department of Language and Social Studies
ofeliya.ashrafova@bk.ru
https://orcid.org/0009-0003-8628-1738

Principles and Criteria of Communicative Classification 144

SUMMARY

Globalization, reflecting the face of the modern world, is accompanied by a rapid flow of information, which plays an important role in the formation and development of integration between peoples and states. This information has a diverse content: business, scientific, political, etc. This information can be personal and business in terms of functionality. These in themselves constitute the diversity of communication.

The diversity of communication is manifested in different principles. These principles are mainly as follows:1. Content. 2. Form. 3. By type. 4. Type. 5. Style

Each principle is based on its own criteria.

1. The criteria of the content principle are: a) stylistic nuance; b) form of expression of the content. 2. The criteria of communication according to the form principle: a) oral; b) consists of written images. 3. There are 2 criteria of communication according to the type: a) vocalization; b) silence (internal and external communication). 4. Speech in terms of type (monological and dialogical). 5. The principle of style of communication is based on 2 criteria: a) the criterion of conveying someone else's idea exactly; b) the criterion of conveying the content of someone else's speech (direct and indirect).

Thus, the principles and criteria of the classification of communication play an important role in enriching theoretical knowledge, as well as being of great importance in the successful outcome of the communication and application process. The functionality of communication is manifested through its styles (artistic, official, scientific, journalistic, everyday, epistolary).

Keywords: communication, content of communication, verbal and non-verbal communication, monological and dialogical speech, oral and written speech

RƏYÇİ: dos. S.Abbasov

DOI 10.24412/2218-7588-2026-1-148-152

Fərmanli Sənan Nadir oğlu
Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı
abbasov-edalat@mail.ru
https://orcid.org/0009-0003-9704-2732

MƏTNLƏR ÜZRƏ İŞDƏ SADƏ VƏ MÜRƏKKƏB CÜMLƏ TİPLƏRİNİN İNTEQRATİV ƏSASLI TƏDRİSİ VƏ MƏKTƏB TƏCRÜBƏSİNDƏ MƏSƏLƏYƏ MÜNASİBƏT

Xülasə: Məqalə mətn əsaslı sadə və mürəkkəb cümlələrin inteqrativ tədrisinə həsr edilmişdir. Eyni zamanda məktəb təcrübəsində problemin necə həll olunduğu və bu istiqamətdə işlərin həlli üçün fikirlər irəli sürülmüşdür. Məqalədə problemim həllində qarşıya qoyulan məqsədə nail olmaq üçün Azərbaycan dili proqramının başlıca meyar və prinsipləri,eləcə də elmi-metodik ədabiyyatlarda məsələ ilə əlaqədar olan aktual tələblər əsas götürülmüşdür.

Digər fənlərdə olduğu kimi, cümlə quruluşunun tədrisi də müasir tələblərə uyğun olaraq həll olunur. Tədris bir sıra daxili meyarlara malik mətnə əsaslanır. Effektiv və uğurlu təlim üçün inteqrativ metodlardan istifadə etmək məqsədəuyğun hesab olunur. Bu da öz növbəsində sintaktik bacarıqların inteqrativ əsasda öyrədilməsini nəzərdə tutur. Bu məqsədə çatmaq üçün mətnlərlə işləməkdə məktəb təcrübəsinin əsasını vurğulamaq vacibdir. Buna görə də, sadə və mürəkkəb cümlələrin struktur-semantik növlərinin və sintaksisin mətn əsaslı işə inteqrasiyasının məktəbdə tədrisin keyfiyyətindən asılı olduğu qənaətinə gəlmək olar. Təhsil prosesi ardıcıl bir çərçivə daxilində fəaliyyət göstərərsə, onun metodologiyasının bütün komponentləri düzgün tətbiq olunacaq. Əlbəttə ki, ənənəvi tədrisin qənaətbəxş və faydalı elementləri interaktiv (aktiv) təlimlə inteqrativ kontekstdə tətbiq edildikdə daha uyğun nəticələr əldə etmək olar.

Açar sözlər: pedaqoji mükəmməllik, inteqrativ metod, inteqrativlik sahələri, struktur-semantik tip, sadə cümlə, mürəkkəb cümlə, sintaksis, ənənəvi tədris

Giriş: Hazırda ümumtəhsil məktəblərində cümlə bəhsinin təlimi məsələləri də yeni tələblər əsasında aparılır.Təlim daxilində meyarlar kompleksi mətn üzərində icra edilir.Tədris işinin səmərəliliyi və uğurlu nəticələnməsi üçün inteqrativ üsullarla aparılması məqsədəmüvafiq hesab edilir. Bu isə bütövlükdə sintak təlimin inteqrativ əsaslarla tədrisini şərtləndirir. Azərbaycan dili sintaksisinin inteqrativ əsaslı tədris imkanları sırasında proqram və elmi-metodik ədəbiyyatda məsələnin qoyuluşu ilə yanaşı,məktəb təcrübəsində məsələyə münasibət aspektinin müvafiq meyarlara əsasən şərhinin də əhəmiyyəti olduqca böyükdür.Problemim həllində qarşıya qoyulan məqsədə nail olmaq üçün Azərbaycan dili proqramının başlıca meyar və prinsipləri,eləcə də elmi-metodik ədabiyyatlarda məsələ ilə əlaqədar olan aktual tələblər əsas götürülmüşdür.

Əsas hissə: "Məktəb mühitində yaradılmış metodik rejim və didaktik ənənə təlim prosesinin bütün istiqamətlərində olduğu kimi, mətnlər üzərində iş və inteqrativ əsaslı tədris işində də təsirsiz ötüşmür. Burada da qabaqcıl təcrübə əsas vasitə olaraq önə çəkilir.Qabaqcıl təcrübə işi cümlə konstruksiyalarının mətn üzərində kombinasiyası əhatəli, ardıcıl və təfsilatı şəkildə araşdırılmalıdır"[1. s.28].Məlumdur ki,orijinal ideyaların formalaşması ,yeni metod və üsulların meydana çıxması qabaqcıl təcrübənin daha dərindən öyrənilməsi zəminində baş verir.Mətn üzərində işlər sadə və mürəkkəb cümlələrin struktur-semantik tiplərinin mənimsədilməsiişini asanlaşdırma imkanlarını xeyli artırır.

"Metodist keçmiş irsi bilmədən,onun tətbiqi üsullarını öyrənmədən reallığın şagirdə mənimsədilməsində bir çox maneələrlə üzləşə bilər və nəticədə həm qarşıya qoyduğu məqsədə çata bilməz, həm də metodika elminin dinamik səviyyəyə keçməsinə nail ola bilməz."[2, s.56] Bu özü də inteqrasiya kontekstində icra edilir. Bu proseslərin əsasında,hər şeydən əvvəl təlimlər arası inteqrasiya durur.Hesab edirik ki,ənənəvi təlim üsullarından fəal təlimlə vəhdətdə istifadə etmək məqsədəuyğundur. Mətn üzərində iş ənənəvi və fəal təlimdə inteqrativ cəhətlərdəndir.

İstənilən halda köhnə irsin öyrənilməsi vacib amillərdəndir. "Belə bir fikir mövcuddud:guya şagird əsəri ona görə oxuyur ki,onun ideya və məzmununu dərk etsin. Halbuki K.D.Uşinski "Uşaq Aləmi" dərsliyinin birinci nəşrinə yazdığı müqəddimədə belə oxunu,yəni uşağın əsəri öyrənmək üçün öyrənməsini ifadəli oxu adlandırmağın qeyri-mümkün olduğu ideyasını irəli sürmüşdür.Onun fikrincə, əsəri öyrənmək üçün oxuyuruqsa bu məntiqi oxudur". Lakin öyrəndikdən sonra onun məzmun və ideyasını emosional şəkildə başqasına çatdırmaq məqsədi ilə olan oxu ifadəli oxudur.

"Məktəb təcrübəsi" anlayışı bir növ simvolik məna daşıyır. Bu ifadə əslində öz mənası ilə "müəllim təcrübəsi", "pedaqoji irs" anlayışlarına işarə edir."Məktəb fəaliyyətinin" mərkəzində pedaqoji kollektiv dayanır. Təlim prosesinin nailiyyətləri tədrisin səmərəliliyi və s. məktəb kontingenti və onun səriştəlilik dərəcəsindən asılıdır. Məktəbin nizam-intizam təlim qaydaları və s. kimi konseptual sənədlər məktəbin pedaqoji şurası tərəfindən Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi ümumi sənədlərə istinadən müəyyən edilir.

Pedaqoji fəaliyyətin metod və strukturları da məktəb pedaqoji şurası tərəfindən təsdiqlənir. Pedaqoji fəaliyyət müxtəlif növlü fəaliyyətlər sisteminin mürəkkəb orqanizmdir. Onlardan birincisi, müəllimin fəaliyyətiir. Müəllim yalnız ona kənardan verilmiş funksiyaları yerinə yetirmir. Fəaliyyətin aşağıdakı növləri birinciyə nisbətən üstqurum, yəni ona xidmət edəndir. İkinci fəaliyyət təlimin priyom və metodlarını konstruksiyalaşdırarkən, daha səmərəli üsul və priyomlar tapıb təlim prosedurlarının miqyasında və təlim təcrübəsinin ümumiləşdirilməsində istifadə etməkdən ibarətdir. "Üçüncüsü – metodik fəaliyyətdir. O, tədris vasitələrinin, tədris fənlərinin qurulmasına istiqamətlənmişdir. Dördüncü fəaliyyət isə tədris predmetlərinin vahid şəkildə birləşdirilməsini nəzərdə tutur. Bura proqramlaşdırma fəaliyyəti, tədris proqramlarının tərtibi daxildir" .[3, s.19]

Qloballaşan dünyada xalqlararası inteqrasiya iqtisadi-siyasi, sosial-mədəni əlaqələr təhsilə diqqəti zəruriləşdirir. Pedaqoji fəaliyyətin müxtəlif növlü olması haqqında qeyd edilən nəzəri fikirləri qrafik şəkildə aşağıdakı formada göstərmək mümkündür:

Cədvəl 1. Pedaqoji fəaliyyətin növlərini göstərən cədvəl



Təlimdə inteqrativlik də digər mühüm istiqamətlər kimi birinci dərəcəli məsələlərdən sayılır. İnteqrativlik iki formada mövcuddur:

1. Geniş mənada inteqrativlik
2. Məhdud mənada inteqrativlik.

Hər birinin də məxsusi növləri vardır.

1. Geniş mənada inteqrasiya növləri:

a) Dünya təhsil sistemlərinin inteqrasiyası;
b) Beynəlxalq təhsilin konkret sahələrinin inteqrasiyası;
c) Ölkələrarası təhsil sisteminin ümumi bəndlərinin inteqrasiyası.

2.Məhdud mənada inteqrasiyanın növləri:

a) Ayrı-ayrı məktəblərin qabaqcıl təcrübələrinin inteqrasiyası;
b) Bəzi səriştəli müəllimlərin təcrübələrinin inteqrasiyası;
c) Nüfuzlu metodist-alimlərin peşəkar təcrübələrinin inteqrasiyası;
d) Konkret fənlərdə mühüm istiqamətlərin inteqrasiyası;
e) Müxtəlif mövzuların oxşar (ümumi) əlamətlərinin inteqrasiyası;
ə) Eyni fənn daxilində ayrı-ayrı problemin həllində mühüm rol oynayan yanaşmaların inteqrasiyası.

İnteqrativ sistemin komponentini təşkil edən sahələrdən biri də sintaksisin inteqrativ əsaslı tədrisidir. Qeyd etdiklərimizin hər biri məktəb təcrübəsinə, onun fəaliyyət dairəsinə daxildir.İnteqrativliyin sahələrini əyaniləşdirəsi olsaq, belə bir sxem alınar:



Sintaksisin inteqrativ əsaslı tədris prosesinin məktəb təcrübəsində qoyuluşu pedaqoji fəaliyyətin xüsusiyyətləri əsasında reallaşır. İnteqrativ əsaslı tədrisi gerçəkləşdirən pedaqoji fəaliyyətə məxsus xüsusiyyətlər əsasən bunlardır:

- şagirdlərdə özünəinam hissinin formalaşdırılması;
- şagirdlərdə müstəqil yaradıcılıq vərdişlərinin yaradılması;
- müstəqil düşüncəyə əsaslanan mülahizə söyləmə vərdişlərinin yaradılması;
- ətrafında və cəmiyyətdə baş verən hadisələrə analitik-kommunikativ münasibət ifadə etmə qabiliyyətinin aşılanması və s.

Bu xüsusiyyətlərin vəhdətində inteqrasiya mühitinin formalaşdırılması mümkündür.Pedaqoji xüsusiyyətlərin sistemli şəkildə icrası müəllim fəaliyyətinin məzmununu təşkil edir. Müəllim pedaqoji sferada cərəyan edən iş, təlim prosesi və s. hadisələrin, belə demək mümkünsə, baş qəhrəmanıdır. O nəinki pedaqoji anlayışların işlək olduğu məkanlarda, həm də cəmiyyətdə də aparıcı qüvvə və böyük nüfuz sahibi sayılır.

"Görkəmli şəxsiyyətlər müəllimin əməyinə yüksək qiymət vermiş, müəllimi Günəşə, bağbana, mühəndisə, heykəltaraşa, sərkərdəyə, həkimə bənzətmişlər. Çünki o, günəş kimi insanlığa mənəvi həyat verir, bağban kimi uşaq və gənclərə daim qayğı göstərir, mühəndis kimi insan qəlbinin layihəsini cızır, heykəltaraş kimi gənc qəlbi və ağlı cilalayır, sərkərdə kimi cahilliyə, vəhşiliyə, şərə qarşı amansız mübarizə aparır, həkim kimi millətin mənəvi sağlamlığı keşiyində durur"[4,s. 48].

Uşaqların təlim-tərbiyəsinin müvafiq səviyyədə formalaşması, onlarda peşə-ixtisas və vətəndaşlıq keyfiyyətlərinin yaradılması müəllim fəaliyyətinin əsas məzmununu təşkil edir. Uşaq və gənclərin valideynlərə yüksək hörmət və ehtiramı, eyni zamanda torpağa, yurda sevgisi, vətənə, xalqa sədaqəti müəllimin inteqrasiya siyasətinin əsasını təşkil edir. Fənlərarası mövzular arası (fəndaxili) inteqrasiya yüksək amalların, böyük ideyaların, müqəddəs atributların birliyinin öyrədilməsinin vacib komponentləri hesab edilir.

Müəllimin pedaqoji fəaliyyətinin məzmununa uyğun yaranmış təlim mühitini təhlil etmək (diaqnoz), gələcək fəaliyyət növlərini müəyyənləşdirmək (proqnoz) və tədris prosesinin məzmun, forma və strukturuna uyğun olan metod və üsulları seçmək, onu tədris zamanı tətbiq etmək (metodlaşdırma), nəhayət, təlim prosesinə münasibət bildirmə (qiymətləndirmə) də daxildir.

Verilən analitik məlumatları nəzərə alsaq, müəllim fəaliyyətinin məzmun strukturunu bu cür sxemlə ifadə etmək məqsədəuyğun sayıla bilər:

Cədvəl 3. Müəllim fəaliyyətinin məzmun strukturlarını göstərən sxem.



Daha təcrübəli müəllimlərlə, məktəb rəhbərliyi ilə səmərəli və peşəkar münasibətlərin qurulması da əhəmiyyətlidir, çünki onların təcrübəsinin öyrənilməsi gənc müəllimin gələcək fəaliyyətinə böyük töhfə vermiş olar. Təcrübəli müəllimlərin dərslərdə iştirakı, müvafiq məsləhətlərin verilməsi də sizə dəstəkdir. Müəllimlərlə yanaşı, şagird və onların valideynlərində də xoş təəssürat yaratmaq lazımdır .

1.Müəllim-şagird arasındakı elmi-didaktik məlumatların anlaşılması;

2. Müəllim –şagird arasında səmimi, inandırıcı etimad mühitinin formalaşması.

Göstərilən hər iki kommunikativ münasibət təlimin səmərəli və keyfiyyətli olması ilə nəticələnir O cümlədən tədrisdə inteqrasiyanın metod səviyyəsinə çatdırılması da məhz kommunikativ münasibətin təzahürüdür. Dissertasiyanın ana xəttini təşkil edən sintaksisin inteqrativ əsaslı tədrisi prosesində də müəllim-şagird ünsiyyətinin sadəliyi mühüm rol oynayır.

Pedaqoji bacarıqların fəaliyyət strukturlarının nəzəri şərhinə yekun vuraraq, onu praktik müstəvidə canlandırmaq üçün aşağıdakı qrafik sxemlərdən istifadəni daha məqsədəuyğun hesab edirik:



Cədvəl 4. Pedaqoji bacarıqların fəaliyyət strukturlarını əks etdirən cədvəl.

Müasir tipli məktəb təcrübəsi dedikdə həm zahiri struktur – dünya standartlarına məxsus inşa edilmiş, eyni zamanda müasir avadanlıqlarla, yeni tələblərə cavab verən inventarlarla təmin edilən və daxili strukturu baxımından – dünyanın qabaqcıl ölkələrinin ümumtəhsil məktəblərinin modern proqramlarının ən son nailiyyətlərindən bəhrələnən, mükəmməl prinsiplərinizündə inteqrasiya edən qabaqcıl məktəb təcrübəsi nəzərdə tutulur.

“Bu mühüm əxlaqi-mənəvi keyfiyyətlərin fövqündə müəllimin öz peşəsini mükəmməl bilməsi və onu xüsusi həvəslə, məharətlə şagirdlərə aşılama qabiliyyətlərinin olmasıdır. Haqsız olaraq “biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzətmişlər” [5, s. 61]

Məktəb təcrübəsinin təkmilləşməsi və dinamik xarakter alması üçün məktəb rəhbərliyi tərəfindən təyin edilmiş pedaqoji şura və metodik heyət bu təlim prosesinə mütəmadi nəzarət etməlidir. Bu məqsədlə pedaqoji heyət tərəfindən nəzarət mexanizmi hazırlanmalıdır. Nəzarət mexanizmi aşağıdakı müddəaları özündə ehtiva edə bilər:

- yeni tədris proqramlarının təbliği və mənimsədilmə işinin təşkili;
- məktəbdaxili seminar və konfransların keçirilməsinin ardıcıl xarakter alması;
- ustad dərslərinin keçirilməsi;
- digər metodik aspektlərlə yanaşı, inteqrativ istiqamətin tədrisinin genişləndirilməsi;
- peşəkar müəllimlərin qabaqcıl təcrübələrindən, məsləhət və tövsiyələrindən intensiv istifadə edilməsi;
- əyani vəsaitlərdən (dərslik, dərs və metodik vəsait elektron resurs İKT imkanları və s.) geniş və mükəmməl istifadə edilməsi;
- qiymətləndirmənin daha şəffaf, obyektiv keçirilməsinin təmin edilməsi.

Nəzarət mexanimi güclü təsir vasitəsidir. Təlim və tədris prosesinin səmərəli, əhəmiyyətli nəticələr verməsi üçün nəzarət mexanizmi gücləndirilmiş rejimdə fəaliyyət göstərməlidir. Qiymətləndirmə bu mexanizmin komponenti olmalıdır.

Nəticə: Nəticə etibarilə deyə bilərik ki, mətnlər üzrə işdə sadə və mürəkkəb cümlənin struktur-semantik tiplərinin və sintaksisin inteqrativ əsaslı tədrisi məsələsinin,ümumən inteqrativ metodun məktəb təcrübəsində qoyuluşu məktəbdaxili tədrisin keyfiyyətindən asılıdır. Tədris-təlim prosesi rejim əsasında fəaliyyət göstərirsə, metodikanın bütün komponentləri düzgün icra ediləcəkdir. Əlbəttə, ənənəvi təlimin qənaətbəxş və faydalı hissələrini interaktiv (fəal) təlimlə inteqrativ kontekstdə icra etdikdə daha aktual nəticələrə sahib olmaq mümkündür.

Ədəbiyyat

1. Əfəndizadə Ə., Kəlbəliyev Ə., Əhmədov V., Vahidov S. Azərbaycan dilindən didaktiv materiallar (VI sinif). Maarif, Bakı – 1981, 249 s.
2. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Maarif, Bakı – 1974, 116 s.
3. Əhmədov B. Sadə cümlənin tədrisi prosesində nitq inkişafı üzrə aparılan işlər. ADTPƏN, Bakı – 1964.
4. Əhmədov A., Abbasov Ə. Yeni təhsil proqramlarının (kurikumların) tətbiqi məsələləri: ümumi təhsildə inteqrsiya. Bakı: 2014,122s
5. Həsənov M. Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər. Maarif, Bakı- 1987, 152s.
6. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Bakı: 2011, 156 s.
7. Hümmətova R. Ana dili (III). ADPU, Bakı-2019, 290 s.
8. Kazımov Q. Müasir Azərbaycan dili(sintaksis), Bakı: 2000,s. 485
9. Kazımov A. Ümumi təhsil kurikulumunun əsasları. Bakı: 2015, 117 s.
10. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Azərbaycan dili dərsliyi. "Şərq-Qərb" ASC, Bakı – 2020, 202 s.

Farmanli Sanan Nadir oglu
Master's student of Azerbaijan State Pedagogical University
abbasov-edalat@mail.ru
https://orcid.org/0009-0003-9704-2732

Ntegrative-based teaching of simple and complex sentence types in text work and attitude to the issue in school practice

SUMMARY

As in other subjects, the issues of teaching sentence structure are also carried out in accordance with modern requirements. The training is carried out on a text with a complex of internal criteria. For the effectiveness and successful outcome of the educational work, it is considered expedient to conduct it using integrative methods. This, in turn, presupposes the teaching of syntactic training on an integrative basis. In order to achieve the goal set in solving the problem, it is important to emphasize the basis of school practice in the work on texts. As a result, it can be concluded that the introduction of the issue of teaching structural-semantic types of simple and complex sentences and syntax on an integrative basis in the work on texts depends on the quality of intra-school teaching. If the teaching-learning process operates on the basis of the regime, all components of its methodology will be implemented correctly. Of course, it is possible to have more relevant results when the satisfactory and useful parts of traditional training are implemented in an integrative context with interactive (active) training.

Keywords:pedagogical skills, integrative method, areas of integrativeness, structural-semantic type, simple sentence, complex sentence, syntax, traditional training

Фарманли Санан Надир оглу
Магистрант Азербайджанского государственного педагогического университета
abbasov-edalat@mail.ru
https://orcid.org/0009-0003-9704-2732

Интегративное обучение простым и сложным предложениям в текстовой работе и отношение к этой проблеме в школьной практике

РЕЗЮМЕ

Как и в других предметах, вопросы обучения строению предложения также решаются в соответствии с современными требованиями. Обучение осуществляется на основе текста, обладающего комплексом внутренних критериев. Для эффективности и успешного результата учебной работы считается целесообразным проводить её с использованием интегративных методов. Это, в свою очередь, предполагает обучение синтаксическому обучению на интегративной основе. Для достижения поставленной цели при решении проблемы важно подчеркнуть основу школьной практики в работе с текстами.

В результате можно сделать вывод, что внедрение вопроса обучения структурно-семантическим типам простых и сложных предложений и синтаксису на интегративной основе в работу с текстами зависит от качества внутришкольного обучения. Если учебно-воспитательный процесс функционирует на основе режима, все компоненты его методики будут реализованы правильно. Конечно, можно иметь более релевантные результаты, когда удовлетворительные и полезные части традиционного обучения реализуются в интегративном контексте с интерактивным (активным) обучением.

Ключевые слова: педагогическое мастерство, интегративный метод, области интегративности, структурно-семантический тип, простое предложение, сложное предложение, синтаксис, традиционное обучение

RƏYÇİ: dos. S.Abbasova

DOI 10.24412/2218-7588-2026-1-153-156

Məsmə İsmayılova Əliyulla qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
https://orcid.org/0000-0001-8225-451X
ismayilovamasma@gmail.com

ÜNSİYYƏTİN MAHİYYƏTİ, STRUKTURU VƏ FUNKSİYALARI

Xülasə: Məqalədə ünsiyyət anlayışının mahiyyəti, onun struktur komponentləri və cəmiyyətdə yerinə yetirdiyi əsas funksiyalar kompleks şəkildə təhlil olunur. Ünsiyyət insan fəaliyyətinin və sosial münasibətlərin fundamental şərti kimi təqdim edilir və fərdlər arasında informasiya mübadiləsi, qarşılıqlı təsir və qarşılıqlı anlaşmanın formalaşmasında həlledici rol oynadığı əsaslandırılır. Tədqiqatda ünsiyyət yalnız informasiya ötürülməsi prosesi kimi deyil, eyni zamanda sosial, psixoloji və mədəni kontekstlərdə baş verən çoxşaxəli fenomen kimi nəzərdən keçirilir.

Burada ünsiyyətin strukturu əsas komponentlər üzrə sistemləşdirilir: kommunikativ (informasiya mübadiləsi), interaktiv (qarşılıqlı təsir və davranışların tənzimlənməsi) və perseptiv (ünsiyyət iştirakçılarının bir-birini qavraması və dərk etməsi) tərəflər ayrılıqda şərh edilir. Hər bir struktur elementin ünsiyyət prosesindəki rolu, onların qarşılıqlı əlaqəsi və vəhdəti elmi-nəzəri baxımdan əsaslandırılır.

Ünsiyyətin əsas funksiyaları - informasiyaötürücü, tənzimləyici, affektiv-emosional, sosiallaşma və identifikasiya funksiyaları təhlil olunur. Bu funksiyaların fərdin şəxsiyyət kimi formalaşmasında, sosial münasibətlərin qurulmasında və cəmiyyətin davamlı inkişafında oynadığı rol elmi arqumentlərlə izah edilir. Nəticə etibarilə, annotasiyada ünsiyyətin insan fəaliyyətinin ayrılmaz tərkib hissəsi olduğu və onun mahiyyətinin, strukturunun və funksiyalarının öyrənilməsinin psixologiya, pedaqogika və sosial elmlər üçün mühüm elmi əhəmiyyət daşıdığı qənaətinə gəlinir.

Açar sözlər: ünsiyyət, kommunikasiya**,** sosial qarşılıqlı təsir**,** informasiya mübadiləsi**,** ünsiyyətin strukturu**,** interaktiv əlaqə**,** perseptiv qavrayış, sosiallaşma**,** ünsiyyət funksiyaları.

Giriş: Ünsiyyət insan cəmiyyətinin strukturunu, sosial münasibətlərin formalaşmasını və mədəni dəyərlərin ötürülməsini təmin edən fundamental sosial mexanizmdir. O, həm fərdi davranışların təşkili, həm də qlobal ictimai sistemlərin funksionallığı üçün vacibdir.

Ünsiyyət, insan cəmiyyətində informasiya, fikir, duyğu və dəyərlərin ötürülməsi və paylaşılması prosesi kimi mühüm rol oynayır. Sadə dillə desək, ünsiyyət insan-ların bir-biri ilə əlaqə qurmasıdır, lakin fəlsəfi baxımdan o, yalnız söz və jestlərlə məhdudlaşmır; həm də mövcudluq və bilik səviyyəsində dərin mənalara malikdir. Ünsiyyət həm məlumatın ötürülməsi, həm də sosial və mədəni kontekstin əks olun-ması vasitəsidir.

Ontoloji aspekt baxımından ünsiyyət insanın varlığının təzahürüdür. İnsan yalnız fərd olaraq deyil, ünsiyyət vasitəsilə sosial varlıq kimi mövcuddur. Dil, jest və davra-nış kimi ünsiyyət vasitələri insanın dünyadakı mövqeyini ifadə edən ontoloji kodlar hesab olunur.

Epistemoloji aspekt isə ünsiyyətin bilik yaratma və paylaşma funksiyasını vurğulayır. Ünsiyyət vasitəsilə insanlar öz təcrübələrini və biliklərini paylaşır, yeni biliklər formalaşdırır və mövcud bilikləri yenidən şərh edirlər.

Ontoloji və epistemoloji aspektlər bir-birini tamamlayır. Ünsiyyət həm "kim ol-duğumuzu göstərir", həm də "nəyi bildiyimizi paylaşır". Danışıq və yazılı ifadə həm insanın mövcudluğunu təsdiqləyir, həm də bilik paylaşımını təmin edir.

Əsas hissə: İnsan həyatının mərkəzində ünsiyyət dayanır. O, yalnız gündəlik ehtiyacları qar-şılamaq vasitəsi deyil, həm də insanın mənəvi, sosial və intellektual inkişafının təməlini təşkil edən bir fenomen olaraq çıxış edir. Fəlsəfi baxımdan ünsiyyət insan varlığının mahiyyətini anlamaq üçün vacib bir vasitədir. İnsan yalnız fiziki olaraq yaşamaqla kifayətlənmir; onun varlığı başqaları ilə əlaqədə tamamlanır və məna-landırılır.

Ünsiyyət insan həyatında müxtəlif dövrlərdə təməl elementlərindən biri kimi dəyərləndirilmişdir.Antik dövr fəlsəfəsində ünsiyyət insan həyatının təməl element-lərindən biri kimi qiymətləndirilmişdir. Platonun dialoqları göstərir ki, həqiqətə çat-maq və bilik əldə etmək yalnız təkbaşına düşünməklə mümkün deyil. Sokratın meto-dunda dialoq əsas vasitədir; insan suallar vasitəsilə öz daxili dünyasını kəşf edir və mənəvi inkişafını təmin edir. Platon üçün ünsiyyət həm də əxlaqi formalaşmanın tə-məlidir, çünki o, insanın düşüncə və davranışını formalaşdıran dialoq prosesinin əhə-miyyətini vurğulayır.

Orta və yeni dövr fəlsəfəsi də ünsiyyətin mahiyyətini müxtəlif aspektlərdə araşdırmışdır. Rene Dekartın düşüncə və ifadə arasında əlaqəsi, insanın özünü və dünyanı anlamaq üçün dil və ünsiyyətdən necə istifadə edə biləcəyini göstərir. John Locke və David Hume isə ünsiyyəti empirik bilik və sosial təcrübənin ötürülməsi kontekstində qiymətləndirirlər. Onların fikrincə, insan bilik əldə etmək və sosial harmoniyaya nail olmaq üçün başqaları ilə ünsiyyət qurmaq məcburiyyətindədir.

Ünsiyyət yalnız sosial münasibətlərdə deyil, həm də mədəniyyət və bilik system-lərinin formalaşmasında əsas rol oynayır. Dil, jest və simvollar sistemi insan təcrü-bəsini ötürmək, duyğu və düşüncəni ifadə etmək üçün əsas vasitədir. Ferdinand de Saussure və dil fəlsəfəsi göstərir ki, dil həm düşüncəni strukturlaşdırır, həm də cə-miyyətin bilik sistemlərini qoruyur. Dil vasitəsilə insanlar yalnız özlərini ifadə etmir, həm də gələcək nəsillərə mədəniyyət, tarix və bilik ötürürlər.

Ünsiyyətin fəlsəfi aspektləri həm ontoloji, həm də epistemoloji baxımdan qiy-mətləndirilir. Ontoloji baxımdan, ünsiyyət insan varlığının mahiyyətini müəyyən edir. İnsan başqaları ilə ünsiyyətdə olduqda öz varlığını təsdiqləyir və

mənalandırır. Epistemoloji baxımdan isə, ünsiyyət bilik əldə etmənin, dünyanı anlamağın və ideyaları paylaşmağın əsas vasitəsidir.

Nəticə etibarilə, ünsiyyət insan həyatının hər bir sahəsində həyati əhəmiyyət kəsb edir. O, yalnız məlumat mübadiləsi deyil, həm də insanın mənəvi və intellektual inkişafını təmin edən bir prosesdir.

Ünsiyyət insan həyatının ayrılmaz bir hissəsidir və yalnız məlumat mübadiləsi deyil, həm də insanların hiss, düşüncə və emosiyalarını paylaşması prosesidir. Psixo-loji baxımdan ünsiyyət, insanın daxili dünyasını başqalarına ötürməsi və əksinə, başqalarının daxili vəziyyətini qavraması ilə sıx bağlıdır. Bu prosesdə həm verən, həm də qəbul edən tərəfin psixoloji xüsusiyyətləri, emosional vəziyyəti və sosial konteksti böyük rol oynayır.

Ünsiyyətin psixoloji funksiyaları çoxşaxəlidir. Birincisi, informasiya funksi-yası, yəni insanların bir-birinə məlumat ötürməsi və öyrənməsi. İkincisi, emosional funksiyasıdır; insanlar hisslərini paylaşmaqla sosial bağlarını gücləndirir və empa-tiya yaradır. Üçüncüsü, tənzimləyici funksiyası, yəni davranışların nizama salınması və sosial qaydalara uyğunluğun təmin olunmasıdır. Nəhayət, motivasiya funksiyası vasitəsilə insanlar başqalarını müəyyən hərəkətlərə təşviq edə bilirlər.

Psixologiyada ünsiyyət bir neçə nəzəriyyə çərçivəsində izah edilir. Klassik ünsiyyət modeli mesajın verən-subyekt tərəfindən göndərilməsi, kanal vasitəsilə ötürülməsi və qəbul edən-subyekt tərəfindən qavranılması ardıcıllığını göstərir. Sosial psixoloji yanaşma isə ünsiyyəti insanların sosial simvollar və mənalar vasitəsilə qarşılıqlı təsir prosesinə çevirir.

Emosional və empatiya nəzəriyyələri də ünsiyyətin psixoloji təməlini izah edir. Carl Rogersə görə, effektiv ünsiyyət üçün qarşı tərəfin hisslərini düzgün qavramaq və ona uyğun reaksiya vermək vacibdir. Kognitiv və qavrayış yönümlü nəzəriyyələr isə göstərir ki, ünsiyyət yalnız sözlərdən ibarət deyil; mimika, ton, jest və digər qeyri-verbal siqnallar da əhəmiyyətli rol oynayır. Albert Bandura isə sosial öyrənmə nə-zəriyyəsi vasitəsilə bildirir ki, insanlar başqalarının davranışlarını müşahidə edərək ünsiyyət bacarıqlarını inkişaf etdirirlər.

Ünsiyyətin effektivliyi bir çox psixoloji faktorlarla bağlıdır. Şəxsi xüsusiyyətlər, emosional stabilik, əhval-ruhiyyə, sosial kontekst, həmçinin intellekt və empatiya səviyyəsi mesajın düzgün qavranılmasını və qarşılıqlı anlaşmanı təmin edir. Bu faktorlar nəzərə alınmadan həyata keçirilən ünsiyyət çox vaxt yanlış anlaşılmalara və emosional gərginliyə səbəb ola bilər. Ünsiyyətin əsas struktur komponentlərindən biri müraciətçi və ya ünsiyyət subyektidir. Bu, məlumatı ötürən şəxsdir. Müraciətçi yalnız mesajı ötürməklə kifa-yətlənmir, həm də onu alıcının anlayacağı şəkildə formalaşdırmalıdır. Bunun üçün müraciətçi həm dil, həm də jest, mimika və bədən dili kimi qeyri-verbal vasitələrdən istifadə edir.

İkinci komponent isə alıcıdır. Alıcı mesajı qəbul edən, şərh edən və ona cavab verən tərəfdir. Ünsiyyətin uğuru böyük ölçüdə alıcının diqqətinə, anlayışına və reak-siyasına bağlıdır. Alıcının empatiya səviyyəsi, məlumatın mənimsənilməsi və düz-gün interpretasiyası ünsiyyətin effektivliyini birbaşa təsir edir.

Üçüncü mühüm komponent mesajdır. Mesaj, fikir, məlumat və ya duyğuların formalaşdırılmış halıdır və ünsiyyətin məzmununu təşkil edir. Mesajın dəqiqliyi, sadəliyi və aydınlığı onun düzgün çatdırılmasında həlledici rol oynayır.

Dördüncü komponent isə kanal və ya nəqliyyat vasitəsidir. Mesajın ötürülməsi üçün istifadə olunan vasitə ünsiyyətin növünü müəyyən edir. Bu, həm yazılı, həm şifahi, həm də rəqəmsal vasitələr ola bilər. Kanalın uyğun seçilməsi mesajın effek-tivliyini artırır. Ünsiyyət insan cəmiyyətinin əsas sütunlarından biridir. İnsan yalnız fərd olaraq yaşaya bilməz; o, daim başqaları ilə əlaqə qurmaq, məlumat mübadiləsi aparmaq və duyğularını paylaşmaq ehtiyacı hiss edir.Əsas məqsədi isə fərdlərin bir-biri ilə anlaşmasını təmin etməkdir. Ünsiyyətin funksiyaları çoxşaxəlidir və həyatın müxtəlif sahələrində fərqli rol oynayır.

Birinci və ən əsas funksiya informasiya ötürmə funksiyasıdır. İnsanlar gündəlik həyatda daim məlumat alır və ötürürlər. Bu, həm elmi, həm sosial, həm də şəxsi hə-yatın ayrılmaz hissəsidir. Məsələn, müəllim şagirdlərə dərs izah edərkən, valideyn uşaqlarına müəyyən qaydaları öyrədərkən, insanlar gündəlik xəbərləri paylaşarkən ünsiyyət vasitəsilə informasiya ötürürlər. Bu funksiyanın effektivliyi insanların dün-yanı daha yaxşı başa düşməsinə və problemləri həll etməsinə imkan yaradır.

İkinci funksiya tərbiyə və təhsil funksiyasıdır. İnsanların əxlaq, mədəniyyət və dəyərləri öyrənməsi ünsiyyət vasitəsilə baş verir. Uşaqlar böyüklərlə ünsiyyət qura-raq sosial normaları, davranış qaydalarını və mədəni dəyərləri mənimsəyirlər. Bu funksiya həm də sosial inteqrasiyanın əsasını təşkil edir. İnsanlar yalnız məlumat mübadiləsi ilə kifayətlənməyərək, qarşılıqlı ünsiyyət yolu ilə şəxsi və sosial inki-şaflarını təmin edirlər.

Üçüncü funksiya emosional funksiyadır. Ünsiyyət insanların emosiyalarını ifadə etməyə, paylaşmağa və başqalarının hisslərini anlamağa imkan verir. İnsan yalnız informasiya ötürmür, həm də sevincini, kədərini, narahatlığını və digər emosi-yalarını ifadə edir. Bu, həm fərdi, həm də kollektiv səviyyədə münasibətlərin forma-laşmasına kömək edir. Məsələn, dostlarla söhbət etmək, ailə üzvləri ilə hissləri pay-laşmaq, iş yoldaşları ilə əməkdaşlıq etmək insanların psixoloji sağlamlığı üçün va-cibdir.

Dördüncü funksiya sosial tənzimləmə funksiyasıdır. Ünsiyyət sosial davranışın və qarşılıqlı münasibətlərin qaydalarını müəyyən edir. İnsanlar ünsiyyət vasitəsilə bir-birinə qarşı davranış meyarlarını öyrənir, konfliktləri həll edir və əməkdaşlıq şəraitini yaradırlar. Məsələn, iş mühitində rəhbər və işçi arasında ünsiyyət iş pro-sesini nizamlamaq, tapşırıqları düzgün bölüşdürmək və məhsuldarlığı artırmaq üçün vacibdir.

Ünsiyyətin bir sıra nəzəri yanaşmaları vardır.Onlardan biri simvolik qarşılıqlı təsir nəzəriyyəsidir.Simvolik qarşılıqlı təsir nəzəriyyəsi George Herbert Mead və Herbert Blumer tərəfindən inkişaf etdirilmişdir. Bu yanaşmaya görə, insanlar ünsiy-yət vasitəsilə sosial reallığı qavrayır, təcrübələrini paylaşır və kollektiv mənalar yaradır. İnsanların davranışı və qərarları, qarşılıqlı təsir nəticəsində formalaşan simvollar və mənalar üzərində qurulur.

Məsələn, sosial media platformalarında insanlar avatarlar, status yeniləmələri və emoji kimi simvollar vasitəsilə öz sosial identikliklərini formalaşdırır. Bu yanaşma göstərir ki, ünsiyyət yalnız sözlərin və mesajların ötürülməsi deyil, həm də sosial mənanın yaradılmasıdır. Mead-in fikrincə, "İnsan yalnız digər insanlarla qarşılıqlı təsir nəticəsində tam şəxsiyyətə malik olur" (Mead, 1934). Müasir dövrdə bu nəzə-riyyə, xüsusən rəqəmsal kommunikasiya və virtual icmaların öyrənilməsində geniş tətbiq olunur.

Digəri diskurs nəzəriyyəsi ünsiyyəti güc münasibətləri və ictimai struktur çərçivəsində tədqiq edir. Mişel Fuko və Jürgen Habermas bu yanaşmanın əsas nümayəndələridir. Diskurs nəzəriyyəsinə görə, ünsiyyət yalnız məlumat ötürülməsi deyil, həm də ideologiyaların, mədəni dəyərlərin və sosial normativlərin formalaş-ması mexanizmidir. Fuco göstərir ki, ünsiyyət vasitəsilə müəyyən bilik və güc strukturları cəmiyyət daxilində möhkəmlənir. Məsələn, media vasitəsilə yayılan xəbərlər və məlumatlar cəmiyyətin düşüncə tərzini və davranış qaydalarını formalaşdıra bilər (Fuko, 1972). Habermas isə "Ümumi kommunikativ hərəkət" konsepsiyası ilə vurğulayır ki, insanlar arasında səmərəli ünsiyyət yalnız qarşılıqlı anlaşma və dialoq yolu ilə mümkündür (Habermas, 1984).

Növbəti, interaktiv və şəbəkə yanaşmalar nəzəriyyəsidir.Müasir texnoloji inkişaflar ünsiyyəti daha interaktiv və şəbəkə yönümlü bir proses kimi izah etməyə imkan vermişdir. Manuel Kastellsin "Şəbəkə Cəmiyyəti" konsepsiyası buna aydın nümunədir. Kastells vurğulayır ki, informasiya və kommunikasiya texnologiyaları ünsiyyəti lokallaşdırılmış sosial mühitlərdən qlobal şəbəkələrə doğru genişləndirmişdir. Bu yanaşmaya görə, ünsiyyət artıq xətti deyil, çox istiqamətli və real vaxt rejimində baş verən dinamik bir prosesdir (Kastells, 1996).

Nəticə: Ünsiyyət müasir dövrdə yalnız məlumat mübadiləsi deyil, həm də sosial mənanın, mədəni dəyərlərin və qlobal şəbəkələrin formalaşdığı mürəkkəb prosesdir. Müasir nəzəri yanaşmalar – simvolik qarşılıqlı təsir, diskurs nəzəriyyəsi, interaktiv şəbəkə və koqnitiv yanaşmalar – bu prosesi fərqli prizmalardan anlamağa imkan verir. Onların tətbiqi yalnız elmi tədqiqatlarda deyil, həm də praktiki kommunikasiya strategiyalarının hazırlanmasında vacibdir. Müasir cəmiyyətdə ünsiyyət anlayışının genişləndirilməsi insan fəaliyyətinin effektivliyini artırmaqla yanaşı, sosial əlaqələrin və kollektiv mənaların inkişafına da mühüm töhfə verir.

İSTİADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Rene Dekart,"Metod haqqında düşüncələr"(Discours de la méthode, 1637)
2.Rene Dekart, "Birinci fəlsəfə haqqında meditasiya"(Meditationes de prima philo-sophia, 1641)
3. George Herbert Mead. "Mind, Self, and Society" 1934
4.Michel Foucault, "The Archaeology of Knowledge; And, the Discourse on Language" 1972.
5. Manuel Castells, The Rise of the Network Society (The Information Age: Eco-nomy, Society and Culture, Vol. I) ,1996
6. Jürgen Habermas, The Theory of Communicative Action,1984.

Masma Ismayilova Aliyulla
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology, Senior Lecturer
https://orcid.org/0000-0001-8225-451X
ismayilovamasma@gmail.com

Essence, structure and function of communication153

SUMMARY

Communication is an integral part of human activity and forms the basis of social relations. Its essence lies in the exchange of information, ideas, emotions, and meanings. This process ensures mutual understanding and social integration among individuals. The structure of communication generally consists of three main elements: sender (the one transmitting information), message (the content conveyed), and receiver (the one receiving information). In addition, communication channels (verbal, written, visual, and non-verbal) and context (cultural, social, situational) are integral parts of this structure.

Communication performs various functions. Its primary functions include the informative function (transmitting information), regulatory function (managing behaviors and relationships), social-cohesive function (strengthening interpersonal connections), and emotional function (expressing and sharing feelings). Communication is also essential for knowledge transfer, social influence, and organizing collective activities. In the modern era, information technologies have significantly increased the speed and reach of communication, while simultaneously affecting its quality and meaning.

Thus, communication is a complex and multifaceted phenomenon that plays a central role in both individual and societal development.

Key words: communication, social interaction, information exchange, structure of communication, interactive communication, perceptive perception, socialization, communication functions.

Масма Исмайлова Алиулла кызы
Азербайджанский Государственный Педагогический Университет
доктор философских наук, старший преподаватель
https://orcid.org/0000-0001-8225-451X
ismayilovamasma@gmail.com

Сущность, структура и функции коммуникации

РЕЗЮМЕ

Коммуникация является неотъемлемой частью человеческой деятельности и основой социальных отношений. Суть коммуникации заключается в обмене информацией, идеями, эмоциями и значениями. Этот процесс обеспечивает взаимопонимание и социальную интеграцию между людьми. Структура коммуникации обычно включает три основных элемента: отправитель (тот, кто передает информацию), сообщение (передаваемое содержание) и получатель (тот, кто получает информацию). Кроме того, каналы коммуникации (устные, письменные, визуальные и невербальные) и контекст (культурный, социальный, ситуационный) являются неотъемлемой частью структуры.

Коммуникация выполняет различные функции. Основные функции включают информационную функцию (передача информации), регулятивную функцию (управление поведением и отношениями), социально-консолидирующую функцию (укрепление межличностных связей) и эмоциональную функцию (выражение и обмен эмоциями). Коммуникация также является ключевым средством передачи знаний, социального влияния и организации коллективной деятельности. В современном мире информационные технологии значительно увеличили скорость и охват коммуникации, одновременно влияя на её качество и содержание.

Таким образом, коммуникация представляет собой сложное и многогранное явление, играющее центральную роль в развитии как индивидуальной, так и общественной жизни.

Ключевые слова: коммуникация, социальное взаимодействие, обмен информацией, структура коммуникации, интерактивная коммуникация, перцептивное восприятие, социализация, коммуникационные функции.

RƏYÇİ: dos. L.Ələkbərova

DOI 10.24412/2218-7588-2026-1-157-159

Zemfira Cəlil qızı Cəlilova
Azərbaycan Memarlıq və İnşaat Universiteti, baş müəllim
zemfira.jelilova@azmiu.edu.az
DOIhttps://orcid.org/0009-0004-2142-6956

DİL TƏDRİSİNDƏ KONTEKSTUAL YANAŞMA

Xülasə:Məqalə Azərbaycan dilinin öyrədilməsində kontekstual yanaşmanın əhəmiyyətini araşdırır, bu yanaşmanın müasir dil tədrisi üçün aktual olduğunu qeyd edir. Kontekstual yanaşmanın müxtəlif metodlardan istifadə edərək tətbiqi müzakirə edilir: səhnəcik, müzakirə və dialoqlar tələbələrin dil bacarıqlarını artırır. Bu, öyrənənlərə dilin dinamikasını daha yaxşı başa düşməyə kömək edir. Dil öyrənilməsində kontekstual yanaşmanın əhəmiyyətli rolu var. Müəllimlərin peşəkarlığı və konteksti seçmə qabiliyyəti uğurlu tədrisin əsasını qoyur. Bu yanaşmanın geniş yayılması, dil öyrənilməsini daha effektiv edir.

Açar sözlər: *kontekst, metod, dinamika, assosasiya, situasiya, interaktiv, mühit*

Giriş: Azərbaycan dili qədim mədəniyyətimizin və zəngin tarixi irsimizin bir hissəsidir. Son illərdə əcnəbilərə Azərbaycan dilinin öyrədilməsi üzrə artan tələbat bu dili öyrənmək istəyənlər üçün yeni metodların və yanaşmaların tətbiqi zərurətini doğurur. Müəllimlərin yeni metodlar sayəsində təcrübələri artdıqca və bu təlimə kifayət qədər müəllim cəlb olunduqca yeni metodiki tövsiyələrə, təlim resurslarına və digər metodiki vəsaitlərə tələbat artır (9, 68). Kontekstual yanaşma dil öyrənməyi daha effektiv hala gətirmək üçün müasir dil tədrisi metodlarından biri kimi qəbul edilir.

Əsas hissə: Kontekstual metod (və ya kontekstual təfsir) təlim və təhlil prosesində məlumatın birbaşa yer aldığı mühit, şərait və ya mətn çərçivəsində (kontekstdə) qiymətləndirilməsidir. Bu yanaşma, biliklərin abstrakt deyil, konkret vəziyyətlərlə əlaqələndirilərək daha dərindən başa düşülməsini, öyrənməni və tənqidi təfəkkürü inkişaf etdirir. Bu yanaşma dilin real həyatdakı istifadəsini əsaslandıraraq öyrənənlərin motivasiyasını artırır və dil biliklərini praktikada tətbiq etməyə imkan yaradır. Bu tədqiqat işi kontekstual yanaşma əsasında dil tədrisinin effektivliyini araşdırır. Dil tədrisində kontekstual metod, söz və qrammatik qaydaları təcrid olunmuş şəkildə deyil, real və ya simulyasiya edilmiş situasiyalar (kontekst) daxilində öyrədir. Bu yanaşma dilin sosial və mədəni uyğunluğunu ön plana çıxararaq dil öyrənənlərin yeni məlumatları daha effektiv mənimsəməsinə və praktik istifadə bacarıqlarını inkişaf etdirməsinə kömək edir. Müasir tədris metodları tələbələrin aktiv iştirakını təmin edən və onların öyrənmə prosesini daha maraqlı edən yanaşmalardır. J.Harmer müasir metodların tələbələrin motivasiyasını artırdığını və onların dil bacarıqlarını inkişaf etdirdiyini qeyd edir (6).

Kontekstual yanaşma dilin yalnız qrammatik və leksik strukturunun öyrənilməsini deyil, eyni zamanda onun mədəni, sosial və tarixi kontekstlərini də nəzərə alır. Dil öyrənənlər gündəlik həyat, iş mühiti, sosial münasibətlər və s. kontekstdə dil istifadə etmə bacarıqlarını inkişaf etdirir. Kontekstual yanaşma bir çox faktorları bir araya gətirərək dilin funksional istifadəsini əsas götürən bir tədris prinsipidir. Bu yanaşma vasitəsilə öyrənənlər dilin yalnız qaydalarını deyil, eyni zamanda müxtəlif sosial, mədəni və emosional vəziyyətlərdə necə istifadə olunduğunu da öyrənirlər. Beləliklə, dil öyrənmə daha real və gündəlik həyatda tətbiq olunabilən hala gəlir.

Kontekstual yanaşma dilin kontekstdən asılı olaraq necə dəyişdiyini başa düşməyə kömək edir: eyni ifadə iş mühitində, dostlar arasında və ya rəsmi bir görüşdə fərqli mənalar daşıya bilər. Bu, öyrənənlərin dilin çevikliyini anlamalarına və onu müvafiq şəraitə uyğun olaraq istifadə etmələrinə imkan verir.

Dil və kontekst assosiasiyası dilin yalnız qrammatik qaydalarından ibarət olmadığını, həm də onun müvafiq sosial, mədəni və situativ kontekstdə necə istifadə olunduğunu göstərən bir yanaşmadır. Bu yanaşma dil öyrənənlərin dil biliklərini yalnız akademik müstəvidə deyil, gündəlik yaşamda da tətbiq etmələrini təmin edir. Dil və kontekst assosiasiyası dil öyrənmənin mütləq bir hissəsidir. Bu yanaşma vasitəsilə öyrənənlər mədəni, sosial və emosional dinamikaları anlamaq bacarıqlarını qazanırlar. Kontekstual yolla dil öyrənmək, öyrənənlərə daha təsirli və dərin bir anlayış qazandırır.

Öyrənənlərin real mühitdə dil öyrənmələri onların motivasiyasını artırır. Danışıq mühitinin olmaması tədris prosesini bir qədər çətinləşdirir və müəllim tələb olunan mühiti süni şəkildə yaratmalı olur. Elə buna görə də bir çox metodistlər dil tədrisində danışıq mühitinin yaradılmasına səy göstərilməsini təklif edir (3,69). Çünki təbii danışıq mühitində öyrənilən yeni dil ana dili xüsusiyyətinə daha çox yaxınlaşır, insan ünsiyyət qurarkən şüurlu qaydalar yerinə daha çox şüuraltı qazanılan məlumat və təcrübələrdən faydalanır. Ona görə də dil öyrənərkən vacib amillərdən biri də mühitin olmasıdır. Tələbələr dilin real həyatda necə tətbiq olunduğunu müşahidə etdikləri zaman öyrənmə prosesi daha da maraqlı olur. Məsələn, Azərbaycan dilini öyrənənlər üçün dövlət işlərində, sosial tədbirlərdə və yerli məşğuliyyətlərdə iştirak etməyə şərait yaradılmalıdır.

Kontekstdən asılı olaraq, dinləmə, danışma, oxuma və yazı bacarıqlarının inkişafı üçün fərqli metodlar tətbiq olunur. Məsələn, səhnəciklər, mühazirələr, dialoqlar və interaktiv oyunlar, tədris prosesində kontekstual yanaşmanın effektiv üsullarıdır. Beləliklə, tədris proqramları tələbələrin maraqlarını və ehtiyaclarını nəzərə alaraq hazırlanmalıdır. Kontekstual yanaşma dil öyrənməsində müxtəlif metodların effektivliyini artırır (12,159). Bu metodların hər biri dilin müəyyən bir aspektini inkişaf etdirmək üçün fərqli yanaşmalar təklif edir.

Səhnəciklər: tələbələrin dil bacarıqlarını praktikada tətbiq etməsi üçün mükəmməl bir imkan yaradır. Məsələn, xüsusi bir situasiyanı canlandırmaq tələbələrin gündəlik həyatdakı söhbət və mübahisələri daha yaxşı başa düşmələrinə kömək edir.

Müxtəlif müzakirələr və diskussiyalar tələbələrin fikirlərini ifadə etmə bacarıqlarını inkişaf etdirir. Tələbələr, fərqli mövzular üzrə müzakirələr apararkən öz fikirlərini düzgün dil strukturları ilə ifadə etməyə çalışırlar. Bu, onların həm bədii, həm də elmi üslubda dil istifadə bacarıqlarını inkişaf etdirir.

Müxtəlif dialoq nümunələri tələbələrə gündəlik vəziyyətlərdə necə ünsiyyət qurmağı öyrədir. Bu, dinləmə və danışma bacarıqlarını inkişaf etdirmək üçün əvəzsiz bir üsuldur. Dialoqlar vasitəsilə tələbələr, qarşılıqlı əlaqə qurmağı, suallar verməyi və fikirləri paylaşmağı öyrənirlər.

Kontekstual materiallar dil öyrənməni effektli və maraqlı edən əsas vasitələrdən biridir. Bu materiallar yalnız dilin qrammatik və leksik cəhətlərini deyil, eyni zamanda mədəni və sosial kontekstləri də əhatə edir. Müxtəlif kontekstual materialların istifadəsi öyrənənlərə dildən daha dərin bir anlayış qazandırır. Kontekstual materialların istifadəsinin ən vacib aspektlərindən biri, onları real həyatda praktiki şəkildə tətbiq etmə imkanıdır. Məsələn, tələbələr müvafiq kontekstlərdə alətlərdən istifadə edərək dil bacarıqlarını gündəlik həyatda tətbiq edə bilərlər. Bu da onların öyrəndikləri bilikləri müstəqil şəkildə inkişaf etdirmələrinə şərait yaradır.

Kontekstual materialların istifadə edilməsi, öyrənmə prosesini aktiv, dinamik və maraqlı bir hala gətirir. (1,77) Bu yanaşma, tələbələrə yalnız dil biliklərini deyil, həm də Azərbaycan mədəniyyəti və adət-ənənələri haqqında dərin anlayış qazandırır, onları daha geniş bir düşüncə tərzinə yönləndirir. Nəticədə, dil öyrənənlər öz biliklərini daha mənalı bir mühitdə tətbiq etmə imkanı əldə edirlər. Bu metodlar, kontekstual yanaşmanın uğurlu tətbiqi üçün zəmin yaradır və dil öyrənənlərin daha praktik, səmərəli və maraqlı bir öyrənmə prosesi yaşamalarını təmin edir.

Nəticə: Kontekstual yanaşma dilin yalnız qrammatik və leksik aspektlərini öyrətmir, eyni zamanda real həyati situasiyalarda dildən istifadə qabiliyyətini inkişaf etdirməyə yönəlib. Tələbələrin dil biliyini artırmaqla yanaşı, onların dilini öyrəndikləri ölkənin mədəniyyəti ilə tanış olmalarını da təmin edir.

Kontekstual yanaşma tətbiq edildikdə tələbələrin öyrənmə qabiliyyətləri artır. Məsələn, gündəlik həyatda dilin tətbiqi tələbələrin həqiqi ünsiyyət bacarıqlarını inkişaf etdirir. Real mühit öyrənmə prosesini daha aktiv, interaktiv və praktik etməklə tələbələrin müxtəlif kommunikativ situasiyalara uyğunlaşma qabiliyyətlərini artırır.

Həmçinin kontekstual yanaşma mühazirələr və ənənəvi dərs çərçivəsindən kənara çıxmağa şərait yaradır. Qrup layihələri, müzakirələr, oyunlar və digər interaktiv fəaliyyətlər dilin öyrənilməsini əyləncəli və dinamik hala gətirir. Tələbələr müxtəlif perspektivləri anlamaqla yanaşı, həm də kollektiv iş bacarıqlarını inkişaf etdirir.

Bu yanaşma müəllimlərin də yaradıcı pedaqoji yanaşmalarını və müasir dərslik və resurslardan istifadəsinin artırması, tələbələrin öyrənmə prosesini daha sistematik edir.

Bu, tələbələrin dil biliklərini artırmaqla yanaşı, onların mədəni, sosial həyatı və gündəlik həyatda dilin istifadəsi ilə bağlı biliklərini də zənginləşdirir. Gələcəkdə bu yanaşmanın daha da inkişaf etdirilməsi, dil tədrisinin keyfiyyətini artırmaq və əcnəbilərin Azərbaycan dilinə olan marağını daha da gücləndirmək üçün əhəmiyyətlidir.

Bu metod dilin öyrənilməsini yalnız akademik biliklərlə məhdudlaşdırmır. Kontekstual yanaşmanın qəbul edilməsi, dil öyrənənlərin həm dil bacarıqlarını, həm də mədəni fərqlilikləri anlamaq qabiliyyətlərini inkişaf etdirir. Gələcəkdə bu yanaşmanın geniş yayılması Azərbaycan dilinin beynəlxalq miqyasda tanınmasına və öyrənilməsinə müsbət təsir göstərəcəkdir.

ƏDƏBİYYAT

1. Babasoy, Y. Dil tədrisində istifadə edilən interaktiv metodlar. Naxçıvan Dövlət Universiteti. "Dil bacarıqlarının inkişafında yeni texnika və metodların tətbiqi" mövzusunda I Respublika elmi-praktiki konfransının materialları. Qeyrət nəşriyyatı, 2023, s. 77-79
2. Cohen, Stuart. Contextualist Solutions to Epistemological Problems: Scepticism, Gettier, and the Lottery. Australasian Journal of Philosophy, 76: 1998, 289–306.
3. Dulay H., Burt M. ve Krashen S. Language Two. Oxford University Press, 1982
4. Gardner, R. C. ve W. E. Lambert. Attitudes and Motivation in Second Language Learning. Rowley, Mass, Newbury House, 1972.
5. Gardner, R. C. Attitudes and Motivation : Their Role in Second Language Acquisition (ed.) Oller, J. ve Richards, J., Focus on the Learner, New York, Newbury House, 1973
6. Harmer, J. The practice of English language teaching (With DVD). Pearson, 2015
7. Hymes, D. On communicative competence. sociolinguistics, 1972, 269-293.
8. Xəlilova T. Azərbaycan dilinin xarici dil kimi tədrisində istifadə edilən üsullar. Filologiya məsələləri, *N:* 3, 2013
9. İsayeva, F. Xarici dilin tədrisində innovativ metodlar. Linqvistika problemləri. 2, 2021, 68- 75.
10. İsmayılova, R. Azərbaycan Ali Təhsil Müəssisələrində Kommunikativ Yanaşma Əsasında İngilis Dilinin Tədrisinin Effektivliyi. Akademik Tarih ve Düşünce Dergisi, 12 (2), 2025, 654-663.
11. Kocaman A. Yabancı Dil Öğretim Yöntemleri. Genel Dilbilim Dergisi, 1,2:80-98, 1978
12. Quliyeva, N. İradə Cəfərova. Xarici dilin tədrisində motivasiyanın əhəmiyyəti. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 88 (6), 2021, 158-162.
13. Widdowson, H. G. Teaching language as communication. Oxford university press, 1978
14. http://www.anl.az/down/meqale/adu_dil_edebiyyat/2021/02/12(meqale).pdf
15. https://ojs.publisher.agency/index.php/THIR/article/view/2087

Земфира Джалил Гизи Джалилова
Азербайджанский университет архитектуры и строительства, старший преподаватель
zemfira.jelilova@azmiu.edu.az
https://orcid.org/0009-0004-2142-6956

КОНТЕКСТУАЛЬНЫЙ ПОДХОД В ПРЕПОДАВАНИИ ЯЗЫКА

Резюме

В статье рассматривается важность контекстуального подхода в преподавании азербайджанского языка, отмечается его актуальность для современного языкового образования. Обсуждается применение контекстуального подхода с использованием различных методов: ролевые игры, дискуссии и диалоги улучшают языковые навыки учащихся. Это помогает учащимся лучше понимать динамику языка. Роль контекстуального подхода в изучении культуры значительна. Профессионализм преподавателей и их умение выбирать контексты являются основой успешного обучения. Широкое использование этого подхода делает изучение языка более эффективным.

Zemfira Jalil gizi Jalilova
Azerbaijan University of Architecture and Construction, senior lecturer
zemfira.jelilova@azmiu.edu.az
https://orcid.org/0009-0004-2142-6956

CONTEXTUAL APPROACH IN LANGUAGE TEACHING 157

Summary

The article examines the significance of the contextual approach in teaching the Azerbaijani language and emphasizes its relevance to modern language instruction. It discusses the implementation of this approach through various methods, such as role-plays, discussions, and dialogues, which enhance students' language skills. This approach helps learners better understand the dynamic nature of language. The contextual approach plays a crucial role in language learning. Teachers' professionalism and their ability to select appropriate contexts form the foundation of successful instruction. The widespread adoption of this approach makes language learning more effective.

Rəyçi: dos. E.Vəliyeva

DOI 10.24412/2218-7588-2026-1-160-162

Мустафаева Дилара
БГУ, старший преподаватель кафедры Русского языка
Mustafaevadilara@bsu.edu.az
https://orcid.org/0009-0004-9300-4613

К ВОПРОСУ О РАЗВИТИИ СВЯЗНОЙ УСТНОЙ РЕЧИ

Резюме: Проблема развития связной устной речи учащихся приобретает в современной методике все большую актуальность. Во-первых, это обусловлено тем, что только развитая связная речь ребенка позволяет ему свободно общаться с окружающими людьми, тем самым «включая» его в активный процесс коммуникации наравне с другими коммуникантами. От того, насколько точно, четко, лаконично и целесообразно в соответствии с конкретной речевой ситуацией ребенок умеет выражать свои мысли, зависит эффективность процесса общения. Во-вторых, это продиктовано увеличением роли устного слова в культурной жизни страны, так как наиболее ценным в наше время стало умение говорить без подготовки, спонтанно.

Ключевые слова; проблема, связная речь, речи учащиеся, методика обучения,культура жизни

По свидетельствам видных психологов (А.А. Леонтьева, Н.И. Жинкина, Л.С. Выготского, С.Л. Рубинштейна), механизм порождения спонтанной речи не проще, а в значительной мере сложнее порождения письменной речи. Умение же строить спонтанно связные речевые произведения есть «проявление речевой способности высшего порядка» (К.Ф. Седов). Следовательно, детей необходимо учить строить связные устные высказывания в целях повышения их коммуникативной компетенции.

Введение: Обучение ребенка связной устной речи начинается в дошкольный период и входит при этом в общие задачи воспитания и развития. В школе развитие речи становится самостоятельной задачей и связывается с теоретическими сведениями о языке как системе и функционировании ее в речи. При этом закладываются прочные и осознанные основы речевого поведения и культуры ребенка.

Основная часть: Овладение учениками связной речью в начальный школьный период способствует их успешному обучению по всем предметам общеобразовательного цикла, поскольку развитая речь — одно из важнейших условий хорошей успеваемости. Еще одним необходимым условием эффективной работы по развитию устной речи является согласованность в этой работе между дошкольным звеном, начальной и средней школой.

Современный подход к проблеме развития речи основывается на необходимости единой лингвометодической базы в этой работе на всех этапах обучения и воспитания детей. В формировании связной речи отчетливо устанавливается тесная связь речевого и умственного развития детей, развития их мышления, восприятия, наблюдательности. Для того чтобы хорошо, связно рассказывать о чем-нибудь, надо ясно представлять себе объект рассказа, уметь анализировать, отбирать основные факты, устанавливать причинно-следственные отношения между предметами и явлениями и т.д. Помимо этого, для достижения связности речи необходимо не только отобрать содержание, которое должно быть передано в речи, но и использовать специальные языковые средства. Нужно умело использовать интонацию, логическое ударение, подбирать наиболее точно подходящие в данной ситуации слова, уметь строить сложные предложения и т.д. Связная речь — это не только последовательность слов и предложений, это последовательность связанных друг с другом мыслей, которые выражены точными словами в правильно построенных предложениях. Ребенок учится мыслить, учась говорить, но он также совершенствует свою речь, учась мыслить. Связная устная речь воплощает в себе все достижения ребенка в овладении языком, в освоении его звуковой стороны, словарного состава, грамматического строя.

Развитие связной устной речи неотделимо от решения основных задач речевого развития: обогащения, уточнения и активизации словаря, формирования грамматического строя речи, воспитания звуковой культуры. Основной целью всего обучения русскому языку в начальной школе является формирование у учащихся умения свободно и связно выражать свои мысли в устной форме в соответствии с ситуацией общения. Теоретические и экспериментальные научные исследования в области методики преподавания родного языка свидетельствуют о том, что достижение этой цели невозможно без целенаправленного и последовательного формирования и развития умений, связанных с овладением структурой устных высказываний различных типов и стилей речи, и усвоения основных речеведческих понятий в области развития связной устной речи. И хотя исследуемая проблема и сформулирована, но еще далека от решения: имеется широкий круг вопросов, нуждающихся в дополнительных психолого-лингвистических и методических исследованиях и в соответствующем теоретическом и практическом обосновании. Практика показывает, что учащиеся первого класса на момент поступления в школу владеют разговорным стилем устной речи и на интуитивном уровне умеют строить небольшие высказывания на предложенные темы (близкие им по содержанию) или по сюжетным картинкам. Однако в процессе обучения имеющихся знаний детей становится недостаточно. Поскольку ученики при создании собственных речевых произведений не опираются на теоретические знания о правилах построения высказывания, о структуре, типе и стиле предстоящего высказывания и т.п., то, в конечном итоге, сказывается на качестве создаваемых высказываний: их уровень достаточно низкий по сравнению с возможным.

Многие методисты, говоря о связной речи, имеют в виду речь письменную. Нас же больше интересует развитие связной устной речи детей, так как она является первичной в методике обучения школьников языку. Однако устная речь изучена лингвистами не так широко и подробно, как письменная, и это общеизвестно. И поскольку лишь в последние два десятилетия этой проблеме стало уделяться повышенное внимание, то понятийный аппарат находится еще в стадии разработки, что, в свою очередь, приводит к тому, что ряд языковых явлений трактуется и определяется по-разному.

История лингвистики свидетельствует о том, насколько различно оценивалось соотношение между устной и письменной формами речи в разные эпохи. Сейчас ученые придерживаются того мнения, что устная речь является генетически первичной по отношению к письменной. Однако такое понимание данного вопроса в лингвистике было не всегда. Еще в эпоху античности учение греков о языке опиралось в основном на письменные тексты, в связи с чем, устная речь считалась зависимой и производной. Это убеждение еще более укрепилось в средние века, когда во главе всех наук, образования и культуры встала латынь, которая была, прежде всего, языком письменности. Что же касается устной речи, то в разных странах были приняты различные нормы произношения, что и являлось подтверждением главенства письменной речи над устной.

В эпоху Возрождения римская латынь по-прежнему считалась образцом, а литература классической античности являлась источником всех культурных ценностей цивилизации. Единственно настоящим языком по-прежнему считался язык "литературный", то есть письменный (от лат. litera - буква, письмо).

В эпоху же романтизма, отвергавшего классику античности, и во времена подъема националистических движений (например, в Германии) традиционный взгляд на сущность и соотношение устной и письменной форм речи изменился на прямо противоположный: теперь уже устная "речь народа" считалась образцом "первородного, прекрасного и полного сил народного духа", а письменная речь рассматривалась как нечто вторичное, слабое и блеклое". Научные споры о соотношении и сущности устной и письменной речи не утихают до сих пор. Возможно, дискуссии по этому вопросу лингвистики в скором времени приобретут дополнительное звучание в связи со все возрастающим значением в социальной жизни общества письменной формы речи и со стремительным развитием средств массовой информации, сдвигающим привычные рамки представлений о возможностях использования обеих форм речи. Например, при чтении лекции аудитория может не только слышать то, что говорит преподаватель (устная форма речи), но и видеть на экране иллюстрацию отдельных положений с помощью различных графических средств - формул, графиков и т.п. (письменная форма речи). Тем самым, по мнению К.А. Филиппова, осуществляется возможность (пусть частичная) одновременного использования устной и письменной форм речи.

Заключение: Из сказанного следует, что не все то, что мы произносим и слышим, может быть отнесено к устной речи, и не все то, что мы видим и записываем, есть письменная речь. И хотя мы при произнесении вслух, например, письменного текста используем ритм, интонацию и другие особенности устной речи, эта "звучащая речь не является устной речью в полном смысле этого слова". Поэтому более полно, по мнению В.Г. Костомарова, О.А. Лаптевой, Н.Д. Андреева, устную речь определяет слово "говоримая".

Научные споры о соотношении и сущности устной и письменной речи не утихают до сих пор. Возможно, дискуссии по этому вопросу лингвистики в скором времени приобретут дополнительное звучание в связи со все возрастающим значением в социальной жизни общества устной формы речи.

Список использованной литературы:

1. Леонтьев А.А. «Психолингвистические проблемы массовой коммуникации» М.1974г.
2. Выготский Л.С. Мышление и речь. – М.,1982.
3. Ладыженская Т.А. Система работы по развитию устной речи учащихся. М.1975
4. Новоторцева Н.В. Развитие речи детей. – М., 1995.
5. Маркова А.К. «Психология усвоения языка, как средства общения» М.1974г.
6. В.В.Виноградов, «Очерки по истории русского литературного языка», М.,1938
7. Швоганцкая Г.М. «Уроки развития связной речи» М.1990г.
8. Кларин М. В. Инновации в обучении: метафоры и модели. — М.: Наука, 2018.
9. Богоявленская Д.Б Психология творческих способностей. — М.: Академия, 2002.
10. Выготский Л. С. Воображение и творчество в детском возрасте. — М.: Просвещение, 2016. https://www.elibrary.ru/item.asp?id=25655074
11. Торранс Э. П. Развитие творческого мышления (креативности). — М.: Педагогика, 2004.

Dilara Mustafayeva

BSU, Senior Lecturer, Russian Language Department

Mustafaevadilara@bsu.edu.az

https://orcid.org/0009-0004-9300-4613

ON THE DEVELOPMENT OF COHERENT ORAL SPEECH 160

Summary

The problem of development logical oral speech was always actually. It connected with expansion of oral word's role in our country's culture life, because nowadays the most important is ability to speak without preparation, spontaneity.

So the most important problem for teachers is to teach children to express their thoughts easily and logically in concrete situation.

Dilarə Mustafayeva
BDU, Baş müəllim, Rus dili kafedrası
Mustafaevadilara@bsu.edu.az
https://orcid.org/0009-0004-9300-4613

ŞİFAHİ NİTQİN İNKİŞAFI HAQQINDA

Xülasə

Əlaqəli şifahi nitqin inkişafı problemi həmişə aktual olaraq qalır. Bu da ölkənin mədəni həyatında şifahi sözün rolunun artması ilə bağlıdır, çünki bu günki gündə sərbəst danışmaq bacarığına daha çox qiymət verilir.

Beləliklə, müəllimlərin qarşısında duran əsas məsələ - uşaqları ünsiyyət şəraitindən asılı olaraq öz fikirlərini şifahi formada sərbəst şəkildə ifadə etməyi öyrətməkdir.

RƏYÇİ: dos..L.Ələkbərova

DOİ 10.24412/2218-7588-2026-1-163-166

Məcid İsmixanov, Nəzakət İmamverdiyeva
BDU, Pedaqogika kafedrası,
m.ismixanov@mail.ru, naza-52@mail.ru
https://orcid.org/0009-0004-5995-1174

MÜASİR TƏHSİL KONSEPSİYASI, YENİ YANAŞMALAR

Xülasə:Məqalədə müasir təhsil konsepsiyası və təlim prosesinə yeni yanaşmalar şərh olunur. Müəlliflər pedaqoji-psixoloji tədqiqatların təhlili və ümumiləşdirilməsi əsa-sında təlim prosesinə yeni yanaşmaları, onların mahiyyəti, zəruriliyi, məzmunu və səciyyəvi xüsusiyyətlərini nəzərdən keçirmişlər.

Açar sözlər: müasir, təhsil, konsepsiya, yeni yanaşmalar, prinsiplər

Giriş:Təhsil cəmiyyətin inkişafı, ictimai-iqtisadi, sosial-mənəvi tələbatları ilə şərtlə-nir. Cəmiyyət və təhsil bir-birinə təsir göstərir: təhsilin inkişafı cəmiyyətin sosial-iqtisadi inkişafından asılı olduğu halda, təhsil də, öz növbəsində, cəmiyyətin sosial-iqtisadi tərəqqisində həlledici rol oynayır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərildiyi kimi, sosial-iqtisadi həyatın müasirləşməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır, təhsil prosesində əldə olunan bilik və bacarıqlar hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu nümunəvi ailə üzvünə və vətəndaşa çevirir [1].

Əsas hissə: İnkişaf etmiş cəmiyyət təhsil qarşısında yeni, daha yüksək vəzifələr qoyur: hər bir gənc müasir bilik və bacarıqlara mükəmməl yiyələnməlidir. Müasir təhsil, ənə-nəvi təhsildən fərqli olaraq, yeni yanaşmalara, yeni ideya və konsepsiyalara əsaslanır. Müasir təhsilin əsas konseptual modelinin ana xəttini təhsilalanın bir şəxsiyyət kimi formalaşması, inkişafı və tərbiyəsi prosesi, habelə yeni pedaqoji-psixoloji prinsiplər əsasında onun reallaşdırılması üçün əlverişli şəraitin yaradıl-ması təşkil edir. Müasir psixologiyaya görə, təhsil sisteminin başlıca vəzifəsi şagirdin bir şəxsiyyət kimi formalaşmasından ibarətdir. Şagirdin şəxsiyyət kimi formalaşması üçün, ilk növbədə, onun təhsil prosesindəki mövqeyinə yeni baxım-dan yanaşmaq lazım gəlir. Ənənəvi təlimdə şagird sədəcə obyekt rolunda passiv çıxış edirdi: deyilənləri yadda saxlamalı, verilən tapşırıqları nümunələr əsasında icra etməli, dərsdə sakit oturub müəllimə qulaq asmalı idi. Belə təhsilalma hafizəyə əsaslanır, şagirdin müstəqilliyi, fəallığı və yaradıcı düşünməsi üçün lazımi şərait yaradılmırdı. Təlim bir çox halda ciddi intizama, qorxuya əsaslanırdı. Təhsilə yeni yanaşma ənənəvi təhsil modelinin stereotiplərini aradan qaldırmağı, onu yeni prinsiplər mexanizmlər əsasında qurmağı nəzərdə tutur. Yeni təhsil (təlim) konsepsiyasının başlıca prinsipləri aşağıdakılardan ibarətdir:

Humanistləşdirmə;
Demokratikləşdirmə;
Şəxsiyyətyönümlülük;
İnkişafyönümlülük;
Əməkdaşlıq;
Stimullaşdırma;
Təlimdə dəstəkləyici mühitin yaradılması;
Bu prisipləri qısaca nəzərdən keçirək.

Təhsilin humanistləşdirilməsi – təhsilə yeni yanaşmanın əsas prinsiplərini təşkil edir. Bu prinsip bir neçə istiqamətdə özünü göstərir. Bu prinsipə görə, təhsil (tərbiyə) işinin mərkəzində insan, onun maraq və qabiliyyətləri, inkişafı durmalı, hər şey ona xidmət etməlidir. İlk növbədə, hər bir şagirdi sosial dəyər kimi, şəxsiyyət kimi qəbul etmək, onun hüquq və azadlıqlarına, şəxsi ləyaqətinə hörmət etmək, tələbatları və mənafeyi ilə hesablaşmaq, ona qayğı, diqqət və sevgi ilə yanaşmaq, dözümlü (tolerant) münasibət göstərmək lazımdır. Humanizm müəllim üçün vacib keyfiyyət hesab olunur. Bu, yer üzündə ən yüksək dəyər olan insani münasibətdir. Bu münasibət konkret işlərdə və hərəkətlərdə öz ifadəsini tapır. Humanist münasibətlər şagirdin şəxsiyyətinə maraqdan, onun vəziyyətinə şərik olmaqdan, fikrinə hörmət etməkdən, tədris fəaliyyətinə yüksək tələbkarlıqdan, şəxsiyyətinin inkişafına qayğı göstərməkdən və s. ibarətdir [6, s.43].

Prof. Fərrux Rüstəmov humanizmin əsas göstəricisi kimi təlim prosesində uğur qazanmağın yeganə yolunu uşağa humanist münasibətdən – ona sevgi və inamdan keçdiyini göstərərək müəllimlərə müəyyən tövsiyələr verir:

- şagirdə öz nailiyyətlərini göstərin; şagidrləri tərifləyin; onları tənqid etməyə tələsməyin; əgər bu, çox vacibdirsə, onda onların halına acıya-acıya onları tənqid edin [7, s.138].

Təhsilin humanistləşdirilməsi həm də müəllim-şagird münasibətlərinin humanistləşdirilməsini, təhsil-tərbiyə işində yüksək mənəvi-psixoloji iqlim, hər bir şagirdin yaxşı oxuya bilməsi və yaxşı oxumaq istəməsi üçün əlverişli şərait yaradılmasını nəzərdə tutur.

Psixoloqlar (Ə.Əlizadə, M.Berulova, E.Meliburdi və b.) təhsil-tərbiyə işində müəllim-şagird, şagird-şagird münasibətlərini məktəb həyatının ana xətti kimi dəyərləndirmişlər.

Təhsilin demokratikləşdirilməsi – təhsil prosesini yeni əsaslarda – hüquqi, pedaqoji əsaslarda qurmaqda ifadə olunur. Hüquqi aspektdə demokratikləşdirmə insan hüquq və azadlıqlarına hörmət etməyi, təhsilsalanlara seçim imkanı verməyi, təhsilin idarə edilməsində onların səlahiyyətlərini, özünüidarə imkanlarını genişləndirməyi, məktəb həyatının demokratikləşdirilməsini, vəzifələrin seçki yolu ilə tutulmasını, qərarların kollegial şəkildə qəbul edilməsini və s. nəzərdə tutur.

Pedaqoji-psixoloji aspektdə demokratikləşdirmə təhsilalanların rəylərini, istək və arzularını nəzərə almaqda, müəllim-şagird münasibətlərinin yeni əsaslarda qurulmasında, təhsilə rəhbərlik üslubunda və s. ifadə olunur. Münasibətlərin demokratikləşdirilməsi baxımından psixologiyada (Ə.Əlizadə, H.Əlizadə) müəyyən edilmiş aşağıdakı qaydalar mühüm əhəmiyyət kəsb edir:

- qadağan etməmək, istiqamət vermək;
- təkbaşına idarə etməmək, birgə idarə etmək;
- məcbur etməmək, inandırmaq;
- məhdudlaşdırmamaq, sərbəstlik vermək [3, s.82].

Göstərilən qaydalar müəllim-şagird münasibətlərində, tərbiyə (rəhbərlik) üslubunda əsas götürülməlidir. Psixologiyada üç əsas rəhbərlik üslubu fərqləndirilir: liberal, demokratik və avtoritar üslub. Avtoritar üslub – nüfuza və tabeçiliyə əsaslanan inzibati-amirlik üslubudur. Onun əsas vasitələri əmr, tələb, qadağan, qışqırıq və cəzadır. Avtoritar müəllim (tərbiyəçi) təkbaşına qərar çıxarır, hər şeyi özü həll edir, şagirdlər isə sadəcə icraçı mövqeyində qalırlar. Belə üslub ünsiyyəti çətinləşdirir, əsəbilik, inamsızlıq yaradır, münaqişələrə yol açır. Demokratik üslub – əməkdaşlığa, birgə qərarların çıxarılmasına, təşəbbüskarlığa əsaslanan üslubdur. Bu üslubun əsas vasitələri inandırma, xahiş, məsləhət, dolayı təsir metodlarıdır. Demokratik üslub normal ünsiyyət qurmağa, sağlam mənəvi-psixoloji mühit yaratmağa, fəallıq və təşəbbüskarlığa imkan verir. Liberal üslub – ünsiyyətdə səhlənkarlığa, laqeydliyə əsaslanan üslubdur: müəllim heç nəyə qarışmır, məsələlərə formal yanaşır, məsuliyyətdən kənar olmağa çalışır. Belə üslub normal ünsiyyətə, təlim-tərbiyə işinə mənfi təsir göstərir. Qeyd edilən ünsiyyət üslubları içərisində ən səmərəlisi demokratik üslubdur. Müəllim bu üsluba əsaslanmalı, digər üslublardan yaxa qurtarmağa çalışmalıdır.

Şəxsiyyətyönümlülük – təhsilalanların bir şəxsiyyət kimi inkişafında, tələbat, maraq və meyllərinin daim diqqət mərkəzində saxlanmasında ifadə olunur. Hazırda beynəlxalq təhsil tərübəsində humanistləşdirmə, şəxsiyyətyönümlü təhsil ideyası öncül mövqe tutur. Görkəmli ABŞ psixoloq və pedaqoqu Karl Rocersin humanist didaktik konsepsiyasının əsasını məhz bu ideya – insan və onun şəxsiyyətinə inam ideyası təşkil edir. K.Rocersə görə, şəxsiyyət yetişdirmək insan emalatxanası hesab edilən məktəbin əzəli və əbədi funksiyasıdır; bütün uğurlar insanın şəxsiyyəti ilə bağlıdır. Humanist pedaqogikaya görə, təlim prosesində uğur qazanmağın yeganə yolu uşağa sevgi və inamdan keçir [7, s.142]. Bu prinsip müasir təhsilin əsas fərqləndirici cəhəti, başlıca tələbidir. Müasir təlim bütövlükdə şagirdin ahəngdar şəxsiyyət kimi inkişafına yönəlir: o, təhsil (təlim) prosesinin mərkəzində dayanır; təhsilin məqsədi, məzmunu, strategiyası, müəllim-şagird əməkdaşlığı, bütövlükdə təhsil mühiti şagirdin şəxsiyyət-vətəndaş kimi formalaşmasına xidmət etməlidir.

İnkişafyönümlülük – təlim prosesində təhsilalanların zehni, mənəvi baxımdan bilikli, səriştəli və yaradıcı bir şəxsiyyət kimi inkişafını təmin etməkdə ifadə olunur. Bu, müasir təhsilin başlıca məqsədini təşkil edir. İnkişafyönümlülük bir neçə cəhətdə özünü göstərir:

- hər bir təhsilalanın potensial imkanlarını, maraq və meyllərini üzə çıxarıb daha da inkişaf etdirmək;
- şagirdlərin bilik bazasını inkişaf etdirmək, biliklərin şüurlu mənimsənilməsi-ni təmin etmək, özünütəhsilə tələbat yaratmaq;
- təhsilalanların zehni qabiliyyətlərini, nəzəri təfəkkürünü, təxəyyülünü və s. inkiaşf etdirmək;
- şəxsiyyət üçün vacib həyati bacarıqları (səriştələri) inkişaf etdirmək.

Bu zəruri keyfiyyətlər təhsil-təlim prosesinin bütün gedişi (məqsədi, məzmu-nu, metod və vasitələri və s.) ilə formalaşdırılmalıdır.

Şagirdin təlimdə inkişafı ona olan qayğıdan, diqqətdən, qarşıya qoyulan problemin həllinə tələbat yaratmaqdan, inkişafetdirici mühitin olmasından çox asılıdır. Şagirdi təlimə zorla yox, öyrənməyə tələbat, istək yaratmaqla cəlb etmək daha yaxşıdır. Zəif oxuyan şagirddə biliyə, elmə tələbat və bu tələbatı ödəmək üçün əlverişli şərait, imkan yaratmaqla zəif oxuyan uşaqların təhsildə inkişafını təmin etmək mümkündür.

Əməkdaşlıq – təhsil prosesində şagirdlərin birgə qarşılıqlı fəaliyyətində, yaradıcı axtarışlarında ifadə olunur. O, təhsilin humanistləşdirilməsi, şəxsiyyətyö-nümlülük, inkişafyönümlülük prinsipləri ilə vəhdət təşkil edir. Ənənəvi təlimdə şagirdlər birlikdə, bir məkanda - sinif otağında təlim alsalar da, əslində, bir-birilə təcrid olunmuş şəraitdə fəaliyyət göstəriridi: hər kəs özlüyündə özü üçün işləyirdi. Onlar arasında qarşılıqlı əlaqə, sosial əməkdaşlıq yox idi. Bu da onların şəxsiyyət kimi inkişafına mənfi təsir göstərirdi. Əslində isə, şagird özünü bir şəxsiyyət kimi məhz qarşılıqlı əlaqədə tanıyır və təsdiq edir.

Əməkdaşlıq pedaqogikasında şagird sözün əsl mənasında şəxsiyyətdir. Şəx-siyyət baxımından yanaşma onun ana xəttini təşkil edir. Xeyirxahlıq, məhəbbət, əməksevərlik, vicdan, ləyaqət, vətəndaşlıq və s. bu konsepsiyada şagirdin başlıca keyfiyyətləri hesab olunur. Müəllim şagirdi qabiliyyətli hesab edir, ona inanır, ən başlıcası müvəffəqiyyət qazanmaq üçün şərait yaradır. Tərbiyə işi özünün humanistliyi ilə seçilir.

Təlimdə müəllim-şagird münasibətləri kökündə yeni pedaqoji sistem -əməkdaşlıq pedaqogikası formalaşır [3, s.287].

Müasir təhsil belə qarşılıqlı əlaqəyə – əməkdaşlığa əsalanır. Əməkdaşlıq bir çox cəhətdə özünü göstərir:

- təlimdə şagirdlərin müəyyən problemlərin həllində birgə çalışması, səy göstərməsi və qarşılıqlı köməyi üçün əlverişli şərait yaradılır, onların təlim fəaliyyəti qrup prinsipi ilə təşkil edilir;
- müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi əməkdaşlıq prinsipinin ruhunu, pafosunu, "psixoloji

kredosunu" (Ə.Əlizadə) təşkil edir;

- müəllim-şagird münasibətləri subyekt-obyekt kimi yox, subyekt-subyekt münasibətlərinə, demokratiya, bərabərlik və partnyorluğa əsaslanır;

- şəxsiyyət baxımından yanaşma əməkdaşlığın ana xəttini təşkil edir. Müəllim şagirdə uşaq kimi deyil, böyük yaradıcılıq imkanlarına malik olan şəxsiyyət kimi yanaşır, onda özünə inam, biliyə maraq yaradır və öz yoldaşlarına hörmətlə yanaşmağı öyrədir.

Məşhur Çin mütəfəkkiri Konfusi 2500 il bundan qabaq uşaq və gənclərin təhsili ilə bağlı demişdir: "Alicənab ər (oxu: müəllim) şagirdi öyrədəndə və tərbiyə edəndə onu irəliyə aparır, arxasınca dartmır; onda maraq oyadır, məcbur etmir; ona yol göstərir, lakin yolu sərbəst getməyə imkan yaradır. Nə qədər ki, o, şagirdi irəliyə aparır, arxasınca dartmır, deməli, onunla müttəfiqdir. Nə qədər ki, o şagirddə maraq oyadır, məcbur etmir, deməli, şagirdin bilik qazanması asanlaşır. Nə qədər ki, o, şagirdə yalnız yol açır, deməli, ona düşünmək imkanı verir" [3, s.146]. Bu bir neçə cümlədə böyük mütəfəkkirin müəllim-şagird münasibətləri, təhsil prosesinin əsas məqamları və pedaqoji incəlikləri, şərtləri ustalıqla öz dolğun ifadəsini tapmışdır. Əsrlərin sınağından çıxmış bu müdrik fikirlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Stimullaşdırma – şagirdin uğurlu təlim fəaliyyətində, təlimə müsbət münasibətində ifadə olunur. Təhsilin səmərəsi təhsilalanın bilavasitə təlimə münasibətindən, tələbat-motivasiya sahəsindən asılıdır. İdrak tələbatları və onları ödəmək imkanları arasında yaranan ziddiyyətin həlli nəticəsində şagird əqli cəhətdən inkişaf edir. Tələbatların təmin olunması həm daxili təhriklə – motivlə, həm də xarici təhriklə – stimulla və onların vəhdəti ilə şərtlənir.

Təlimin ən güclü təsirə malik olan motivi maraqdır. Motiv məqsədlə çox bağ-lıdır. Şagird öz qarşısına məqsəd qoymalı, onun icrası yollarını bilməli və məqsə-dini səylə həyata keçirməlidir. Bu sahədə emosiya və hisslər (sevinc, inam, təlim uğuru, müsbət əhval-ruhiyyə və s.) böyük rol oynayır. Motivlərin formalaşması və inkişafı prosesi kimi motivasiya təlimdə çox böyük rol oynayır. Motivasiyanın tərkib ünsürləri: tələbatlar–təlimin mənası–motivlər–məqsəd-emosiya və hisslər bir vəhdət halında şagirdin uğurlu təhsil fəaliyyətinin vacib şərtini təşkil edir.

Motivasiya təlimdə məqsədə çatmağın səmərəli yoludur. Təcrübə və tədqiqat göstərir ki, hətta qabiliyyətli şagirdlər belə sadəcə olaraq motivasiya çatışmazlığı üzün dən yaxşı oxuya bilmirlər. Müasir təhsil nəzəriy yəsi təlimdə şagirdin imkanlarını, maraq və meyllərini nəzərə almağı, inkişaf etdirməyi, motivasiya yaratmağı vacib şərt hesab edir. Bu halda şagird qorxu və məcburiyyət üzündən yox, həvəslə oxuyur, özünü reallaşdırır, uğurlar qazanır.

Təlimin səmərəsi şagirdlərin təlimə münasibətindən çox asılıdır. Şagird təlimə müsbət münasibət göstərdikdə təlim yaxşı nəticə verir; o, asanlıqla və həvəslə oxuyur. Əks halda, şagird təlimə könülsüz yanaşır, oxumaq istəmir, psixi gərginlik keçirir. Şagirdlərin təlimə müsbət münasibətinin yaranmasında idrak tələbatları mühüm rol oynayır.

Şagirdlərin təlimə münasibəti, necə oxuması onların tələbatları ilə müəyyən olunur. Belə tələbat olmadıqda o, səylə çalışmır; müəllim və valideynlərin təsiri, cəzası, məcburiyyəti də heç bir nəticə vermir. Eyni ailədə iki uşaqdan birinin təlimə səylə, digərinin isə passiv yanaşması onlarda təlimə tələbatın olub-olmaması izah edilə bilər. Buna görə də müəllim və valideynlər şagirdlərdə təlimə tələbat formalaşdırmaq qeydinə qalmalıdırlar. Çünki tələbat varsa, şagird onun ödənilməsi üçün səy göstərəcəkdir.

İdrak tələbatları və onları ödəmək imkanları arasında yaranan ziddiyyətin həlli zehni problemi (məsələni) həll etmək nəticəsində şagird əqli cəhətdən inkişaf edir, yeni bilik, bacarıq və səriştələrə yiyələnir [5, s145].

Təlimdə dəstəkləyici mühitin yaradılması – təhsilalan ların bilik və bacarıq-lara yiyələnməsi, istedad və qabiliyyətlərinin inkişafı üçün lazımi şəraitin, əlverişli təhsil mühitinin yaradılmasında ifadə olunur. Bu prinsip bir neçə sahədə təzahür edir:

- təlim üçün əlverişli zəmin təşkil edən intellektual, mənəvi-psixoloji, sosial-pedaqoji şəraitin yaradılması;

- hər bir şagirdin fərdi maraq və tələbatlarının ödənilməsi, potensial imkanları-nın, istedad və qabiliyyətlərinin inkişafı üçün əlverişli mühitin yaradılması;

- təlim prosesində əməkdaşlıq mühitinin yaradılması;

- pedaqoji prosesin müasir maddi-texniki baza, İKT və lazımi resurslarla təchiz edilməsi və s.

Təlimdə (eləcə də tərbiyə işində) həlledici amillərdən biri də şagirdlərə peda-qoji dəstəyin göstərilməsi ilə bağlıdır. Görkəmli Ukrayna pedaqoqu, akademik V.A.Suxomlinski öz təcrübəsi əsasında demişdir: həyat məni inandırmışdır ki, uşaqları (xüsusən çətin uşaqları) tərbiyə etmək son dərəcə diqqət, ustalıq, takt, səmimi və qayğıkeşlik, mehribanlıq tələb edən, olduqca mürəkkəb işdir. Nəinki tərbiyənin, həmçinin təlim və təhsilin səmərəliliyi pedaqoji dəstəyin düzgün təşkilindən çox asılıdır [4, s.99].

Leyla Quliyeva

BDU. Rus dili kafedrası. Baş müəllim

Leylaquliyeva@bsu,edu.az

https://orcid.org/0009-0006-6812-8205

YAZILI ELMİ NİTQ BACARIQLARININ TƏDRİSİ

Xülasə:

Təhsil prosesində üç növ plan fərqləndirilir: sual əsaslı, nominativ və tezis əsaslı, yazılı elmi mətnlər üçün ənənəvi olan. Plan nədir?

Plan, hər bir abzasın əsas ideyasını çatdıran mətndə nizamlı cümlələr və ya açar sözlər toplusudur. Plan, gələcək mətnin xülasəsidir. O, məntiqi zəncirə düzülmüş əsas ideyaları özündə birləşdirir. Bu ideyalar (mətnin uzunluğundan asılı olaraq) 3-5 cümlə ilə ifadə olunur. Planlar müxtəlif növ mətnlər üçün yazılır. Planlar müxtəlif formalarda olur: kontur planları, şəkil planları və açar sözlərlə planlar.

Açar sözlər: kontur, açar sözlər, cümlə sırası, yazılı nitq, xülasə.

Leyla Guliyeva

BSU. Department of Russian Language. Senior Lecturer

Leylaquliyeva@bsu,edu.az

https://orcid.org/0009-0006-6812-8205

TEACHING WRITTEN SCIENTIFIC SPEECH SKILLS 184

(Thesising)

Summary

Three types of plans are distinguished in the educational process: question-based, nominative, and thesis-based, which are traditional for written scientific texts.

What is a plan?

A plan is an ordered set of sentences or keywords in a text that convey the main idea of each paragraph.

A plan is a summary of the future text. It includes the main ideas, organized into a logical chain. These ideas are expressed in 3-5 sentences (depending on the length of the text). Plans are written for different types of texts. Plans come in different forms: outline plans, picture plans, and plans with keywords.

Keywords: outline, keywords, sentence order, written speech, summary.

RƏYÇİ: dos. E.Vəliyeva

DOI 10.24412/2218-7588-2026-1-189-192

Иманова Рена Сади к
Доцент кафедры Русского языка БГУ
rena.imanova85@mail.ru
https://orcid.org/0009-0002-4339-9149

ИСПОЛЬЗОВАНИЕ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ ИНОСТРАННЫХ СТУДЕНТОВ

Резюме: В современном мире развивающихся технологий и глобализации практически каждый преподаватель задумывается о необходимости выбора верного метода для обучения иностранному языку. С течением времени традиционные методы преподавания теряют свою эффективность, так как имеют ограниченные возможности для развития навыков. В таком контексте инновационные методы преподавания иностранного языка занимают центральное место, позволяя современным студентам добиться запоминающегося и результативного обучения. Инновационные методы обучения иностранному языку в полной мере преображают процесс изучения нового языка. Использование онлайн-технологий, таких как интерактивные обучающие платформы, онлайн-классы, а также приложения для смартфонов и планшетов эффективно помогают студентам изучать русский язык в любом месте и в любое время, получая доступ к обширному контенту на различные темы. Такой подход позволяют студентам самостоятельно управлять своим обучением. Таким образом, инновационные методы преподавания иностранного языка становятся неотъемлемой частью образовательного процесса. Они позволяют обучающимся развивать коммуникативные навыки, самостоятельность и креативность. Благодаря современным технологиям и развитию педагогической науки каждый студент может достичь успеха в освоении иностранного языка.

Ключевые слова: инновационные методы, образовательный процесс, современные технологии, студенты, интернет.

Введение: Современное общество невозможно представить себе без информационных технологий. И обучение иностранным языкам является одной из сфер, где информационные технологии играют ключевую роль, помогая студентам познавать изучаемый язык и связанную с ним культуру всё более интерактивными средствами.

Инновационные подходы в обучении русскому языку как иностранному включают в себя использование цифровых платформ, искусственного интеллекта, виртуальную реальность – VR, полное погружение в искусственный цифровой мир через шлем, блокирующий реальность и AR – дополненную реальность, наложение цифровых элементов (графики, звука) на реальный мир через камеру смартфона или очки, геймификацию и проектное обучение. Эти методы повышают мотивацию обучения, обеспечивают погружение в языковую среду и позволяют персонализировать образовательный процесс, сочетая онлайн и офлайн форматы для эффективности. Смешанное и дистанционное обучение – комбинация онлайн-уроков с очными заданиями обеспечивает гибкость обучения.

Основная часть: Основные направления инноваций в РКИ – это цифровизация и дистанционное обучение, гибридные модели обучения, использование мобильных приложений и образовательных платформ, позволяющих изучать язык гибко, а также использование искусственного интеллекта для регенерации упражнений, проверки письменных работ и практики общения в чатах. Немаловажное значение имеет также геймификация – внедрение игровых механик (уровни, баллы, достижения) для повышения вовлечённости студентов. На переход от пассивного запоминания к активному использованию языка в контексте реального общения направлены интерактивные методы проектно-ориентированного обучения, при котором студенты создают реальные продукты – блоги, видео, презентации, которые развивают коммуникативные навыки. Аудиовизуальные технологии, работа с подкастами, обучающими видео и использование интерактивных досок – такие подходы повышают вовлечённость студентов через интерактивность, использование мобильных приложений, подкастов и аутентичных материалов, развивая коммуникативные навыки в реальных ситуациях. Они направлены на создание среды, ориентированной на студента, и повышают качество усвоения материала.

Преподавание иностранных языков, в отличие от преподавания родного языка, требует дополнительных усилий и у студентов, и у преподавателей, так как подразумевает погружение часто в незнакомую лингвокультурную среду. Естественные языки развиваются под влиянием культурных, социальных, политических и экономических факторов. Поэтому человеку, изучающему иностранный язык, очень часто трудно понять и освоить некоторые аспекты изучаемого языка, например, крылатые фразы, идиоматические выражения, фразеологические обороты, метафоры, конструкции, произношение и т.п. Преподаватели иностранных языков и авторы учебных пособий должны включать в процесс обучения инновации, которые призваны помочь студентам погрузиться в среду языка и соответствующей ему культуры.

Обучение иностранным языкам исторически является одной из сфер, где информационные технологии играют ключевую роль, позволяя учащимся познавать язык и связанную с ним культуру всё более интерактивными, интересными и погружающими в языковую среду средствами. Начиная с первых шагов сети Интернет и развития интерактивных приложений и заканчивая современными достижениями в сфере так назы-

ваемого искусственного интеллекта, цифровой инструментарий преподавателя РКИ постоянно пополняется новыми и всё более современными инструментами. В современном мире персональные компьютеры постепенно становятся более доступными и более простыми в использовании, и благодаря развитию образовательного программного обеспечения, студенты через мобильные приложения имеют свободный доступ также к самостоятельному обучению, то есть приводит к персонализации процесса обучения. Эти мобильные приложения включают в себя функции расширения словарного запаса, отработки произношения, мгновенный перевод, интерактивные грамматические упражнения, игры и симуляторы, приложения для запоминания слов, видеоконференции для дистанционного обучения, онлайн-энциклопедии, программы проверки орфографии.

Распространение сети Интернет играет ключевую роль в создании инструмента мгновенного доступа к огромному количеству различной информации со всего мира. Открытая архитектура сети Интернет и связанных с ней технологий привели к появлению и стремительному развитию Всемирной паутины, которая впервые предоставила неоспоримый потенциал для более и менее непосредственной коммуникации учащихся с изучаемой культурой и языком. Всемирная сеть показала свой потенциал как инструмент для мгновенной межкультурной коммуникации, превосходящей расстояния между странами мира, и благодаря постепенному повышению скорости доступа к сети интернет мультимедийные файлы всё чаще стали размещаться в ней. С появлением «умных» устройств на базе Android и iOS повысился спрос на мобильные приложения и веб-приложения, адаптируемые под экраны мобильных устройств. Все эти нововведения привели к развитию большого количества мобильных и веб-приложений для облегчения обучения иностранным языкам, в том числе, русскому языку. Эти приложения включают в себя наглядный мультимедийный материал (аудио- и видеозаписи произношения слов и фраз носителей языка, иллюстрации, видео-объяснения и т.д.) и интерактивные задания различной сложности на грамматические или лексические темы. Нередко используются отдельные приёмы или элементы игры, а также социальные сети (друзья, сообщения) для развития и поддержания интереса к учебному процессу. Также стоит отметить появление простых в использовании онлайн-инструментов, предназначенных для создания (генерации) обучающих материалов классического типа на выбранную тему.

Новые технологии очень часто вносят инновации в образовательные процессы. Некоторые из них обретают популярность и становятся востребованными, в то время как некоторые другие интегрируются в эти процессы с трудом и используются реже. Интернет создал единое коммуникационное пространство, которое может сокращать дистанции между культурами и языками, предоставляя доступ к информации в любой точке планеты и делая возможными занятия на расстоянии. В обучении иностранцев русскому языку большую роль играет использование искусственного интеллекта. Искусственный интеллект – это последний шаг технологического прогресса, это одна из тех инноваций, которая должна показать свою пригодность к интеграции в образовательный процесс. Решения на базе ИИ создают условия для развития существующих лингвистических игр и интерактивных заданий. Также генеративные модели позволяют легко и быстро создавать тексты и иллюстрации к ним в контексте преподавания РКИ, хотя эти решения пока ещё не совершенны и на данном этапе развития им свойственны весьма важные ограничения, которые следует учитывать при работе с ними.

Несомненно, в будущем будут развиваться и улучшаться модели ИИ в области преподавания РКИ, для которого будет создан свой арсенал учебных инструментов. И этот арсенал учебных инструментов будет учитывать специфику русского языка и вопросы методики преподавания.

Инновационные методы обучения – это не только использование современных технологий. В основном эти методы направлены на использование новых стратегий обучения, ориентированных на учащихся. Они побуждают студентов активно присоединяться и взаимодействовать со своими товарищами, а также с преподавателями. В результате этого инновационные способы преподавания в отличие от традиционного преподавания (которое фокусируется, в основном, на том, какой объём знаний передаётся студентам) позволяют глубже понять, что студенты извлекают из того, чему их учат в процессе обучения русскому языку.

Одним из инновационных методов обучения являются интерактивные уроки. Задачей преподавателя является создание такой среды, в которой студенты будут чувствовать побуждение высказываться и выражать свои идеи. В наши дни можно найти онлайн-платформы, которые помогут преподавателям сделать интерактивные занятия в классе, чтобы сэкономить время и пригласить присоединиться всех студентов, а не только двух или трёх, и таким образом вовлечь всех их в учебный процесс при помощи живых викторин, опросов, облака слов, сессии вопросов и ответов. Студенты будут иметь возможность вводить или выбирать ответы анонимно, вместо того, чтобы поднимать руки, и таким образом, более уверенно принимать участие на занятиях и выражать своё мнение, не беспокоясь о том, что могут быть осуждены за свои неправильные ответы.

В процессе обучения также возможно использование технологий виртуальной реальности. Сила виртуальной реальности в образовании в том, что она превращает абстрактные концепции в осязаемые. Технология виртуальной реальности создаёт иммерсивную образовательную среду – это модель обучения, которая использует технологии (VR, AR, MR) для полного погружения учащихся в симулированную реальность. Она

устраняет отвлекающие факторы, повышает вовлеченность через интерактив, позволяет безопасно отрабатывать практические навыки, увеличивая усваиваемость материала. Но надо учитывать тот факт, что ИИ не заменит преподавателей. Такие инструменты на базе ИИ, как система управления обучением, средства проверки на плагиат, автоматизированное оценивание и платформы адаптивного обучения берут на себя трудоёмкие административные задачи, позволяя преподавателю сосредоточиться на действительно важном – налаживании связи со студентами и содействии глубокому обучению.

ИИ отлично справляется с несколькими задачами: с организацией материалов, управлением заданиями, содействием связям между студентами и преподавателем, поддержкой студентов, созданием индивидуальных учебных материалов и т.д. Но не надо забывать, что при этом нельзя полностью полагаться только на технологии. Видеоконференции, системы управления обучением, интерактивные платформы и бесчисленные образовательные приложения доказали свою эффективность, но при этом нельзя умалять значение очного обучения с его спонтанными обсуждениями, мгновенной обратной связью и живым общением. Поэтому в процессе обучения русскому языку необходимо применять смешанное обучение, которое сочетает в себе очное обучение и цифровые технологии. Смешанное обучение позволяет использовать технологии для улучшения, а не замены традиционного обучения. Студентам может быть предложено посмотреть обучающее видео дома, а учебное время использовать для практических занятий, обсуждений, применения полученных знаний во время урока, для решения задач и совместной работы. Это позволит максимально эффективно использовать личное время.

Для улучшенного обучения русскому языку преподавтелями используется также адаптивное обучение. Адаптивное обучение – это образовательный подход, использующий цифровые технологии для настройки темпа, контента и методов обучения под нужды конкретного учащегося. Эта система анализирует успеваемость, знания, характер обучения, уровень вовлечённости, ошибки и прогресс студента в реальном времени. Основными элементами адаптивного обучения является сбор данных о текущем уровне знаний, скорости выполнения заданий и стилей; структурирование учебных материалов (темы, проекты, тесты); автоматическое изменение сложности заданий и последовательности уроков.

Адаптивное обучение использует данные и технологии для персонализации обучения для каждого студента в режиме реального времени. Инструменты аналитики обучения собирают информацию об успеваемости, вовлечённости и характере обучения учащихся, а затем помогают учителям корректировать стратегии обучения в соответствии с индивидуальными потребностями. Но персонализация не означает создание совершенно разных уроков для каждого студента, это только возможность предоставления выбора, гибкого темпа обучения, различных способов оценки. Этот метод обучения выходит за рамки традиционного универсального обучения, поскольку учитывает, что каждый студент учится по-разному и в своём темпе. С помощью информационных панелей и отчётов преподаватели могут определить, каким студентам нужна дополнительная поддержка и какие понятия вызывают трудности.

Заключение: В процессе обучения русскому языку немаловажен также такой метод обучения, как обучение, основанное на исследовании. Оно ставит любознательность в центр образования. Задавая вопросы, исследуя темы и формируя знания посредством исследований, студенты сами управляют своим обучением. Такое отношение к обучению превращает студентов из пассивных слушателей в активных исследователей. Студенты формируют вопросы, собирают и анализируют информацию, сами делают выводы и размышляют над полученными знаниями, развивая критическое мышление. Преподаватели в таких случаях выступают в роли организаторов, направляющих процесс исследования.

Использованная литература:

1. Инновационные образовательные технологии: Учебное пособие. Гос.ун-т им.А.Г.Столетова. Владимир, Изд-во ВлГУ, 2018.
2. Крутых Ф.В. Внедрение инноваций в систему высшего образования России. Международный научно-исследовательский журнал – 2017. №02(56).
3. Дьякова Т.А., Хворова Л.Е. онлайн-урок русского языка как иностранного в условиях цифровой трансформации педагогической деятельности.Русистика, 2020. Т.18, №2.
4. Касьянова В.П. Использование новых технологий при обучении иностранному языку на начальном этапе. Актуальные вопросы современной педагогики:материалв 1 Мждунар. Науч. Конф. – Уфа, июнь 2011.
5. Азимов А.Г. Методика организации дистационного обучения русскому языку как иностранному. – М.,2006.
6. Добренко Е.И., Соколова Е.В. Влияние информационных технологий на содержание и методы обучения РКИ // Динамика языковых и культурных процессов в современной России: материалы VI Конгресса РОПРЯЛ. СПб.: МИРС, 2018. № 6. С. 1450-1455.
7. Андреева Н.В. Использование современных технологий в обучении аудированию: организация самостоятельной работы учащихся на платформе LMS Canvas // Русский язык за рубежом. 2017. № 4 (263). С. 28-34.
8. часть образовательного пространства // Динамика языковых и культурных процессов в современной России: материалы V Конгресса РОПРЯЛ. СПб.: МИРС, 2016. № 5.
9. Вохмина Л.Л., Куваева А.С. Современное технологическое обеспечение системы упражнений по обучению РКИ // Русское слово в многоязычном мире: материалы XIV Конгресса МАПРЯЛ. 2019. С. 962-966.
10. Гончаренко Н.В., Игнатенко О.П., Алтухова О.Н. Мультимедийная технология «облако слов» как способ визуализации учебной информации в обучении русскому языку студентов-медиков // Русский язык за рубежом. 2017. № 3 (262). С. 90-95.
11. Караулова Г.Т. Из опыта обучения РКИ вне языковой среды с использованием аутентичных интернет-материалов ADME.RU // Русский язык за рубежом. 2017. № 2 (261). С. 100-103.

Rena Sadi İmanova
Bakı Dövlət Universitetinin Rus dili kafedrasının dosenti
rena.imanova85@mail.ru
https://orcid.org/0009-0002-4339-9149

Xarici tələbələrə rus dilinin tədrisində innovativ texnologiyalarından istifadəsi

Xülasə:

İnkişaf edən texnologiyaların və qloballaşmanın müasir dünyasında demək olar ki, hər bir müəllim xarici dilin tədrisi üçün düzgün metod seçmək zərurəti haqqında düşünür. Zaman keçdikcə ənənəvi tədris üsulları bacarıqların inkişafı imkanları məhdud olduğundan öz effektivliyini itirir. Bu kontekstə tələbələrə yaddaqalan və nəticəli öyrənmə əldə etmədə xarici dilin tədrisində innovativ üsullar mərkəzi yer tutur. xarici dilin tədrisində innovativ üsilları yeni dilin öyrənilməsi prosesini təmamilə dəyişdirir. İnteraktiv təlim platformaları, onlayn dərslər, smartfonlar və planşetlər üçün proqramlar kimi onlayn texnologiyalardan istifadə tələbələrə rus dilini istənilən yerdə və istənilən vaxt öyrənməyə kömək edir. Beləliklə, rus dilinin tədrisinin innovaniv üsulları tədris prosesinin tərkib hissəsinə çevrilir. Onlar tələbələrin ünsiyyət bacarıqlarını, müstəqilliyini və yaradıcılığını inkişaf etdirməyə imkan verir. Vüasir texnologiyalar və pedaqoji elmin inkişafı sayəsində hər bir tələbə xarici dilə yiyələnməkdə uğur qazana bilir.

Açar sözlər: innovativ üsullar, təhsil prosesi, müasir texnologiyalar, tətləbələr, internet.

RƏYÇİ: dos. L.Ələkbərova

DOİ 10.24412/2218-7588-2026-1-193-195

Səlmi Əliyeva
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Əcnəbi dillər kafedrasının dosenti
s.aliyeva-321@mail.ru
https://orcid.org/0009-0002-1256-1019

XARICI DILLƏRIN ÖYRƏNILMƏSINDƏ İNFORMASIYA TEXNOLOGIYALARININ ROLU VƏ ƏHƏMIYYƏTI

Xülasə: Məqalədə xarici dillərin öyrənilməsində informasiya texnologiyalarının müasir təhsilə gətirdiyi yeniliklər, üstünlüklər və transformativ təsirlər araşdırılır. Rəqəmsal platformaların fərdiləşdirilmiş öyrənmə imkanları, interaktiv metodların motivasiya və yaddaş prosesinə təsiri, virtual siniflərin və mobil tətbiqlərin yaratdığı əlçatanlıq kimi əsas mexanizmlər təhlil edilir. Süni intellektin adaptiv tədrisdə rolu, multimedia resurslarının çoxkanallı öyrənməyə verdiyi töhfə və qlobal informasiya mühitinin real kommunikasiya bacarıqlarının inkişafındakı rolu xüsusi olaraq vurğulanır. Eyni zamanda rəqəmsal tədrisin qarşılaşdığı çətinliklər və gələcək inkişaf perspektivləri dəyərləndirilir. Aparılan araşdırma göstərir ki, informasiya texnologiyaları xarici dil öyrənməsini daha effektiv, dinamik və inklüziv mühitə çevirərək müasir təhsil sisteminin əsas komponentlərindən birinə çevrilmişdir.

Açar sözlər: İnformasiya texnologiyaları, rəqəmsal təhsil, süni intellekt, virtual sinif, mobil öyrənmə, interaktiv metodlar, multimedia tədrisi, adaptiv öyrənmə, rəqəmsal pedaqogika.

Giriş: Qloballaşma proseslərinin sürətləndiyi XXI əsrdə xarici dillərin mənimsənilməsi həm fərdi inkişafın, həm də peşəkar rəqabət qabiliyyətinin əsas göstəricilərindən birinə çevrilmişdir. Beynəlxalq əməkdaşlığın genişlənməsi, elmi tədqiqatların çoxdilli mühitdə aparılması, qlobal informasiya məkanında bilik mübadiləsinin intensivləşməsi müasir insanın müxtəlif dillərdə səlis ünsiyyət qurmaq bacarığını zəruri edir. Xarici dil bilikləri artıq yalnız kommunikativ ehtiyacların deyil, həm də iqtisadi, akademik və mədəni inteqrasiyanın ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir.

Bu tələbatın fonunda informasiya texnologiyaları tədris prosesinin fəlsəfəsini köklü şəkildə yenidən formalaşdırmışdır. Rəqəmsal platformalar, süni intellekt əsaslı öyrənmə sistemləri, virtual siniflər və mobil tətbiqlər xarici dil öyrənməsini daha çevik, interaktiv, multimedia əsaslı və fasiləsiz prosesə çevirir. İnformasiya texnologiyalarının yaratdığı yeni pedaqoji mühitdə öyrənənlər artıq yalnız passiv bilik qəbul edən subyekt deyil, öz öyrənmə trayektoriyasını formalaşdıran aktiv iştirakçılardır.

Əsas hissə: Müasir rəqəmsal ekosistem fərdi öyrənmə tələblərinə uyğunlaşdırılmış məzmun, real kommunikasiya mühitini simulyasiya edən interaktiv tapşırıqlar, dinləmə–danışıq–oxu–yazı bacarıqlarını inteqrativ şəkildə inkişaf etdirən çoxkanallı resurslar təqdim edir. Bu isə ənənəvi metodların sərhədlərini genişləndirərək dil öyrənməsini daha motivasiyaedici, səmərəli və nəticəyönlü edir. Nəticə etibarilə informasiya texnologiyaları xarici dillərin öyrənilməsində təkcə əlavə vasitə deyil, təlimin keyfiyyətini, öyrənənin motivasiyasını və nailiyyət səviyyəsini artıran strateji komponent kimi çıxış edir [1].

İnformasiya texnologiyalarının dil öyrənməsinə təsirinin əsas istiqamətləri :İKT sahəsində baş verən texnoloji yeniliklər xarici dillərin öyrənilməsinə yanaşmanı əsaslı şəkildə dəyişərək bu prosesi daha sistemli, fərdiləşdirilmiş və gerçək kommunikasiya mühitini əks etdirən formatda qurmağa imkan vermişdir. Bu yeni rəqəmsal tədris modeli üç əsas sütun üzərində formalaşır: fərdiləşdirilmiş tədris, interaktiv motivasiyaedici mühit və geniş qlobal ünsiyyət imkanları. Bu elementlər birlikdə ənənəvi tədrisin sərhədlərini genişləndirir, dil öyrənilməsində daha çevik və tələbəyönümlü yanaşmanı mümkün edir.

Rəqəmsal tədris platformaları (Duolingo, Memrise, Busuu və s.) xarici dil öyrənənlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq tam adaptiv öyrənmə mühiti yaradır. Bu sistemlər istifadəçinin bilik səviyyəsini, mətnlə işləmə sürətini, tapşırıq nəticələrini və maraq istiqamətlərini avtomatik analiz edir. Süni intellekt əsaslı alqoritmlər öyrənənin zəif tərəflərini müəyyənləşdirir, təkrarlama intervallarını optimallaşdırır və hər bir istifadəçi üçün xüsusi seçilmiş tapşırıqlar hazırlayır. Beləliklə, ənənəvi təhsildə üstünlük təşkil edən "vahid proqram" yanaşması aradan qalxır, hər bir öyrənən üçün fərdi inkişaf trayektoriyası formalaşır. Bu, öyrənmə prosesinin səmərəliliyini artırmaqla yanaşı, öyrənənin özünüidarəetmə bacarıqlarını və məsuliyyət hissini də gücləndirir.[2]

İnformasiya texnologiyalarının ən mühüm üstünlüklərindən biri öyrənməni monoton prosesdən çıxararaq onu daha dinamik, emosional və cəlbedici formaya salmasıdır. Multimedia əsaslı resurslar – videodərslər, səsli mətnlər, interaktiv animasiyalar və vizual illüstrasiyalar – dilin qavranmasını asanlaşdırır, müxtəlif öyrənmə tipinə malik şəxslər üçün əlverişli öyrənmə mühiti yaradır. Eyni zamanda oyunlaşdırma (gamification) elementləri – gündəlik hədəflər, mükafat xalları, səviyyə yüksəltmə mexanizmləri, lider cədvəlləri – öyrənənlərdə daxili motivasiyanı gücləndirir, rəqabət ruhu yaradır və davamlı öyrənməyə təşviq edir. Pedaqoji və psixoloji tədqiqatlara əsasən, interaktiv və oyunlaşdırılmış tədris mühiti yaddaş prosesini 40–60% artırır, öyrənənin emosional iştirak səviyyəsini yüksəldir və dilin praktik tətbiqinə marağı daha da gücləndirir. Bu metodun xüsusilə gənc nəsil arasında yüksək nəticə verməsi təsadüfi deyil.[3]

Rəqəmsal texnologiyalar xarici dil öyrənənlərə dünyanın müxtəlif bölgələrindəki real dil mühitinə asan çıxış imkanı yaradır ki, bu da öyrənmə prosesinin təbii və praktik şəkildə təşkili baxımından əvəzsizdir. İnternet vasitəsilə öyrənənlər beynəlxalq forumlara, xarici dilli xəbər resurslarına, elektron kitabxanalara, dil mübadiləsi saytlarına və

sosial şəbəkə qruplarına sərbəst şəkildə qoşula bilirlər. Bu resurslar dilin canlı, gündəlik istifadəsi ilə tanış olmağa şərait yaradır [4].Videokonfrans platformaları (Zoom, MS Teams, Google Meet və s.) isə real vaxtda dialoq və müzakirələr aparmağa imkan verərək danışıq, tələffüz və dinləyib-anlama bacarıqlarını təbii şəkildə inkişaf etdirir. Belə imkanlar ənənəvi tədrisdə mümkün olmayan "immersiya" – yəni dil mühitinə tam daxilolma – təcrübəsini qismən kompensasiya edir. Öyrənənlər ana dili ingilis, rus, fransız, türk və digər dillər olan şəxslərlə birbaşa kommunikasiya quraraq dilin canlı mətnlərdə və gündəlik situasiyalarda tətbiqinə yiyələnirlər.

Onlayn resurslar və rəqəmsal tədris mühitləri: Müasir tədris müəssisələri artıq Moodle, Google Classroom, Edmodo kimi rəqəmsal platformalardan geniş şəkildə istifadə edərək tədris prosesini daha çevik, sistemli və nəzarət oluna bilən formaya gətiriblər. Bu platformalar dərs materiallarının strukturlaşdırılmasını, tapşırıqların avtomatik qiymətləndirilməsini, davamiyyətin və öyrənmə nəticələrinin izlənməsini, həmçinin müəllim–tələbə qarşılıqlı əlaqəsinin gücləndirilməsini təmin edir. Bu funksiyalar tədris idarəçiliyini asanlaşdırmaqla yanaşı, müəllimlərin fərdi tələbə göstəricilərini daha dəqiq təhlil etməsinə və dərs prosesini məqsədyönlü planlaşdırmasına şərait yaradır. Virtual sinif modeli distant və hibrid tədris formatları üçün ideal infrastruktur təqdim edir və tədris prosesinin fasiləsizliyini təmin edir[5].

Rəqəmsal tədrisin ən əhəmiyyətli istiqamətlərindən biri mobil öyrənmə (m-learning) konsepsiyasıdır. Mobil tətbiqlər, kiçik öyrənmə modulları, qısa tapşırıqlar və səsli nümunələrdən ibarət mikroöyrənmə yanaşması, öyrənənlərin istənilən vaxt və istənilən yerdə dil bacarıqlarını inkişaf etdirməsinə imkan yaradır. Bu çeviklik müasir insanın sürətli həyat ritminə uyğunlaşdırılmış tədris modelinin formalaşmasına şərait yaradır, dil öyrənməsini gündəlik fəaliyyətlərin təbii hissəsinə çevirir.

İnformasiya texnologiyalarının tətbiqi xarici dil öyrənməsində bir sıra mühüm üstünlüklər qazandırır. Effektivlik öyrənənə qısa vaxtda daha çox məzmunu mənimsəmək imkanı verir. Əlçatanlıq coğrafi və fiziki məhdudiyyətlərin aradan qaldırılması ilə nəticələnir və hər kəs üçün bərabər təhsil imkanları yaradır. Sürətli geribildirim sistemi tədrisdə operativ nəzarəti təmin edir, səhvlərin dərhal düzəldilməsinə şərait yaradır. Çoxkanallı öyrənmə vizual, eşitmə və kinestetik stimulların eyni zamanda istifadəsi ilə nitqin daha möhkəm qavranmasını dəstəkləyir. Davamlılıq bulud texnologiyaları vasitəsilə məlumatların daimi qorunması və hər yerdən əldə olunması ilə təmin edilir. İnklüzivlik isə müxtəlif yaş qrupları və fərqli qabiliyyət səviyyəsinə malik şəxslərin rəqəmsal öyrənmədən bərabər şəkildə yararlanmasını mümkün edir.

Bununla yanaşı, İT əsaslı dil tədrisi müəyyən çətinliklərlə də üzləşir. İlk növbədə, bəzi bölgələrdə texniki avadanlıqların çatışmazlığı və internetə çıxış bərabərsizliyi rəqəmsal tədrisin tam tətbiqini ləngidir. Rəqəmsal savadlılıq səviyyəsinin qeyri-bərabərliyi də öyrənənlərin texnologiyadan effektiv istifadə etməsinə mane ola bilər. Digər tərəfdən, rəqəmsal mühitdə öyrənənlərdə motivasiya səviyyəsinin uzun müddət qorunması və diqqətin yayındırıcı faktorlar qarşısında sabit saxlanması problem yarada bilir. Bundan əlavə, müəllimlərin yeni texnologiyalara adaptasiya ehtiyacı, metodik yanaşmaların yenilənməsi və rəqəmsal pedaqogikanın mənimsənilməsi mühüm məsələlərdən biri olaraq qalır [6].

Bu çətinliklərə baxmayaraq, rəqəmsal texnologiyaların xarici dil tədrisində yaratdığı imkanlar onların tətbiqinin müasir təhsil sistemində zəruri və qaçılmaz olduğunu göstərir. Effektiv strategiyalar, texnoloji infrastrukturun gücləndirilməsi və müəllimlərin rəqəmsal bacarıqlarının artırılması ilə bu problemlərin aradan qaldırılması mümkündür.

Nəticə: İnformasiya texnologiyalarının xarici dillərin öyrənilməsinə təsiri müasir təhsilin ən sürətlə inkişaf edən və strateji baxımdan ən əhəmiyyətli istiqamətlərindən birini təşkil edir. Rəqəmsal mühitin yaratdığı imkanlar dil öyrənmə prosesini daha çevik, daha əlçatan və daha motivasiyaedici etməkdədir. Xüsusilə fərdiləşdirilmiş tədris modelləri, interaktiv multimedia resursları, oyunlaşdırma yanaşmaları, mobil tətbiqlər və süni intellekt əsaslı dillə işləmə alətləri öyrənənin bilik səviyyəsini, maraqlarını və öyrənmə tempini diqqət mərkəzində saxlayaraq fərdi inkişaf trayektoriyasının formalaşmasına yardım edir. Bu isə ənənəvi təhsil strukturunda bəzən mümkün olmayan adaptiv və tələbəyönümlü yanaşmanın tam şəkildə həyata keçirilməsinə şərait yaradır.

Rəqəmsal platformalar dil öyrənmə prosesini demokratikləşdirərək istənilən yaş, sosial status və coğrafi məkana malik fərdlərə bərabər təhsil imkanları təqdim edir. Eyni zamanda real dil mühitinə çıxış imkanı beynəlxalq kommunikasiya bacarıqlarının inkişafını sürətləndirir, mədəniyyətlərarası ünsiyyətin keyfiyyətini artırır və qlobal informasiya mübadiləsində aktiv iştirak üçün zəruri dil kompetensiyalarının formalaşmasını təmin edir. Bu cür imkanlar xarici dil öyrənməsini təkcə təhsil prosesinin bir elementi deyil, həm də şəxsi inkişafın ayrılmaz hissəsinə çevirir.

İnformasiya texnologiyalarının tətbiqi həm də müəllimlərin fəaliyyətini yenidən formalaşdıraraq onları yeni pedaqoji yanaşmalar, rəqəmsal metodlar və innovativ qiymətləndirmə sistemləri ilə işləməyə təşviq edir. Rəqəmsal tədris resursları müəllimlərin dərs yükünü azaldır, daha səmərəli izləmə və qiymətləndirmə imkanı yaradır, tədris prosesinin keyfiyyətini yüksəldir.

Bununla belə, rəqəmsal öyrənmənin geniş imkanları ilə yanaşı, texniki avadanlıqlara çıxış, internet əlaqəsinin sabitliyi, rəqəmsal savadlılıq və motivasiyanın davamlılığı kimi məsələlər hələ də diqqət tələb edir. Bu çətinliklərin aradan qaldırılması üçün infrastrukturun gücləndirilməsi, müəllim və tələbələr üçün rəqəmsal bacarıqlar üzrə təlimlərin təşkili, texnoloji imkanların genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə aparılan təhlillər göstərir ki, informasiya texnologiyalarının effektiv və məqsədyönlü tətbiqi həm fərdi inkişaf, həm də cəmiyyətin ümumi təhsil strategiyası baxımından mühüm əhəmiyyətə malikdir. İnnovativ rəqəmsal alətlərin xarici dil tədrisinə inteqrasiyası gələcək təhsil modelinin əsasını təşkil edir və qlobal rəqabətə davamlı insan kapitalının formalaşmasına mühüm töhfə verir.

Ədəbiyyat

1. Məmmədova G.S. "Təhsildə informasiya kommunikasiya texnologiyaları" Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 90, №3, 2023
2. İbrahimli N. (2025).Dil tədrisində istifadə olunan ən son informasiyalar.ELMİ İŞ Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 4 / 143-147 DOI: https://doi.org/10.36719/2663-4619/114/143-147
3. Muradlı T.H. Ingilis dilininin tədrisində "Oyunlaşdırma". Azərbaycan Respublikasının Təhsil İnstitunun Elmi əsərləri, Cild 88, №6, 2021
4. Hacıyeva S. "Xarici dilin tədrisi prosesində ikt-nin rolunun müxtəlif aspektlərdən təhlili". İPƏK YOLU, No.3, 2021, səh.90-100
5. Qarasova Y.M. "Rəqəmsal Cəmiyyət və İngilis dilinin Tədrisi Xüsusiyyətləri". Xarici Dillərin Tədrisi Metodikasi. Azərbaycan Respublikasının Təhsil Ġnstitutunun Elmi əsərləri, Cild 88, №4, 2021
6. Cəfərova E.S., Rəhimova L.K. "Təhsil sahəsində müasir informasiya texnologiyaları: imkanlar və perspektivlər" Azərbaycan Respublikasının Təhsil Ġnstitutunun Elmi əsərləri, Cild 90, №4, 2023

Salmi Aliyeva
Azerbaijan University of Architecture and Construction
Associate Professor, Department of Foreign Languages
s.aliyeva-321@mail.ru
https://orcid.org/0009-0002-1256-1019

The role and importance of information technologies in learning foreign languages 193

SUMMARY

The article explores the innovations, advantages, and transformative impacts introduced by information technologies to modern foreign language education. Key mechanisms such as personalized learning opportunities provided by digital platforms, the influence of interactive methods on motivation and memory processes, and the accessibility created by virtual classrooms and mobile applications are analyzed. The role of artificial intelligence in adaptive teaching, the contribution of multimedia resources to multi-channel learning, and the significance of the global information environment in developing real communication skills are particularly emphasized. At the same time, the challenges faced by digital education and future development perspectives are evaluated. The conducted research demonstrates that information technology has transformed foreign language learning into a more effective, dynamic, and inclusive environment, becoming one of the fundamental components of the modern education system.

Keywords: Information technologies, digital education, artificial intelligence, virtual classroom, mobile learning, interactive methods, multimedia teaching, adaptive learning, digital pedagogy.

Салми Алиева
Азербайджанский университет архитектуры и строительства
Доцент кафедры иностранных языков
s.aliyeva-321@mail.ru
https://orcid.org/0009-0002-1256-1019

Резюме

В статье исследуются инновации, преимущества и трансформационное воздействие, которые информационные технологии привнесли в современное обучение иностранным языкам. Анализируются такие ключевые механизмы, как возможности персонализированного обучения на цифровых платформах, влияние интерактивных методов на мотивацию и процессы памяти, а также доступность, создаваемая виртуальными классами и мобильными приложениями. Особое внимание уделяется роли искусственного интеллекта в адаптивном обучении, вкладу мультимедийных ресурсов в многоканальное обучение и роли глобальной информационной среды в развитии навыков реальной коммуникации. В то же время оцениваются трудности, с которыми сталкивается цифровое обучение, и перспективы его будущего развития. Проведенное исследование показывает, что информационные технологии превратили изучение иностранных языков в более эффективную, динамичную и инклюзивную среду, став одним из основных компонентов современной системы образования.

Ключевые слова: Информационные технологии, цифровое образование, искусственный интеллект, виртуальный класс, мобильное обучение, интерактивные методы, мультимедийное обучение, адаптивное обучение, цифровая педагогика.

RƏYÇİ: dos. T.Əliyev

DOİ 10.24412/2218-7588-2026-196-198

Allahverdiyeva Səfurə Bayram qızı
BDU. Sosial elmlər və psixologiya fakültəsinin,
Pedaqogika kafedrasının dosenti,
Safura12@box.az
https://orcid.org/0009-0008-8922-2473

ALİ TƏHSİLDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Xülasə: Məqalədə təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir göstərən amillər araşdırılaraq göstərilir ki, təhsilin keyfiyyəti yalnız maddi-texniki imkanlarla və ya proqram dəyişiklikləri ilə məhdudlaşmır, bu prosesin mərkəzində müəllimin peşəkar mövqeyi, tədrisə yanaşması və insan amili dayanır.

Açar sözlər: təhsil, müəllim, tələbə, dərs, metod, qiymətləndirmə

Giriş: Bu gün Azərbaycan Respublikasında təhsilin keyfiyyətinin yüksəldilməsi, ali təhsilin Avropa standartlarına uyğunlaşdırılması və müasir standartlara cavab verən təhsil infrastrukturunun yaradılması önəmli bir məsələ kimi qarşıda durur. Cəmiyyətin inkişafı, ilk növbədə onun üzvlərinin təhsil səviyyəsi ilə şərtlənir. Belə ki, hər bir dövlətin gücü, qüdrəti onun təhsili ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Gələcək bilikli, elmli insanların çiynində qurulacaqdır".

Əsas hissə: Azərbaycan təhsili hər zaman öz fədakar, yüksək səriştəli müəllimləri ilə seçilib. Bu gün ölkəmizdə aparılan uğurlu təhsil islahatlarının nəticəsi olaraq cəmiyyətdə müəllim peşəsinə diqqət və qayğı artırılır. Respublikamızda təhsilin inkişafı üzrə "Dövlət Strategiyası"nda qarşıya qoyulan tələblərə uyğun olaraq ölkəmizin təhsil sistemində uğurlu islahatlar həyata keçirilir. Məqsəd milli təhsilimizi ən yüksək dünya standartları səviyyəsinə çatdırmaqdır.Bunun üçün bu gün təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən amillərin rolu araşdırılaraq tədqiqatların aparılması vacibdir.

Azərbaycan təhsili keyfiyyətcə yeni, daha yüksək səviyyəyə çatdıqca, ölkəmizin, xalqımızın tərəqqi və intibahı daha da sürətlənir.

Müasir cəmiyyətin inkişafı təhsilin qarşısında yeni tələblər qoyur. Məqsəd yetişməkdə olan nəslin təbii imkanlarını inkişaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq onun müstəqil, yaradıcı düşünən, milli-mənəviyyatlı bir şəxsiyyət kimi yetişdirilməsinənail olmaqdır.

Josef Addisonun deyirdi: "Heykəltaraş mərmər üçün hansı rolu oynayırsa, müəllim də uşağın həyatında həmin rolu oynayır." Yəni hər bir fərdin gələcəkdə tutduğu mövqe, sahib olduğu şəxsi keyfiyyətlər, özünə inam, məsuliyyət hər şeydən əvvəl ailəsinin və müəlliminin bəhrəsidir.

İnsanın inkişaf konsepsiyası baxımından təhsil insanın imkanlarının genişləndirilməsində mühüm rol oynayır. Yüksək keyfiyyətli təhsil və əmək bazarının tələblərinə cavab verən peşəkar hazırlıq insanlara layiqməşğulluq, öz potensialını tam inkişaf etdirərəkhəyata keçirmək və əməyin məhsuldarlığını artırmaq imkanı verir.Müasirləşən cəmiyyətdə bilik və bacarıqlar kapital sayılır və iqtisadiyyatın əsas resursuna çevrilir. Beləliklə, insanların ictimai fəaliyyətinə və sosial məsuliyyətinə yeni tələblər irəli sürür və beləliklə, "təhsilli insan" anlayışı da yeni məna kəsb edir.Təhsil almaq nə üçün vacibdir, o bizə nə verir? Təhsil məqsəd, yoxsa məqsədə çatmaq üçün bir vasitədir? Əlbəttə, təhsil bizə elmi öyrədir, həyatı, dərk etməyin yollarını göstərir. Elm həqiqəti öyrədir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini aşkar edir.İnsanlar yalnız öz elmi, biliyi və dünyagörüşü, həyata baxışları ilə bir-birindən fərqlənə bilər. Necə ki, dahi Nizami Gəncəvi deyirdi:

"Qüvvət elmdədir
Başqa cür heç kəs,
Heç kəsəüstünlük eyləyə bilməz."

Elm elə bir xəzinədir ki, nə qədər sərf etsən, bir o qədər artar. Elmsiz adam meyvəsiz ağacdır. Müasir dövrümüz sivilizasiya dövrüdür. Bu gün bilikli, savadlı insanlara daha çox ehtiyac var. Bu mənada bu gün gənclərin təhsilə yiyələnməsi daha çox diqqət tələb edir. Təhsilin bünövrəsi məktəbdə qoyulur, bu fikri Ulu öndər Heydər Əliyev belə xarakterizə edərək deyir: "Şəxsən mənim müəllimə böyük hörmətim olubdur. İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim – hamısı orta məktəbdə aldığım təhsillə bağlıdır... Mən bu gün müəllimim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirirəm."

Müəllim öyrədən, tərbiyə edən, gənc nəslə mənəvi aləminin memarı, cəmiyyəti inkişaf etdirən şəxsiyyətlər yetişdirən bir insandır. Təhsilin inkişafı, keyfiyyəti də onun fəaliyyətindən asılıdır. Bu barədə dahi Ü.Hacıbəyov belə yazırdı: "Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır.Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini yıxar. Bu ağır sənətə qədəm qoyan müəllim əfəndi bunların hamısını əvvəlcə mülahizəyə almalıdır. Müəllimliyi özü üçün sibir əzabı bilən müəllim, yaxşıdır özünü bu sənətdən kənar etməklə, zəhmətdən və cavabdehlikdən qurtarsın, qəlbində tərbiyə və təlimə bir şövq və həvəs yoxsa, heç bu işə girməsin və bu sənəti əhl adamlara tərk ilə özünə başqa bir kəşhi-ruzi vasitəsi axtarsın".

"Mənə bir hərf öyrədənin köləsi olaram" deyərək Həzrəti Əli müəllim əməyini belə qiymətləndirirdi. Elm, bilik xəzinəsinin qapılarını insanların üzünə açan bir varlıqdır müəllim. Görəsən bu gün ali məktəbdə dərs deyən müəllimlərin hamısı tələbələri üçün ilham qaynağı ola bilirmi?

Bu gün qarşıda duran əsas vəzifələrdən biri də keyfiyyətli təhsilə nail olmaqdır. Keyfiyyətli təhsil əldə etməyə təsir edən amillər nələrdir? Bu suala cavab tapmaq üçünmagistr pilləsində təhsil alan tələbələrə sualla müraciət etdik. Cavablara diqqət yetirək.

“İnformasiya-kommunikasiya texnologiyalarından istifadənin geniş yayıldığı müasir dövrümüzdə ali məktəb müəllimi keyfiyyətli tədrisə nail olmaq üçün mühazirə və seminarlarını bu texnologiyaların imkanlarından istifadə etməklə aparmalıdır. Müasir dünya təcrübəsi göstərir ki, İKT-dən istifadə etməklə qurulan müasir təhsil modeli ali məktəbin pedaqoji heyəti qarşısında yeni tələb və vəzifələr qoyur." (M. Günel)

"Təhsilin keyfiyyətinin yüksəldilməsinə bir sıra amillər, müəllimin yüksək pedaqoji taktı, akademik, didaktik, kommunikativ, perseptiv, təşkilatçılıq qabiliyyəti, eləcə də tələbə (şagird) ilə düzgün ünsiyyət qurmaq bacarığı, onlara sevgi və demokratik yanaşmaq, dərsdə yeni təlim metodlarından, İKT və rəqəmsal texnologiyalardan istifadə və s.” (S. Almaz)

“Müəllim-tələbə münasibəti hörmət, ehtiram, qarşılıqlı əməkdaşlıq, demokratik prinsiplər əsasında qurulmalıdır. Müəllimtələbəyə bir şəxsiyyət kimi yanaşmalı, onun fikirlərinə, düşüncəsinə hörmətlə yanaşmalıdır. Yeni metodlardan istifadə edərək onun malik olduğu potensialını aşkar edərək, inkişaf etdirməlidir." (A. Aliyə)

"Təhsilin keyfiyyətinin yüksəldilməsində müəllim-tələbə münasibəti, onlarla rəftarı mühüm rol oynayır. Bu münasibətlər qarşılıqlı hörmətə, əməkdaşlığa, gözəl ünsiyyətə əsaslanır." (C. Arzu)

"Müəllim etik davranış qaydalarına əməl etdikdə tələbələr onu sevir, hörmət edir. Müəllim qiymətləndirmədə ədalətli, obyektiv olduqda, tələbəyə qayğı ilə yanaşdıqda müsbət nəticə verir. Onlarda oxumağa həvəsi, marağı daha da artır." (A. Ramin)

"Yeni texnologiyaların və süni intellektin təhsilə daxil olması yeni yanaşma tərzi tələb edir. XXI əsrin müəllimi mahiyyətcə təkcə öyrədən, bilik verən deyil, həm də lider, fasilitator, tədqiqatçı, istiqamətləndirici rolunu oynayır." (H. Rəqsanə)

"Müəllim və tələbə arasında sağlam münasibət təhsilin keyfiyyətinə müsbət təsir edir." (T. Gülnar)

"Müəllimin pedaqoji ustalığı imkan verməlidir ki, qrupdakı hər bir tələbə özünü onun qarşısında şəxsiyyət kimi hiss etsin, məhz bərabərhüquqlu və fərqli imkanlara məxsus şəxsiyyət kimi. Tələbənin şəxsiyyətinə önəm verdikcə, o, daha çox ona bəslənən etimadı doğrultmağa çalışır." (H. İlham)

Göründüyü kimi bu gün cəmiyyətin sürətli inkişafi təhsilin qarşısında yeni olduqca ciddi tələblər qoyur. Müasir müəllim təkcə bilik ötürməklə deyil, dərs dediyi tələbələrə düşünməyi, tədqiqat aparmağı, kəşf etməyin yolunu öyrətməlidir. Dərsdə təkcə müəllim deyil, tələbələr də fəal olmalı, diskussiya, sual-cavab hökm sürməlidir.

Ali məktəbdə müəllimlə tələbə arasındakı münasibətin səmərəli olması ünsiyyətin motivlərindən də asılıdır. Bu motivin düzgün dərk edilməsi pedaqoji ünsiyyəti səmərəli edir. Həmçinin müəllim-tələbə münasibətləri xarici və daxili şərtlərlə də bağlı ola bilər. Unutmayaq ki, müəllim-tələbə münasibəti o zaman yüksək nəticələrə səbəb olur ki, onun əsasında qarşılıqlı hörmət və humanizm dayanır. Tələbələr tərəfindən sevilmək üçün ilk olaraq onları sevmək və xoş rəftarın olması vacibdir. Onlara öz övladımız, doğmalarımız kimi yanaşmamız lazımdır.

Bəzən də onları xoşagəlməz davranışlardan çəkindirmək üçün ötkəm müəllim sözünə də ehtiyac var. Müasir tələbə yeniliyi sevir, müəllimin əvvəlcədən hazırladığı mühazirə mətnləri əsasında dərsi onları maraqlandırmır, o daha çevik, yeni metodla keçirilən dərs görmək istəyir. Tələbələrdə özünəməxsusluq aşılanmalı, onlar gedilməyən cığırların açılmasına həvəsləndirilməlidir. Müəllim tələbənin əldə etmək istədiyi informasiyanın ilk mənbəyi olmağı bacarmalıdır. Bu gün müəllimlik bir peşə olaraq sabit nöqtədə durmağı və keçmişin yükü ilə yaşamağı inkar edir. Daim çalışqanlıq və davamlı dinamizm bu peşədə təkmilləşməni şərtləndirən əsas amil sayıla bilər.

Müəllim böyük bir qüvvədir və hər bir ziyalı insanın həyatında, bir şəxsiyyət kimi inkişafında onun böyük rolu və əməyi vardır. Ali məktəbdə çalışan müəllimlər vəzifəsindən, elmi dərəcəsindən asılı olmayaraq, tələbələrlə dostluq mövqeyinə üstünlük verməli, rəftarında səmimi olmalıdır. Qeyd etdiyimiz bu amillərin hər biri təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Bu amilləri belə qruplaşdıra bilərik:

* Təhsilin keyfiyyətinin artırılmasında dərs metodikası xüsusi rol oynayır. Dərslər daha interaktiv, müzakirəyə açıq və praktik yönümlü təşkil olunmalı və tələbələrin tənqidi düşünmə və problem həll etmə bacarıqları inkişaf etdirilməlidir.

* Təhsilin keyfiyyətinin yüksəldilməsində sistem və qiymətləndirmənin də xüsusi yeri var. Belə ki, qiymətləndirmə obyektiv, şəffaf və davamlı aparılmalı, eyni zamanda tədris proqramlarının dövrün tələblərinə uyğun şəkildə yenilənməsi də zəruridir.

* Təhsilin keyfiyyətinin müəllim-tələbə münasibətləri və pedaqoji mühitdən birbaşa asılıdır. Sağlam psixoloji mühit, qarşılıqlı hörmət və müəllimlərin peşəkar inkişafına göstərilən institusional dəstək keyfiyyətli təhsilin əsas şərtlərindəndir.

NƏTİCƏ: Belə nəticəyə gəlmək olar ki, təhsilin keyfiyyəti yalnız maddi-texniki imkanlarla və ya proqram dəyişiklikləri ilə məhdudlaşmır, bu prosesin mərkəzində müəllimin peşəkar mövqeyi, tədrisə yanaşması və insan amili dayanır.

Müəllim peşəkarlığını və dərs metodikasını əsas həlledici faktor kimi qiymətləndirilməsi onu göstərir ki, ən müasir proqram vəresurslar belə düzgün metodika və pedaqoji yanaşma olmadan gözlənilən nəticəni vermir. Bütün

bunlarla yanaşı tədris proqramlarının, qiymətləndirmə sisteminin də təkmilləşdirilməsinə ehtiyac vardır. Ümumilikdə belə bir nəticəyə gəlmək olar ki, ali təhsildə keyfiyyətin artırılması üçün kompleks yanaşma tələb olunur. Belə ki, bu yanaşma müəllimlərin peşəkar inkişafı, müasir təlim metodlarının tətbiqi, obyektiv qiymətləndirmə mexanizmlərinin qurulması və sağlam pedaqoji mühitin yaradılmasını özündə birləşdirməlidir. Yalnız bu şərtlər daxilində davamlı və keyfiyyətli təhsil nəticələrinə nail olmaq mümkündür.

Ədəbiyyat

1. Təhsil Qanunu. Bakı – 2009.
2. M. Mərdanov. Azərbaycan təhsili: dünən, bu gün, sabah. Bakı, "Təhsil", 2006.
3. S. Xəlilov. "Təhsil, təlim, tərbiyə". Azərb. Universitetinin nəşriyyatı. Bakı – 2005.
4. Ü. Hacıbəyov. Seçilmiş əsərləri. Bakı – 1985.

Аллахвердиева Сафура Байрам кызы
БГУ. Факультет социальных наук и психологии,
доцент кафедры педагогики.
Safura12@box.az
https://orcid.org/0009-0008-8922-2473

ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПОВЫШЕНИЕ КАЧЕСТВА ВЫСШЕГО ОБРАЗОВАНИЯ

Резюме

В статье исследуются факторы, влияющие на повышение качества образования, и отмечается, что качество образования не ограничивается только материально-техническими возможностями или изменениями в учебных программах. В центре этого процесса находятся профессиональная позиция преподавателя, его подход к обучению и человеческий фактор.

Allahverdiyeva Safura Bayram
BSU. Faculty of Social Sciences and Psychology,
Associate Professor of the Department of Pedagogy
Safura12@box.az
https://orcid.org/0009-0008-8922-2473

FACTORS AFFECTING THE IMPROVEMENT OF QUALITY IN HIGHER EDUCATION

Summary

The article examines the factors affecting the improvement of education quality and shows that the quality of education is not limited to material and technical resources or curriculum changes. At the core of this process lie the teacher's professional stance, their approach to teaching, and the human factor

RƏYÇİ: dos. E.Vəliyeva

DOİ 10.24412/2218-7588-2026-1-199-201

Vəliyeva Naibə
AzMİU, müəllim
naibavaliyeva15@gmail.com
https://orcid.org/0009-0007-4006-0306

ƏCNƏBİ TƏLƏBƏLƏRİN LÜĞƏT BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Xülasə: Məqalədə əcnəbi tələbələrə dilin öyrədilməsi zamanı lüğətlərdən istifadənin əhəmiyyətindən bəhs edilir. Hər hansı bir dilin öyrənilməsi üçün gərəkli olan mühüm mənbələrdən biri də lüğətlərdir. Söz bazasının genişləndirilməsi məqsədilə lüğətlərdən istifadə etmək faydalıdır. Eyni zamanda lüğətlərdən sadəcə verilmiş sözlərin tərcüməsini öyrənmək üçün yox, bir çox məqsədlərlə də istifadə etmək mümkündür.Əcnəbi tələbələrə Azərbaycan dilinin öyrədilməsində lüğətlərdən düzgün istifadənin öyrədilməsi əsas şərtdir. Dili öyrənənələrin axtardığı sözlərin anlamını rahatca tapa bilməsi üçün hansı tip lüğətlərdən istifadə etmələrinin lazım olduğunu bilməlidirlər. bunun üçün müəllim düzgün istiqamət verməli və yaranacaq çətinliklərin həllində tələbələrə kömək etməlidir.

Açar sözlər: söz bazası, lüğətlər, əcnəbi tələbə, sözlərin tərcüməsi

GİRİŞ:Müasir dünyada elmin və texnologiyanın sürətli inkişafı dünya dövlətləri arasında əlaqələrin asanlaşmasına və sosial-iqtisadi, siyasi münasibətlərin genişlənməsinə gətirib çıxarır. Bu irəliləyiş özünü təhsil sahəsində də göstərir. Belə ki, artıq xarici ölkələrdə təhsil alamaq olduqca əlçatan hal almışdır. Buna görə də istər azərbaycanlılar başqa ölkələrə təhsil almağa getsin, istərsə də əcnəbi vətəndaşlar ölkəmizə gəlsin, dilin öyrənilməsi qarşıda duran əsas məsələlərdən biri olmaqdadır.

